

**“Azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk”.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 2-ci nömrəsi*

*Aprel - İyun (2021-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 16.07.2021
60x84 1/8 formatda 198 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2021

# MÜNDƏRİCAT


## ÖLKƏDƏ

4 İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib
16 İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər
27 Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub
31 Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb
37 Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub

## BAŞ PROKURORLUQDA

41 İlham Əliyev Rusiya Federasiyasının Baş prokurorunu qəbul edib
42 Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov Fəxri Xiyabanı ziyarət ediblər
44 Azərbaycan və Rusiya Baş prokurorlarının ikitərəfli görüşü keçirilmişdir
46 Rusiya Federasiyası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Bakı şəhəri ilə tanış olmuşdur
48 İlham Əliyev Türkiyə Ali Məhkəməsinin Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
49 Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Azərbaycana rəsmi səfərə gəlmişdir
49 Azərbaycanın Baş Prokurorluğu ilə Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğu arasında memorandum imzalanıb
52 Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin və rəhbərlik etdiyi heyət Gəncə şəhərinə işgüzar səfər ediblər
56 100 nəfər gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir
58 Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qeyd edilmişdir
60 Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir
62 Baş Prokurorluğun rəhbərliyi ilə "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri arasında görüş keçirilmişdir
64 Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilmisdir
67 Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin Əsasnaməsinin təsdiq edilməsi və Təlim Mərkəzinin rəhbərinin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə Sərəncam
69 Baş Prokurorluqda intihar və intihara cəhd edilməsi hadisələrinin baş verməsinin minimuma endirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar konfrans keçirilmişdir
71 Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Respublika Hərbi Prokurorluğunda tədbir keçirilmişdir
74 Baş prokuror Kamran Əliyev Bakı Dövlət Universitetində hüquqşünaslıq ixtisası ilə bağlı bakalavriat səviyyəsi üzrə Yekun Dövlət Attestasiya Komissiyasının sədri kimi fəaliyyət göstərəcəkdir
75 Azərbaycan Respublikası Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanmışdır
77 "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyinin təsis yığıncağı keçirilmişdir
79 Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Dövlət Gömrük Komitəsinin Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır
82 "26 iyun – Silahlı Qüvvələr Günü" münasibətilə Azərbaycan Respublikası Baş Prokurorluğunda nəzərdə tutulmuş tədbirlər çərçivəsində Prokurorluğun gənc əməkdaşları "Hərbi Qənimətlər Parkı"nı ziyarət etmişlər
84 "26 iyun – Silahlı Qüvvələr Günü" münasibətilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati binasında "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri Vətən Müharibəsinin iştirakçıları ilə görüş keçirmişlər
85 Baş Prokurorluq üzrə hüquqi tənzimləmənin təkmilləşdirilməsi
88 "Azərbaycan Prokuroru" elmi-praktiki hüquqi jurnalının nəşrinə başlanılmışdır
89 Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Dövlət Gömrük Komitəsi Akademiyasının birgə təşkilatçılığı ilə qısamüddətli təlim təşkil edilib
90 Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu təşkil edilib
91 Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi-praktiki video-konfrans keçirilmişdir
91 Baş Prokurorluğun nümayəndəsi "Yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi" mövzusunda konfransda iştirak etmişdir
92 Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün qısamüddətli təlim təşkil edilib
93 Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Hərbi Prokurorluqda tədbir keçirilib
95 Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Vətən müharibəsi iştirakçıları, o cümlədən qazilər ilə görüş keçirilmişdir
97 Tələbələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun iş prinsipləri ilə tanış olublar
98 Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 98 illik yubileyinə həsr olunmuş tədbir keçirilib
100 Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları muzeydə olmuşlar
101 Mətbuat Xidmətinin məlumatları

## BEYNƏLXALQ ƏLAQƏLƏR

106 Baş prokuror Fransanın ölkəmizdəki səfiri ilə görüşüb
108 Baş prokuror Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilə görüşüb
110 Dünya Prokurorlarının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakı şəhərində keçirilməsinə dair ilkin razılıq əldə edilmişdir
112 Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktorunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olmuşdur
115 Azərbaycan Respublikası Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Açıq Hökumət Tərəfdaşlığının təşəbbüsləri çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq fəaliyyətini uğurla davam etdirir
116 Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb
118 İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizdə keçirilən 5-ci raund pilot qiymətləndirilməsi həyata keçirilmişdir
120 Baş prokuror Kamran Əliyev işğaldan azad edilmiş Kəlbəcər rayonu ərazisində bir qrup şəxsin minaya düşməsi faktı ilə əlaqədar bir sıra beynəlxalq təşkilatlara rəsmi məktub ünvanlamışdır
121 Azərbaycan Respublikası Baş Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı ilə (İƏT) səmərəli əlaqələrinin genişləndirilməsi davam etdirilir
122 Azərbaycan Prokurorluğunun nümayəndəsi Avropa Şurasının GRECO təşkilatının Litva Respublikası üzrə V raund monitorinqində iştirak edib
122 Azərbaycan Respublikasının Prokurorluğunun korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilir
123 Baş Prokurorluğun nümayəndə heyəti Minsk şəhərinə rəsmi səfər etmişdir
125 Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir
127 Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığımız güclənir
127 "Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasına uyğun olaraq cinayət prosessual qanunvericiliyində islahatlar" mövzusunda videokonfrans formatında seminar keçirilmişdir
127 Türkiyə Ədalət Akademiyası tərəfindən keçirilmiş beynəlxalq kollokviumda prokurorluğun əməkdaşı iştirak etmişdir
128 Özbəkistan Respublikasının Baş Prokurorluğu Akademiyası tərəfindən keçirilmiş beynəlxalq elmi-praktiki video-konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşı iştirak etmişdir

## PROKURORLUQ VƏ CƏMİYYƏT

130 Xanlar Vəliyev – Heydər Əliyev uzaqgörənliyinin və İlham Əliyev dühasının təntənəsi
140 Heydər Məmmədov – Müasir Azərbaycan Gəncliyi: qalib ölkənin məğrur siması
148 Elşən Abbasov – Qarabağ zəfərinin əldə olunmasında Heydər Əliyev siyasətinin rolu
154 Mürvət Həsənov – Ağır və ya xüsusilə ağır cinayətlərin gizlədilməsi və ya xəbər verilməməsinə dair cinayət işləri üzrə istintaq təcrübəsində mövcud problemlər
156 Rauf Gözəlov – Müsadirə və cinayət yolu ilə əldə edilmiş əmlakın bərpasına dair təcrübə
161 Emil Qədimov – Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işləri üzrə istintaq təcrübəsinin beynəlxalq hüquqi normalara uyğunluğu
166 Xəyalə Kələşova – Azərbaycan tarixində 44 günlük İkinci Qarabağ müharibəsi
173 Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən təltif edilmiş şəhid ailələri və müharibə iştirakçılarının bir qisminə orden və medallar təqdim etmə mərasimində Ucar rayon prokuroru iştirak etmişdir

## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE

175 Sabir Musayev – Qanunsuz olaraq mənzilə daxil olmaqla digər cinayətlərin törədilməsi zamanı əməlin tövsifi problemləri

## PROKURORLUĞUN VETERANLARI

179 Prokurorluğun veteranı Ələmdar Məmmədovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi

## HÜQUQİ AKTLAR

184 Qanunvericiliyə dəyişikliklər
189 Konstitusiya Məhkəməsi Plenumunun qərarları

# İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib



Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra – noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu deyib. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edildi.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

– Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb.

Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını



Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan – Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!

***

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib.



məlumat var. Sadəcə olaraq, biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Bu, erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutudur.

***

Diqqətə çatdıraq ki, nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir! Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.





Burada Şuşaya atılmış "İskəndər M" raketinin qalıqları da var.

"İsgəndər M" raketinin qalıqlarına baxan Prezident İlham Əliyev dedi:

– Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular. Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər

Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Parkın ərazisindəki hər bir element demək olar nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.





















Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton diraklər və metal kirpilər, alçaq diraklər üzərində tikanlı məftildən tor, hündür diraklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.



Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə atəş nöqtəsini müəyyən etmək daha çətin olurdu, amma mümkünsüz deyildi.

Prezident İlham Əliyev bütün bu mühəndis-maneə sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış oldu.

Qeyd edək ki, Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

***

Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Salam cənab zabitlər.

– **Hərbçilər:** Salam.

– **Prezident İlham Əliyev:** Əyləşin.

Əziz hərbçilər, bu gün sizə dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Bu mükafatlar müharibədən sonra mənim təşəbbüsümlə təsis edilmişdir. Mükafatların adlarını da özüm vermişəm – "Vətən müharibəsi qəhrəmanı" ulduzu, "Zəfər" və "Qarabağ" ordenləri yeni təsis edilmiş yüksək hərbi mükafatlardır.

Xahiş edirəm ki, təntənəli mərasimimizin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin. Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilmədi. Biz bu mərasimi Yeni Bulvarda keçiririk. Yeni Bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınmışdır. Yeni Bulvarın uzunluğu 12 kilometrdir. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərirdi, xalqa olan qayğını göstərirdi. Bu, yenilik idi, inkişaf idi, bu, bizim gücümüzün təzahürü idi. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.

Biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Ona görə bu təntənəli mərasimin burada keçirilməsində böyük rəmzi məna var. Yenilik, inkişaf, güc – bunlar əsas amillərdir. Bir də Vətən sevgisi. Çünki bax, bu bulvarın ərsəyə gəlməsində, bunun təməlində Vətən sevgisidir. Çünki bu zona əvvəllər sənaye zonası idi və burada bir çox köhnəlmiş, sıradan çıxmış müəssisələr fəaliyyət göstərirdi. Bütün bu ərazi təmizləndi, yeni bulvar salındı. Sağ tərəfdə olan boş yer də təmizlənib sərəncama götürülüb.

Bu Hərbi Qənimətlər Parkının açılışını bu gün etdim. Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.



Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər.

Otuz il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmırdı. Ancaq bizim problemlərimiz ondan daha əvvəl başlamışdı, daha dəqiq desəm, 1987-ci ildə. Çünki 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi – Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdir ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya erməniliyinin əsas hədəfi Heydər Əliyev idi. Çünki bilirdilər, o, nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın. Necə ki, 1970-1980-ci illərdə Azərbaycana rəhbərliyi dövründə bütün separatçı meyillərin qarşısı elə yerindəcə alınırdı. İndi tarixə baxın, sanki heç nə dəyişilməyib. Sovet vətəndaşı, özünü akademik sayan Fransada bu açıqlamanı verir və artıq bu mövzu ortalığa atılır. Biz yaxşı xatırlayırıq ondan sonra hansı proseslər baş vermişdi. Faktiki olaraq Dağlıq Qarabağı Azərbaycandan ayırmışdılar. Xüsusi idarəetmə komitəsi yaradılmışdı. Moskvadan bir adam göndərilmişdi. O da sırf ermənipərəst bir adam idi. Faktiki olaraq bizim problemlərimiz o vaxtdan başlamışdır. O vaxt Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparılırdı. Bütün bunları yaşlı nəsil yaxşı xatırlayır.

Müstəqillik əldə olunandan sonra nələr baş verdi? Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. Ondan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü.

Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan bir




# BÜTÜN QARABAĞ ZONASI "YAŞIL ENERJİ" ZONASI OLACAQ.

Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü. Xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar var. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər. Ordunu gücləndirmək, ordumuza dəstək vermək əvəzinə, ancaq öz hakimiyyətini möhkəmləndirirdilər. Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına. Onlar isə buradan Naxçıvana hərbi desant göndərirdilər ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. O vaxt Daxili Qoşunların komandanı, bu gün xaricdə gizlənən bir tula, oraya desant göndərirdi. Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırlar. Bunlar Xalq Cəbhəsi-Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşə-düşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün, bir il ərzində nə qədər böyük ziyan vurdular – torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanını tökdülər. Ona görə, mən deyəndə ki, bunlar xəyanətkardırlar, satqındırlar, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanında da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil.

Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qayda-qanun yaradıldı və nizami ordu quruculuğu başlandı.

Mən 2003-cü ildə hakimiyyətə gələrək, Prezident vəzifəsinə başlayaraq söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim. Azərbaycanın ərazi bütövlüyü 17 il ərzində qorundu. Düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi. Halbuki təzyiqlər də olmuşdur, təhdidlər də olmuşdur. Mənə qarşı çevriliş cəhdləri olmuşdur. 2003-cü ildə Azadlıq meydanında AXC-Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da "narıncı inqilab" dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15-17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır. Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi. Bütün təzyiqlərə, bütün cəhdlərə, – ondan sonra da cəhdlər olmuşdu, – baxmayaraq, Qarabağ məsələsində bir faiz güzəştə getmədim. Bunun əksinə, 2003-cü ildə Prezident seçiləndən sonra demişdim ki, artıq nə danışılıb, qalsın kənarda. Mən bunu tanımıram. Sıfırdan başlamalıyıq danışıqlara, sıfırdan. Bütün təzyiqlərə baxmayaraq, buna nail oldum. Məhz bunun nəticəsində Madrid prinsipləri ortalığa çıxdı. Bəli, Madrid prinsipləri bizi tam qane etmirdi. Mən bunu gizlətmirəm. Ancaq Madrid prinsiplərinin əsasında bizim torpaqlarımızın azad edilməsi nəzərdə tutulurdu. Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi. Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. Çünki mən bu vəzifəyə təzə seçilmişdim, hələ böyük siyasətin, riyakarlığın nə dərəcədə geniş vüsət almasından xəbərsiz idim. Hesab edirdim ki, kim, hansı tərəfmüqabil nəyi deyirsə, o da həqiqətdir. Sonra anladım ki, bütün bu illər ərzində bizi aldatmağa çalışmışlar. Məsələni həll etmək yox, dondurmaq istəmişdilər. Bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq qurumlar bu torpaqları erməni tapdağının altında daim saxlamaq istəmişdilər. Onu sonra anladım.

Ancaq bununla paralel olaraq danışıqlar apararaq, eyni zamanda, hazırlıq işləri də gedirdi. Mən bunu gizlətmirdim. Dəfələrlə demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz bunu hərbi yolla həll



ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

İkinci Qarabağ müharibəsinə hazırlaşmalı idik və hazırlaşdıq. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi. Mən bu barədə əvvəlki illərdə danışarkən bəziləri hesab edirdi ki, bəli, bunlar qəbul olundu, amma bunun nəticəsi yoxdur. Bu gün gördük bunun nəticəsini, hər kəs gördü bunun nəticəsini. BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi, ondan başqa ciddi bir sənəd yox idi. BMT Baş Assambleyasının qərarı, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti. Avropa Şurası Parlament Assambleyası həmişə bizə düşmənçilik mövqeyi sərgiləyir, hətta onlar da məcbur olub ərazi bütövlüyümüzə dəstək nümayiş etdiriblər. Bütün bunlar siyasi və hüquqi baza yaradıbdır. Əgər bu, olmasaydı, müharibə dövründə bizə qarşı Minsk qrupuna həmsədrlik edən ölkələrin BMT-dəki təşəbbüsü nəticə verə bilərdi. Bunu da hər kəs bilsin, bir çoxları bilmir. Müharibə gedə-gedə bizə qarşı sanksiyalar tətbiq etmək istəyirdilər. Biz öz torpağımızda vuruşuruq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik. Bizə qarşı sanksiyalar tətbiq etmək ədalətsizlikdir, vicdansızlıqdır. Kim idi bunları təşkil edən? Minsk qrupuna həmsədrlik edən ölkələr. Kim bunun qarşısını aldı? Bizə dost olan ölkələr, Qoşulmama Hərəkatına üzv olan ölkələr. Çünki biz Qoşulmama Hərəkatının sədri kimi özümüzü ləyaqətlə aparmışıq, bu ölkələrə kömək etmişik, həm maliyyə yardımı göstərmişik, həm də humanitar yardım. COVID ilə bağlı 30-dan çox ölkəyə humanitar, maliyyə yardımı göstərmişik. Onların maraqlarını müdafiə etmişik və onlar da, öz növbəsində, bizə dəstək verdilər. Düzdür, hər hansı bir qətnamə qəbul olunsaydı belə, bizi dayandıra bilməzdi. Heç kim və heç nə bizi dayandıra bilməzdi. Mən müharibə dövründə dəfələrlə xalqa müraciət edərək demişdim, rədd olsun düşmən bizim torpağımızdan, mən müharibəni dayandırıram. Ona görə beynəlxalq müstəvidə hazırlıq aparılmalı idi. İqtisadi sahədə hazırlıq aparılmalı idi. Əgər biz hansısa bir ölkədən və yaxud da ki, hansısa beynəlxalq maliyyə qurumundan asılı olsaydıq, müharibəni apara bilərdikmi? Əlbəttə ki, yox. Bizə min cür təzyiq

edəcəyik. Nəticədə də belə oldu. Nə demişəmsə, onu da etmişik. Bütün bu illər ərzində demişdim ki, bizim torpağımızda heç vaxt ikinci erməni dövləti yaradıla bilməz. Demişdim ki, birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıbdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam. Demişəm ki, bu xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi malalamamalıyıq, bilməliyik tarixi. Bilməliyik, 1918-1920-ci illərdə ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi, müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generallar burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar. Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik – kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir.

Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq


İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib
TARİXİ BİLMƏDƏN BUGÜNKÜ REALLIĞA DÜZGÜN QİYMƏT VERMƏK MÜMKÜN DEYİL. SAXTA TARİX UYDURMAMALIYIQ.
Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik - kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
fb.com/PresidentIlhamAliyev

edəcəkdilər, bizi təhdid edəcəkdilər, imkanlarımızı kəsəcəkdilər.

İqtisadi müstəqillik əsas məsələlərdən biri idi. Ona da nail olduq. Enerji müstəqilliyinə nail olduq. Tarixi layihələri həyata keçirdik. 2006-2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər, o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı. Vəsait yoxdursa, silah da olmayacaqdı. Silahları bizə heç kim bağışlamayıb. Ermənistandan fərqli olaraq 5 milyard dolları heç kim hədiyyə eləməyib. Onların məhv edilmiş və qənimət götürülmüş silahlarının dəyəri 5 milyard dollardır. Biz pulla almışıq, iqtisadi müstəqillik olmasaydı, necə ala bilərdik? Müharibəni necə apara bilərdik? Torpaqlar erməninin tapdağı altında əbədi qala bilərdi. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi. Mən nə qədər təzyiqlə üzləşdim – yox, bu xətt Ermənistan üzərindən keçməlidir, dəmir yolu Ermənistan üzərindən keçməlidir. Bakı-Tbilisi-Qars inşa edilməməlidir, biz buna kredit verməyəcəyik. Dedim, vermirsən, cəhənnəmə vermə. Mən özüm Gürcüstana 725 milyon dollar kredit vermişəm. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu, özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlanmışdı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymaz. Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun, həm o illərdə, xüsusilə indi. Beləliklə, Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq.

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib. Əlbəttə ki, ilk növbədə, ordu quruculuğu. Ordunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, peşəkarlığı, xidmət şəraiti, hərbçilərin məişət şəraiti yaxşılaşdırıldı. Elə güclü ordu yaratmışıq ki, beynəlxalq reytinqlərdə həmişə 50-ci yerlərdə idik, indi müharibədən sonra təbii ki, daha da yüksək yerlərə qalxacağıq. Müharibə dövründə gücümüzü göstərdik.

Biz Ermənistana şans verirdik. Hələ 2016-cı ildə Aprel döyüşləri zamanı şans verdik. Ovaxtkı xunta başçısı Sarkisyan acı məğlubiyyətdən sonra mənə torpaqları bizə qaytarmaq sözü vermişdi. O vaxt Aprel döyüşləri gedə-gedə onlar gecə-gündüz Moskvaya, Rusiyanın Baş qərargah rəisinə zəng edirdilər ki, Azərbaycana deyin müharibə dayansın, yalvarırdılar. Biz o şərtlə dayandırdıq ki, dərhal danışıqlar başlasın və başlamışdır. Müharibə dayanandan bir ay sonra Vyanada artıq Minsk qrupunun həmsədr ölkələrinin xarici işlər nazirləri səviyyəsində görüş keçirilmişdir. Nə üçün o vaxta qədər bu səviyyədə görüş keçirilmirdi? Amma Aprel döyüşlərində biz ermənilərin başına bir zərbə vurandan sonra dərhal may ayında görüş keçirildi. İyun ayında Rusiyada Zirvə görüşü keçirildi. Sarkisyan mənə söz vermişdi ki, ona iki həftə vaxt lazımdır. Mən söz verirəm ki, bunu həll edəcəyəm. Dedim yaxşı, çıxdı getdi. Ondan sonra orada ya özləri təşkil etmişdilər, ya da özü-özlüyündə belə bir hadisə baş vermişdir, polis bölməsini zəbt etmişdilər. Bunu bəhanə gətirərək imtina etdi. Yenə də bizi aldatdılar. Tək Sarkisyan yox, onların hamısı. 2018-ci ildə Naxçıvan əməliyyatı, yenə də onlara dərs verdik, yenə də göstərdik ki, axırı pis olacaq, məhv edəcəyik sizi. O da dərs olmadı. O da düşdü hakimiyyət dəyişikliyinə. Ermənistana təzə hakimiyyət gəlmişdi. Ondan bir ay sonra biz Naxçıvanda sərhəddə uğurlu əməliyyat keçirərək önəmli strateji yerləri götürmüşdük və artıq Qarabağa gedən yola tam nəzarət edirdik. Müharibə dövründə, – indi bu, sirr deyil, – bilirdik ki, Dağlıq Qarabağa nə aparılır. İstənilən an o yolu kəsə bilərdik. Sadəcə olaraq, buna ehtiyac yox idi. O da dərs olmadı. Ondan sonra yeni hakimiyyət bizdən vaxt istədi. Dedi ki, vaxt verin biz burada daxili problemləri, köhnə xunta nümayəndələrinin problemlərini həll edək, biz həll edəcəyik. Bizi yenə də aldatdılar. Ondan bir il sonra Ermənistanın baş naziri Dağlıq Qarabağda demişdi ki, "Qarabağ Ermənistandır". Bu, nə deməkdir? O deməkdir ki, danışıqlar qurtardı, mənasızdır. Bu, danışıqların sonu idi. Təxribat xarakterli digər addımlar, hərəkətlər, çıxışlar göstərirdi ki, Ermənistan torpaqları qaytarmaq istəmir. Azad edilmiş torpaqlarda gördüyümüz mənzərə, sizin dəf etdiyiniz o təmas xətləri, o müdafiə xətləri göstərir ki, bir qarış torpaq vermək istəmirdilər. Başımızı aldatmaq, öz himayədarlarına arxalanmaq, onlardan müftə silah almaq, siyasi dəstək almaq, onların ölkələrində yaşayan lobbiçilərdən istifadə etmək və bizi bu vəziyyətdə əbədi saxlamaq – bu idi onların niyyəti. Ondan sonra iyul ayında dövlət sərhədində təxribatlar törədildi, avqust ayında diversiya qrupu göndərildi və sentyabr ayında artıq İkinci Qarabağ müharibəsi başlamışdır.

Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü var. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat verəcəyik. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yara-

lanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərmişdir, peşəkarlıq, qəhrəmanlıq öz yerində, mənəvi ruh. Onlar bizi görəndə qabağımızdan qaçırdılar, biz onları hər gün qovurduq.

Bütün əməliyyatlar düşünülmüş şəkildə aparılmışdır. Gün ərzində görülmüş işlər hər gün mənə məruzə edilirdi, müşavirələr keçirilirdi, növbəti gün ərzində görüləcək işlərin planı tutulurdu. Deyə bilərəm ki, nəzərdə tutduğumuz bütün məsələlər əksər hallarda öz həllini tapdı. Əlbəttə, bəzi yerlərdə yubanmalar oldu, bəzi yerlərdə daha da tez, yaxud da ki, daha da böyük həcmdə əməliyyat aparıla bilərdi. Ancaq bu, müharibədir, onu planlaşdırmaq mümkün deyil. Hər gün bizim hərbçilərimiz öz həyatını risk altına atırdılar. Çünki o istehkamları, o müdafiə xətlərini keçmək həm peşəkarlıq, güc və həm də cəsarət tələb edirdi. Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Mən bunu hələ bir neçə il bundan əvvəl bir beynəlxalq tədbirdə demişdim. Hansısa erməni mənə sual vermişdi ki, orada snayper müharibəsi gedir, yaxud da erməni əsgərləri ölür. Dedim ki, ölmək istəmirsə, rədd olsun bizim torpağımızdan. Müharibə dövründə dəfələrlə demişdim, Ermənistan rəhbəri mənə tarix versin ki, bizim torpağımızdan nə vaxt rədd olur, həmin an biz müharibəni dayandırırıq. Belə də oldu. 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi, Ermənistan ordusunun beli qırıldı, Ermənistan ordusu məhv edildi. On min fərarisi olan ordu biabırçılıq və rəzalətdir. Onlar öz əsgərlərini döyüş məntəqələrində zəncirlərlə bağlayırdılar ki, qaçmasınlar. Bu, vəhşilikdir, öz əsgərinə qarşı vəhşilikdir.

Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir? Vəhşi, hələ bəlkə də vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək.

İndi azad edilmiş torpaqlara ezam olunan insanlar və xarici qonaqlar hər şeyi öz gözləri ilə görürlər. Biz bütün azad edilmiş torpaqları bərpa edəcəyik. Sadəcə olaraq, biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu, həm bizim üstünlüyümüzdür, eyni zamanda, qarşısında vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşlarından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, dəmir yumruq yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq.

Bu təntənəli mərasim bu gün keçirilir. Bunun səbəbləri yəqin ki, sizə bəllidir. İlk növbədə, bu yeni hərbi mükafatlar hazırlanmalı idi, onlar yox idi. Onların dizaynı hazırlanmalı idi, onların hazırlanması təşkil edilməli idi. Bu, vaxt apardı. Eyni zamanda, pandemiyaya görə qapalı yerlərdə belə mərasimlərin keçirilməsi mümkün deyil və hava şəraiti də uyğun olmalı idi. Bir də ki, Hərbi Qənimətlər Parkı hazır olmalı idi. Mən istəyirdim ki, biz Parkın açılışı günündə görüşək və bu yüksək mükafatlar sizə təqdim edilsin və Parkın ilk ziyarətçiləri siz olasınız. Buna görə bir qədər vaxt apardı. Ancaq bu gün bu mərasim keçirilir. Sizə Ali Baş Komandan kimi dərin təşəkkürümü bildirmək istəyirəm. Siz xalqımızın üzünü ağ etmisiniz, dünya azərbaycanlılarının üzünü ağ etmisiniz. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Yaşasın Azərbaycan!

***

Sonra təltif olunanlar adından bir qrup zabit çıxış etdi.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər



Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi edir. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalına gəldilər.

Dövlətimizin başçısı festivalın açılışında çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə – hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Bu ilki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu, mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu, mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır.

44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Azərbaycan tam Qələbə qazandı, işğalçıları qədim Azərbaycan torpaqlarından qovdu və azad edilmiş bütün torpaqlarda





Azərbaycan bayrağını ucaltdı. 44 günlük müharibə bizim şanlı tariximizdir. 44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik. 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın – alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır. Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi. Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi. Çünki ondan bir gün sonra Ermənistan məcbur olub bizim şərtlərimizə əsasən formalaşmış kapitulyasiya aktına imza atıb və biz bir güllə atmadan Laçın, Kəlbəcər və Ağdam rayonlarını geri qaytardıq. Təsadüfi deyil ki, Şuşanın azad edilməsi günü – 8 noyabr günü Azərbaycanda rəsmi dövlət bayramı elan edildi, Zəfər bayramı elan edildi və biz bu bayramı hər il qeyd edəcəyik.

Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu.

Əminəm ki, əziz dostlar, sizin bir çoxunuz buraya işğaldan sonra birinci dəfədir ki, gəlirsiniz, bunu görürsünüz, bunu hiss edirsiniz. Mən artıq 3-cü dəfədir Şuşadayam və demişəm ki, hər dəfə bura gələndə burada qalmaq istəyirəm,


BİZ BÜTÜN DÜNYAYA QƏDİM
TORPAĞIMIZ OLAN ŞUŞADAN
MESAJ VERİRİK.
Yalnız çoxkonfessiyalı, çoxmillətli ölkələrdə və
cəmiyyətlərdə inkişaf, birlik, milli həmrəylik, sülh olur.
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz




buradan ayrılmaq istəmirəm. Şuşanın özünəməxsus aurası var. Mən dünyada Şuşaya bənzər şəhər görməmişəm, bəlkə də yoxdur. Bu gün biz uzun fasilədən sonra azad Şuşada yığışmışıq. Bu gün Cıdır düzündə Azərbaycan muğamı səslənəcək. Uzun fasilədən sonra biz Şuşada bu gözəl musiqi bayramını qeyd edəcəyik. Bu gün, sözün əsl mənasında, musiqi bayramıdır. Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır.

Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir. Artıq Yuxarı Gövhərağa məscidi təmir edilib və sabah orada bayram namazı qılınacaq.

Festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsi də təsadüfi deyil. Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq – torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq. Bugünkü tədbir bir daha onu göstərir ki, biz Şuşaya qayıtmışıq və bundan sonra burada əbədi yaşayacağıq. Şəhərdə bərpa işləri başlayıb, mən qeyd etdim ki, Yuxarı Gövhərağa məscidi artıq təmir olunubdur. Beş il bundan əvvəl Cocuq Mərcanlı işğaldan azad olunandan sonra orada mən Şuşa məscidinin bənzəri olan məscidi tikdirdim. O vaxt məscidin açılışında demişdim ki, gün gələcək biz Şuşada məscidləri bərpa edəcəyik və yeni məscidlər tikiləcəkdir. Bu gün Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəldi. Bütün bunlar böyük rəmzi məna daşıyır. Bax, bizim qayıdışımız budur. Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. İndi siz – burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə – hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını



qeyd edirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

***

Sonra "Xarıbülbül" festivalı başladı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinlədilər.

***

Konsertdən sonra jurnalistlərlə görüşən Prezident İlham Əliyev dedi: Sağ olun, siz ki, burada olmusunuz, ağır günlərdə. Salam Mirşahin.

**Mirşahin:** Eşq olsun Sizə cənab Prezident. Mən Sizi təbrik edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun, mən də sizin hamınızı təbrik edirəm.

***

Dövlətimizin başçısı jurnalistlərlə xatirə şəkli çəkdirdi.

***

**Prezident İlham Əliyev:** Anar mənim yadıma saldı, siz mətbuat konfransında demişdiniz ki, gəlmək istəyirsiniz. Biz də xahişinizi yerinə yetirdik. Mən istəyirdim ki, birinci bizim jurnalistlər gəlsin, bu festivalı keçirək. Siz harada qalırsınız?

**Jurnalist:** Birbaşa buraya gəldik.

**Prezident İlham Əliyev:** Hə, birbaşa.

**Anar Ələkbərov:** Bu gün qalacaqlar.

**Prezident İlham Əliyev:** İndi burada qalmaq üçün imkan var. Xarici jurnalistləri də dəvət edək gəlsinlər və görsünlər.

**Jurnalist:** Cənab Prezident, diqqətinizə görə təşəkkür edirik. Həmişə dəstəyinizi hiss edirik, çox sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, sizi həmişə dəstəkləmişəm. Sizə təşəkkür edirəm ki, belə çox aktual mövzuları qabardırsınız. Bir çox hallarda ölkədə gedən prosesləri mən sizdən eşidirəm, sizdən görürəm. Bu, özlüyündə artıq icra orqanlarını daha da məsuliyyətli olmağa sövq edir.

**Jurnalist:** Müharibədən sonra Sizinlə birinci görüşümüzdür.

**Prezident İlham Əliyev:** Elədir.

**Jurnalist:** Mən də icazənizlə istəyirdim deyim ki, 40 ildir dünyanın müharibələrini görmüşəm. Bu, birinci müharibə idi ki, bir nəfər həm hərbi istiqamətdə işi, həm siyasi, həm də informasiya işini aparırdı.

**Prezident İlham Əliyev:** Çünki əgər siz bu müharibə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmasaydınız, ümumiyyətlə, məsələ ilə bağlı fikir elə təhrif edilmiş kimi qalacaqdı. Siz yaxşı xatırlayırsınız, o vaxt dünya mediasına bizim çıxışımız yox idi. Tək siz gəlmişdiniz, siz də



foto çəkirdiniz. Amma ermənilər bütün imkanlardan istifadə edib bütün ölkələrdə olmazın yalanlar yayırdılar. İndi isə artıq müharibə ilə bağlı həqiqətləri siz çatdırmısınız, mən çatdırmışam. Qəhrəman hərbçilərimiz də bax, o qayalara dırmaşaraq düşməni buradan qovub. Mirşahin sən çoxdan olmusan da burada, işğala qədər. Bəziləri heç olmayıb yəqin ki, ilk dəfədir.

**Mirşahin:** İşğala qədər də olmuşam.

**Prezident İlham Əliyev:** İndi ilk dəfə gələn burada görür ki, Şuşanı azad etmək, ümumiyyətlə, mümkünsüz hesab olunurdu. Özü də hələ piyada qalxmaq çətindir, bir də ki, əlində avtomat, yuxarıda düşmən, özü də düşmənin tankı, topu, mövqeyi. Doğrudan da misli görünməmiş qəhrəmanlıq dastanıdır.

**Jurnalist:** Əfqanıstan dağlarında da müharibələri görmüşəm. Buna inanmırdım. Azad ediləndən sonra gəldim, gedib baxdım, izlədim. Özüm də 1992-ci ildə buradan ayaqla çıxmışdım, bura bağlı idi, maşın gələ bilmirdi.

**Prezident İlham Əliyev:** Siz hansı yolla çıxdınız?

**Jurnalist:** Elə buradan, Daşaltıdan gəldim. Buraya kimi 4 saat piyada yol gəldim, 3 dəfə də snayperlər atdılar, amma vura bilmədilər.

**Prezident İlham Əliyev:** Bu yaxınlarda o şəkli siz paylaşdınız, gördüm mən. O vaxt Azərbaycan əsgəri necə vəziyyətdə idi? Nə forması var idi, nə silahı var idi, nə də bir idarəetmə imkanları. İndi aslan kimi əsgərlərdir, aslan kimi. Onlar möcüzə yaradıblar.

**Jurnalist:** Burada demək olar ki, yaşayış yox idi.

**Prezident İlham Əliyev:** Yox idi.

**Jurnalist:** Ancaq şəhərin girəcəyində, o da çox az.

**Mirşahin:** Amma mən Zəngəzurda evlərin birində oldum.

**Prezident İlham Əliyev:** Bəli, bəli, Şurnuxu kəndində.

**Mirşahin:** O kişi də yaxşı təkziblər verirdi, Ermənistan hakimiyyəti barədə. Yaxşı oldu, çox yaxşı oldu. Beş dənə punkt üzrə öz ölkəsini təkzib etdi. Pensiyasının azlığından da danışdı. Dedi ki, Qarabağ Azərbaycanındır.

**Prezident İlham Əliyev:** Özü də dedi ki, azərbaycanlının evinə girib.

**Mirşahin:** Bəli, çox vacib bəyanatlar verdi.

**Jurnalist:** Cənab Prezident, Şuşa qələbəsinə görə Sizə xüsusi təşəkkür edirik. Doğrudan da





bu, çox möcüzəvi bir qələbədir. Bu, doğrudan da çox böyük qələbədir. Siz Azərbaycan xalqına sanki bir həyat qaytardınız. Siz bizə nəfəs verdiniz. İnanın ki, bir il bundan əvvəl yatsaq yuxumuza girməzdi ki, biz Cıdır düzündə ola bilərik, burada konsertdə iştirak edə bilərik. Çox böyük bir möcüzədir, cənab Prezident. Allah Sizi qorusun, Ordumuzu qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Jurnalist:** Cənab Prezident, səmimi-qəlbdən deyirəm, dünyada belə ölkə başçısı yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ

olun. Bir il bundan əvvəl burada başqa musiqi səslənirdi, başqa hərəkətlər edilirdi. O hərəkətlərə görə, bütün cinayətlərə görə düşmən öz layiqli payını aldı. Bundan sonra burada ancaq Azərbaycan musiqisi, Azərbaycanda yaşayan xalqların musiqisi səslənəcək. Doğrudan da böyük tarixi nailiyyətdir. Hər dəfə buraya gələndə xüsusi hisslər keçirirəm. Əminəm ki, siz də bu hissləri keçirirsiniz. Çünki Şuşanı yenidən görmək bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir. Əlbəttə, bir daha görürük ki, Şuşa əsl Azərbaycan şəhəridir. Çünki burada Azərbaycan ruhu hiss olunur. Memarlıq abidələri, bulaqlar, – baxmayaraq ki, ermənilər o bulaqların naxışlarını dəyişmişdilər, yazıları da silmişdilər, – amma yenə də burada hər tərəf, necə deyərlər, Azərbaycan mədəniyyəti ilə qaynayır. Biz əbədi qayıtmışıq, burada əbədi yaşayacağıq. Demişəm ki, Şuşa dünyanın ən gözəl şəhərinə çevriləcək. Təkcə Şuşa yox, azad edilmiş bütün başqa şəhərlər.



**Jurnalist:** Mən altı aydır Qarabağı gəzirəm, özüm də mühəndis memaram. Doğrudan deyirəm, mən dünyada bu cür gözəl yer görməmişəm. Doğrudan da Şuşanın, Kəlbəcərin gözəlliyi dünyada təkdir.

**Prezident İlham Əliyev:** Burada az da olsa, yaşayıblar. Bizdə olan məlumata görə, – sonra bu məlumatı biz dəqiqləşdirdik, – burada 1600-ə yaxın erməni yaşayıb, onların da çoxu hərbçilər idi, onların ailə üzvləri idi. Yəni, burada erməni əhalisi heç vaxt olmayıb. İndi görürsünüz, işğal dövründə nə gündə idi. İndi biz əl gəzdirmişik, 6 aydır ki təmizləyirik, necə deyərlər, səliqə-sahman yaradırıq. Bütün binalar belə dağıdılmış idi, yarımçıq tikili idi. Yeni bina yoxdur, bir neçə dənə villa tikdirmişdilər özləri üçün, onları da yəqin ki, görmüsünüz. Tarixi binalar sökülüb, şəhər infrastrukturu yoxdur. Baxın, o dirəklər yox idi, hamısı belə köhnədən qalan idi. Deyirdilər ki, erməni şəhəridir, erməni şəhəridirsə, niyə bu günə qoymusan onu? Niyə yaşamamısan, niyə qurmamısan, niyə dağıtmısan?





**Jurnalist:** Heç kəs öz evini yandırmaz gedəndə.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Jurnalist:** Onlar yandırdılar, yəni, öz evləri deyildi.

**Prezident İlham Əliyev:** Bizim azad edilmiş digər yerlərdə, torpaqlarda siz də olmusunuz, orada təbiət toxunulmaz kimidir, o ağacların rəngi, səmanın rəngi. Belə bir rənglər mən görməmişəm.

**Jurnalist:** Ağdam, ümumiyyətlə, viran qoyulub. Bu mənzərəni görəndə düşünürsən ki, söhbət ancaq yaddaşı silməkdən gedə bilər. Axı, qəbirlə insanın nə işi ola bilər? Məhz onlar tarixi silmək, yaddaşı silmək istəyiblər. Məncə məqsədləri yalnız bu olub.

**Prezident İlham Əliyev:** Əlbəttə, elədir, tarixi silmək istəyiblər ki, biz heç vaxt qayıtmayaq. Hesab edirdilər ki, Azərbaycan heç vaxt ayağa qalxmayacaq. İnanmırdılar ki, biz ayağa dura bilərik. İnanmırdılar ki, bizdə həm güc, həm də iradə ola bilər. Ona görə deyirdilər ki, hər şeyi dağıdaq, daha heç vaxt bunlar qayıtmasın, tarixi də siləк, abidələri, qəbirləri də dağıdaq. Sabah deyək ki, bura erməni torpağı olub və elə də deyirdilər. Şahbulağı yalandan “Tigranakert” adlandırmışdılar. Belə saxtakarlıq olmaz. Deyirdilər ki, Şuşa erməni şəhəridir. Axı, bu şəhərin təməlini Pənahəli xan qoyub, hamımız yaxşı bilirik, adını da verib – Pənahabad. Necə erməni şəhəri olub, əgər 275 il bundan əvvəl Pənahəli xan Ağdamdan buraya gəlib.

**Jurnalist:** Özü də təzə daşlar atıb ora, cənab Prezident, mən getdim özüm baxdım.

**Prezident İlham Əliyev:** Bəli.

**Jurnalist:** Guya dırnaqarası “Tigranakert” olub.

**Prezident İlham Əliyev:** Hə, orada?

**Jurnalist:** Bəli, Şahbulağın düz yanında.

**Jurnalist:** Mən Kəlbəcərdə neçə kilsə gördüm, çox qədim kilsələr imiş, amma ermənilər onlara təzə daşlar qoyublar. Elə qoyublar ki, dərhal bilinir. Mən özüm görəndə tez dedim ki, bunlar







hamısı saxta daşlardır, adamlardan soruşdum, bildirdilər ki, bu daşları buraya 10-15 ildir gətiriblər.

**Hərbçi:** Cənab Ali Baş Komandan, icazə versəydiniz xüsusi təyinatlılar Sizinlə xatirə şəkli çəkdirərdilər.

**Prezident İlham Əliyev:** Bəli, mütləq.

***

Xüsusi təyinatlılarla xatirə şəkli çəkdirildi.

***

Hamı birlikdə dedi: Qarabağ Azərbaycandır!

# Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Şuşada rəsmi qarşılanma mərasimi olub.





Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.



Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.





Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



# BU GÜN TÜRKİYƏ VƏ AZƏRBAYCAN DÜNYA MİQYASINDA BİR-BİRİNƏ ƏN YAXIN OLAN ÖLKƏLƏRDİR.

Biz nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk. Biz bundan sonra da hər zaman bir yerdə olacağıq, bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. **Türkiyə-Azərbaycan birliyi, qardaşlığı əbədidir!**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb



İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb.

Şuşa Bəyannaməsini Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

## ŞUŞA BƏYANNAMƏSININ TAM MƏTNİ

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

**bəyan edirlər:**

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və



# TÜRKİYƏ İLƏ İMZALANAN MÜTTƏFİQLİK HAQQINDA BİRGƏ BƏYANNAMƏ ƏLAQƏLƏRİMİZİ ƏN YÜKSƏK ZİRVƏYƏ QALDIRIR.

Bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

***Bəyannaməni imzalayıblar:***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,**
**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan**



**ŞUŞADA MÜTTƏFİQLİK BƏYANNAMƏSİNİ İMZALAYARKƏN ƏCDADLARIMIZA SADİQLİYİMİZİ NÜMAYİŞ ETDİRİRİK VƏ GƏLƏCƏK NƏSİLLƏRƏ YOL GÖSTƏRİRİK.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub



İyunun 15-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya təqdim edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan musiqili kompozisiyaya baxıblar.









Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiətilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, "Mirvari" rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri,









"Natiq" ritm qrupunun ifaları təqdim olunub. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səslənib.

Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hədiyyə olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir.

# İlham Əliyev Rusiya Federasiyasının Baş prokurorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, ölkələrimizin prokurorluq orqanları arasında həyata keçirilən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin genişlənməsi işinə töhfə verməklə bərabər, ölkələrimiz qarşısında duran təhdidlər, müasir çağırışlar, cinayətkarlığa qarşı mübarizə işində mühüm rol oynayır.

Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, perspektiv məsələlər müzakirə edildi.

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov Fəxri Xiyabanı ziyarət ediblər





Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov 8 aprel 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəlmişdir.








Həmin tarixdə Kamran Əliyev və İqor Krasnov Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuş, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmişdir.

Bundan sonra, hər iki ölkənin Baş prokurorları tərəfindən 1941-1945-ci il Böyük Vətən Müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış kompleks ziyarət edilmiş, abidə önünə əklil qoyularaq xatirələri ehtiramla yad olunmuşdur.

# Azərbaycan və Rusiya Baş prokurorlarının ikitərəfli görüşü keçirilmişdir




Aprelin 8-də səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilmişdir. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçıları cənab İlham Əliyev və cənab Vladimir Putinin birgə səyləri və siyasi iradələri sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunmuşdur.

Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror, dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə və məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətləri haqda geniş məlumat vermişdir.

Kamran Əliyev Azərbaycan Resspublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük zəfər müharibəsində qazanılmış qələbə ilə bağlı qonağa məlumat verərkən Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması istiqamətində Rusiya dövlətinin sülhməramlı qismində gördüyü işlərin təqdirəlayiq olduğunu qeyd edərək, Rusiyanın Azərbaycan və Ermənistan arasında balanslaşdırıcı mövqedən çıxış etməsinin regionda sülhün əbədi bərqərar olmasına xidmət edəcəyinə əminliyini ifadə etmişdir.





Baş prokuror ötən illər ərzində prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması istiqamətində aparılan mütərəqqi işlər, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqələr barədə qonaqları məlumatlandırmışdır.

Həmçinin, Azərbaycan və Rusiya prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan Baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışmışdır. Habelə digər hüquq mühafizə orqanları ilə birgə qarşılıqlı fəaliyyət nəticəsində ölkəmizin MDB məkanında cinayətlərin sayına görə ən müsbət göstəricilərə sahib olduğu diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirmişdir. İki dost və tərəfdaş dövlətin prokurorluq orqanları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu bildirən qonaq respublikamızın qısa zamanda bir çox sahələrdə mühüm uğurlar əldə etməsinin canlı şahidi olduğunu qeyd edərək, xüsusilə prokurorluq orqanlarının müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri təqdirəlayiq olduğunu vurğulamışdır.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, iki ölkənin hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər ətrafında müzakirələr aparılmışdır.

Baş prokurorlar əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyasının Baş Prokurorluğu arasında əməkdaşlığın inkişaf etdirilməsi haqqında" Niyyət bəyanatı imzalamışlar.

Bundan əlavə, İqor Krasnov Kamran Əliyevi bu ilin iyul ayında Sankt-Peterburqda keçiriləcək Avropa Prokurorlarının Məşvərətçi Şurasının iclasında iştirak etməyə dəvət etmişdir.

Qonaqlar daha sonra Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi ilə tanış olmuşlar.

# Rusiya Federasiyası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Bakı şəhəri ilə tanış olmuşdur



Səfər çərçivəsində nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olmuş, daha sonra qonaqlar Heydər Əliyev Mərkəzinə səfər edərək orada yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilmişdir.

Bununla da, Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun ölkəmizə rəsmi səfəri başa çatmış və nümayəndə heyəti Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınmışdır.










İçərişəhər


Шуша


РОССИЯ

# İlham Əliyev Türkiyə Ali Məhkəməsinin Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ali Məhkəmənin Baş prokuroru Bəkir Şahin Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, prokurorluq orqanlarının həyata keçirdiyi əməkdaşlığın bu münasibətlərin inkişafı baxımından önəmi qeyd olundu.

Söhbət zamanı Türkiyənin bu sahədəki təcrübəsinə toxunuldu, Azərbaycanda prokurorluq sahəsində aparılan islahatlardan danışıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Azərbaycana rəsmi səfərə gəlmişdir



Azərbaycan Respublikasının Baş Prokurorluğu cinayətkarlıqla mübarizə sahəsində bir sıra beynəlxalq və regional təşkilatlarla, o cümlədən xarici ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları ilə işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması zəminində səmərəli fəaliyyətini davam etdirir.

Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin 29 may 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərə gəlib.

Heydər Əliyev Beynəlxalq Hava Limanında qonaqları Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev qarşılayıb.

Səfər zamanı beynəlxalq və regional səviyyədə mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində aktual problemlərin həlli istiqamətində müzakirələrin aparılması və qarşılıqlı fəaliyyətin gücləndirilməsi ilə bağlı ikitərəfli sənədlərin imzalanması nəzərdə tutulmuşdur.

# Azərbaycanın Baş Prokurorluğu ilə Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğu arasında memorandum imzalanıb



29 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Tədbir zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunub, tarixən xalqlarımızın milli köklərə söykənən bu münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanıb.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə







ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqının ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirdiyini minnətdarlıqla qeyd edib, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsinin iki ölkə arasında mövcud strateji əməkdaşlığın təzahürü olduğunu vurğulayıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Bəkir Şahin ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik edib, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləyib.

Bəkir Şahin təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. O, iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə dəstək verəcəklərini xüsusi vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Baş prokurorlar ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalayıb.

Mərasim zamanı ölkələr arasında beynəlxalq hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Dövlətlərarası sənədlərin imzalanması mərasimindən sonra Kamran Əliyev və Bəkir Şahinin mətbuat konfransı olmuş, tədbir zamanı media nümayəndələrinin sualları Baş prokurorlar tərəfindən cavablandırılıb.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.



## BUNDAN SONRA AZƏRBAYCAN DÖVLƏTİ QALİB DÖVLƏT KİMİ İNKİŞAF EDƏCƏK.

Azərbaycan xalqı müzəffər xalq kimi qürur hissi ilə yaşayacaq.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin və rəhbərlik etdiyi heyət Gəncə şəhərinə işgüzar səfər ediblər





Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyəti 02 iyun 2021-ci il tarixində Gəncə şəhərinə işgüzar səfər ediblər. Nümayəndə heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Qonaqlar Nizami Gəncəvinin Məqbərəsini ziyarət edib, Məqbərədə yaradılan şəraitlə tanış olublar. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunduğu qonaqların diqqətinə çatdırılmaqla, dünya şöhrətli dahi Azərbaycan şairinin irsi barədə heyət üzvlərinə ətraflı məlumat verilib.

Daha sonra nümayəndə heyəti Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə













baş çəkib, qonaqlar günahsız mülki insanlara qarşı həyata keçirilmiş erməni hərbi cinayətlərinin nəticələri ilə yerində tanış olub.

Nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül düzüb.

Qonaqlara məlumat verilib ki, cəbhə zonasından kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin ümumilikdə 5 dəfə Ermənistan tərəfindən ağır artilleriya və raket zərbələri ilə atəşə tutulması barədə məlumat verilib.

Bildirilib ki, raket hücumları nəticəsində Gəncənin tarixi və dini abidələri, təhsil və səhiyyə ocaqları da zərər görüblər.

Daha sonra qonaqlar Gəncə şəhər prokurorluğunun inzabati binasında yaradılmış şəraitlə tanış olmuş, onlara prokurorluğun fəaliyyəti ilə bağlı ətraflı məlumat verilmişdir.




AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU
GƏNCƏ ŞƏHƏR PROKURORLUĞU

# 100 nəfər gənc hüquqşünas prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir




Mayın 6-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş əməkdaşların təntənəli andiçmə mərasimi keçirilib.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar ilk növbədə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla yad etmiş, məzarları önünə tər gül dəstələri qoymuşlar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmişlər.

Mərasim başlamamışdan öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilmiş, qazilərimizə şəfa dilənmişdir.




Tədbirdə giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev diqqətə çatdırmışdır ki, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra milli prokurorluq orqanlarının ölkənin hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında çox əhəmiyyəti olan, konstitusion statuslu, yüksək dünya standartlarına və müasir beynəlxalq tələblərə uyğun sivil təsisat kimi formalaşması ümummilli lider Heydər Əliyevin müəyyən edərək həyata keçirdiyi hüquqi dövlət quruculuğu konsepsiyasının gerçəkləşdirilməsi sayəsində mümkün olmuşdur.

Baş prokuror vurğulamışdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə prokurorluğun fəaliyyətinə xüsusi maddə həsr edilərək, onun yeri məhkəmə hakimiyyəti sistemində müəyyən edilməklə statusu, təşkili əsasları və fəaliyyət prinsipləri, səlahiyyətləri və vəzifələri təsbit edilmiş, sonradan "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 1999-cu il tarixli qanunu qəbul olunmaqla prokurorluq sovetlər dönəminin məqsəd, vəzifə və funksiyalarından azad edilmiş, onun fəaliyyətinin demokratik prinsip, forma və metodları müəyyən edilmiş, sistemi və təşkili, kadr təminatı və işçilərin sosial müdafiəsi müasir beynəlxalq standartlara uyğun tənzimlənmişdir.







Qeyd edilmişdir ki, ulu öndər Heydər Əliyevin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq uçun namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbul olunmuş gənc hüquqşünasların Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun əhəmiyyətli hissəsini təşkil etməsi, onların tutduqları vəzifələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi ölkə həyatının bütün sahələrində gənclərin daha mühüm vəzifələrə təyin edilməsi barədə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişlərinin icrasının nəticələridir.

Xüsusilə vurğulanmışdır ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş siyasət nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, 44 günlük haqq savaşında qazanılan möhtəşəm qələbə dövlət başçısının yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirmişdir.

Baş prokuror bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla gənclərin dövlət idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin etmişdir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən mütəmadi tədbirlər gənclərin təhsil, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayaraq gəncliyin uğurlu gələcəyinə hesablanmışdır.

Ölkə Başçısının rəhbərliyi ilə görülən işlərin, milli mənafeyimizin ən yüksək səviyyədə qorunmaqla dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə və firavan gələcəyə yönəlmiş fəaliyyətinin xalqımız tərəfindən daim dəstəkləndiyi nəzərə çatdıran Baş prokuror prokurorluq əməkdaşlarının həyata keçirilən siyasi kursa, dövlətə və dövlətçiliyə daim sadiq olduqlarını qeyd etmişdir.

Bildirilmişdir ki, prokurorluq orqanlarına qulluğa qəbulla bağlı 2021-ci ildə keçirilmiş 22-ci müsabiqədə namizədlərin yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları, prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla 100 gənc hüquqşünas qulluğa qəbul edilmişdir.

Daha sonra, prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilmiş, işə qəbul olunanlar təntənəli surətdə and içmiş və onlara xidməti vəsiqələr Baş prokuror Kamran Əliyev tərəfindən təqdim olunmuşdur.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Suat Qəhrəmanova, Aqil Əşrəfov və Vətən müharibəsi iştirakçısi İlkin Şıxməmmədov çıxış edərək gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə ölkə başısına öz minnətdarlıqlarını bildirmiş və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik etmiş, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarından əminliyini ifadə etmişdir.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilmişdir.

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü qeyd edilmişdir





Mayın 8-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan dövlətinin qurucusu və memarı, qüdrətli Azərbaycan Ordusunun yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Qarabağ zəfərinin əldə olunmasında Heydər Əliyev siyasətinin rolu" mövzusunda tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad etmişlər. Sonra dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotoguşə nümayiş etdirilmişdir.

Mərasimdə çıxış edən Baş prokuror Kamran Əliyev görkəmli dövlət xadimi, təcrübəli siyasətçi, ölkəmizi davamlı inkişaf yoluna çıxaran Ulu Öndər Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən və misilsiz xidmətlərindən söz açmış, əbədiyaşar liderin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş yüksək nailiyyətləri diqqətə çatdırmışdır.

Xüsusi qeyd edilmişdir ki, Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi andan Ümummilli Lider daim milli həmrəyliyin qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına müstəsna əhəmiyyət verərək milli-mənəvi dəyərlərin yaşadılması, qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, milli-strateji məqsədlərə çatmaq üçün hərbi kadr potensialının formalaşdırılması istiqamətində atdığı əməli addımlar müstəqilliyimizin bərpası yolunda mühüm önəmə malik olmuşdur.

Azərbaycanın, xüsusən də Qarabağ bölgəsinin inkişafını daim diqqət mərkəzində saxlayan Ulu Öndərin həmin dövrdə və SSRİ kimi fövqəlgücə malik bir dövlətin rəhbərliyində çalışdığı dönəmdə



Qeyd edilmişdir ki, Heydər Əliyevin öz xalqına ən böyük xidməti ölkənin davamlı strateji inkişaf konsepsiyasını müəyyən etməklə yanaşı onu özündən sonra yüksək peşəkarlıqla həyata keçirməyə qadir, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi regionun qabaqcıl dövlətinə çevirmiş, həyata keçirdiyi sistemli islahatlarla respublikamızın daimi tərəqqisini təmin edən, Ulu Öndərin özü qədər inanıb-güvəndiyi görkəmli siyasi lider İlham Əliyev kimi davamçı hazırlaması olmuşdur.

erməni millətçilərinin Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərinin qarşısının qətiyyətlə alınması qeyd edilmişdir.

Diqqətə çatdırılmışdır ki, Heydər Əliyevin İttifaqda günü-gündən artan nüfuzunu həzm edə bilməyən və onun fəaliyyətinə qısqanclıqla yanaşan ermənipərəst dairələrin təsiri altında olan Sovet rəhbərliyinin antimilli hərəkətlərinə etiraz olaraq Ulu Öndərin vəzifəsindən istefa verməsi regionda siyasi qüvvələr nisbətinin surətlə dəyişməsinə, xalqımızın ağır və məhrumiyyətli günlərlə, dövlətçiliyimizin itirilməsi təhlükəsi ilə üzbəüz qalmasına şərait yaratmış, son nəticədə erməni separatçıları tərəfindən əzəli torpaqlarımızın işğalına səbəb olmuşdur.

Bildirilmişdir ki, 1993-cü ilin yayında xalqın çağırışı ilə respublika rəhbərliyinə qayıdaraq xalqımızı və dövlətimizi böyük təhlükələrdən, vətəndaş müharibəsindən xilas etmiş, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına “ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” söyləməklə başlayan dahi öndər böyük siyasi uzaqgörənliyi, nadir dövlətçilik zəkası ilə möhtəşəm Zəfərə aparan yolun təməlini qoymağa müvəffəq olmuşdur.

Dahi sərkərdə Heydər Əliyevin zamanında səsləndirdiyi bir çağırışı ilə yaranmış qüdrətli Azərbaycan ordusunun o dövrdə erməni silahlı qüvvələrinin bədnam niyyətlərinin qarşısını almaqla ilk qələbələrini qazanaraq düşməni atəşkəsə məcbur etməsi, qısa müddətdə müasir, mütəşəkkil ordunun yaradılması, Azərbaycanın haqq səsini dünyaya çatdırmaqla yorulmaz fəaliyyəti nəticəsində mötəbər beynəlxalq təşkilatların ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair qəbul etdikləri qərar və qətnamələri hərbi-siyasi qələbəmizi şərtləndirən ən vacib amillərdən olması xüsusi vurğulanmışdır.

Ümummilli Liderin xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə 44 gündə son qoyulmaqla şanlı tariximizə əbədi həkk olunan möhtəşəm zəfər salnaməsinin yazıldığı diqqətə çatdırılmışdır.

Tədbirdə Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov çıxış edərək Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan Ümummilli Lider Heydər Əliyevin ölkəmizi böhrandan tərəqqiyə aparan yolun təməlini qoymaqla ərazi bütövlüyünün bərpası istiqamətində döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafında misilsiz xidmətlərini qeyd etmişdir. Bildirilmişdir ki, Ulu Öndər Heydər Əliyevin müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçərək bölgənin ən güclü qüvvəsinə çevrilmiş, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən davam etdirilən tədbirlərlə əbədi və əzəli torpaqlarımız düşmən tapdağından azad edilmişdir.

Tədbirə yekun vuran Kamran Əliyev prokurorluğun kollektivi adından hər bir prokurorluq işçisinin daim Heydər Əliyev ideyalarına sadiq qalaraq onun unudulmaz xatirəsini əziz tutacağına və bütün qüvvələrini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasətin həyata keçirilməsinə istiqamətləndirəcəyinə əminliyini bildirmişdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir



İyunun 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin icrası və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əlievin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirildiyi, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqinə müxtəlif ölkələrdən investisiyaların cəlb olunduğu qeyd edilməklə "yaşıl zona" elan edilmiş həmin ərazilərin yenidən qurulmasının ölkə iqtisadiyyatına mühüm təkan verəcəyi bildirilmişdir.

Baş prokuror Kamran Əliyev dövlətimiz tərəfindən işğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılması istiqamətində geniş abadlıq-quruculuq işlərinin aparıldığı bir vaxtda Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərində məqsədli şəkildə və geniş miqyasda həm hərbi, həm də mülki şəxslərin həyatına və təhlükəsizliyinə ciddi təhdid yaradan minalar basdırması məsələsinin davamlı şəkildə beynəlxalq müstəvidə qaldırılmaqla nüfuzlu beynəlxalq təşkilatlar və dünya ictimaiyyətindən törədilmiş cinayətlərlə bağlı səlahiyyətləri çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsinə dair müraciətlər ünvanlandığını qeyd etmişdir.

Kollegiya iclasında ölkəmizdə pandemiyaya qarşı mübarizə sahəsində dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən tədbirlərin əhəmiyyəti vurğulanmaqla son günlərdə ölkədə sağalanların sayının artması ilə yanaşı vaksinasiyanın uğurla aparılması nəticəsində əhalimizin artıq bir hissəsinin peyvənd olunduğunu bildirilmiş, COVID-19 infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilmişdir.

Ötən Kollegiya iclasından keçən müddətdə Rusiya Federasiyası Baş prokurorunun və Türkiyə Respublikası Ali Məhkəməsi Baş prokurorunun rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfərlərinin, onların Ölkə Başçısı cənab İlham Əliyev tərəfindən qəbul edilməsinin önəmindən, hər iki ölkənin müvafiq qurumları ilə qarşılıqlı əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyması diqqətə çatdırılmışdır.

Kollegiya iclasında həmçinin işğaldan azad edilmiş ərazilərdə yaradılmış hərbi prokurorluqların fəaliyyətinin təşkilinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin qısa müddətdə görülməsi ilə bağlı tapşırıqlar verilmişdir.





İclasda Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı ilə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 24 dekabr 1999-cu il tarixli, 232 nömrəli Fərmana edilmiş əlavə və dəyişikliklərlə prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən “Elektron prokurorluq” informasiya sisteminin yaradılması ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələrə dair Baş prokurorun müavini Heydər Məmmədov, “İşin Təşkili Qaydaları”nın təkmilləşdirilməsi məsələləri ilə bağlı Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə dövri qiymətləndirmələrin aparılması qaydalarının hazırlanaraq icraya yönəldilməsi ilə əlaqədar Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov və cari kadr məsələləri ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış etmişlər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirmişlər.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi istiqamətində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir.

# Baş Prokurorluğun rəhbərliyi ilə "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri arasında görüş keçirilmişdir





22 aprel 2021-ci il tarixdə 24 nəfərdən ibarət Azərbaycan Respublikası prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri tərəfindən yığıncaq keçirilərək "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" ictimai birliyinin təsis edilməsi barədə qərar qəbul olunmaqla, yığıncaqda birliyin İdarə heyəti formalaşdırılaraq hüquqi ünvanı müəyyən edilmişdir.

Qeyd olunmalıdır ki, Birliyin yaradılmasında məqsəd Azərbaycan Respublikasının prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçilərinin hüquqlarının və qanuni mənafelərinin qorunması, onların sosial, mənzil-məişət problemlərinin həlli, sağlamlıqlarının möhkəmləndirilməsi, o cümlədən



qanunla nəzərdə tutulmuş digər maddi və mənəvi yardımların göstərilməsi istiqamətində əməli köməklik göstərilməsi və digər məsələlərdən ibarətdir.

11 iyun 2021-ci il tarixində Baş Prokurorluğun rəhbərliyi ilə 30 aprel 2021-ci il tarixdə dövlət qeydiyyatına alınmış "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" ictimai birliyinin idarə heyətinin üzvləri arasında görüş keçirilmişdir.

Tədbirdə giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev Birliyin fəaliyyətə başlaması münasibətilə veteran və pensiyaya çıxmış əməkdaşları təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulamış, hazırkı dövrədək prokurorluq orqanlarından yaşa görə 18-i qadın olmaqla 381 nəfərin təqaüdə çıxdığını qeyd etmişdir.

Kamran Əliyev zəngin təcrübəyə malik prokurorluğun veteran və pensiyaçılarının bilik və bacarıqlarını prokurorluq orqanlarında çalışan gənc əməkdaşlarla bölüşməyin vacibliyini vurğulamışdır.

Tədbirdə Baş Prokurorluğun rəhbərliyi tərəfindən veteran və pensiyaya çıxmış prokurorluq işçilərinə daimi diqqətin əsas prioritet məsələlərdən biri olduğu qeyd edilməklə, Birliyin fəaliyyəti nəticəsində bundan sonra da veteran və pensiyaya çıxmış işçilərin hər cür sosial və məişət problemlərinə xüsusi qayğının göstəriləcəyinə əminlik ifadə olunmuşdur.

Göstərilən gündəlik diqqət və qayğıya görə prokurorluğun veteran və pensiyaçıları adından minnətdarlığını bildirən Birliyin sədri Seyfulla Aslanov ölkəmizdə möhkəm təməllər üzərində qurulmuş ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında fəal iştirak edərək prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində fəallıq göstərəcəklərini ifadə etmiş, prokurorluğun fəaliyyətində səmərəliliyinin artırılması və ölkədə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində iştirak edəcəklərini vurğulamışdır.

Sonda xatirə fotoşəkli çəkdirilmişdir.



# Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilmisdir






Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhfə verən Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası 17 iyun 2021-ci il tarixində keçirilmişdir.

Şuranın iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik, "ADA", Milli aviasiya akademiyaları, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidməti, Gömrük akademiyaları, eləcə də İqtisadiyyat nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin nümayəndələri iştirak etmişlər.

Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əlievin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma prosesləri, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi və bu mühüm sənədin ölkəmiz və bütövlükdə regionumuz üçün əhəmiyyəti, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququnu pozulması, məqsədli şəkildə və geniş miqyasda həm hərbi, həm də mülki şəxslərin həyatına və təhlükəsizliyinə ciddi təhdid yaradan minaların basdırılması məsələsinin davamlı şəkildə beynəlxalq müstəvidə












qaldırılması istiqamətində görülən işlər, eləcə də mühüm əhəmiyyət kəsb edən digər məsələlər barədə məlumat vermişdir.

Daha sonra Şuranın iclasında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi təsis edilmiş, Şura üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri təyin edilmişdir.

Təlim Mərkəzi prokurorluq, digər hüquq-mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları, özəl sektorda çalışan şəxslər, tələbələr üçün korrupsiyaya qarşı mübarizə, dövlət qulluğu və özəl sektorda dürüstlük, etik dilemmalar, onların həlli yolları, düzgün davranış və s. məsələlərlə bağlı qısa və uzun müddətli təlim, treninqlərin təqdim edilməsi yolu ilə tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə yaradılmışdır.

İclasda “Korrupsiyaya qarşı mübarizəyə dair təlim vəsaiti” (Anti-corruption Training Handbook) və “Dövlət qulluğunda etik təlimə dair vəsait: konsepsiya və təriflər, etik dəyərlər və davranış standartları” (Ethics in Public Service Training Handbook: Concepts and definitions, ethics, values



dair metodik tövsiyə" adlı vəsaitin də təqdimatı keçirilmişdir.

İclas çərçivəsində Baş prokurorun böyük köməkçisi Mahir Abbasov tərəfindən 2000-2020-ci illər ərzində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-cü (adam oğurluğu) maddəsi ilə istintaqı aparılmış cinayət işləri və araşdırma materialları üzrə tədqiqatın nəticələri təqdim edilmiş, istintaq və məhkəmə təcrübəsinə aid statistik göstəricilər və bununla bağlı təhlillər






and conduct standards) adlı kitabların təqdimatı keçirilmişdir.

Tədbirdə Hərbi Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Emil Kərimov tərəfindən müəllifi olduğu "Odlu silahdan istifadə edilməklə törədilən cinayətlər üzrə hadisə yerinə və meyitə baxış keçirilməsinə

Şura üzvlərinin diqqətinə çatdırılmışdır.

Həmçinin, Avropa Şurasının Bakı Ofisinin rəhbəri – səfir Zoltan Hernyeş tədbirə dəvət edilərək qonaq qismində iştirak etmişdir.

Tədbirdə Şura üzvləri arasında geniş müzakirələr və faydalı fikir mübadiləsi aparılmışdır.



**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**SƏRƏNCAM**
**№ 11**

Bakı şəhəri                                                    17 iyun 2021-ci il

**Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin Əsasnaməsinin təsdiq edilməsi və Təlim Mərkəzinin rəhbərinin təyin edilməsi haqqında**

Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi (bundan sonra Təlim Mərkəzi) Elmi-Məsləhət Şurasının (bundan sonra Şura) 17 iyun 2021-ci il tarixli qərarı ilə yaradılmışdır.

Təlim Mərkəzi prokurorluq, digər hüquq-mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları, özəl sektorda çalışan şəxslər, tələbələr üçün korrupsiyaya qarşı mübarizə, dövlət qulluğu və özəl sektorda dürüstlük, etik dilemmalar, onların həlli yolları, düzgün davranış, əməl edilməli olan əsas etik prinsiplər və s. məsələlərlə bağlı qısa və uzun müddətli təlim, treninqlərin təqdim edilməsi yolu ilə tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə yaradılmışdır.

Təlim Mərkəzi Baş prokuror – Şura sədrinə tabe olmaqla fəaliyyət göstərir və Təlim Mərkəzinin rəhbəri onun tərəfindən Şura üzvlərinin sırasından təyin olunur.

Göstərilənləri nəzərə alaraq, “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10 və 40-cı maddələrini, eləcə də Baş Prokurorluğun “İşin Təşkili Qaydaları”nın 4.1-ci bəndini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin Əsasnaməsi təsdiq edilsin *(Sərəncama əlavə edilir).*

**2.** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi Təlim Mərkəzinin fəaliyyətinə metodoloji köməyin göstərilməsi, Kadrlar idarəsi prokurorluq işçilərinin təlimlərdə iştiraklarının təmin olunması ilə bağlı məsələləri həll etsinlər.

**3.** Elmi-Məsləhət Şurasının üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri təyin edilsin.

**4.** Sərəncam icra olunması üçün Baş Prokurorluğun aidiyyəti qurumlarına göndərilsin, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri**                                        **Kamran Əliyev**

*17 iyun 2021-ci il tarixli Sərəncam ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi haqqında**

**ƏSASNAMƏ**

**I. Ümumi müddəalar.**

**1.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi (bundan sonra Təlim Mərkəzi) Elmi-Məsləhət Şurasının (bundan sonra Şura) 17 iyun 2021-ci il tarixli qərarı ilə yaradılmışdır.

**2.** Təlim Mərkəzi prokurorluq, digər hüquq-mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları, özəl sektorda çalışan şəxslər, tələbələr üçün korrupsiyaya qarşı mübarizə, dövlət qulluğu və özəl sektorda dürüstlük, etik dilemmalar, onların həlli yolları, düzgün davranış, əməl edilməli olan əsas etik prinsiplər və s. məsələlərlə bağlı

qısa və uzun müddətli təlim, treninqlərin təqdim edilməsi yolu ilə tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə yaradılmışdır.

**3.** Təlim Mərkəzinin strukturu və Əsasnaməsi Baş prokuror – Şura sədri tərəfindən təsdiq olunur.

**4.** Əsasnaməyə uyğun olaraq Təlim Mərkəzi Baş prokuror – Şura sədrinə tabe olmaqla fəaliyyət göstərir.

**5.** Təlim Mərkəzi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını və digər normativ hüquqi aktlarını, Baş prokurorun əmr və göstərişlərini, Şuranın qərarlarını, həmçinin bu Əsasnaməni rəhbər tutur.

**6.** Şura üzvləri Təlim Mərkəzinin tərəfdaşları hesab olunur.

**II. Təlim Mərkəzinin əsas vəzifələri**

**7.** Korrupsiyaya qarşı mübarizə sahəsində tədris və peşə hazırlığını həyata keçirən və ictimai əsaslarla fəaliyyət göstərən Təlim Mərkəzi bu sahədə aparılan fəaliyyətin effektivliyini yüksəltmək üçün Korrupsiyaya qarşı Mübarizə üzrə komissiya, Elmi-Məsləhət Şurası, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (bundan sonra Baş İdarə), digər hüquq-mühafizə orqanları, dövlət və özəl qurumlar, həmçinin qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə aşağıdakı vəzifələri yerinə yetirir:

**7.1.** rəy və sorğuların keçirilməsini, elmi araşdırmaların, praktiki tədqiqatların aparılmasını, dövlət və özəl sektor üçün anti-korrupsiya həllərin verilməsini təmin edir;

**7.2.** korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi biliklərin təbliği və maarifləndirmənin həyata keçirilməsi məqsədilə Baş İdarə və prokurorluğun digər struktur qurumları tərəfindən aparılan ümumiləşdirmələr və təqdim olunan materiallar əsasında dəyirmi masalar, konfranslar, seminarlar, treninqlər və digər tədbirlər təşkil edir.

**7.3.** Baş prokurorun tapşırıq və göstərişlərinə uyğun olaraq bu sahədə digər vəzifələri həyata keçirir.

**III. Təlim Mərkəzinin əsas hüquqları**

**8.** Öz vəzifələrini yerinə yetirmək məqsədilə Təlim Mərkəzi aşağıdakı hüquqları həyata keçirir:

**8.1.** müvafiq müraciətlər olduqda prokurorluq, digər hüquq-mühafizə orqanları, dövlət və özəl sektorda çalışan əməkdaşlar, həmçinin tələbələrin ixtisaslarının artırılması üçün təlim və treninqlərin təşkil edilməsini təmin edir;

**8.2.** təşkil olunan təlim və treninqlərə müvafiq bilik və təcrübəyə malik prokurorluq işçilərini mühazirələr oxumaq və məşğələlər keçirmək üçün dəvət edir;

**8.3.** Şura üzvü olan digər hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları, dövlət və özəl sektorun nümayəndələrini, həmçinin təhsil müəssisələrinin müəllimlərini təlim və treninqlərdə mühazirəçi qismində iştiraka dəvət edir;

**8.4.** Metodoloji təminat səviyyəsinin yüksəldilməsi məqsədilə bu sahəyə aid metodik vəsait və nəşrlərin hazırlanması üçün Baş İdarə və Baş Prokurorluğun struktur qurumlarına müvafiq köməklik göstərir.

**8.5.** Təcrübədə rast gəlinən problemlərin həlli məqsədilə Baş idarə və Baş Prokurorluğun struktur qurumları ilə birgə elmi-praktiki araşdırmaların aparılmasında iştirak edir.

**IV. Təlim Mərkəzinin strukturu və fəaliyyətinin təşkili**

**9.** Təlim Mərkəzinin rəhbəri Baş prokuror – Şura sədrinin sərəncamı əsasında Şuranın üzvləri sırasından bu vəzifəyə təyin olunur və azad olunur.

**10.** Təlim Mərkəzinin katibliyi funksiyasını Şuranın katibliyi həyata keçirir.

**11.** Təlim Mərkəzinin rəhbəri ictimai əsaslarla fəaliyyət göstərir.

**12.** Şura üzvləri, Şurada təmsil olunan qurumların nümayəndələri, Baş İdarə və Elm-Tədris Mərkəzi əməkdaşlarından başqa Təlim Mərkəzi tərəfindən təşkil olunan tədbirlərə təlimçi qismində digər şəxslərin cəlb edilməsi Baş prokuror – Şura sədrinin sərəncamı əsasında müəyyən edilir.

**13.** Təlim Mərkəzi təlimlərini yaranmış zərurətlə əlaqədar Baş prokuror – Şura sədrinin tapşırıqları əsasında tərtib edilmiş təlim proqramları əsasında həyata keçirir.

**14.** 13-cü bənddə göstərilən qaydada verilən tapşırıqlara uyğun olaraq hazırlanan təlim proqramlarında keçiriləcək təlimin mövzusu, müddəti, mühazirəçi və dinləyici qismində iştirak edəcək şəxslərin dairəsi müəyyən edilir.

**15.** Təlim Mərkəzi tərəfindən keçirilən tədbirlərin nəticəsi Təlim Mərkəzinin rəhbəri tərəfindən Baş prokuror – Şura sədrinə məruzə edilir.

**16.** Təlim Mərkəzinin fəaliyyəti ilə əlaqədar maddi-texniki təminat məsələlərinin həlli Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi tərəfindən həyata keçirilir.

**Elmi-Məsləhət Şurasının Katibliyi**

# Baş Prokurorluqda intihar və intihara cəhd edilməsi hadisələrinin baş verməsinin minimuma endirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar konfrans keçirilmişdir






İyunun 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə intihar və intihara cəhd edilməsi hadisələrinin baş verməsinin minimuma endirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar çoxsaylı dövlət qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə yüksək səviyyəli konfrans keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə ardıcıl islahatların aparılmasını, vətəndaşların maddi rifah halının yaxşılaşmasını, sosial müdafiəsinin daim diqqət mərkəzində saxlandığını qeyd edərək Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna təşəbbüsü nəticəsində əhalinin bütün təbəqələrin dövlət qayğısı ilə əhatə olunduğunu bildirmişdir.

Qeyd edilmişdir ki, dünyada son dövrlərin ən ciddi sosial mövzularından biri olan intihar və intihara cəhd edilməsi hadisələrinin digər dövlətlərlə müqayisədə ölkəmizdə dəfələrlə az baş verməsinə baxmayaraq, bu kimi halların baş verməsinin qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılır.







Bu kimi halları doğuran səbəb və şəraitin araşdırılması məqsədilə prokurorluq tərəfindən aparılmış elmi-nəzəri və praktiki təhlillərlə intihar hadisələrinin baş verməsinə əsasən psixopatoloji və sosial faktorların səbəb olması müəyyən edilməklə müvafiq dövlət qurumlarının yaxından iştirakı ilə zəruri qabaqlayıcı tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir.

Konfransda çıxış edən Təhsil Naziri Emin Əmrullayev yeniyetməlik dövründə intihar hallarının minimuma endirilməsinin tədris prosesinin əsas istiqamətlərindən birini təşkil etdiyini qeyd edərək ölkədə aparılan təhsil siyasətinin başlıca məqsədinin təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsi olduğunu diqqətə çatdırmışdır.

Konfransda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova özünü öldürmə hadisələrinin qarşısının alınması istiqamətində müvafiq dövlət qurumlarının əlaqələndirilmiş fəaliyyəti ilə təxirəsalınmaz tədbirlərin görülməsinin önəmini bildirməklə ailədaxili zorakılıq hallarının azaldılması və şəxslərin keyfiyyətli reabilitasiyasının əhəmiyyətini qeyd etmiş, bu məsələdə kütləvi informasiya vasitələrinin və sosial şəbəkələrin mənfi təsirinin aradan qaldırılmaqla maarifləndirici tədbirlərin sayının artırılmasının vacibliyini vurğulamışdır.

Bundan sonra Milli Məclisin, Baş Prokurorluğun, Ədliyyə, Daxili İşlər, Təhsil, Səhiyyə, Gənclər və İdman Nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və digər dövlət qurumlarının, eləcə də qeyri-hökumət təşkilatlarının məsul əməkdaşları intiharların qarşısının alınması, bu kimi halları doğuran faktorlar və onların aradan qaldırılmasına dair məruzələrlə çıxış etmiş, mövzu ətrafında faydalı fikir mübadiləsi aparılmaqla intihar hadisələrinin ictimailəşməsində mətbuat orqanlarının daha həssas fəaliyyətinin önəmi xüsusi qeyd edilmişdir.

Tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən hazırlanmış "İntihar və özünü öldürmə həddinə çatdırma, sosial fenomen və cinayət" adlı kitabın təqdimatı keçirilmişdir.

Konfransın yekununda aidiyyəti qurumların iştirakı ilə intihar hadisələrin baş verməsinin minimuma endirilməsi istiqamətində qabaqlayıcı və digər zəruri tədbirlərin görülməsi məqsədilə müvafiq qurumlararası İşçi Qrupun yaradılması qərara alınmışdır.

# Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Respublika Hərbi Prokurorluğunda tədbir keçirilmişdir

İyunun 25-də Silahlı Qüvvələrin yaradılmasının 103-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin iştirakı ilə Hərbi Prokurorluqda tədbir keçirilmişdir.

Əvvəlcə tədbir iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Hərbi Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuşlar.

Tədbirdən öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa dilənmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyasını və ordu quruculuğunu inamla reallaşdıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi, zabitlərimizin, əsgərlərimizin qəhrəmanlığı sayəsində əzəli torpaqlarımızın işğaldan azad edilərək Silahlı Qüvvələrimizin 103-cü ildönümünün ölkəmizin hər bir diyarında üçrəngli bayrağımızın dalğalanması sevinci və təntənəsi ilə qeyd edildiyini bildirmişdir.

Böyük Zəfərin əldə edilməsində Ölkə Başçısının həyata keçirdiyi köklü islahat-







ların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir ordunun formalaşdırılması mühüm rol oynamaqla yanaşı həyata keçirilən effektiv xarici siyasətin hərbi-siyasi qələbəmizi şərtləndirməklə ölkəmizin regional liderliyini birmənalı təsbit etdiyi vurğulanmışdır.

Diqqətə çatdırılmışdır ki, döyüş meydanında uğurların əldə edilməsində aparılmış islahatlarla yanaşı, hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, onların sosial və məişət məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, eləcə də Dövlət Başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri olmuşdur ki, bütün bunlar vətən uğrunda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini daha da artırmışdır.





Sevindirici haldır ki, müharibədən sonra da bu diqqət ən yüksək səviyyədə göstərilməklə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, qazilər, eləcə də müharibə iştirakçıları Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunmuş, onların maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" fondunun yaradılması bu baxımdan mühüm əhəmiyyətə malik olmuşdur.

"Qarabağ Azərbaycandır və nida" devizini gerçəkliyə çevirən ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə və digər azad olunmuş rayonlara səfərləri, orada üçrəngli Azərbaycan bayrağının ucaldılması, Füzuli-Şuşa, Bərdə-Ağdam, Zəngilan-Horadiz avtomobil yollarının, həmçinin Füzuli və Zəngilan beynəlxalq hava limanlarının təməlinin qoyulması, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqinin doğma torpaqlarımıza "Böyük Qayıdış"ın rəmzi ifadəsi olduğu bildirilmişdir.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə – iyunun 15-də Şuşa şəhərində imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik Bəyannamə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəltmişdir.

Tədbirdə hərbi-siyasi qələbəmizlə başa çatan Vətən müharibəsi zamanı cəmiyyətimizlə bərabər





səfərbər olan prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyi, xüsusən döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün olan bütün istintaq-əməliyyat tədbirlərini uğurla icra etdiyi qeyd edilməklə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 31 dekabr 2020-ci il tarixli Sərəncamı ilə 38 prokurorluq əməkdaşının, o cümlədən hərbi prokurorluq orqanlarının 9 əməkdaşının yüksək dövlət mükafatları – orden və medallarla təltif edilməsinin Azərbaycan Prokurorluğuna Dövlət başçısı tərəfindən göstərilən inamın ifadəsi və dövlətçiliyimizin maraqlarının qorunması işində prokurorluğun fəaliyyətinə verilən yüksək etimad kimi dəyərləndirildiyi bildirilmişdir.

Qeyd edilmişdir ki, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət orqanları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin böyük əhəmiyyəti olmuşdur.

Hərbi Prokurorluq orqanları qarşısında duran vəzifələrin önəmini diqqətə çatdıran Baş prokuror Kamran Əliyev işğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılmasının dövlət siyasətinin prioritetini təşkil etdiyini bildirməklə Ölkə Başçısının Sərəncamı ilə həmin ərazilərdə yaradılmış yeni hərbi prokurorluqların qısa zamanda fəaliyyətə başlamasının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır.

Tədbirdə çıxış edən Baş prokurorun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyev hərbi prokurorluq orqanlarına göstərilən yüksək diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığını bildirməklə qurumun qarşısında duran vəzifələrin həyata keçirilməsi ilə bağlı görülən işləri diqqətə çatdırmışdır.

Tədbirin sonunda Baş Prokurorluq üzrə müvafiq əmrlə həvəsləndirilmiş bir qrup əməkdaşa mükafatlar təqdim edilməklə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivinin qanunçuluğun və hüquq qaydasının, o cümlədən Silahlı Qüvvələrdə nizam-intizamın daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və cinayətkarlığa qarşı mübarizə istiqamətindəki səmərəli fəaliyyətinin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

# Baş prokuror Kamran Əliyev Bakı Dövlət Universitetində hüquqşünaslıq ixtisası ilə bağlı bakalavriat səviyyəsi üzrə Yekun Dövlət Attestasiya Komissiyasının sədri kimi fəaliyyət göstərəcəkdir



Prokurorluq orqanları ilə ölkəmizin qabaqcıl ali təhsil müəssisələri arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər davam etdirilməkdədir.

Qeyd edilməlidir ki, bu sahədə ölkəmizin ilk ali təhsil müəssisəsi olan, dünya standartlarına uyğun çoxprofilli fasiləsiz təhsil və elmi tədqiqatlar sahəsində ölkə daxilində və xaricində ciddi nailiyyətləri olan Bakı Dövlət Universiteti ilə əməkdaşlıq əlaqələrinə xüsusi önəm verilir.

Bu istiqamətdə cari ilin aprelin 5-də hər iki qurum arasında imzalanmış birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gələnən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edən əməkdaşlıq haqqında müqavilənin mühüm əhəmiyyəti vardır.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi, eləcə də  kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik gənc mütəxəssislər hesabına komplektləşdirilməsi təmin edilir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prokurorluğu orqanları hüquqşünas ixtisası ilə bağlı bakalavr və magistr dərəcələri üzrə təhsilinin ən müasir tələblər səviyyəsində təşkilinə dəstək vermək niyyətindədir.

Bu məqsədlə Baş prokuror Kamran Əliyev Bakı Dövlət Universitetində hüquqşünaslıq ixtisası ilə bağlı bakalavriat səviyyəsi üzrə Yekun Dövlət Attestasiya Komissiyasının sədri kimi həmin komissiyanın iki iclasında iştirak edərək məzunların diplom layihələrinin qiymətləndirilməsinə rəhbərlik etmişdir.

Baş prokuror Kamran Əliyevin BDU-da hüquqşünaslıq ixtisası üzrə bakalavr təhsil pilləsində yekun buraxılış dövlət imtahan komissiyasının sədri kimi fəaliyyəti gənc hüquqşünasların hazırlanmasına mühüm töhfə verəcəkdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanmışdır



Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə ölkənin aparıcı ali təhsil müəssisələri arasında fəal əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, peşə hazırlığı və tədrisin təşkili sahəsində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm və ardıcıl tədbirlər davam etdirilir.

Həmin tədbirlərin davamı olaraq, 5 aprel 2021-ci il tarixdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.

İlkin olaraq qonaqlar Baş Prokurorluğun yeni istifadəyə verilmiş inzibati binalar kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Tədbir çərçivəsində rektor Elçin Babayevlə Baş prokurorun müavini Elmar Camalovun arasında görüş keçirilmiş, görüşdə BDU-nun Hüquq fakültəsinin dekanı Əmir Əliyev, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, Elm-Tədris Mərkəzinin şöbə rəisi Ramin Camalov, böyük prokuroru Nigar Qələndərli iştirak etmişlər.

Görüşdə iki qurum üçün olduqca faydalı olan qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilmiş, gənc hüquqşünasların peşə hazırlığının təşkil






edilməsi istiqamətində səylərin birləşdirilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan olan Elmi-Məsləhət Şurasının fəaliyyətində Bakı Dövlət Universiteti nümayəndəsinin səmərəli fəaliyyəti xüsusi olaraq qeyd edilmişdir.

Görüşün nəticələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Bakı Dövlət Universiteti arasında əmək-








daşlığa dair müqavilə imzalanmışdır.

Müqavilə birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, elmi məqalələrin, vəsaitlərin və mətbu nəşrlərin hazırlanması, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edir.

Baş Prokurorluqla Bakı Dövlət Universiteti arasında imzalanmış müqavilə gənc hüquqşünasların hazırlanmasına da mühüm töhfə verəcəkdir.

# "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyinin təsis yığıncağı keçirilmişdir





Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra ölkənin bütün sahələrində genişmiqyaslı islahatlara start verilmiş, xüsusən milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə böyük ehtiramla yanaşılmaqla dövlət səviyyəsində əhəmiyyətli diqqət və qayğı göstərilmişdir.

Ulu öndərin bu sahədə həyata keçirdiyi siyasətin davamı olaraq veteran hərəkatı da yeni inkişaf mərhələsinə qədəm qoymuş, veteranlara və veteran təşkilatlarına lazımi şərait yaradılmaqla yanaşı 28 iyun 1994-cü ildə ölkə tarixində ilk dəfə olaraq veteranlara dair dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Heydər Əliyev siyasi və ideoloji kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə veteranlara və pensiyaçılara göstərilən dövlət qayğısı yeni səviyyəyə qalxmış, Veteranlar Təşkilatına müasir standartlara cavab verən inzibati bina ayrılmış, müharibə veteranlarına verilən birdəfəlik maddi yardımın və pensiyaların miqdarı ildən-ilə artırılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən veteran hərəkatının gücləndirilməsinə xüsusi diqqət göstərilməklə veteranların, pensiyaya çıxmış şəxslərin mənzil, məişət və digər problemlərinin həll olunması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Veteranlar təşkilatlarına göstərilən diqqət və qayğının növbəti təzahürü kimi aprelin 22-də prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçilərinin iştirakı ilə müvafiq İctimai Birliyin təsis olunması məqsədilə yığıncaq keçirilmişdir.

İclasdan öncə vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş hərbi qulluqçularımızın və



mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirə dəvət edilmiş Baş prokurorun müavini Elmar Camalov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daim prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqətin göstərildiyini vurğulamaqla qurumun fəaliyyətinin daha da təkmilləşdirilməsində veteran prokurorluq işçilərinin səmərəli təcrübəsindən yararlanmağın önəmini qeyd etmişdir.

Bu baxımdan prokurorluğun fəaliyyət istiqamətləri üzrə prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçilərinin ictimai nüfuzundan, cinayətkarlığın profilaktikası və təhlükəsizliyin təminində bilik və bacarıqlarından daha geniş istifadə edilməklə cəmiyyətdə prokurorluğa etimadın daha da artırılması, prokurorluq orqanlarının şərəfli tarixi və müsbət iş təcrübəsinin gənclərə aşılanmasının mühüm əhəmiyyətə malik olduğu bildirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Prokurorluğunun veteranları Ruslan Hacıyev, Zahid







Vəliyev, Rahib Seyidov, Mahir Tağıyev və Elxan Əsgərov çıxış edərək ölkə rəhbərliyinin veteranlara və pensiyaçılara olan xüsusi diqqət və qayğısını qeyd etməklə prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydasının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiəsində prokurorluqda qulluq keçməyin çox şərəfli və məsuliyyətli olduğunu bildirmiş, prokurorluğun fəaliyyətində səmərəliliyinin artırılması və ölkədə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində İctimai Birliyin təsis edilməsinin vacibliyini vurğulamışlar.

Bundan sonra “Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyinin təsis edilməsi qərara alınmaqla keçirilmiş səsvermə nəticəsində birliyin təsisçiləri tərəfindən hazırlanmış Nizamnaməsi təsdiq edilmiş, həmçinin İdarə Heyətinin sədri, müavini və üzvləri seçilmişdir.

“Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri” İctimai Birliyinin Təsis Yığıncağı adından əminliklə bildirilmişdir ki, təşkilatın üzvləri ölkə başçısı cənab İlham Əliyevin apardığı mükəmməl daxili və xarici siyasətə birmənalı dəstək olmaqla ölkəmizdə möhkəm təməllər üzərində qurulmuş ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında fəal iştirak edərək prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində zəruri köməklik göstərəcəklər.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Dövlət Gömrük Komitəsinin Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır

Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (DGK) arasında peşə hazırlığı və tədrisin təşkili sahəsində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, mövcud əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir.

Bu tədbirlərin davamı olaraq, 21 may 2021-ci il tarixdə DGK Akademiyasının rəisi,









gömrük xidməti general-mayoru Qulu Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.

Tədbir çərçivəsində qonaqlar Baş Prokurorluğun yeni inzibati binalar kompleksi, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Daha sonra Akademiyanın rəisi Qulu Novruzovun və DGK-nin Əməliyyat və İstintaq Baş İdarəsinin rəisinin birinci müavini Güloğlan Muradlının rəhbərlik etdiyi nümayəndə heyəti ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədovun, Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Ceyhun Kazımovun, Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadənin, Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi Tural Aslanovun, Elm-Tədris Mərkəzinin şöbə rəisi Talıb Cəfərovun iştirakı ilə qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilmiş, peşə hazırlığının təşkil edilməsi sahəsində səylərin birləşdirilməsi qərara alınmışdır.

Bildirilmişdir ki, iki qurum arasında səmərəli əməkdaşlığın təzahürü olaraq, gömrük orqanlarının vəzifəli şəxslərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədilə hazırda Akademiyanın və Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "Gömrük işi sahəsində aşkar edilmiş cinayətlərin rəsmiləşdirilməsi xüsusiyyətləri və bu növ cinayətlər üzrə ibtidai araşdırma aparılmasının aktual aspektləri" mövzusunda onlayn birgə təlimlər uğurla həyata keçirilir.

Bundan əlavə, Azərbaycan Respublikasının Baş prokuroru yanında məşvərətçi orqan olan Elmi-Məsləhət Şurasının fəaliyyətində Dövlət Gömrük Komitəsi Akademiyasının nümayəndəsi Şahin Hüseynovun səmərəli fəaliyyəti xüsusi olaraq qeyd edilmişdir.

Görüşün nəticələrinə uyğun olaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədovun və Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzovun iştirakı ilə Mərkəz və Akademiya arasında əməkdaşlıq haqqında Anlaşma memorandumu imzalanmışdır.

Memorandum prokurorluq və gömrük orqanları əməkdaşlarının bilik səviyyələrinin və peşə hazırlıqlarının yüksəldilməsi üçün birgə tədris tədbirlərinin təşkil edilməsi, tərəflərin fəaliyyət sahələrinə aid innovativ layihələrin işlənib hazırlanması, təlim və treninq materiallarının mübadiləsi, müxtəlif aktual mövzular üzrə birgə elmi-nəzəri və praktiki tədqiqatların aparılması və sair məsələlər üzrə geniş əməkdaşlığı əhatə edir.



Təməli qoyulan **124 kilometrlik, 6 zolaqlı Horadiz-Zəngilan avtomagistral yolu** Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan ilə birləşdirəcək.

**BU LAYİHƏLƏRİN ÇOX BÖYÜK STRATEJİ ƏHƏMİYYƏTİ VAR.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

# “26 iyun – Silahlı Qüvvələr Günü” münasibətilə Azərbaycan Respublikası Baş Prokurorluğunda nəzərdə tutulmuş tədbirlər çərçivəsində Prokurorluğun gənc əməkdaşları “Hərbi Qənimətlər Parkı”nı ziyarət etmişlər





44 günlük Vətən müharibəsi minilliklərlə tarixi olan Azərbaycan xalqının hərb salnaməsinə yazılmış ən şanlı qələbədir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasət Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdrilərək 30 ilə yaxın azadlıq həsrətilə yanan torpaqlarımızın erməni işğalından azad olunması ilə nəticələndi. Müasir Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunan Qələbə bütün dünyaya Azərbaycan xalqının və silahlı qüvvələrinin iradəsini, əzmini və gücünü nümayiş etdirdi.

Şanlı Qələbəmizin təzahürü olan “Hərbi Qənimətlər Parkı” Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr – 10 noyabr 2020-ci il tarixlərində 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədlərinin, o cümlədən erməni silahlı qüvvələrinin terror niyyətinin və vəhşiliklərinin bütün dünyaya nümayiş olunması məqsədi ilə yaradılmış açıq hava muzeyidir.

2021-ci il iyunun 24-də gəzinti zamanı prokurorluğun gənc əməkdaşlarına şanlı Azərbaycan ordusunun əsgərlərinin qəhrəmanlığı, o cümlədən

ordumuz tərəfindən məhv edilmiş və hərbi qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus müxtəlif tipli hərbi texnikalar, silahlar, döyüş postları və müdafiə sədləri barədə ətraflı məlumat verilmişdir. Həmçinin, gənc prokurorluq işçiləri düşmənin hərbi texnikalarına məxsus nömrələrdən, eyni zamanda düşmən qüvvələrinin Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə və sivil əhaliyə hücumunun ağır nəticələrini özündə əks etdirən foto şəkillərdən ibarət lövhələrlə tanış olmuşlar.

Sonda Baş Prokurorluğun kollektivi xatirə fotoşəkli çəkdirmişdir.







## "26 iyun – Silahlı Qüvvələr Günü" münasibətilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati binasında "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri Vətən Müharibəsinin iştirakçıları ilə görüş keçirmişlər











Vətənin bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən hər bir şəxsə qayğı və dəstəyin göstərilməsi ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzindədir.

İkinci Qarabağ Müharibəsi iştirakçılarının diqqətdə saxlanılması dövlət təşkilatları ilə yanaşı ictimai birliklərin və hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

"26 iyun – Silahlı Qüvvələr Günü" münasibətilə "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin təşkilatçılığı ilə bu gün, 2021-ci il iyunun 24-də Baş Prokurorluğun yeni inzibati binasında Qarabağ Müharibəsi iştirakçıları, qaziləri və döyüşlərdə yaralanmış hərbçiləri ilə görüş keçirilmişdir.

Görüş iştirakçıları burada yaradılmış Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial muzeylə tanış olmuşlar.

Bundan sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin akt zalında tədbir açıq elan edilərək Vətən müharibəsində şəhid olan bütün əsgər və zabitlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunmuşdur. Tədbirdə iştirak edən "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri və Vətən müharibəsinin iştirakçıları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı yenilməz Azərbaycan ordusunun zabit və əsgərlərinin şücaətindən və qəhrəmanlıqlarından danışmışlar.

Tədbirin yekununda Vətən müharibəsi iştirakçılarına İctimai Birlik tərəfindən hədiyyələr verilmiş və xatirə fotoşəkli çəkilmişdir.

# Baş Prokurorluq üzrə hüquqi tənzimetmənin təkmilləşdirilməsi

Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.




Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, eləcə də struktur qurumlar və tabe prokurorluqlar arasında münasibətlər kimi ayrı-ayrı sahələrin müasir tələblər səviyyəsində vahid normativ sənəddə tənzimlənməsini təmin edən Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" 1 avqust 2020-ci il tarixdən qüvvəyə mindikdən sonra onun praktiki əhəmiyyətini hər bir prokurorluq işçisi öz gündəlik fəaliyyətində hiss etmiş, qanunla nəzərdə tutulmuş əsas prinsiplərlə yanaşı prokurorluq orqanlarının fəaliyyətində şəffaflıq, dürüstlük, düzgün idarəçilik, risklərin qiymətləndirilməsi, nəticələrin müvafiq hədəflər üzrə təhlil olunması, funksiyaların fərdiləşdirilməsi, məsuliyyət və cavabdehliyin artırılması, innovativ üsul və təcrübələrin tətbiqi kimi yeni prioritetlər müəyyən etməklə prokurorluq orqanlarının fəaliyyətinin ölkə prezidentinin yüksək tələbləri səviyyəsində daha çevik və dinamik təşkilinə, qulluqda mütərəqqi motivasiya modellərinin tətbiqinə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin sürətləndirilməsinə və bütövlükdə prokurorluq işçilərinin işə münasibətinin müsbət mənada dəyişməsinə səbəb olmuşdur.

"İşin Təşkili Qaydaları"nın tətbiq olunmağa başlandığı gündən etibarən daha da təkmilləşdirilməsi daim Baş Prokurorluğun rəhbərliyinin diqqətində olmuş, bu məqsədlə onun tətbiqi zamanı yaranan praktiki çətinliklər diqqətlə öyrənilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklər daha da təkmilləşdirilməsi məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblilik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq dəyişikliklər edilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na dəyişikliklər edilməsi ilə əlaqədar əsaslandırılmış təkliflərin verilməsi barədə struktur qurumlara, ixtisaslaşdırılmış və tabe prokurorluqlara 2020-ci ilin sentyabr, 2021-ci ilin yanvar, mart aylarında məktublar göndərilmiş, həmçinin Baş Prokurorluğun 23 yanvar 2021-ci il tarixli Geniş Kollegiya iclasının qərarının 14-cü bəndində Qaydaların daha da təkmilləşdirilməsi üzrə müvafiq təkliflərin təqdim edilməsi nəzərdə tutulmuşdur.

Qaydaların təkmilləşdirilməsi üzrə prokurorluğun qurumlarından – Baş Prokurorluğun idarə və şöbələrindən, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsindən, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarından 337, tabe rayon (şəhər) və ərazi hərbi prokurorluqlarından 89, ümumilikdə 426 təklif daxil olmuşdur.

Təkliflər Təşkilat və icraya nəzarət idarəsi tərəfindən ümumiləşdirildikdən sonra Baş prokurorun göstərişinə əsasən onun müavinin rəhbərliyi ilə işçi qrup tərəfindən müvafiq qurumların nümayəndələrinin iştirakı ilə müzakirə edilmiş və ümumilikdə 237 təklif hüquqi ekspertizadan keçirilməsi və qaydalara dəyişikliklər layihəsinin hazırlanması üçün Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinə təqdim edilmiş, digər təkliflərin qəbul edilməsi məqbul hesab edilməmişdir.

Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın prinsiplərinə, tənzimləmə predmetinə, forma və mahiyyətinə uyğunluğu, eləcə də dəyişikliklər edilməsi nəzərdə tutulan normaların qarşılıqlı ziddiyyətsizliyi yoxlanılaraq, müvafiq dəyişiklikləri zəruri edən hallar təhlil edildikdən sonra hazırlanmış 243 bənddən ibarət dəyişikliklər layihəsi təsdiq edilməsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Baş Prokurorluğun 8 iyun 2021-ci il tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilmişdir.

Texniki xarakter daşıyan dəyişikliklər çoxluq təşkil etsə də, prokurorluq orqanlarının və işçilərinin xidməti fəaliyyətinin effektivliyinin yüksəldilməsinə xidmət edən dəyişikliklər əsasən aşağıdakı istiqamətləri əhatə etmişdir:

**1. Prokurorluq işçilərinin xidməti geyim formasından istifadə qaydaları yenilənərək, məcburi istifadə hallarının dairəsi məhdudlaşdırılmışdır;**

Belə ki, dəyişikliyə əsasən, aşağıdakı hallarda prokurorluq işçilərinin xidməti geyim formasında olması məcburidir:

– Azərbaycan Respublikasının bayramlarına həsr olunmuş təntənəli yığıncaqlarda və iclaslarda (tələb olunduğu halda);

– digər rəsmi tədbirlərdə (tələb olunduğu halda);

– 1 Oktyabr – Prokurorluq işçilərinin peşə bayramı gününə həsr olunmuş mərasim və tədbirlərdə;

– Kollegiya iclasları və əməliyyat müşavirələrində;

– məhkəmələrdə prokurorluğu təmsil edərkən;

– xidməti vəzifələrinin icrası ilə əlaqədar kütləvi informasiya vasitələrinə müsahibə verərkən;

– Baş Prokurorluğun qəbul otağında növbədə olan prokuror;

– növbətçi prokurorlar.

Hadisə yerində aparılan istintaq hərəkətləri zamanı prokurorluq işçilərinin üzərində "Azərbaycan Respublikasının Prokurorluğu" qeydi olan xüsusi geyimdə, zəruri hallarda digər istintaq hərəkətləri zamanı isə xidməti geyimdə olması, xidməti geyimdən istifadə məcburi olmayan digər hallarda xidməti vəzifələrin icrası zamanı prokurorluq işçiləri tərəfindən bu Qaydaların müvafiq bəndlərində nəzərdə tutulmuş geyim normalarına riayət edilməsi təsbit olunmuşdur.

**2. Prokurorluq orqanlarının kadr təminatına və peşə hazırlığına dair bir sıra müddəalar təkmilləşdirilmişdir;**

– "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda 27 aprel 2021-ci il tarixli Qanunla edilmiş dəyişikliklər nəzərə alınaraq prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər üçün icbari təlimlərin Baş Prokurorluğun Elm-tədris Mərkəzində keçirilməsi qaydaları təsbit edilmişdir.

– Stajorluq, sınaq müddətlərinin azaldılması ilə əlaqədar Qaydalarda da müvafiq dəyişikliklər edilmişdir.

– Rayon(şəhər), ərazi hərbi prokurorların müavinlərinin 6-cı təsnifatdan 5-ci təsnifat vəzifəyə keçirilməsi ilə əlaqədar olaraq ehtiyat kadr reyestri aparılan vəzifələrin təsnifatlarına da dəyişikliklər edilməklə 3-5-ci təsnifatlar kimi müəyyən edilmişdir.

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli Qərarı ilə "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası" təsdiq edilmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında 2014-cü il 10 fevral tarixli 021-Q nömrəli Qərarı ləğv edilmişdir. Qeyd edilənlərə əsasən Qaydaların Kadrların qiymətləndirilməsi ilə bağlı iki fəsli yeni redaksiyada verilmişdir.

– Prokurorluq işçisi olmayan dövlət qulluqçuları tərəfindən qanun pozuntusu hallarına yol verildiyi təqdirdə, onlar barəsində də xidməti yoxlama və araşdırmanın aparılması proseduru müəyyən edilmişdir.

**3. Prokurorluq orqanlarının maddi-texniki təminatı və əməkdaşların sosial müdafiəsi ilə əlaqədar müddəalar qanunvericilikdəki dəyişikliklərə uyğunlaşdırılmışdır;**

– "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" 27.04.2021-ci il tarixli Qanunun qüvvəyə minməsi ilə əlaqədar Qaydalarda da müvafiq dəyişikliklər edilmiş, o cümlədən Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin üzərinə həbs qoyulmuş əmlakların dəyərləndirilməsi və bu qəbildən olan əmlakların həbsdən azad edilməsinə dair məhkəmə proseslərində prokurorluğu təmsil etmək, Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi ilə birgə büdcədən kənar vəsaitlərin uçotunu aparmaq və bölgüsünə dair təkliflər vermək kimi səlahiyyətləri müəyyən edilmişdir.

– "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 may 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin prokurorların həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətləri 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edildiyindən Qaydaların müvafiq bəndləri fərmana uyğunlaşdırılmışdır.

**4. Cinayət təqibi və ibtidai araşdırmaya prosessual rəhbərlik, habelə prokuror nəzarəti sahəsində bır sıra müddəalar təkmilləşdirilmişdir;**

– Daxili işlər orqanlarının istintaq qurumlarının icraatında olan cinayət işləri barədə hesabatların, eləcə də xitam olunmuş cinayət işlərinin lazımi nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun aidiyyəti idarəsinə göndərilməsi qaydası, eləcə də xitam işlərinin arxivə təhvil verilməsi proseduru təsbit edilmişdir.

– Ölümlə nəticələnən yol-nəqliyyat hadisələri, əmək mühafizəsi qaydalarını pozma və tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozmaya (CM-nin 263, 162 və 222-ci maddələri) dair tabe prokurorluqlarda istintaq olunan cinayət işləri üzrə qanun pozuntuları və əsassız qərarların qəbul edilməsi hallarının vaxtında aşkar edilməsi və onların qarşısının alınması məqsədilə müvafiq olaraq yol-nəqliyyat hadisəsi və texniki təhlükəsizlik ekspertizaları təyin edilməmişdən əvvəl cinayət işlərinin Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarələrində öyrənilməsi qaydası təkmilləşdirilmişdir.

– Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin prokurorlarının cinayət işlərinin ibtidai istintaqını aparmaq səlahiyyətləri dəqiqləşdirilmişdir.

– İstintaq qruplarının uçotu məsələləri tənzimlənmiş və bütün istintaq qruplarının uçotunun Kadrlar idarəsində aparılması müəyyən edilmişdir. Bu məqsədlə istintaq qrupları yaradıldıqdan sonra qısa müddət ərzində müvafiq məlumatların aidiyyəti qurumlar tərəfindən İdarəyə göndərilməsi qaydası təsbit edilmişdir.

– Qanunvericilikdə nəzərdə tutulmuş hallarda şəxsin ekstradisiyası məsələsinə məhkəmələrdə baxılarkən Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokurorlarının iştirakı və zəruri hallarda apelyasiya və kassasiya protestlərinin verilməsi qaydası təsbit edilmişdir.

**5. Cinayət təqibindən kənar icraatlar idarəsinin inzibati xətalara dair işlər üzrə icraata prokuror nəzarəti ilə bağlı səlahiyyətləri inzibati xətalar üzrə qanunvericiliyə edilmiş dəyişikliklərə uyğunlaşdırılmışdır;**

– İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirərkən, xüsusilə bu Qaydalara əlavə edilən siyahıda nəzərdə tutulan cinayətlər üzrə cinayət işinin başlanmasının rədd edilməsi və ya cinayət işi üzrə icraata xitam verilməsi barədə qərar qəbul olunduğu zaman, həmçinin cinayət işi məhkəməyə göndərilərkən tabe prokurorlar tərəfindən təqsirləndirilən şəxsin və ya digər şəxslərin əməlində inzibati xəta hadisəsinin mövcudluğunu göstərən kifayət qədər hallar müəyyən edildikdə, inzibati xəta haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul olunmasının təmin edilməsi, baxılması mərkəzi icra hakimiyyəti orqanlarına və məhkəməyə aid olan inzibati xəta haqqında işlər üzrə isə Cinayət təqibindən kənar icraatlar idarəsi ilə (elektron qaydada) razılaşdırılması qaydası müəyyən edilmişdir.

**6. Hesabatların təqdim edilməsi,** rayon prokurorlarının fəaliyyətlərinin qiymətləndirilməsi və digər məsələlərə dair müddəalar bu sahədə qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılmışdır;

**7. Baş Prokurorluğun Kollegiyası və Kompleks Yoxlama Komissiyasının işinin təşkilinə dair müddəaların tətbiqi zamanı yaranan praktiki çətinliklər aradan qaldırılmışdır;**

– Naxçıvan Muxtar Respublikası, Azərbaycan Respublikası Hərbi və Bakı şəhər prokurorluğu orqanları sisteminə daxil olan tabe prokurorluqların fəaliyyətinin kompleks yoxlanılması ilə əlaqədar təşkil olunan kompleks yoxlama komissiyalarının tərkibinə həmin prokurorluqların mərkəzi aparatlarının işçilərinin də daxil edilməsinə, yoxlama ilə əlaqədar hər hansı xüsusatın dəqiqləşdirilməsi, nöqsan və pozuntuların səbəb və şəraitinin aydınlaşdırılması məqsədilə kompleks yoxlama komissiyasının sədri və ya onun razılığı ilə komissiya üzvü tərəfindən yoxlamanın keçirildiyi prokurorluq işçilərinin izahatının alına bilməsinə dair müddəalar əlavə edilmiş və müəyyən edilmişdir ki, Kompleks yoxlamanın nəticələri Təşkilat və icraya nəzarət idarəsinin rəisi tərəfindən Baş prokurora məruzə edilərək, bir qayda olaraq Baş prokurorun, yaxud onun birinci müavini və ya müavinlərinin yanında keçirilən Əməliyyat müşavirəsində müzakirə olunmaqla aşağıdakı qərarlardan biri qəbul olunur:

– Kompleks yoxlama komissiyasının nəticələri üzrə Xidməti araşdırmalar idarəsində xidməti yoxlama təyin edilir;

– Kompleks yoxlama komissiyasının nəticələri İntizam Komissiyasına təqdim olunur;

– Əməliyyat müşavirəsinin müzakirəsi ilə kifayətlənilir.

**8. Elmi-Məsləhət Şurasının Əsasnaməsinə dəyişiklik edilərək** Şuranın iclaslarının keçirilməsi ilə əlaqədar gündəliklərinin təsdiq edilməsi proseduru, habelə Şuranın nəzdində əsasnaməsi Baş prokuror tərəfindən təsdiq olunan təlim mərkəzlərinin yaradılmasına dair normalar əlavə edilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"na normayaratma fəaliyyətinin mütənasiblilik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq edilmiş dəyişikliklər prokurorluq orqanlarının və işçilərinin fəaliyyətinin effektivliyinin yüksəldilməsinə xidmət etməklə, onun daha çevik və dinamik təşkilinə, işində şəffaflıq və hesabatlılıq prinsiplərinin rəhbər tutulmasına, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin daha da sürətləndirilməsinə və bir sıra digər sahələrdə islahatların dərinləşdirilməsinə zəmin yaradır.

**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi**

# "Azərbaycan Prokuroru" elmi-praktiki hüquqi jurnalının nəşrinə başlanılmışdır






NOTE FROM EDITOR-IN-CHIEF

I would like to present the first edition of the *Azerbaijani Prosecutor Journal*, the official law review journal published by the Prosecutor's Office of the Republic of Azerbaijan. Choosing English as the medium of address, I pursue wider outreach to potential international partners and in the best spirit of openness to new ideas and reforms, following in the footsteps of our leader President Ilham Aliyev.

The Prosecutor's Office of the Republic of Azerbaijan is a constitutional body, which belongs to the Judicial Branch of Power. It plays a pivotal role in shaping the Criminal Law Policy and guarding human rights in Azerbaijan. This institution has an exclusive prerogative of representing the public prosecution in court and state interest in civil matters when the situation so requires.

This publication is symbolic in reflecting the continuous and intensive efforts to develop the prosecutorial work according to the democratic values and principles, and in line with recommendations and expert opinions of the Council of Europe. The new institutional, regulatory, and skill-building measures, which come as part and parcel of the ongoing reform, aim at empowering the individual prosecutors, in order to put them in the center of the system.

For years, the Prosecutor's Office of Azerbaijan, in its institutional capacity, has been contributing to the research and analysis conducted by academia and researchers by providing materials for case studies, statistics, and advice. The Azerbaijani prosecutors reviewed the criminal and non-criminal practice, identified gaps in the regulation and faults in practice only as individual researchers. Therefore it appears to be the right moment to unmake this dichotomy. This Journal aims at building a new environment fostering a research-based approach in the solution of practical dilemmas.

Furthermore, this publication shall provide the forum for sharing ideas and experience not only among prosecutors but among the legal community of Azerbaijan. Our Journal meets the requirements of the highest academic authority in the country and has the potential to reach a wide audience of professionals, academia, and students. The presence of prominent members of international academia in our Editorial Board increases capacity to secure a high academic level of our articles.

I would like to invite law professionals from among judges, prosecutors, and lawyers, as well as researchers and academicians from all parts of the world to join this Forum and share their valuable papers.

*Dr. Kamran Aliyev*
*Editor-In-Chief*
*Prosecutor General of the Republic of Azerbaijan*

6

Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin demokratik dəyərlər və prinsiplər, həmçinin Avropa Şurasının tövsiyələri və ekspert rəyləri əsasında inkişaf etdirilməsi üçün həyata keçirilən davamlı və intensiv tədbirlər sırasında "Azərbaycan Prokuroru" elmi-praktiki hüquqi jurnalının nəşrinə başlanılmışdır.

Azərbaycan, rus və ingiləs dillərində elmi-akademik məqalələri özündə əks etdirən bu nəşr yalnız prokurorlar arasında deyil, həm də Azərbaycanın hüquq ictimaiyyəti arasında fikir və təcrübə mübadiləsi üçün forum təmin edəcəkdir. Jurnal yüsək akademik tələblərə cavab verir və geniş mütəxəssis, akademiya və tələbə auditoriyasını əhatə etmək potensialına malikdir. Redaksiya Şurasında beynəlxalq səviyyəli alimlərin məqalələrin yüksək akademik səviyyəsinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Azərbaycan Prokuroru" jurnalı prokurorluqda praktiki məsələlərin həllində tədqiqata əsaslanan yanaşmanın tətbiq edilməsi üçün zəmin təşkil edən yeni bir mühitin formalaşmasını hədəfləyir.

**Cinayət təqibindən kənar icraatlar idarəsi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Dövlət Gömrük Komitəsi Akademiyasının birgə təşkilatçılığı ilə qısamüddətli təlim təşkil edilib



2020-ci il ərzində ibtidai istintaqı tamamlanmış bəzi cinayət işləri üzrə bəraət hökmlərinin çıxarılmasına – əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumat və materialların, eləcə də təhqiqat dövründə toplanmış araşdırma materiallarının qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməməsi, habelə şəxsi yoxlama və nəqliyyat vasitələrinin yoxlanılmasının qanunvericiliyə uyğun həyata keçirilməməsi əsas olmuşdur. Bu kimi nöqsan və pozuntulara gələcəkdə yol verilməməsi üçün göstərilən sahədə fəaliyyət göstərən əməkdaşların tədris tədbirlərinə cəlb olunmasına, onların əməliyyat-axtarış və təhqiqat sahəsində peşə biliklərinin artırılmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikası Baş prokurorunun 07.05.2021-ci il tarixli 8 №-li Sərəncamına əsasən, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Dövlət Gömrük Komitəsi Akademiyasının birgə təşkilatçılığı ilə Komitənin işçiləri üçün "Gömrük işi sahəsində aşkar edilmiş cinayətlərin rəsmiləşdirilməsi xüsusiyyətləri və bu növ cinayətlər üzrə ibtidai araşdırma aparılmasının aktual aspektləri" mövzusunda qısamüddətli təlim təşkil edilmişdir.

Dinləyicilərin sayının 27 nəfər olduğu və pandemiya ilə bağlı tətbiq edilən karantin rejimi nəzərə alınaraq, təlimin distant formada canlı vaxt rejimində cari ilin may ayının 17-dən 22-dək keçirilməsi qərara alınmışdır.

Təlim çərçivəsində dinləyicilərə "Müasir Azərbaycan Prokurorluğu, onun sistemi, islahatlar və qarşıda duran yeni vəzifələr; Gömrük işi sahəsində prokuror nəzarətinin həyata keçirilməsi xüsusiyyətləri; Aşkar edilmiş hüquqpozma faktları üzrə foto və videoçəkilişdən istifadəyə dair qanunvericilikdən irəli gələn tələblər və videoçəkilişdən istifadə metodikası; Əməliyyat-axtarış tədbirləri və metodları, onların elmi-nəzəri, hüquqi əsasları, praktiki məsələləri və bəzi problemləri; Əməliyyat-axtarış tədbirlərinin təşkili və keçirilməsi ilə bağlı sənədlər, onlara verilən tələblər və nəticələrinin sənədləşdirilməsi; Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayət mühakimə icraatında və digər istiqamətlərdə istifadə edilməsi; Avropa İnsan Hüquqları Məhkəməsinin presedent təcrübəsi üzrə əməliyyat-axtarış fəaliyyəti gedişində əldə edilmiş dəlillərdən sübut kimi istifadə etmənin mümkünlüyü meyarları; Qaçaqmalçılıq və gömrük ödənişlərinin ödənilməsindən yayınma əməllərinin (inzibati və ya cinayət) müəyyən edilməsi xüsusiyyətləri; Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qaçaqmalçılığı ilə bağlı işlər üzrə əməliyyat-axtarış tədbirlərinin tətbiqi metodikası; Aşkar edilmiş hüquqpozma faktlarının araşdırılması zamanı foto və videoçəkilişin aparılma qaydası və taktikası; İbtidai araşdırma zamanı şəxslərin müdafiə hüququnun pozulması kimi qiymətləndirilən hallar; Cinayət işlərinin baxılmasına xitam verilməklə prokurora qaytarılmasına səbəb olan təhqiqat dövründə yol verilmiş kobud pozuntular; Malların və nəqliyyat vasitələrinin yoxlanılması, şəxsi yoxlama və şəxslərin sorğu-sual edilməsi gömrük nəzarəti tədbirləri zamanı yol verilən pozuntular; İcraatın aparıldığı dili (şifahi) və əlifbanı (yazılı) bilməmə ilə bağlı tərcüməçi və mütəxəssisin iştirakının təmin edilməsi xüsusiyyətləri" və sair mövzularda mühazirələr oxunmuş və praktiki məşğələlər keçirilmişdir.

Tədbirə təlimçi qismində Elm-Tədris Mərkəzinin və Gömrük Akademiyasının işçiləri ilə yanaşı Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin, Kriminalistika və informasiya texnologiyaları idarəsinin, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsinin işçiləri cəlb edilmişlər. Təlimlər müasir texnika və texnologiyalardan istifadə etməklə həyata keçirilmiş, təcrübədə istifadə olunması üçün əksər məşğələlərin elektron mətni dinləyicilərə təqdim edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində stajorlar üçün hazırlıq kursu təşkil edilib





Azərbaycan Respublikası Baş Prokurorunun 07.05.2021-ci il tarixli 09 №-li Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarına 2020-ci ildə qulluğa qəbul olunmuş və stajorluq keçən işçilər üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən 2021-ci ilin may ayının 24-dən iyun ayının 4-dək distant formada və canlı vaxt rejimində hazırlıq kursu təşkil edilmişdir.

Hazırlıq kursun tədris proqramı Baş Prokurorluğun "İşin Təşkili Qaydaları", cinayət, cinayət-prosessual, inzibati və presedent hüquqları, kriminologiya və kriminalistika, habelə prokurorluq orqanlarında tətbiq olunan informasiya kommunikasiya texnologiyaları üzrə praktiki və metodoloji bilikləri özündə əks etdirən mövzular üzrə məşğələlərdən ibarət olmuşdur. Tədbirə təlimçi qismində Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və tabe prokurorluqların işçiləri, habelə Ədliyyə və Səhiyyə nazirliklərin mütəxəssisləri cəlb edilmişlər. Ümumilikdə bu tədbirin keçirilməsinə müxtəlif formalarda prokurorluq və digər orqanların 40 nəfərdən artıq işçisi iştirak etmişdir.

Təlimlər müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə həyata keçirilmiş, dinləyicilərin və təlimçilərin bir qismi iş yerindən, təlimçilərin digər hissəsi isə Elm-Tədris Mərkəzində zəruri avadanlıqla təchiz edilmiş xüsusi otaqdan tədbirə qoşulmuşlar, tədris edilmiş əksər məşğələlərin elektron mətni və tezisləri dinləyicilərə təqdim edilmişdir.

Təlimlər uğurla başa çatdıqdan sonra 04.06.2021-ci il tarixdə kursda iştirak etmiş dinləyicilərinin hazırlıq kurs zamanı əldə etdikləri bilik və bacarıqlarının müsahibə yolu ilə qiymətləndirilməsi təşkil edilmişdir. Müsahibə – kurs çərçivəsində tədris edilmiş mövzular üzrə sualların şifahı cavablandırılması, dinləyicilərin biliklərinin məqbul və qeyri-məqbul üsulla qiymətləndirilməsi qaydasında təşkil olunmuşdur.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 13.2-ci maddəsinə və Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 247.4-cü bəndinə müvafiq olaraq müsahibənin göstəriciləri stajorların şəxsi işlərinə əlavə edilməsi üçün Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının 100 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi-praktiki video-konfrans keçirilmişdir





Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının 100 illik yubileyinə həsr edilmiş və 26.05.2021-ci il tarixdə Zoom proqramı vasitəsi ilə keçirilmiş “Müasir dövrdə daxili işlər orqanları üçün kadr hazırlığını həyata keçirən xüsusi təyinatlı ali təhsil müəssisələri: mövcud vəziyyət və perspektivləri” adlı beynəlxalq elmi-praktiki video-konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, Mərkəzin şöbə rəisi Talıb Cəfərov və şöbə prokuroru Çingiz Əli-zadə iştirak etmişlər.

Tədbirə iştirak edən 70 nəfər şəxs sırasında xarici ölkələrin daxili işlər orqanlarının təhsil müəssisələrinin, yerli universitetlərinin və xüsusi təyinatlı ali təhsil müəssisələrinin nümayəndələri olmuşlar.

Konfrans iki hissədən ibarət olmaqla, tədbirin açılışını Polis Akademiyasının rektoru Canpolad Daanov etmiş, tədbir çərçivəsində iştirakçılar Akademiyanın imkanları ilə tanış edilmiş, Mərkəzin rəisi Mübariz Əhmədovun salamlama nitqində peşəkar kadrların hazırlığında xüsusi təyinatlı ali təhsil müəssisələrinin rolu vurğulanmış, tədbirin mövzusu ətrafında hüquq alimlərinin fikirləri eşidilmiş və müzakirələr aparılmışdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Baş Prokurorluğun nümayəndəsi “Yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi” mövzusunda konfransda iştirak etmişdir

10 iyun 2021-ci il tarixdə Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının dəstəyi ilə “Yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi” mövzusunda Zoom proqramı vasitəsilə birgə təşkil edilən elmi video-konfransda iştirak etmişdir.

Hüquq elmi sahəsində görkəmli alimlərin, millət vəkillərinin, akademiya rəislərinin, ictimai xadimlərin, görkəmli hüquqşünasların təmsil olunduğu bu tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, millət vəkili, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, hüquq üzrə elmlər doktoru, professor Ziyafət Əsgərov, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, millət vəkilləri Qüdrət Həsənquliyev və Jalə Əliyeva, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, professor Qulu Novruzov, Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov və digər həmkarlar çıxış etmişlər.

Konfransda Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov “Müasir çağırışlara cavab verən kadr korpusunun formalaşdırılması prokurorluqda aparılan ardıcıl islahatların başlıca hədəflərindən biri kimi” mövzusunda məruzə ilə çıxış edərək, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadrların formalaşdırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat



vermişdir. Məruzəçi prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədi ilə ölkəmizin aparıcı elmi və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün atılan əməli addımlar barədə konfrans iştirakçılarını ətraflı məlumatlandırmışdır.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün qısamüddətli təlim təşkil edilib




Azərbaycan Respublikası Baş prokurorunun “Vergi hüquqpozmaları üzrə məhkəməyədək icraat zamanı sübutların əldə olunmasının, yoxlanılmasının və rəsmiləşdirilməsinin aktual problemləri” mövzusunda qısamüddətli təlimin təşkili haqqında” 11.06.2021-ci il tarixli 10 №-li Sərəncamına əsasən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçiləri üçün Mərkəz tərəfindən carı ilin iyun ayının 21-dən 25-dək distant formada canlı vaxt rejimində təlim keçirilmişdir.

Dinləyicilərin sayı 14 nəfər olmaqla, təlimdə Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin İstintaq və təhqiqat idarəsinin müstəntiqləri və təhqiqatçıları, Əməliyyat idarəsinin rəhbər işçiləri və vergi müfəttişləri, eləcə də Tədris Mərkəzinin elmi işçisi dinləyici qismində iştirak etmişlər. Təlimçi qismində isə təlimə Mərkəzin işçiləri ilə yanaşı, Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, habelə Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin əməkdaşları cəlb edilmişlər.

Kurs çərçivəsində dinləyicilərə “Səyyar və kameral vergi yoxlamasının keçirilməsi qaydaları və vergi yoxlayıcıları tərəfindən bu sahədə yol verilən nöqsanlar; Aksizli malların qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə həyata keçirilən operativ vergi nəzarətinin xüsusiyyətləri; Cinayət işi başlanılanadək təhqiqatçılar tərəfindən həyata keçirilməsi mümkün olan ilkin prosessual hərəkətlər; Əmək müqaviləsi hüquqi qüvvəyə minmədən şəxslərin işə cəlb edilməsi hallarının yoxlanılmasının və ibtidai araşdırmasının xüsusiyyətləri; Əməliyyat-axtarış fəaliyyəti zamanı yol verilən nöqsanlar və onların ibtidai araşdırma üzrə sübutetməyə təsiri; İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsi üzrə əməliyyat-axtarış fəaliyyəti gedişində əldə edilmiş dəlillərdən sübut kimi istifadə etmənin mümkünlüyü meyarları; Təqsirləndirilən şəxs qismində cəlb etmə, təqsirləndirilən şəxslərin dindirilməsinin və üzləşdirmə aparılmasının metodikası; Vergidən yayınma cinayətləri üzrə məhkəmə-mühasibatlıq ekspertizasının təyin edilməsinin xüsusiyyətləri; Vergi borclarının dövlət büdcəsinə ödənilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktlarının qərəzli olaraq icra edilməməsi faktı əsasında aparılan ibtidai araşdırmanın xüsusiyyətləri; Vergi hüquqpozmaları üzrə cinayət təqibinin və eyni faktlar üzrə vergi orqanına qarşı inzibati məhkəmə icraatlarının paralel aparılması zamanı yaranan problemlər; İbtidai araşdırma zamanı şəxslərin müdafiə hüququnun kobud pozuntusu kimi qiymətləndirilən hallar” və sair mövzular üzrə məşğələlər keçirilmişdir.

Tədbir çərçivəsində dinləyicilər Zoom proqramından istifadə qaydasını öyrənmişlər, tədris edilmiş məşğələlərin elektron mətni onlara təqdim olunmuş, təlimin yekunu üzrə müzakirə zamanı dinləyicilər əldə etdikləri bilik və bacarıqlardan razı qaldıqlarını ifadə etmişlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə Hərbi Prokurorluqda tədbir keçirilib

Mayın 8-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə anım mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yaradılmış "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə əklil və gül dəstələri qoyub, dünya şöhrətli siyasətçi-böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Azərbaycan Respublikası Baş prokurorunun müavini, Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasimdə çıxış edərək ömrü boyu qəlbi Vətən sevgisi ilə döyünən, milli-mənəvi dəyərlərə sıx bağlı olan, azadlığa, müstəqilliyə gedən yolumuzu nurlandıran, daim milləti ilə birlikdə olmaqla, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin şəraitdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin beynəlxalq aləmdə və Azərbaycan tarixində rolu, o cümlədən demokratik, hüquqi dövlət quruculuğu və ölkəmizin qüdrətlənməsi istiqamətində həyata keçirdiyi tədbirlər və gördüyü nəhəng işlər barədə ətraflı məlumat verib.

Dahi şəxsiyyətin zəngin və mənalı həyatı, çoxşaxəli fəaliyyəti və misilsiz xidmətlərindən bəhs edən hərbi prokuror qeyd edib ki, şərəfli və mənalı ömür yolunun 34 ilini ölkəmizin rəhbəri kimi dövlətimizin tərəqqisinə və xalqımızın rifahına həsr edən ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli yolları hələ Ulu Öndərin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Bugünkü müstəqilliyimizin əldə olunması məhz həmin dövrdə ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, siyasi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanması istiqamətində istər açıq, istərsə də gizli şəraitdə gördüyü əhəmiyyətli işlər nəticəsində mümkün olub. Azərbaycanın müstəqilliyinin davamlılığı və suveren siyasət həyata keçirməsi, böyük insan Heydər Əliyev tərəfindən möhkəm təməl üzərində qurulub və uğurla davam etdirilmiş dövlətçilik ənənələrinin sayəsində təmin olunub.

Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin istefa verdiyi vaxtdan, yəni, 1987-ci ilin oktyabrından 1993-cü ilin iyununda növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın iflic vəziyyətə düşməsi, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız Ümummilli Liderin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdış ölkəmizin müstəqil dövlət kimi varlığını şərtləndirdi və bununla da vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alındı, respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirildi, separatçı meyillərə son qoyuldu, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görüldü.

Hərbi prokuror Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusunun 30 illik işğala son qoyması, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifini 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğratması və "Dəmir yumruq" əməliyyatının Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatmasından danışaraq şanlı vətən müharibəmizdən bəhs edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xalqa sonsuz inamdan irəli gələn misilsiz sevgidən bəhs edən Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndərin siyasətinin Prezident tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə, Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda hərbi prokuror Xanlar Vəliyev deyib ki, mənalı və fədakar həyatı, çoxşaxəli zəngin fəaliyyəti ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış ulu öndər Heydər Əliyevin əziz və unudulmaz xatirəsi dünya tarixində və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq.


BUGÜNKÜ AZƏRBAYCAN BÜTÜN TARİX BOYUNCA ƏN QÜDRƏTLİ AZƏRBAYCANDIR
və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Vətən müharibəsi iştirakçıları, o cümlədən qazilər ilə görüş  keçirilmişdir



22 iyun 2021-ci il tarixdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü münasibətilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları, o cümlədən qazilər ilə görüş keçirilmişdir.

Əvvəlcə tədbir iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, bütün qazilərə şəfa diləyiblər.

Tədbiri açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasim iştirakçılarını Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü münasibətilə təbrik edərək onlara xoş arzularını bildirdi. Hərbi prokuror qeyd etdi ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin yüksək erudisiyası, müdrik düşüncəsi, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və 44 günlük döyüş əməliyyatlarına rəğmən, dövlətimiz hərtərəfli qüdrətlənir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin edilir. Hərbi prokuror Xanlar Vəliyev həmçinin bildirdi ki, ölkəmizin hərtərəfli inkişaf edərək daha da qüdrətlənməsində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, son illər Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilmiş, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılmış, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılmış, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşmışdır. Təsadüfi deyildir ki, ötən illərdə olduğu kimi “Global Firepower” hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatında da Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlamışdır. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirmiş və nəticədə düşmənin 27 sentyabrdan başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək zəfərlərimizi və 44 günlük haqq savaşındakı tarixi qələbəmizi təmin etmişdir. Vətən müharibəsindən, qazanılan möhtəşəm qələbədən bəhs edən Xanlar Vəliyev Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğuladı. Millətinə



xidməti həyat amalına çevirmiş cənab İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu xüsusi vurğulayan Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, müasir Azərbaycanın tarixinə ən uğurlu il kimi düşən 2020-ci ildə müdrik rəhbər hərbi və siyasi-diplomatik yolla ölkəmizin tarixi ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirdi. Vətən müharibəsindəki misilsiz qələbəmiz ölkə başçısının yürütdüyü siyasətin alternativsiz olduğunun növbəti təzahürüdür.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev həmçinin qeyd etdi ki, müharibə əlillərinin və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin prioritet istiqamətlərindən olmuş, bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Qürurverici və sevindiricidir ki, ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilmiş, onlar müxtəlif növ dövlət təminatı ilə təmin edilmişlər. Bu diqqət və qayğının təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Son illərdə ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilmiş və bu istiqamətdə işlər uğurla davam etdirilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də, şəhid ailələri üçün verilən prezident təqaüdünün artırılması məqsədi ilə qısa zaman ərzində ölkə rəhbərinin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu zümrədən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək göstəricisi olmuşdur. Təsadüfi deyil ki, dövlət başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mütəmadi olaraq şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təzahürüdür.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğuladı ki, Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi üçün mübarizəyə qalxmaqla mərdlik göstərmiş, əlil olmuş şəxslərə və canlarını qurban verməklə şəhidlik zirvəsinə ucalmış vətən övladlarının ailələrinə mənəvi və maddi dəstək göstərilməsi üçün tədbirlər müntəzəm olaraq davam etdirilir. Bu müqəddəs missiyanın həyata keçirilməsində prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları da iştirak edir və bundan sonra da iştirak edəcəklər.

Sonra Hərbi prokuror Xanlar Vəliyev Vətən müharibəsində iştirak etməklə xidməti vəzifələrini layiqincə icra edən şəxslərə öz dərin təşəkkürünü bildirərək qeyd etdi ki, cənab Prezidentin müvafiq sərəncamları ilə Vətən müharibəsi iştirakçılarının müxtəlif orden və medallarla təltif olunması onların xidmətinə dövlət səviyyəsində verilən yüksək dəyərin təcəssümüdür.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin inspektorlar qrupunun inspektoru, ehtiyyatda olan polkovnik Abdulla Qurbani Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi ilə birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs etdi. Ardınca Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun kollektivinə öz dərin minnətdarlığını bildirdi.

Sonda Vətən müharibəsində iştirak edən şəxslərə hədiyyələr təqdim edildi, Vətən müharibəsi iştirakçıları isə onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirdilər. Ardınca çay süfrəsində səmimi söhbətlər aparıldı və Vətən müharibəsinin unudulmaz təəssüratları xatırlandı.

# Tələbələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun iş prinsipləri ilə tanış olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının I və II kurs tələbələrinin iştirakı ilə tədbir keçirilib.

Aprel ayının 21-də Naxçıvan Dövlət Universitetin bu ixtisas üzrə 1 və 2-ci kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının prokuroru II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq Ali Məclis Sədrinin hamiliklə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən, eləcə də 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görüləcək işlərdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinin rəisi ədliyyə müşaviri Pərviz Zülfüqarov çıxış edərək bildirib ki, gənclərin dövrümüzlə uzlaşan yeni biliklərinin, onlara məxsus innovativ ideyaların istehsalatda geniş tətbiqi qabaqcıl ölkələrin həm iqtisadi, həm də siyasi maraqları ilə üst-üstə düşür. Qeyd olunub ki, bununla bağlı 2019-cu il aprel ayının 15-də keçirilən müşavirədə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi, hami təşkilatlar tərəfindən layihələri dəyərləndirəcək ekspert qrupların yaradılması, startapların qəbulu və təqdimatlarının keçirilməsi kimi qarşıya mühüm vəzifələr qoyulub. Sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda da ekspert qrupu yaradılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları ədliyyə müşaviri Anar Məmmədov və I dərəcəli hüquqşünas Turqay Həşimli çıxış edərək prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, bu istiqamətlər üzrə həyata keçirilə biləcək startap layihələrinin önəmindən, cəmiyyətə faydasından söhbət açıblar.





Naxçıvan Dövlət Universitetinin əməkdaşı, hüquq üzrə fəlsəfə doktoru Qəhrəman Behbudov çıxışında belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Sonra tələbələr istintaq hərəkətlərinin aparılmasından və startap layihələrindən bəhs edən slayda baxıblar, onların "İdeyadan başlanğıca" devizi altında irəli sürdükləri layihələr dinlənilib. Həmçinin tələbələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kriminalistik avtomaşının iş prinsipini öyrəniblər.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 98 illik yubileyinə həsr olunmuş tədbir keçirilib



May ayının 8-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 98 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev məruzə ilə çıxış edərək qeyd etdi ki, 10 may günü Azərbaycan xalqının taleyində və tarixində hər zaman fəxrlə yad edilən bir gündür. Ona görə ki, xalqımızın ümummilli lideri, böyük dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev 1923-cü ilin bu günündə dünyaya gəlmişdir. Azərbaycan tarixinin ən böyük şəxsiyyəti kimi şərəfli ömür yolunu xalqının nicatına həsr edən ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmaqla xalqımızı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanmışdır. Dərin zəkası, liderlik qabiliyyəti, milli ideallara sıx bağlılığı, məharətli idarəçilik qabiliyyəti, zəngin mənaviyyatı ilə hər zaman xalqının sevimli şəxsiyyəti olmuş Ulu Öndər bu zirvəyə siyasi hakimiyyətə gəldiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə qarşı apardığı prinsipial mübarizə ilə yüksələ bilmişdir.

Qeyd olundu ki, siyasi tariximizin 35 ilə yaxın bir dövrü ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Böyük şəxsiyyət Heydər Əliyevin mənalı həyat yolu və fəaliyyəti tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəcilik məktəbidir. Ulu öndər Azərbaycan xalqının və dovlətinin milli maraqlarını hər şeydən uca tutan, onu ümummilli məqsədlər naminə səfərbər etməyi bacaran lider, dahi rəhbər idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilərək Azərbaycan müstəqilliyə qovuşmuşdur. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır",– deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, milli dövlətçiliyin konsepsiyasını yaratmışdır. Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə doğma Vətəninin və xalqının adını əlçatmaz zirvələrə ucaldan ulu öndər Heydər Əliyev daim böyük qürur hissi ilə deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam."

1969-cu ildə ölkəmizə rəhbər seçilən ulu öndər Heydər Əliyev o dövrdə Azərbaycanda mövcud olan problemləri müəyyən edərək onların tezliklə aradan qaldırılması yollarını araşdırmış, qısa bir zamanda mühüm qərarlar vermiş və əməli tədbirlər həyata keçirmişdir. 1969-1982-ci illər Azərbaycan tarixinə yüksəliş, tərəqqi və inkişaf dövrü kimi daxil olmuşdur. Həmin dövrün ən böyük uğurlarından biri də milli şüurun oyanışı istiqamətində həyata keçirilən tədbirlərdir. Çünki bunsuz sosial-iqtisadi inkişafa nail olmaq, müstəqilliyə zəmin hazırlamaq mümkün deyildi. Keçmiş sovetlər məkanında, sovet ideologiyasının kifayət qədər güclü olduğu bir dövrdə Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması,

xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız və yalnız ulu öndər Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı cəsarətli bir dövlət xadimi, böyük iradə sahibi olan siyasi lider reallaşdıra bilərdi. Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirdiyi tədbirlər gələcək müstəqillik dövrünə hazırlıq xarakteri daşıyırdı və bütün bunlar həyata keçirilməsəydi, ölkəmiz müstəqil dövlətçilik şəraitində özünü qoruyub-saxlaya və inkişaf edə bilməzdi.

Qeyd olundu ki, Azərbaycanın xilası da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu böyük şəxsiyyət hər zaman Azərbaycançılıq uğrunda xidmətlərini davam etdirmiş, həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə o zamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham etmişdi. Bu bəyanatdan sonra ümummilli liderimizin Moskvada yaşaması mümkün olmadı. Ulu öndər 1990-cı il iyulun 20-də Bakıya gəldi. İyul ayının 22-də isə doğma Naxçıvana qayıtdı. Və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ulu öndərimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın qədim diyarı Naxçıvandır. Xalqımızın böyük oğlunun 1990-cı il iyul ayının 22-də Moskvadan Naxçıvana qayıdışı Azərbaycanın qurtuluş tarixinin parlaq səhifəsini təşkil etmişdir.

Qeyd olundu ki, Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə ulu öndər Heydər Əliyevin insan hüquq və azadlıqlarının hərtərəfli müdafiəsi, hümanizm və ədalət prinsiplərinin möhkəmləndirilməsi dövlətçilik siyasətinin əsas mahiyyəti təşkil etmişdir. Mühüm dövlət təsisatı kimi Prokurorluq orqanlarının sivil və demokratik məzmunlu bir qurum kimi formalaşması yalnız ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı dahi rəhbər Heydər Əliyevin böyük dövlətçilik siyasəti, gündəlik qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var-o da təməli 1969-cu ildə qoyulan inkişafın Heydər Əliyev modeli, Heydər Əliyevin quruculuq xəttidir. "Azərbaycan dünyaya Günəş kimi doğacaq",– deyən ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanı lider dövlətə çevirərək xalqımızı daha işıqlı sabahlara doğru aparmaqdadır. Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ulu öndərimizin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası onun layiqli varisi-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğur və inamla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinmə izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır."

Vurğulandı ki, bu gün Heydər Əliyev siyasi yolunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi cəhətdən güclü, siyasi cəhətdən tam müstəqil dövlətə çevrilmişdir. Regional və beynəlxalq müstəvidə böyük nüfuz qazanmış Azərbaycan bütün sahələr üzrə Cənubi Qafqazın lider dövlətinə çevrilməklə, həm də 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Azərbaycanın gündən-günə artan nüfuzu, iqtisadi və siyasi imkanları uzun illərdir, işğal altında saxlanılan torpaqlarımızın azad olunmasına da imkan vermişdir. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu tamamilə məhv edən Azərbaycan Silahlı Qüvvələri düşməni kapitulyasiya aktını imzalamağa məcbur edərək tarixi ədalətin bərpasına nail olmuşdur. Həyata keçirdiyi əməliyyatlarla bütün dünya ölkələrini heyran edən Azərbaycan regionda yeni reallıqlar yaradaraq 30 ilə yaxındır, blokadaya salınan Naxçıvan Muxtar Respublikasının da Ana Vətənlə kommunikasiya əlaqələrinin bərpasının yolunu açmışdır. Azərbaycanımızın ayrılmaz hissəsi olan, Heydər Əliyev ideyalarının sarsılmaz sədaqətlə davam etdirildiyi Naxçıvan Muxtar Respublikası bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Qədim diyarımız uzun illərin blokada şəraitinə baxmayaraq, iqtisadiyyatın dinamik inkişafı, sabitlik, əhalinin həyat səviyyəsinin yüksəlməsi və digər istiqamətlər üzrə böyük nümunə ortaya qoy-

muşdur. Ölkə başçısının qətiyyəti və şəxsi təşəbbüsü ilə 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladıqları birgə Bəyanata salınmış xüsusi bənd isə bu qədim diyarı Zəngəzur dəhlizi vasitəsilə Şərq-Qərb beynəlxalq tranzit qovşağına çevirir.

Qeyd olundu ki, müstəqilliyinin bərpasından sonra Azərbaycanın bu qədər böyük nailiyyətlər əldə etməsinin yeganə səbəbi atılan hər bir addımın Heydər Əliyev ideyaları ilə bilavasitə bağlı olmasıdır. Məhz bu ideyaların qətiyyətlə, həm də layiqincə davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının nüfuzu, strateji çəkisi hər keçən gün daha da artır. Azərbaycanın bu günkü və gələcək nəsillərinin ulu öndər Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahi naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

Sonda əminliklə ifadə edildi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasınada bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcəkdir.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları muzeydə olmuşlar



Muzeylər tariximizin və mədəniyyətimizin təkcə saxlanc yeri deyil, həm də təbliğ edildiyi məkanlardır. Bir xalqın sahib olduğu muzeylərin zənginliyi həmin xalqın tarixinin və mədəniyyətinin zənginliyindən xəbər verir. Elə bu məqsədlə də Naxçıvan Muxtar Respublikasında mərkəzi icra hakimiyyəti orqanları üçün "Muzey günləri" tərtib olunub. "Muzey günləri"ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Muxtar Respublika ərazisində fəaliyyət göstərən muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar. Bu tədbirin keçirilməsində məqsəd Muxtar Respublikada fəaliyyət göstərən muzeylərlə ictimaiyyət arasında əlaqənin möhkəmləndirilməsindən, görkəmli şəxsiyyətlərimiz, qədim tariximiz və zəngin mədəni irsimiz haqqında kollektivləri məlumatlandırmaqdan ibarətdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları da Muxtar Respublikada keçirilən "Muzey günləri"ndə yaxından iştirak edirlər. Prokurorluq əməkdaşları aprel ayının 24-də Cəmşid Naxçıvanskinin ev muzeyində olmuşlar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

Azərbaycan Respublikasında həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi əlverişli, şəffaf və cəlbedici vergi mühitinin formalaşdırılması, eləcə də vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Eyni zamanda, bu sahədə mövcud olan korrupsiya və digər hüquqpozmalara qarşı mübarizə istiqamətində də prokurorluq orqanları tərəfindən məqsədyönlü və ardıcıl tədbirlərin görülməsi davam etdirilir.

Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşının vergi və dövlət rüsumlarını qəsdən azaldaraq mənimsəməsi və digər bu kimi qanunsuz hərəkətləri barədə həmin dövlət qurumundan daxil olmuş materiallar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işinin istintaqı aparılmışdır.

Aparılmış istintaqla müəyyən edilmişdir ki, Əbdürəhimov Mahir Şahbaz oğlu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 2 saylı Ərazi Vergilər Baş İdarəsinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi vəzifəsində işləyərkən müxtəlif ünvanlarda şəxsən və qeyriləri vasitəsi ilə ümumilikdə 393 nəfərdən ibarət ayrı-ayrı vergi ödəyicilərinin ödənişlərini onların adından daha sürətli və ödəyicilər üçün rahat şəkildə dövlət büdcəsinə ödəyəcəyini bildirməklə aldığı cəmi 820 min manat təşkil edən pul vəsaitlərini büdcəyə ödəmədən şəxsi ehtiyaclarına sərf etmiş, habelə törətdiyi cinayət əməllərini gizlətmək məqsədilə eyni məbləğdə ödənilmiş vergi və dövlət rüsumlarını azaldaraq həmin şəxslərin şəxsi hesab vərəqələrində əks etdirməklə işlədiyi dövlət qurumunun rəsmi informasiya resursu hesab olunan proqram təminatına yalan məlumatlar daxil etmişdir.

Bundan başqa, Mahir Əbdürəhimovun həmin vəzifədə işləyərkən öz xidməti vəzifəsini lazimi qaydada yerinə yetirməməklə etdiyi səhlənkarlıq nəticəsində 62 nəfər ayrı-ayrı vergi ödəyicilərinin vergi qismində ödədiyi ümumilikdə 66 min manat pul vəsaiti İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə ödənilməmişdir.

Həmçinin, o, həmin vəzifədə işləyərkən qeyd edilən mənimsəmə və digər qanunsuz əməllərini gizlətmək məqsədilə həmin ödənişlərin qeydiyyatının aparıldığı qurumdaxili informasiya resursu hesab olunan proqram təminatında guya nöqsanların olması görüntüsü yaratmaqla ümumilikdə 187 min manat məbləğində pul vəsaitini digər şəxslərin adından edilən ödəniş kimi göstərməklə düzəlişlər aparmışdır.

Qeyd edilən qanunsuz əməlləri ilə Mahir Əbdürəhimovun külli miqdarda əmlakı mənimsəmə yolu ilə talamasına, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin qanunla qorunan mənafelərinə vahid niyyətlə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına, ağır nəticələrə səbəb olan səhlənkarlıq etməsinə və vəzifə saxtakarlığına yol verməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) və 314.2-ci (ağır nəticələrə səbəb olan səhlənkarlıq) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmiş, cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

İş üzrə ibtidai istintaq zamanı vurulmuş maddi ziyandan 271 min manatının ödənilməsi təmin edilmişdir.

***

Ölkəmizdə sahibkarlığın inkişafı sahəsində yaradılmış şəffaf və rəqabətqabiliyyətli mühitdən sui-istifadə etməklə vətəndaşların hüquqlarını pozan fiziki və hüquqi şəxslərə qarşı prokurorluq orqanları tərəfindən hüquqi tədbirlərin görülməsi davam etdirilir.

Belə tədbirlərdən biri kimi, “Avangard Travel” MMC-nin direktoru vəzifəsində işləmiş Nağıyeva Yeganə Ələddin qızı və həmin şirkətin təsisçisi Nağıyev Ədalət Tağı oğlunun vəzifə səlahiyyətlərinin icrası zamanı qanun pozuntularına yol vermələri barədə Baş Prokurorluğun rəsmi instaqram səhifəsində keçirilən “sual-cavab” sessiyası zamanı daxil olmuş çoxsaylı vətəndaş müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq aparılmışdır.

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə qeyd olunan vəzifədə işləyərkən Yeganə Nağıyevanın əri Ədalət Nağıyev ilə birlikdə özlərini turizm sahəsində uzun müddət ərzində işləyən peşəkar şəxslər kimi təqdim edib birgə biznes fəaliyyəti quraraq yüksək gəlir əldə edəcəkləri barədə yalan vəd verilməsi yolu ilə ümumilikdə 16 şəxsə cəmi 2 milyon 583 min manat məbləğində ziyan vuraraq dələduzluq etmələrinə dair əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Yeganə Nağıyevanın Ədalət Nağıyev ilə qabaqcadan əlbir olaraq 2019-2020-ci illər ərzində ayrı-ayrı ölkələrə səyahət etmək üçün şirkətə müraciət edən ümumilikdə 73 vətəndaşı tur paketləri və avia-biletlərin guya adi və güzəştli şərtlərlə satışının həyata keçirilməsi adı ilə aldadaraq həmin şəxslərin cəmi 652 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Habelə, Yeganə Nağıyevanın Ədalət Nağıyev ilə birlikdə 2020-ci ilin iyun ayında xarici ölkədən mobil telefonlar alıb ölkə ərazisində sataraq birgə qazanc əldə edəcəkləri adı ilə vətəndaşdan 6 min 900 manat məbləğdə pul vəsaitini alıb öz aralarında bölüb şəxsi ehtiyaclarına sərf edərək təkrarən dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilən faktlarla bağlı hər iki şəxs Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 178.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə Yeganə Nağıyeva barəsində məhkəmənin qərarı ilə həbs, Ədalət Nağıyev barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilmiş, cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün Bakı Ağır Cinayətlər məhkəməsinə göndərilmişdir.

İbtidai istintaq dövründə vurulmuş ziyandan 902 min manat vəsaitin ödənilməsi təmin edilmiş, həmçinin məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs Ədalət Nağıyevə məxsus 203 min manat dəyərində daşınmaz əmlak üzərinə həbs qoyulmuşdur.

Eləcə də, hüquqi şəxs "Avangard Travel" MMC barəsində həmin məcəllənin 308.2-ci maddəsinə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair icraata başlanılmışdır.

***

Koronavirus pandemiyasının yayılmasının qarşının alınması məqsədi ilə ölkəmizdə aparılan genişmiqyaslı vaksinasiya prosesinə qarşı yönəlmiş qanunsuz əməllərə qarşı prokurorluq orqanları tərəfindən kompleks mübarizə tədbirləri davam etdirilir.

Bəzi kütləvi informasiya və sosial media səhifələrində tibb bacısının aparılan vaksinasiya prosesi zamanı vətəndaşa peyvəndi vurma görüntüsü yaratması, əslində isə peyvəndi vurmayaraq israf etməsi ilə bağlı videogörüntülər yayılmışdır.

Qeyd edilən faktla bağlı İcbari Tibbi Siğortadan daxil olmuş material üzrə Baş Prokurorluğun Cinayət Təqibindən Kənar İcraatlar İdarəsində aparılmış araşdırma zamanı 21.04.2021-ci il tarixdə Bakı şəhəri, Xəzər rayonu ərazisində yerləşən 26 nömrəli orta məktəbdə COVİD-19 pandemiyası əleyhinə vaksinasiya prosesi həyata keçirilərkən, 4 nömrəli Bakı Şəhər Xəstəxanasının Xəzər rayon dairəsinin tibb bacıları Kərimova Təbəssüm Hümmət qızı və Məmmədyarova Südabə Əhmədşah qızı tərəfindən qanun pozuntusuna yol verilməsi müəyyən edilmişdir.

Belə ki, peyvəndlənmə üçün müraciət etmiş şəxs - Gözəlov Samir Arif oğlunun qanunsuz təklifi əsasında tibb bacısı tərəfindən peyvəndin şprisə doldurulmaqla vurma görüntüsü formalaşdırılmış, həmin şəxs peyvəndlənmiş şəxs kimi qeydə alınmış və dövlət hesabına alınaraq pulsuz şəkildə əhaliyə vurulan peyvənd təyinatı üzrə istifadə edilməyərək israf edilmişdir.

Qeyd olunan şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 211.1 (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) və 227-ci (xırda talama) maddələri ilə inzibati xəta haqqında icraatlar başlanılaraq aidiyyəti üzrə baxılması üçün məhkəməyə göndərilmişdir.

Xəzər rayon məkməməsinin qərarı ilə Samir Gözəlova 30 gün müddətinə inzibati həbs, Südabə Məmmədyarovaya 200 saat ictimai iş, Təbəssüm Kərimovaya isə 400 manat cərimə tənbehləri tətbiq edilmişdir.

***

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə #gununreqemi həştəqi ilə məlumatlar yerləşdirilir.

Bu rəqəm "295"-dir. Belə ki, 2021-ci ilin yanvar-mart ayları ərzində prokurorluq orqanları tərəfindən 295 cinayət işinin istintaqı tamamlanmışdır.

Prokurorluq orqanlarının fəaliyyətindəki bu və ya digər yeniliklərdən xəbərdar olmaq üçün sosial şəbəkə səhifələrinin izlənilməsi tövsiyə olunur.

***

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən Ukrayna Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü ekstradisiya edilməsi barədə sorğu edilmişdir.

Belə ki, Şamaxı rayon polis şöbəsinin istintaq bölməsinin icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Ömərzadə Zahid Xandadaş oğlunun – 2014-2015-ci illər ərzində ayrı-ayrı şəxsləri müxtəlif işlərə düzəltmək adı ilə onlardan xeyli miq-

darda pul vəsaitini alaraq etibarlarından sui-istifadə edib aldatma yolu ilə dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Zahid Ömərzadə barəsində beynəlxalq axtarış elan edilmişdir.

Axtarışda olan şəxsin yerinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun Ukrayna Baş Prokurorluğuna etdiyi sorğu təmin edilməklə Zahid Ömərzadə 11.05.2021-ci il tarixdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya edilmişdir.

***

Ermənistanın silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini kobud şəkildə pozmaqla ərazilərimizi minalayaraq vətəndaşlarımıza qarşı cinayət əməllərini davam etdirir.

Belə ki, 4 iyun 2021-ci il tarixdə saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu “Kamaz” markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər – Sirac Abışov (Az TV telekanalının operatoru), Məhərrəm İbrahimov (Azərtac xəbər agentliyinin əməkdaşı), Arif Əliyev (RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini) həlak olmuş, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almaqla xəstəxanaya yerləşdirilmişlər.

Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, məhkəmə-tibb ekspertizası təyin edilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanılmışdır.

Hazırda intensiv istintaq-əməliyyat hərəkətləri həyata keçirilir.

***

2021-ci il yanvarın 27-də Nəsimi rayonu 4-cü mikrorayon ərazisində yerləşən məişət tullantılarının atılması üçün nəzərdə tutulmuş zibil qutularında doğranmış vəziyyətdə naməlum qadın meyitinin hissələrinin aşkar edilməsi faktı ilə bağlı Nəsimi rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə başlanmış cinayət işi üzrə istintaqın aparılması Baş Prokurorluğun rəhbərliyinin göstərişinə əsasən Baş Prokurorluğun İstintaq idarəsində tapşırılmışdır.

İstintaqla İdris Məhərrəmovun onunla eyni ünvanda yaşayan gəlini Banı Məhərrəmovanı küt alətlə baş nahiyəsindən vurmaqla, daha sonra kəsici-deşici alətlə bədəninin müxtəlif nahiyələrindən xəsarətlər yetirməklə xüsusi amansızlıqla qəsdən öldürməsinə, daha sonra meyiti hissələrə ayırmaqla meyit üzərində təhqiredici hərəkətlər etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

İdris Məhərrəmov Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və 245-ci (meyit üzərində təhqiredici hərəkətlər etmə) maddələri ilə təqsirləndilirən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

***

Bəzi kütləvi informasiya vasitələrində Gəncə Hava Limanında Gəncə-Sankt-Peterburq aviareysi ilə səyahət etmək istəyən sərnişinlərin koronavirus infeksiyasının müayinəsinə dair “Leyla Medical Center” və “Oxygen” klinikasından verilən tibbi arayışların saxta olması barədə informasiyalar yayılmışdır.

Prokurorluqda aparılan araşdırma zamanı müəyyən edilmişdir ki, “ƏSR” və “Arkan Tour” MMC-nin vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə 96 nəfər şəxsin Gəncə Beynəlxalq Hava Limanından Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səyahət etməsini təşkil etmək məqsədilə “Oxygen” və “Leyla Medical Center” klinikalarının məlumatı olmadan həmin tibb müəssisələrinin adından tərtib edilmiş neqativ test nəticələri ilə bağlı saxta sənədlərin əldə edilməsinə və həmin saxta sənədlərin sərnişinlərə müəyyən məbləğdə pul vəsaiti müqabilində təqdim edilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilənlərlə bağlı fakta görə “ƏSR” və “Arkan Tour” MMC-nin vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 320.1-ci (rəsmi sənədləri saxtalaşdırma) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda cinayət işinin istintaqı davam etdirilir.

***

Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının

işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Belə ki, bir sıra kütləvi informasiya vasitələri və sosial media səhifələrində Ermənistan Respublikasına və oradan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qaçaq yolla xüsusilə külli miqdar dəyərində silah sursatların, hərbi texnikanın qanunsuz olaraq daşınması barədə dərc edilmiş məlumatlar üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda araşdırma aparılmışdır.

Müəyyən edilmişdir ki, biznes fəaliyyəti ilə məşğul olan, "Taşir" şirkətlər qrupunun rəhbəri Karapetyan Samvel Sarkisoviç, Ermənistanda "boz biznesmen" kimi tanınan və "Royalsys Engineering" şirkətinin sahibi David Qalustyan, "KOMEX" şirkətinin baş direktoru Abramyan Ara Arşaviroviç və qeyriləri Ermənistanın işğalçı siyasətinin dəstəklənməsi məqsədi ilə Silahlı qüvvələrini qanunsuz olaraq silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz edilməsi üçün 2001-2021-ci illər ərzində müxtəlif vaxtlarda hava yolu ilə "Beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasının, "Avropada Adi Silahların Məhdudlaşdırılması" haqqında Müqavilənin tələblərinə zidd olmaqla müxtəlif reyslərlə uçan sərnişin təyyarələri, habelə Ermənistan Hərbi Hava Qüvvələrinin İL-76 TD tipli yük təyyarəsi ilə, eləcə də Ara Abramyan tərəfindən alınmış "İLYUSHİN-76TD" tipli, yük daşıma təyinatlı təyyarə ilə - ayırdıqları maliyyə vəsaiti hesabına hərbi təyinatlı iri çaplı odlu silah, döyüş sursatı, hərbi təyinatlı partlayıcı maddələr və qurğuları, o cümlədən raketləri qanunsuz əldə edib Ermənistan Respublikasına və Ermənistanın işğalına məruz qalmış Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf rayonlarına qaçaq yollarla daşınmasını təşkil etmişdir.

Faktla bağlı 28 aprel 2021-ci il tarixdə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilmişdir.

Qeyd edilən əməllərə görə Karapetyan Samvel Sarkisoviç, David Qalustyan və Ara Abramyan CM-nin 100.1 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama), 218.1 (ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə mütəşəkkil dəstə tərəfindən törədildikdə), 279.1 (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə), 206.4-cü ( qaçaqmalçılıq mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilməklə beynəlxalq axtarış elan edilmişdir.

Hal-hazırda qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən xarici ölkələrin aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatətlər göndərilmişdir.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlərin görülməsi davam etdirilir.

***

İyunun 04-də Tibbi Sosial Ekspertiza Komissiyasının ekspert həkim-nevropatoloqu Leyla Seyidovaya əlillik müddətinin bitməsi ilə bağlı komissiyadan keçirilən Şamayıl Mustafayev tərəfindən xəsarət yetirilməsi faktı ilə bağlı Bakı şəhəri Binəqədi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılmışdır.

Belə ki, istintaqla Şamayıl Mustafayevin ƏƏSMN-nin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əyani müayinə otağında heç bir əsaslı səbəb olmadan ictimai qaydanı kobud surətdə pozub, cəmiyyətə açıqca hörmətsizlik ifadə edərək Tibbi Sosial Ekspertiza Komissiyasının ekspert həkim-nevropatoloqu Leyla Seyidovanın üzərinə hücum edərək yumruq zərbələri ilə qəsdən sağlamlığa yüngül zərər vurduğu və Leyla Seyidovanı onun əlindən ayırmaq istəyən həmin komissiyanın ekspert həkim-oftalmoloq Yusif Bənanyarlıya qarşı müqavimət göstərərək dərəcəsi təyin edilməyən xəsarət yetirdiyi müəyyən edilmişdir.

Qeyd edilənlərlə bağlı Şamayıl Mustafayev Cinayət Məcəlləsinin 221.2.2-ci (ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə xuliqanlıq) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilmişdir. Cinayət işi baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilmişdir.


ZƏNGİLAN ŞƏHƏRİNDƏ YERLƏŞƏN MƏSCİDİN YENİDƏN BƏRPASI, KONSERVASİYASI İŞLƏRİNƏ START VERİLİR. AĞDAM CÜMƏ MƏSCİDİNİN BƏRPASI İLƏ ƏLAQƏDAR HAZIRLIQ İŞLƏRİ GEDİR.
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Baş prokuror Fransanın ölkəmizdəki səfiri ilə görüşüb



Aprelin 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Fransa Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Fransa arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışıb.

Baş prokuror otuz ilə yaxın dövrdə Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Kamran Əliyev Ermənistanın silahlı qüvvələri tərəfindən ölkəmizin mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı Baş Prokurorluğun təşkil etdiyi brifinq və mətbuat konfranslarında Fransa Səfirliyinin iştirakına görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Zakari Qros ikitərəfli münasibətlərə toxunaraq Fransanın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Zakari Qros regionda bundan sonrakı dövrdə sülhün və əmin-amanlığın bərqərar olacağına ümidvar olduğunu bildirmişdir.

Səfir mülki əhaliyə və hərbçilərə qarşı törədilmiş qəddarlıqları qətiyyətlə qınadığını qeyd edərək, tərəfləri bu məsələləri araşdırıb təqsirkar şəxslərin cəzalandırılmasına çağırmışdır.

Həmçinin vurğulanıb ki, Fransa hökuməti beynəlxalq humanitar təşkilatlara dəstək verməklə işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında, maddi-mədəni irsin bərpasında iştirak etmək üçün hazırdır.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin tövsiyə və tapşırıqlarına uyğun olaraq prokurorluqda aparılan genişmiqyaslı islahatlar, prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun yaradılmış yeni idarələr, beynəlxalq təhlükəsizlik və terrorizmə qarşı mübarizədə dövlətimizin göstərdiyi səylər, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən institusional və cinayət təqibi tədbirləri qeyd edilərək, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığın digər ağır formaları ilə mübarizə sahəsində beynəlxalq qurumlarla, o cümlədən







digər ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə hər iki ölkənin hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər ətrafında müzakirələr aparılmışdır.

Daha sonra prokurorluq əməkdaşları arasında təcrübə mübadiləsinin aparılmasını təmin etmək məqsədilə Tvinninq və Avropa İttifaqının digər texniki yardım proqramları çərçivəsində qarşılıqlı səfər və görüşlərin keçirilməsinin vacibliyi də qeyd edilməklə geniş fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilə görüşüb





Baş prokuror Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizdəki səfiri Erkan Özoralla 7 aprel 2021-ci il tarixində diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.

Dost və qardaş ölkələrimiz arasında bugün bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, hüquqi əlaqələrin ən yüksək səviyyədə olması məmnunluqla vurğulanıb. Baş prokuror bildirib ki, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələri strateji əməkdaşlıq səviyyəsində olmaqla dünya ölkələrinə nümunədir.

Baş prokuror qeyd edib ki, 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirməklə bir millət, iki dövlət olduğumuzu bir daha bütün dünyaya nümayiş etdirib.

İkitərəfli münasibətlərimizin möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirən Baş prokuror gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Səmimi qəbula və xoş sözlərə görə təşəkkürünü ifadə edən səfir Erkan Özoral bundan sonrakı fəaliyyətində də ikitərəfli əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirmişdir.



## REGİONDA RİSKLƏRİ MİNİMUMA ENDİRMƏK ÜÇÜN YENİ ƏMƏKDAŞLIQ FORMATLARI YARANIR.

**Türkiyə-Rusiya, Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İran ilə artıq üçtərəfli əməkdaşlıq var.** Bu, sabitlik və proqnozlaşdırılmaya töhfədir. Ermənistan tərəfdən qisas cəhdləri sıfır risk olmalıdır.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

# Dünya Prokurorlarının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakı şəhərində keçirilməsinə dair ilkin razılıq əldə edilmişdir



Ölkə prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, prokurorluq orqanlarının xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlığı davam etdirilir.

Belə ki, cari ilin 4-5 may tarixlərində Niderlandın Haaqa şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin videokonfrans formatında 51-ci iclası keçirilib.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Tədbir zamanı Assosiasiyanın İcraiyyə Komitəsinə yeni üzvlərin qəbulunun həyata keçirilməsi ilə yanaşı, dünya prokurorlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair bir sıra təşkilati məsələ və sənədlər müzakirə edilmiş, o cümlədən prokurorluq orqanları əməkdaşlarının transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində müvafiq bilik və təcrübələrinin artırılması məqsədi ilə qurumlararası əməkdaş mübadiləsini nəzərdə tutan proqramın gələcək imkanları nəzərdən keçirilmişdir.

İclasda çıxış edən Baş prokuror  Kamran Əliyev tərəfindən 2024-cü ilin sentyabr ayında BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının Bakı şəhərində keçirilməsinə dair ilkin təklif irəli sürülmüşdür.

Təkliflə bağlı iclasda geniş təqdimatla çıxış edən Baş prokuror dövlət başçısı cənab İlham





Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən paytaxt Bakıda həyata keçirilən dayanıqlı sosial-iqtisadi tədbirlər nəticəsində infrastrukturun ən yüksək standartlar səviyyəsinə çatdırılması, nəticədə Azərbaycanın son illər bir çox mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyəli ev sahibliyi etməsi və bu sahədə əldə etdiyi zəngin təcrübə barədə məlumat vermişdir.



Müzakirə edilən məsələ ilə əlaqədar iclasda çıxış edən qurumun rəhbər şəxsləri Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulamaqla, BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçirilməsi barədə qərar yekdilliklə qəbul edilmişdir.

İclasda Assosiasiyanın İcraiyyə Komitəsinin digər təşkilatı məsələləri də müzakirə olunmuşdur.



# Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktorunun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olmuşdur



19 may 2021-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işgüzar səfərə gəlmişdir.

Səfər çərçivəsində Fəxri Xiyabana gələn rəsmi qonaqlar xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri düzülmüşdür.

Sonra qonaqlar Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Tədbir proqramının davamı olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğunda nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilmişdir. Qonaqları qəbul edən Baş prokuror Kamran Əliyev dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu sahəsində görülən işlər barəsində geniş məlumat verərək, onlara milli qanunvericiliyin beynəlxalq təcrübə nəzərə alınmaqla daha da təkmilləşdirilməsi istiqamətində atılmış addımlardan, səmərəli dövlət idarəçiliyinə hesablanmış yeni institusional mexanizmlərdən, vətəndaşlara xidmət göstərməklə süründürməçilik hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan “ASAN xidmət” və “DOST” mərkəzlərinin fəaliyyətindən bəhs etmişdir. Habelə, çıxışında ölkə təcrübəsində şəffaflıq və keyfiyyətlilik meyarlarının rəhbər tutulduğu kompleks tədbirlərə dair konkret nümunələrə toxunan Baş prokuror prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq optimallaşdırılması, texnoloji innovasiyalardan faydalanmaqla bu sahədə mövcud prosedurların elektronlaşdırılması ilə bağlı görülən işlərdən, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatlar olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) ilə qarşılıqlı əməkdaşlıqdan danışmışdır.



Görüşdə xüsusi vurğulanmışdır ki, mövcud siyasi iradəyə əsasən ölkəmizdə rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə məsələləri başlıca prioritetlərdən biridir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası kimi mühüm təsisatlar tərəfindən qəbul edilmiş beynəlxalq sənədlərin ratifikasiya olunması təmin edilməklə, milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılmış, eləcə də bu sahədə qəbul edilmiş normativ-hüquqi akt və strateji fəaliyyət planlarının səmərəli tətbiqinə müvəffəq olunmuşdur.

Bundan başqa, ölkəmizin ötən il aparmış olduğu 44 günlük haqq savaşı barədə söz açan Baş prokuror Kamran Əliyev xalqın birmənalı dəstəyinə arxalanan Ali Baş Komandan cənab İlham Əliyevin göstərdiyi qətiyyət və müzəffər ordumuzun şücaəti nəticəsində ərazi bütövlüyümüzün bərpa edildiyini diqqətə çatdırmışdır. Çıxışda müharibə günlərində düşmən tərəfinin beynəlxalq humanitar hüququn tələblərini kobud surətdə pozması, dinc əhaliyə və mülki obyektlərə ziyan vurmaqla çoxsaylı müharibə cinayətləri törətməsi təəssüflə vurğulanmış, həmin cinayətlərin istintaqı zamanı müəyyən edilmiş bir sıra faktlardan istinadlar gətirilmişdir.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanov Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində məhkəmə-hüquq sistemində və prokurorluq orqanlarında



həyata keçirilən və müsbət nəticələr verən islahatları yüksək dəyərləndirmiş, ölkələrimiz arasında olan sıx münasibətlərin iki qurum arasında da davam

etdiriləcəyinə, hazırki təcrübə mübadiləsinin tərəflərə yeni töhfələr verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilmişdir. Qardaş türkdilli ölkələr olaraq dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin paralel olaraq, iki dövlətin müvafiq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Daha sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olmuşlar. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə və eksponatlar onlarda xüsusi təəssürat oyatmışdır.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində olan nümayəndə heyəti ilə Baş İdarənin rəhbər heyəti arasında ikitərəfli görüş keçirilmişdir. Qonaqları salamlayan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov onlara ölkəmizdə əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi korrupsiyaya qarşı mübarizə siyasətinin formalaşdırılması istiqamətində Azərbaycan Resublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan təkmil qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan əsaslı instusional islahatlar, o cümlədən Baş İdarədə fəaliyyət göstərən əməliyyat-axtarış, istintaq və digər qurumların, habelə "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Nazim Rəcəbov Baş İdarənin beynəlxalq qurumlarla və xarici ölkələrin ixtisaslaşmış antikorrupsiya orqanları ilə davam edən uğurlu əməkdaşlığını xüsusi qeyd edərək gələcəkdə beynəlxalq əməkdaşlığın daha da dərinləşəcəyini diqqətə çatdırmışdır.

Çıxışında 2011-ci ildə Baş İdarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinin verildiyini də bildirən Nazim Rəcəbov bu təcrübənin Baş İdarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırdığını, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Anti-Korrupsiya Şəbəkəsi tərəfindən bu qurumun beynəlxalq aləmdə səmərəli anti-korrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə edildiyini vurğulamışdır.

Daha sonra, tədbirdə çıxış edən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Ramin Vəlizadə təmsil etdiyi qurumun korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirakı və bundan irəli gələn digər funksiyaları barədə geniş məlumat vermişdir.

Görüşdə ölkədə korrupsiya səviyyəsinin və bu növ cinayətlərin törədilmə səbəblərinin təhlili, risklərə daha çox məruz qalan sahələrin müəyyənləşdirilməsi metodlarına dair nümayəndə heyətinin üzvləri tərəfindən verilmiş suallar ətraflı cavablandırılmış, korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılmışdır.

Nümayəndə heyəti müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında zəngin kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş "161-Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olmuşdur.

Səfər zamanı qonaqlar Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin deputatları, Ali Məhkəmənin hakim heyəti, habelə Daxili İşlər, Ədliyyə və İqtisadiyyat nazirliklərinin yüksək vəzifəli nümayəndələri ilə görüşlər keçirərək dövlət orqanlarının müsbət təcrübələrini öyrənmiş, korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin səmərəli nümunəsini təşkil edən ASAN Xidmət və DOST mərkəzlərini ziyarət edərək onların fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Bundan başqa nümayəndə heyəti Hərbi Qənimətlər Parkında olaraq vətən müharibəsində qüdrətli ordumuzun işğalçılardan tərksilah etdiyi hərbi eksponatlar barədə məlumatlandırılmış, İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olmuş, daha sonra Heydər Əliyev Mərkəzinə səfər edərək orada yerləşən muzey və sərgilərə baş çəkmişlər.

Bununla da, Özbəkistan Respublikası Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Akmal Burxanovun ölkəmizə rəsmi səfəri başa çatmış və 23 may 2021-ci ildə nümayəndə heyəti Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınmışdır.

# Azərbaycan Respublikası Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Açıq Hökumət Tərəfdaşlığının təşəbbüsləri çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq fəaliyyətini uğurla davam etdirir









Cari ilin 20 may tarixində Avropa İttifaqı (Aİ), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və Açıq Hökumət Tərəfdaşlığı (AHT) tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində açıq hökumətin təşviqinə dair islahatlara və korrupsiyaya qarşı mübarizəyə yönəlmiş "Dürüstlük Proqramına Aİ-nin dəstəyi" adlı onlayn rejimində yüksək səviyyəli tədbir keçirilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru, İƏİT-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin Milli Koordinatoru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Avropa Komissiyasının Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi, İƏİT-nin Baş katibi Angel Gurria, habelə Açıq Hökumət Tərəfdaşlığının Baş icraçı direktor Sanjay Pradhan görüşün iştirakçılarını salamlayaraq Aİ-nin Şərq Tərəfdaşlığı, İƏİT-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin tərəf ölkələrində dürüstlüyün, şəffaflığın təmin edilməsi üçün görülmüş tədbirləri dəstəkləməklə bu istiqamətlərdə qoyulan səylərdə uğurlar arzu etmişlər.

Daha sonra, "Şərq Tərəfdaşlığında vətəndaşların kompakt yaşayışı və dürüstlüyün gələcək gündəliyi" mövzusunda keçirilən sessiyada regionda açıq hökumət üzrə aparılan islahatların gücləndirilməsi və tərəf ölkələrində korrupsiyaya qarşı mübarizədə olan praktikaların ətrafında geniş müzakirələr aparılmışdır.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən iqtisadi inkişaf və sosial-iqtisadi proseslərə beynəlxalq təşkilatların yanaşması, Dünya Bankının reytinqlərində və "Doing Business" hesabatlarında Respublikanın aparıcı islahatçı ölkələr siyahısında mövqe tutmasını, habelə beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq fonunda korrupsiya qarşı mübarizədə qarşıya çıxan çağırışları iştirakçıların diqqətinə çatdırmışdır.

Həmçinin, Baş prokuror ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu sahəsində görülən işlər barəsində geniş məlumat verərək, Azərbaycan dövlətinin siyasətində əsas prioritet kimi məqsədyönlü sosial-iqtisadi islahatlar fonunda milli iqtisadiyyatın güclənməsi haqqında və bu sahədə ölkəmizin dövlət idarəetmə orqanlarında həyata keçirilən tədbirlər barədə danışmışdır.

Eyni zamanda, nümayəndəmiz səmərəli dövlət idarəçiliyinə hesablanmış yeni institusional mexanizmlərdən, vətəndaşlara xidmət göstərməklə süründürməçilik hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan "ASAN xidmət" və "DOST" mərkəzlərinin fəaliyyətindən bəhs etmiş, ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən cinayət təqibi tədbirləri barədə məlumat vermişdir.

Həmçinin, ölkəmizin Baş prokuroruna, milli təcrübəyə dair verilmiş suallar cavablandırılmışdır.

Tədbirin sonunda Sessiyanın çərçivəsində Şərq Tərəfdaşlığı ölkələrinin yüksək vəzifəli şəxslərin və QHT-nin nümayəndələrinin müvafiq mövzular ətrafında məruzələri dinlənmiş və faydalı fikir mübadiləsi aparılmışdır.

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb






Mayın 24-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb.

Qonağı səmimi salamlayan Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimiz" və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Kamran Əliyev qeyd edib ki, 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirmişlər.




Həmçinin, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsi iki ölkə arasında sıx bağların olmasının təzahürüdür.

Baş prokuror bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etmişdir.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Cahit Bağçı ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik etmiş, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləmişdir.

Səfir ölkələrimiz arasında tarixən mövcud olan qardaşlıq münasibətlərinin iki ölkə rəhbərinin apardıqları uğurlu siyasət nəticəsində bu gün ən yüksək pilləyə qalxdığını, bu əlaqələrin daha da inkişaf etməsi üçün əlindən gələni edəcəyini bildirmişdir.

Sonda Kamran Əliyev qonağa yeni fəaliyyətə başlaması ilə əlaqədar uğurlar arzu edərək, qarşılıqlı əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə əminliyi ifadə etmişdir.

Görüşdə həmçinin, Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokuroru Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyətinin yaxın zamanda ölkəmizə edəcəyi səfərlə əlaqədar müzakirələr aparılmışdır.



# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizdə keçirilən 5-ci raund pilot qiymətləndirilməsi həyata keçirilmişdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq ölkəmizin prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlığını davam etdirir.

Ölkəmiz 2006-2010-cu illərdə OECD-nin I, 2010-2013- cü illərdə II, 2013-2016-cı illərdə III, 2016-2019-cu illərdə IV Monitorinq Mərhələlərini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə etmişdir. Xüsusilə qeyd edilməlidir ki, monitorinqlər çərçivəsində milli qanunvericilikdə dövlət orqanlarının fəaliyyətində şəffaflığın və vətəndaşlara göstərilən xidmət meyarlarının beynəlxalq standartlar səviyyəsinə çatdırılması istiqamətində əhəmiyyətli dəyişikliklər edilmişdir.

OECD ilə uğurlu əməkdaşlığın təzahürü kimi həmin təşkilat tərəfindən ölkəmizdə keçirilən 5-ci raund pilot qiymətləndirmə üzrə sorğu vərəqəsi cavablandırılmaqla, OECD-yə təqdim edilmişdir.



Pilot qiymətləndirmə prosedurunun növbəti mərhələsi kimi, 17-31 may 2021-ci il tarixlərdə OECD-nin müvafiq heyəti tərəfindən dövlət orqanlarının, qeyri-hökümət təşkilatlarının, həmçinin vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə onlayn platforma vasitəsilə virtual müsahibələr həyata keçirilmiş, nümayəndələr müsahibələrə vahid mərkəzdən-Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasından qoşulmuşlar.




Tədbirin ilk günü açılış nitqi ilə çıxış edən OECD üzrə Milli Koordinator- Baş prokuror Kamran Əliyev korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini vurğulayaraq, OECD ilə uğurlu əməkdaşlığın nəticəsi kimi həmin təşkilatın tövsiyələri əsasında milli qanunvericilikdə mütərəqqi dəyişikliklər edilməsini ekspert heyətinin diqqətinə çatdırmış, hazırki monitorinq prosesinin ölkəmiz üçün əhəmiyyətini qeyd etmişdir.

Virtual müsahibələr Azərbaycan Respublikası Prokurorluğunun müvafiq struktur qurumlarının, 16 fərqli dövlət qurumununun, eləcə də paylarının (səhmlərinin) nəzarət səhm zərfi dövlətə məxsus 10 hüquqi şəxsin 90-dan artıq nümayəndəsinin iştirakı ilə keçirilmişdir. Qeyd edilməlidir ki, virtual müsahibələrdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyasının katibi, Milli Məclisinin deputatları, hakimlər, Məhkəmə-Hüquq Şurasının, hüquq-mühafizə orqanlarının və digər dövlət qurumlarının nümayəndələri də iştirak etmişlər.

Virtual müsahibələr ölkəmizin korrupsiyaya qarşı mübarizə strategiyası fonunda, milli iqtisadiyyat, prokurorluq və məhkəmə orqanlarının fəaliyyəti də daxil olmaqla 13 fərqli mövzu üzrə aparılmış, ekspert heyətinin sualları müvafiq qurumların nümayəndələri tərəfindən cavablandırılmışdır.

Tədbirin sonunda ölkəmiz tərəfindən monitorinq prosesinə göstərilən diqqət OECD-nin nümayəndə heyəti tərəfindən təqdir edilərək, virtual müsahibələr zamanı yüksək təşkilatçılığa görə Azərbaycan tərəfinə minnətdarlıq edilmişdir.

# Baş prokuror Kamran Əliyev işğaldan azad edilmiş Kəlbəcər rayonu ərazisində bir qrup şəxsin minaya düşməsi faktı ilə əlaqədar bir sıra beynəlxalq təşkilatlara rəsmi məktub ünvanlamışdır

4 iyun 2021-ci il tarixində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı, Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı, “Amnesty İnternational” və “Human Rights Watch” təşkilatlarına rəsmi müraciət ünvanlamışdır.

Müraciətdə qeyd edilmişdir ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini kobud şəkildə pozmaqla ərazilərimizi minalayaraq vətəndaşlarımıza qarşı cinayət əməllərini davam etdirir.

Belə ki, iyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu avtobusun rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 2 media əməkdaşı və 1 dövlət qurumunun əməkdaşı ölmüş, 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişlər.

Vurğulanmışdır ki, qeyd edilən faktla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmaqla hazırda intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Kamran Əliyev Ermənistan tərəfinin işğaldan azad edilmiş ərazilərimizdə uzun illər ərzində bastırdığı minaların xəritə və sxemlərini bugünədək təqdim etməməsini Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı törətmiş olduğu təxribat xarakterli aktların davamı kimi qiymətləndirərək, onlardan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyi tələb etmişdir.

Eyni zamanda, Baş prokuror insanların həyatını xilas edilməsinə kömək edə biləcək bu xəritələri və digər zəruri məlumatları Ermənistanın təqdim etməkdən imtinasının Azərbaycan əhalisinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolunun 1-ci maddəsi, 4 saylı Protokolunun 2(1) və 3(2) maddələrindən irəli gələn hüquqlarının ciddi şəkildə pozulmasına səbəb olmasını diqqətə çatdırmaqla, üçtərəfli Bəyanatın imzalandığı gündən hazıradək 20 mülki şəxsin həlak olmasını, 29 şəxsin isə müxtəlif dərəcəli bədən xəsarətləri almasını qeyd etmişdir.

Sonda Baş prokuror, nüfuzlu beynəlxalq təşkilatlar və dünya ictimaiyyətindən törədilmiş cinayətlərlə bağlı səlahiyyətləri çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsini xahiş etmişdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı ilə (İƏT) səmərəli əlaqələrinin genişləndirilməsi davam etdirilir




Belə ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin 16-17 iyun tarixlərində Özbəkistan Respublikasının Daşkənd şəhərində baş tutmuş "Üzv Ölkələrin Korrupsiyaya qarşı Mübarizə qurumlarının və Ombudsmanlarının 4-cü İclası"nda iştirak etmişdir.

Sözügedən tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov və həmin idarənin prokuroru Elşən Orucov iştirak etmişlər.

Özbəkistan Respublikasının rəhbər vəzifəli şəxslərinin, eləcə də İƏT katibliyinin səlahiyyətli nümayəndəsinin açılışını etdiyi, Türkiyə, Pakistan, İran və təşkilata üzv olan digər ölkələrin korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin, ombudsmanlarının və digər nümayəndələrinin iştirakı ilə keçirilən tədbirin korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş birinci hissəsində üzv ölkələrin nümayəndələri korrupsiyaya qarşı mübarizə sahəsində milli kontekstdə əldə etdikləri nailiyyətlər barədə məlumatları tədbir iştirakçıları ilə bölüşmüş, bu sahədə səmərəliliyin artırılmasında beynəlxalq əməkdaşlığın rolunu xüsusi vurğulamışlar.

Tədbirin qeyd edilən hissəsində çıxış edən Natiq Eyvazov ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla görülmüş işlər, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat vermişdir.

Tədbirin sonunda görüşün yekun hesabatı və "Daşkənd Bəyannaməsi" qəbul edilmişdir.

## Azərbaycan Prokurorluğunun nümayəndəsi Avropa Şurasının GRECO təşkilatının Litva Respublikası üzrə V raund monitorinqində iştirak edib

Avropa Şurasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumu - Korrupsiya əleyhinə dövlətlər qrupu/GRECO-nun Litva respublikası üzrə V raund monitorinqi 21 iyun 2021-ci il tarixində həyata keçirilmişdir. Avropa Şurasının ekspertlər qrupunun tərkibində İsveç, Fransa, İspaniya və Latviya kimi ölkələrin nümayəndələri ilə yanaşı Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev iştirak etmişdir.

"Mərkəzi icra hakimiyyəti və hüquq mühafizə orqanlarında korrupsiyanın qarşısının alınması və şəffaflığın gücləndirilməsi" mövzusunda keçirilən dəyərləndirilmə çərçivəsində ekspertlər qrupu Litvanın Seymi (Parlamenti), Prezident və Baş nazirin administrasiyaları, Ədliyyə və Daxili İşlər nazirlikləri, Baş Prokurorluq və korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurum – Xüsusi İstintaq xidməti, maliyyə nəzarəti və digər dövlət və qeyri-hökumət təşkilatlarının rəhbər şəxsləri ilə görüşlər keçirmiş, lazımi məlumatları toplamışlar.

Səfər çərçivəsində Litva hökuməti tərəfindən təqdim edilmiş məlumatlar ekspertlər qrupu tərəfindən təhlil olunmuşdur.

GRECO-nun payız iclasında səfərin nəticələrinə dair hesabatın və Litva hökuməti üçün tövsiyələrin hazırlanaraq müzakirə olunması nəzərdə tutulmuşdur.

## Azərbaycan Respublikasının Prokurorluğunun korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilir

Cari ilin iyunun 14-dən 18-dək Avstriya Respublikasının Vyana şəhərində hibrid formatda BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasının İcrası üzrə Nəzarət Qrupunun görüşü və Korrupsiyanın qarşısının alınması üzrə Açıq Hökumətlərarası İşçi Qrupunun 12-ci iclası keçirilmişdir.

BMT-nin nümayəndələrinin, ABŞ, Böyük Britaniya, Türkiyə Respublikası, Rusiya Federasiyası, Çin Xalq Respublikası və Korrupsiya əleyhinə Konvensiyaya (UNCAC) tərəf olan digər dövlətlərin təmsilçilərinin də qatıldığı tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları iştirak etmişlər.

Tədbirdə "Korrupsiyaya qarşı mübarizə aparan qurumların səlahiyyətlərinin genişləndirilməsi", "Rüşvətxorluğa qarşı mübarizədə əldə olunan müsbət təcrübə" və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Nümayəndəmiz tədbir iştirakçılarına Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində COVID-19 pandemiyası ilə əlaqədar törədilmiş hüquqpozmalar barədə müraciətlərə baxılması təcrübəsi, hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun tətbiqi vəziyyəti, eləcə də digər yeniliklər barədə də ətraflı məlumat vermişdir.

# Baş Prokurorluğun nümayəndə heyəti Minsk şəhərinə rəsmi səfər etmişdir



Cari ilin 24-25 iyun tarixlərində Belarus Respublikasının İstintaq Komitəsinin yaradılmasının onilliyi və Komitənin ixtisasartırma və peşə hazırlığı institutunun yaradılmasının ildönümü ilə əlaqədar "İstintaq fəaliyyəti: elm, təhsil, təcrübə" adlı beynəlxalq elmi-praktiki konfransda iştirak etmək üçün Baş prokurorun birinci müavini Elçin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Minsk şəhərinə səfər etmişdir. Konfransın gedişində Baş prokurorun birinci müavini çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi məhkəmə-hüquq sistemində də aparılan islahatlar, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi barədə konfrans iştirakçılarına geniş məlumat vermişdir. Çıxış zamanı iştirakçılara "Azərbaycan Respublikası timsalında prokurorluq işçilərinin peşə hazırlığı sahəsində müasir tendensiyalar" adlı elmi məqalə təqdim edilmişdir. Çıxış konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanmış, mövzuya dair iştirakçıların sualları ətraflı cavablandırılmışdır.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Belarus Respublikası İstintaq Komitəsinin sədri Dmitriy Qora arasında görüş keçirilmiş, iki ölkə arasında formalaşmış zəngin tarixə malik və ilbəil daha da dərinləşən münasibətlər diqqətə çatdırılmaqla, hüquqi sahədə əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Həmçinin, nümayəndə heyəti Belarus Respublikasının Baş prokuroru Andrey Şved tərəfindən qəbul olunmuşdur. Görüş zamanı ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olması vurğulanaraq, ikitərəfli münasibətlərin






inkişaf etdirilməsi məqsədilə qarşılıqlı səfərlərin təşkil edilməsi və səmərəli hüquqi əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Bundan başqa, nümayəndə heyəti konfransda iştirak edən bir sıra ölkələrin nümayəndə heyətləri ilə işgüzar görüşlər keçirmiş, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir







Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı Direktoru xanım Yanne Holst Hübner və Assosiasiyanın üzvü - Danimarka Krallığının Hərbi Prokurorluğunun prokuroru cənab Klaus Risbcerg ölkəmizə işgüzar səfərə gəlmişlər.

İyunun 29-da keçirilmiş görüş zamanı Baş prokuror, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyev qonaqlara ölkə Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq son dövrlərdə prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, struktur və kadr dəyişiklikləri barədə ətraflı məlumat verməklə gənc hüquqşünasların işə qəbul edilməsi və onların peşəkar kimi təkmilləşdirilməsinin prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırmışdır.

Görüş zamanı Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uzun illərdən sonra erməni işğalı altında olan torpaqlarımızın azad edilərək ölkəmizin ərazi bötövlüyünün bərpa edildiyini, işğal zamanı tamamilə dağıdılmış ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyat şəraitinin təmin edilməsi məqsədilə geniş miqyaslı bərpa-quruculuq işlərinə başlanıldığını vurğulamışdır.

Cinayətkarlıqla mübarizədə dünya prokurorlarının səylərinin birləşdirilməsində Assosiasiyanın mühüm










rolu qeyd olunaraq, ölkəmizin bu təşkilatla uzun illərdir sıx və uğurlu əməkdaşlığından məmnuniyyət ifadə edilmişdir.

Qonaqlar səmimi qəbula görə minnətdarlıq ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirmiş, təşkilatın milli prokurorluq orqanlarımızla əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını bildirmişlər.

Görüş zamanı Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağına 2024-cü ildə ölkəmizin ev sahibliyi etməsi haqqında qərarın qəbul olunması Azərbaycan Prokurorluğunun qeyd edilən quruma verdiyi töhvələrin nəticəsi kimi qiymətləndirilməklə, həmin tədbirlə əlaqədar bir sıra təşkilati məsələlər müzakirə edilmişdir.

Bundan sonra nümayəndə heyəti Baş Prokurorluğun 2021-ci ilin fevral ayında istifadəyə verilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binada yaradılmış şəraitlə tanış olmuşdur.

Eyni zamanda, qonaqlar 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət etməklə, Assosiasiyaya yeni qəbul olunmuş gənc prokurorluq əməkdaşları ilə görüşmüş və onları maraqlandıran təşkilati və əməkdaşlıq məsələləri ilə bağlı sualları cavablandırmışlar.

Həmçinin, nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsində də olmaqla struktur qurumun fəaliyyəti barədə ətraflı məlumatlandırılmışlar.

## Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığımız güclənir

Məlum olduğu kimi, Beynəlxalq Prokurorlar Assosiasiyası 1995-ci ildə təsis olunmaqla dünyada ilk və yeganə dünya miqyaslı prokurorları birləşdirən təşkilatdır. Ölkəmiz bu mötəbər təşkilata həmin qurumun fəaliyyətinin ilk illərində qoşulmuş, 1998-ci ildən isə onun rəhbər qurumunda təmsil olunur. Azərbaycan Prokurorluğu bu təşkilatın bir sıra regional iclaslarının və təşkilati tədbirlərinin keçirilməsinə müvəffəq olmuşdur. Hazırda Azərbaycan Respublikasının Baş prokuroru Asossiasiyanın Vitse-prezidentidir. Növbəti uğurumuz olaraq bu mötəbər beynəlxalq təşkilatın nəşr orqanı olan Rüblük Bülleteninin Redaksiya Şurasına Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev seçilmişdir.

## "Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasına uyğun olaraq cinayət prosessual qanunvericiliyində islahatlar" mövzusunda videokonfrans formatında seminar keçirilmişdir




Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə həyata keçirilən "Cybereast" layihəsi çərçivəsində 23 aprel 2021-ci il tarixdə Proqram Ofisinin (C-PROC) təşkilatçılığı ilə "KUDO" internet platforması üzərində "Kibercinayətkarlıq üzrə Budapeşt Konvensiyasına uyğun olaraq cinayət prosessual qanunvericiliyində islahatlar" mövzusunda videokonfrans formatında seminar keçirilmişdir. Seminarda dinləyici qismində mərkəzi icra hakimiyyəti orqanlarının və Baş Prokurorluğun struktur qurumlarının əməkdaşları, eləcə də Elm-Tədris Mərkəzinin böyük prokuroru Nigar Qələndərli və Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova iştirak etmişlər.

Tədbirdə çıxış edən Nigar Əskərova iştirakçılara Elm-Tədris Mərkəzi tərəfindən bu sahədə görülmüş tədris tədbirləri barədə geniş məlumat vermiş və kibercinayətkarlıqla mübarizə sahəsində bir sıra təkliflər irəli sürmüşdür. O cümlədən, rəqəmsal maliyyə aktivləri və blokçeyn texnologiyaları üzrə qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi; kriptovalyuta və blokçeyn texnologiyaları haqqında normativ hüquqi aktların hazırlanması; Cinayət və Cinayət Prosessual Məcəllələrinə kibercinayətlərlə bağlı istintaqın xüsusatlarına dair yeni müddəaların əlavə edilməsi və sair.

## Türkiyə Ədalət Akademiyası tərəfindən keçirilmiş beynəlxalq kollokviumda prokurorluğun əməkdaşı iştirak etmişdir

Türkiyə Ədalət Akademiyası tərəfindən 26-27 may 2021-ci il tarixlərdə Zoom proqramı vasitəsi ilə keçirilmiş "Narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi cinayətlərinə qarşı mübarizəyə dair" beynəlxalq kollokviumda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Fərid Dadaşov iştirak etmişdir.

2 gün davam edən kollokviumda açılış nitqi ilə çıxış edən edən Türkiyə Ədalət Akademiyası başqanı Mühittin Özdemir təhsil müəssisəsinin fəaliyyəti ilə bağlı ətraflı məlumat verərək narkotik vasitə və psixotrop maddələrin zərərlərindən bəhs etmiş, bu maddələrin qanunsuz dövriyyəsinin yaratdığı qlobal problemlərə toxunmuşdur.

Azərbaycan, Qazaxıstan, Pakistan və sair ölkələrin məhkəmə və hüquq-mühafizə orqanları





nümayəndələrinin iştirak etdiyi kollokviumda ayrı-ayrı təlimçilərin təqdimatında türk hüququ və beynəlxalq hüquqda bu növ cinayətlərə qarşı mübarizə, narkotik vasitə və psixotrop maddələrin müəyyən edilməsində müvafiq ekspertizaların əhəmiyyəti və digər mövzular dinlənilərək müzakirələr aparılmış, bəzi vacib statistik göstəricilər iştirakçıların diqqətinə çatdırılmışdır.

## Özbəkistan Respublikasının Baş Prokurorluğu Akademiyası tərəfindən keçirilmiş beynəlxalq elmi-praktiki video-konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşı iştirak etmişdir



Özbəkistan Respublikasının Baş Prokurorluğu Akademiyasının dəvətinə əsasən 27.05.2021-ci ildə "Müasir hüquq elmi və təhsil: aktual problemlər və onların həlli yolları" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki video-konfransda Azərbaycan Respublikasının Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Talıb Cəfərov iştirak etmişdir.

Konfrans həmin Akademiyanın yaradılmasının 3-cü il dönümünə həsr edilmiş, internet üzərindən Zoom proqramı vasitəsilə canlı rejimdə keçirilmiş, konfransda yerli dövlət orqanların nümayəndələri ilə yanaşı, BMT-nin, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, diplomatik korpusların və sair beynəlxalq təşkilatların, habelə 20 dövlətin məhkəmə və hüquq-mühafizə orqanlarının və hüquq təhsil müəssisələrinin 100-dən artıq nümayəndəsi iştirak etmişdir.



Konfransın məqsədi – tədris prosesinə innovativ yanaşmaların müzakirəsi üçün platformanın yaradılması, müasir çağırışlar nəzərə alınmaqla hüquq mühafizə sahəsində kadr hazırlığı üzrə təcrübə mübadiləsi, eləcə də korrupsiyaya, çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq standartların implementasiyası üzrə tövsiyələrin hazırlanması olmuşdur.

Özbəkistan Respublikasının Baş Prokurorluğu Akademiyasının rəisi Yevqeniy Kolenko konfransı açıq elan etdikdən və Özbəkistan Respublikası Baş prokurorunun müavini Erkin Yuldaşevin çıxışından sonra konfransa dəvət olunmuş şəxslərə təbrik nitqi üçün söz verilmiş, Talıb Cəfərov salamlama nitqində peşəkar kadrların hazırlığında bu kimi beynəlxalq tədbirlərin keçirilməsinin rolunu və əhəmiyyətini vurğulamış, konfrans çərçivəsində iştirakçılar Akademiyanın imkanları, onun portfoliosu ilə, kompetensiya diaqnostikasının və direktiv kursların keçirilməsi qaydası ilə tanış edilmiş, tədbirin mövzusu ətrafında hüquq sahəsində tanınmış alimlərin fikirləri eşidilmiş və müzakirələr aparılmışdır.


100 MİLYONLARLA DOLLAR HESABINA BAŞA GƏLMİŞ NƏHƏNG İSTEHKAMLAR, MİNALANMIŞ SAHƏLƏR VƏ MÜDAFİƏ SƏDLƏRİNİN QURULMASI TORPAQLARIMIZI ƏBƏDİ İŞĞAL ALTINDA SAXLAMAQ ÜÇÜN EDİLMİŞDİ.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
fb.com/PresidentIlhamAliyev

# Heydər Əliyev uzaqgörənliyinin və İlham Əliyev dühasının təntənəsi

*Xalq mənim gücüm, inamım, arxamdır, ömrümün sonuna qədər xalqımıza, millətimizə, doğma vətənimiz Azərbaycana sədaqətlə xidmət edəcəyəm....*

**Heydər ƏLIYEV**
**Ümummilli lider**



**Şərəfli və keşməkeşli ömür yolu**

Azərbaycan tarixinin bir qərinədən artıq dövrü ötən əsrin dünya miqyaslı nəhəng siyasətçisi, böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Fövqəlbəşər şəxsiyyət öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, vətəninə və dövlətinə həsr etmiş, müqəddəs amallar uğrunda həyatını fəda etmişdir. Azərbaycanı canından artıq sevən ulu öndərə olan sonsuz xalq məhəbbətinin sirri də elə məhz bundadır. Mustafa Kamal Atatürk demişdir: "Millət sevgisi qədər böyük mükafat ola bilməz.". Ulu öndərin adı vətənpərvərlik rəmzinə, davranışları müdriklik etalonuna çevrilmiş, onun həyat və fəaliyyəti isə xalqa, vətənə məhəbbət və sədaqət meyarı olmuşdur. Bütün bunların nəticəsidir ki, Azərbaycanın taleyində müstəsna rolu olan, istiqlalımızın və istiqbalımızın müəllifi, ölkəmizi hərtərəfli inkişaf etdirməklə dünya dövlətləri sırasında özünəməxsus yer tutmasına müvəffəq olmuş böyük tarixi şəxsiyyətin – Heydər Əliyevin doğum günü hər il respublikamızda, eləcə də ölkə hüdudlarından xeyli uzaqlarda təntənə ilə qeyd edilir, əbədiyaşar liderimizin xatirəsi yüksək ehtiramla yad olunur və parlaq şəxsiyyəti dərin məhəbbətlə xatırlanır.

Heydər Əliyev uşaqlıq illərindən fitri istedadı, bacarığı, təhsilə olan marağı, davranışı, yeniyetmə dövründən isə nəzəri bilikləri, səlis nitqi, cəsarəti ilə həmyaşıdlarından seçilir, həyata baxışı, milli-mənəvi dəyərlərə bağlılığı, vətənpərvərliyi və digər qeyri-adi müsbət cəhətləri ilə diqqət cəlb edirdi. İstiqanlılığı, mehribanlığı, səmimiliyi, dürüstlüyü və digər ali insani keyfiyyətləri böyükdən-kiçiyə hər kəsi ona hörmət bəsləməyə sövq edirdi. Gənc olmasına baxmayaraq, hərtərəfli püxtələşmiş dahi insan Heydər Əliyev 1944-cü ildə çoxlarının arzusunda olduğu, lakin hər insanın müvəffəq ola bilmədiyi, yalnız yüksək intellektli, əzmkar və bacarıqlı şəxslərin əldə edə biləcəyi uğuru qazanmaqla dövlət təhlükəsizliyi orqanlarına qulluğa qəbul edilməyə nail olur və dəyərli ömrünün demək olar ki, üçdə bir hissəsini həmin orqanda şərəflə qulluq keçir. Vurğulanmalıdır ki, ulu öndər mənəviyyat tariximizdə gələcək nəsillərə örnək ola biləcək məhəbbət dastanı da yaratmışdır. Belə ki, ailənin milli-mənəvi dəyərlər sistemində xüsusi əhəmiyyət kəsb etdiyini və dövlətdəki mühüm rolunu hər zaman qeyd edən, həmçinin onu cəmiyyətin özəyi, ülvi və müqəddəs hisslərin təcəssümü, xalqın mənəvi kamillik səviyyəsinin, milli genefondun saflığının qorunmasının əsas vasitələrindən biri kimi qiymətləndirən Heydər Əliyevə məhəbbəti uğrunda əzmlə mübarizə aparmaqla sevgisinə qovuşmaqda, qəlbinə yaxın bir insanla ailə həyatı qurmaqda, ən əsası əhdinə sadiq qalmaqda heç kim və heç nə mane ola bilməmişdir. Cəsarətli və qətiyyəli insan bu yolda çalışdığı Dövlət Təhlükəsizlik Orqanlarının rəhbərliyinin mövqeyinə qarşı çıxmaqdan, buna görə hətta tutduğu vəzifəni itirməklə gələcək kar-

yerasını təhlükəyə atmaqdan belə çəkinməmiş, öz haqlı inadından dönməyərək Zərifə xanım ilə müqəddəs ittifaq bağlamaqla nikaha girmişdir. Söz düşmüşkən, akademik Zərifə xanım Əliyevanın həyat fəlsəfəsini, zəngin mənəvi dünyasını, oftalmologiya elminin inkişafındakı misilsiz xidmətlərini xüsusi vurğulamaq zəruridir. Ulu öndər demişdir ki, "…. Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, uğurlar əldə etməyimdə hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib…".

**Azərbaycançılıq məfkurəsinin formalaşması müstəqilliyimizi şərtləndirdi**

Tarix göstərir ki, hər bir xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli ideologiya böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında reallaşır. Azərbaycan xalqı ilə bağlı bu şərəfli missiyanı məhz ümummilli lider Heydər Əliyev həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev həyatının bütün dövrlərində, xüsusilə geniş səlahiyyətlər sahibi olduğu vaxtlarda tarixi ənənə və soykökünün təməl prinsipləri üzərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur. Bu isə millətin həmrəyliyində və mənəvi bütövlüyündə, monolitliyində, bir xalq kimi formalaşması prosesində aparıcı amil olmaqla yanaşı, həm də müdrik rəhbərin xalqı öz ətrafında birləşdirməsində, bununla da, milli birliyin yaranmasında olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Sirr deyil ki, XX əsrin 20-30-cu illərində qeyri millətlərin anti-Azərbaycan qüvvələrinin və ermənilərin kök saldığı, xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş dövlət təhlükəsizlik orqanlarının millətimizin düşmənlərindən təmizlənməsi və milliləşdirilməsi kimi son dərəcə çətin prosesə ilk dəfə hələ sovet rejiminin ən qüdrətli vaxtlarında milli kökə və yaddaşa bağlı olan ümummilli lider Heydər Əliyev başlamışdır. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksələn Heydər Əliyev 50-ci ildən başladığı azərbaycanlılaşdırma prosesini yeni səlahiyyətləri çərçivəsində daha da inkişaf etdirmiş və məhz onun sayəsində təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların sayı xeyli artmışdır. Beləliklə, Heydər Əliyev milli əhval-ruhiyyəli vətənpərvər ziyalı kadrları Dövlət Təhlükəsizlik Komitəsinə qulluğa qəbul etdirməklə, həm onları layiq olduqları işlə təmin edir, həm orqanı milliləşdirir, həm də əsassız təqiblərə və repressiyalara məruz qalmış xalqımızın qeyrətli övladlarını onlara qarşı gözlənilən təhdidlərdən qorumaqla növbəti təhlükələrin qarşısını alırdı. Bununla da, gələcək müstəqil Azərbaycanın milli kadr potensialını formalaşdırırdı. Göründüyü kimi, Heydər Əliyevin DTK-da rəhbər vəzifələrdə çalışdığı müddətdə milli şüurun oyanması istiqamətində əməli addımlar atılmaqla milliləşmə prosesinin əsası qoyulmuşdur.

14 iyul 1969-cu il tarixdə Azərbaycanda siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev milli-mənəvi dəyərləri bərqərar etmək, xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, eləcə də ana dilini inkişaf etdirmək üçün ölçüyəgəlməz işlər görmüşdür. Ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin, o cümlədən ədiblərinin və şairlərinin xatirəsini əbədiləşdirməklə, onların əsərlərinin nəşrini təmin etməklə milli ədəbi düşüncənin də inkişafına təkan vermiş, azərbaycanlıların necə zəngin tarixə, qədim soykökünə malik olduğunu dünyaya bəyan etdirmişdir. Əzmkar lider Nizami Gəncəvinin və İmadəddin Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması ilə bağlı partiya qərarlarının verilməsinə belə nail olmuşdur. Milli-mənəvi dəyərlərə bütün varlığı ilə bağlı olan böyük insan xalqın düşüncələrini, adət-ənənələrini, azadlıq ideyalarını özündə yaşadan Azərbaycan folklorunun, o cümlədən aşıq musiqisinin dirçəldilməsini də diqqətində saxlamışdır. Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Aşıq Ələsgərin 150 illik yubileyinin 1972-ci ildə onun doğulduğu Göyçə mahalında, Bakıda və hətta Moskvada ən yüksək səviyyədə keçirilməsi bunun bariz nümunəsi olmuşdur. Bu tədbirlərin keçirilməsində məqsəd aşıq sənətinə və el sənətkarına yüksək dəyər verilməsi ilə yanaşı, Azərbaycanın tarixi sərhədləri, ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları barədə həqiqətləri ictimaiyyətə, yeni nəslə və bütün dünyaya çatdırmaq idi. Azərbaycan xalqının türk mənşəli olması "Kitabi-Dədə Qorqud"da

daha əhatəli əks olunduğundan, XX əsrin 20-50-ci illərində sovet ideologiyası dastanın öyrənilməsini qadağan etməklə uzun illər bu abidənin unutdurulmasına çalışsa da, Heydər Əliyev bu qadağanın da aradan qaldırılmasına və dastanın dərindən tədqiqinə normal şəraitin yaradılmasına nail olmuş, nəticədə "Kitabi-Dədə Qorqud"la bağlı çoxsaylı tarixi və ədəbi araşdırmalar aparılmış, bu mövzuda bədii film çəkilmişdir.

Azərbaycan dilini azərbaycançılığın başlanğıc məqamı, ən mühüm cəhəti, təməl prinsipi hesab edən ümummilli lider Heydər Əliyev kosmopolit ideyaların hökm sürdüyü bir dövrdə milli məfkurənin qorunub saxlanılması istiqamətindəki fəaliyyətində ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm işlər görmüşdür. Müdrik lider yəqin bilirdi ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona, ilk növbədə, öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına rəğmən, rəsmi çıxışlarının əksəriyyətində Azərbaycan dilində nitq söyləyən ulu öndər, bütün rəhbər vəzifəlilərdən də bunu tələb edirdi. Onun rəsmi partiya tədbirlərində ana dilində nitqləri həmin vaxtadək heç vaxt işlənməmiş milli siyasi ədəbi dil üslubunu yaratmaqla bərabər, böyük tarixi məna kəsb edirdi. Fədakar insanın ilk dəfə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, demək olar ki, bu nitqlərin təsiri ilə başlamışdır. Dahi liderin yazıçılar, şairlər və sənət adamları ilə görüşəndə də yeni bir elmi-ədəbi üslubda danışması, onun zəngin ana dilinin bütün söz imkanlarına, çalarlarına zərgər dəqiqliyi ilə bələd olduğunun göstəricisi idi. Ümummilli liderin gözəl nitqi ədibləri, şairləri, hətta ədəbiyyatçı alimləri belə heyran qoyurdu. O dövrdə yaşayan şairlərdən biri Heydər Əliyevə xitabən "Yoldaş Əliyev, Siz Azərbaycan dilində çox gözəl danışırsınız" deyəndə, müdrik rəhbər ona belə cavab vermişdi: "Sən niyə mənim rus dilində səlis danışmağıma deyil, Azərbaycan dilində gözəl danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, bu dili bilmək mənim, eləcə də hər bir azərbaycanlının müqəddəs borcudur!". 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, müxtəlif ciddi maneələrə baxmayaraq, Azərbaycan dilinin bu ali hüquqi aktda dövlət dili kimi təsbit olunması da cəsarətli liderin qətiyyətli mübarizəsinin nəticəsi idi. Bundan sonra, hüquqi əsas yarandığı üçün ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, radio, kino, teatr sahəsində milli dilin tətbiqini genişləndirmək daha asan oldu. Təbliğat üçün xüsusi önəm kəsb edən bu sahələrdə də milliləşmə prosesi başladı. Məhz ümummilli liderin təşəbbüsü və onun himayəsi ilə xalqımızın tarixini, adət-ənənələrini, qəhrəmanlıq keçmişini və s. əks etdirən mövzularda filmlər çəkilməyə başlanıldı. Təsadüfi deyildir ki, "Nəsimi", "Babək", "Dəli Kür" və digər bu kimi filmlər gənclərin milli ruhda tərbiyəsində, sonralar onların kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük siyasi rol oynadı.

### Azərbaycanı qüdrətləndirən Heydər Əliyev və xalq bağlılığı

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1992-ci ilin noyabrında siyasi platforması Azərbaycanın rifahından xəbər verən Yeni Azərbaycan Partiyası yaradılır. Müxalifət partiyası kimi yaradılmış Yeni Azərbaycan Partiyası düzgün fəaliyyəti, bilavasitə milli maraqlara və xalqa xidməti ilə qısa zamanda iqtidar partiyasına çevrilir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, hazırda bu partiya nəinki Azərbaycanda, həmçinin Cənubi Qafqazda ən böyük siyasi partiyadır.

SSRİ-nin süqutu ilə əlaqədar yaranmış tarixi şəraiti düzgün qiymətləndirməklə, vəziyyətdən bəhrələnən xalqımız ötən əsrin sonlarında ikinci dəfə öz müstəqilliyinə qovuşsa da, AXC-Müsavat iqtidarı təmsilçilərinin ambisiyaları və səriştəsizlikləri çox qısa müddətdə müstəqilliyimizi uçurumun kənarına gətirib çıxartdı. Müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə aparan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət ADR-in acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin də itirilməsi təhlükəsi həddinə çatır. Belə bir olduqca çətin şəraitdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq, doğru seçim edərək özünün sınanmış rəhbərini – ümummilli lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir. Azərbaycanı və xalqını özündən çox sevən ulu öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 9 iyun 1993-cü il tarixdə Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünya şöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Sağlam təfəkkürlü hər bir Azərbaycan vətəndaşı yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin

həlledici dönüş nöqtəsi hesab edilən həmin anda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə, onun mövcudluğu şübhə altına düşə bilərdi. Dahi lider ölkəni böhran vəziyyətindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etmək üçün müdrik siyasəti ilə qısa müddət ərzində vətəndaş qarşıdurmasının və müharibənin dayandırılmasına nail olmaqla, Azərbaycanda sabitliyin bərpasını təmin edir ki, bu da böyük islahatların başlanmasına rəvac verir. Beləliklə də, ölkəsini olduqca ağır vəziyyətdən yüksək məharətlə çıxarmış ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə bütün sahələrdə islahatlar həyata keçirilməyə başlanılır. İslahatlar aparılarkən kortəbii ehkamçılığa və tələskənliyə qarşı çıxan müdrik rəhbər vurğulayırdı ki, “bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına uyğun olaraq təşkil olunmaqla yerli şərait, milli xüsusiyyətlər, ənənələr və xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla həyata keçirilməlidir”. Sadalananlar nəzərə alınmaqla iqtisadi islahatların yüksək peşəkarlıqla aparılması sözsüz ki, Heydər Əliyev dühasının bəhrəsi idi. Dünya təcrübəsi də təsdiq edir ki, islahatların uğurlu nəticəsi düşünülmüş, əsaslandırılmış strategiya və taktikadan başqa, bir çox sosial-siyasi və ideoloji amillərdən də asılıdır. Heydər Əliyev müstəqil şəraitdə, heç kimə ümid bəsləmədən iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt hesab edirdi. Məlum olduğu kimi, ulu öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulmuş, atəşkəs rejimini təzəcə əldə etmiş ölkə olduğundan, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” yataqlarının istifadə edilməsi barədə “Əsrin müqaviləsi” kimi möhtəşəm bir müqavilənin bağlanılmasına müvəffəq oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan “Şahdəniz” layihəsinin, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi “İpək Yolu” layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidmətləri idi. Azərbaycan iqtisadiyyatının son inkişaf tarixi bariz şəkildə göstərir ki, Heydər Əliyev məntiqindəki “müstəqillik–iqtisadiyyat” dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə həmişə aktualdır. Dahi rəhbərin müəyyən etdiyi bütün sahələrdə islahatlar aparmaq yolu ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək və mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan artırmaqla onu xalqın bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək kimi bir-birini tamamlayan iki istiqamət ölkənin müasir inkişaf gerçəkliyinin obyektiv nəzəri-praktiki təməli kimi çıxış edir. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental iqtisadi islahatlar sayəsində sürətlə qüdrətlənən Azərbaycanda paralel olaraq digər sahələrdə, o cümlədən hüquq sahəsində də əsaslı islahatların aparılmasına zəmin yarandı. Bu sahədə aparılan islahatlarda müdrik liderin 9 avqust 1994-cü il tarixdə imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Fərman xüsusi əhəmiyyət kəsb edirdi. Görülən səmərəli işlər, o cümlədən qeyd olunan fərman hüquq-mühafizə orqanlarını cinayətkar təzahürlərə, xüsusən də, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya və terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı səfərbər etməklə, “cəzanın labüdlüyü” prinsipinin reallaşması istiqamətində ən ciddi tədbirlər görülməsini təmin etdi. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ümummilli lider Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi üçün təşəbbüs göstərməsi və bu işə hərtərəfli dəstək verməsi olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında “Heydər Əliyev Konstitusiyası” adlandırılır. 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Müdrik liderin təşəbbüsü və şəxsi nəzarəti ilə insan hüquq və azadlıqlarının qorunması sahəsində mü-

hüm hüquqi aktlar qəbul edildi, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirildi. Görülən böyük işlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Yeni ictimai münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin qəbulu isə respublikamızda bu sahədə görülən işlərin səmərəliliyini daha da artırdı. Fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə malik Heydər Əliyevi böyük şəxsiyyət kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də, onun siyasətinin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması idi. Hər kəsə bəllidir ki, 1993-cü ilin iyun ayından ölkəmizdə icrasına moratorium qoyulmuş ölüm cəzası sonradan məhdudlaşdırıldı, daha sonra isə,10 fevral 1998-ci il tarixdə bu cəza növü Şərqdə ilk dəfə olaraq Azərbaycanda ləğv edildi. Geniş ürəyə və zəngin mənəviyyata malik olan Heydər Əliyev təqsirkarları qanunvericiliyə uyğun olaraq cəzalandırmağın tərəfdarı olsa da, onun xeyirxahlığı, insanpərvərliyi bəzi hallarda cəzalandırılmış insanları bağışlamağa da sövq edirdi. Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və əfvetmə institutunun bərpası bunun əyani göstəricisi idi.

**Doğma Vətənimiz əmin əllərdədir**

Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı ulu öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri olan cənab İlham Əliyev kimi bütün ali insani keyfiyyətlərə malik böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Bu, ondan irəli gəlirdi ki, vətənini canından çox sevən uzaqgörən insanı Azərbaycanın təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. 2003-cü ildə səhhətində ciddi problemlər yaranan vaxtlarda belə öz sağlamlığını deyil, xalqını və Azərbaycanın firavan gələcəyini fikirləşən böyük qəlbli şəxsiyyət Heydər Əliyev ictimai rəyə və ümumxalq mövqeyinə əsaslanmaqla Azərbaycan xalqına müraciət edərkən cənab İlham Əliyevi ölkəyə rəhbərlik etməyə qadir lider kimi gördüyünü bildirmişdir. Ölkəmizin taleyinin həlledici məqamlarında hər zaman olduğu kimi, yenə də Heydər Əliyevin müdrik məsləhətinin intizarında olan xalq məhz sonsuz inam bəslədiyi rəhbərin millətinin və dövlətinin gələcəyini düşünməklə verdiyi çox dəyərli tövsiyəsindən bəhrələnərək düzgün seçim etməklə, bu gün digər dövlət başçılarına örnək olan böyük tarixi şəxsiyyət cənab İlham Əliyevi Prezident seçdi.

Aqil liderin prezidentliyi dövründə onun rəhbərliyi ilə görülən böyük işlərin sayəsində 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Bundan başqa, 2018-ci ildə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilmişdir. Bundan əlavə, 20 sentyabr 1994-cü il tarixdə Bakıda imzalanmış “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş”in müddəti 2017-ci ilin sentyabr ayının 14-də yeni, ölkəmiz üçün daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılmış, bu isə Azərbaycanda bundan sonra da uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına zəmin yaratmışdır. Xüsusi vurğulamaq lazımdır ki, praqmatik lider cənab İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli, səbirli, balanslaşdırılmış siyasət sayəsində 12 avqust 2018-ci il tarixdə Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə imzalanan tarixi Aktau Konvensiyası ilə 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitmiş və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik öz həllini tapmışdır. 2018-ci ilin oktyabr ayının 19-da Azərbaycan–Türkiyə qardaşlığının təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki ölkənin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan “STAR” neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olmuşdur. Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilmiş, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi də artıq yekunlaşdırılmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülmüşdür. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda

rəsmi açılışı olmuşdur. 2018-ci il sentyabrın 18-də isə yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılmışdır.

Sözsüz ki, dövlət başçısının rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurları iqtisadi islahatların siyasi islahatlarla paralel şəkildə və yüksək peşəkarlıqla aparılması şərtləndirir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik və zamanı önləyən siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti, polad iradəsi, yorulmaz fəaliyyəti və xalqla iqtidar arasında olan sıx birliyin sayəsində planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, eləcə də bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyasına, həmçinin müharibədən yeni çıxmış ölkə olmağımıza rəğmən, respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız durmadan çiçəklənir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir. Dünyada gedən neqativ proseslərlə əlaqədar olaraq yaranmış beynəlxalq iqtisadi böhran Azərbaycan iqtisadiyyatına dövlət başçısının tapşırığı ilə görülən qabaqlayıcı tədbirlər nəticəsində ciddi təsir göstərməmişdir. Reallaşdırılması nəzərdə tutulan tədbirlərdən və işlərdən heç birinin, o cümlədən, hər hansı bir sosial layihənin icrasının təxirə salınmaması da bunun növbəti təzahürüdür. Vurğulanmalıdır ki, ölkəmizdə gedən sürətli inkişaf beynəlxalq təşkilatlar tərəfindən də hər zaman yüksək qiymətləndirilir. Belə ki, ən nüfuzlu aparıcı beynəlxalq qurumlardan biri olan Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yeri tutmuşdur. Bundan əlavə, respublikamız 10 ən islahatçı dövlət sırasına daxil edilmişdir. Dünyanın bir nömrəli forumu olan Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən, inkişaf etməkdə olan 74 ölkə arasında dövlətimiz əhalinin elektrik təchizatı səviyyəsinə görə 2-ci yerdə, inklüziv inkişaf indeksi üzrə 3-cü yerdə, hökumətin dəyişməyə cavabdehliyi, yəni, islahatçı obrazı əmsalına görə 5-ci yerdə, hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdə, hökumətin siyasi sabitliyi təmin etməsinə görə 11-ci yerdə qərarlaşmaqla dünyanın bir çox ölkələrini geridə qoymuşdur. Göründüyü kimi, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl daxili və xarici siyasət sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, respublikamız hazırda da eyni templə inkişaf edir, beynəlxalq əlaqələr genişlənir və vətənimiz Azərbaycan dünya ölkələri sırasında tutduğu layiqli mövqeyini hərtərəfli möhkəmləndirir.

## Güc birlikdədir

Sirr deyil ki, dövlətimizin qüdrətlənməsində və əldə olunan uğurlarda, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik böyük dövlət xadimi – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Onun respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü böyük işlər dövlətimizin tərəqqisinə və xalqın rifahının yaxşılaşdırılmasına töhfələr verməkdədir. Qeyd olunanlar, eləcə də Mehriban xanımın sadəliyi, təvazökarlığı, səmimiliyi, bütün məsələlərdə ədalətli mövqeyi, vətəninə və xalqına bağlılığı, insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri bu nəcib insana sonsuz xalq məhəbbətini qazandırmışdır. Mehriban xanımın bəşər mədəniyyətinin inkişafı istiqamətindəki səriştəli fəaliyyəti, dövlətlərarası dialoq prosesinə verdiyi töhfələr və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər isə ona Azərbaycan xalqının sevgisi ilə bərabər, bir sıra xarici ölkə vətəndaşlarının da rəğbətini qazandırmışdır. Birinci vitse-prezidentin, xüsusən də, Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları ümumbəşəri maraqlar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq sə-

viyyədə təqdir olunur. Təsadüfi deyil ki, şöhrəti respublikamızın hüdudlarından kənara çıxan Mehriban xanım Əliyevanın gördüyü böyük işlərin sədası dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrindən gəlir və Birinci vitse-prezidentin səmərəli fəaliyyəti digər ölkələr tərəfindən də ali dövlət mükafatları verilməklə yüksək qiymətləndirilir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mükəmməl siyasətdən bəhs edərkən, bu gün dünyada bir nömrəli problemə çevrilən və planetimizi cənginə alan koronavirus infeksiyasına qarşı ölkəmizdə aparılan uğurlu mübarizəni xüsusi vurğulamaq lazımdır. Belə ki, bu təhlükəli virusun qlobal problemə çevrilməyə başladığı ilk vaxtdan etibarən onun yayılmasının və fəsadlarının qarşısının alınması, xalqımızın bu bəladan daha az zərər və minimal itki ilə çıxması üçün dövlət başçımızın çox tədbirli davranmaqla zamanında müdrik qərarlar verməsi, həmçinin qətiyyətli addımlar atmaqla aidiyyəti dövlət orqanlarını və digər qurumları səfərbər edərək onlara göstərişlər, eyni zamanda, dəyərli tövsiyələr verməklə bütün preventiv tədbirlərin görülməsini təmin etməsi ümumbəşəri bəla ilə mübarizədə dövlətimizin uğurlarını şərtləndirdi. Bununla da, vaxtında qəbul edilən doğru qərarlar və görülən ciddi tədbirlər nəticəsində koronavirus infeksiyasının ölkəmizdə geniş yayılmasının qarşısı qətiyyətlə alınır və dövlətimiz bu sınaqdan da uğurla çıxır.

Ölkə rəhbəri cənab İlham Əliyevə və Mehriban xanıma sonsuz inamı olan xalqın elə ilk günlərdən onların çağırışına yekdilliklə dəstək olaraq xüsusi karantin rejimi qaydalarına şərtsiz əməl etməsi də sözügedən məsələyə öz müsbət təsirini göstərdi. Dövlət başçısı cənab İlham Əliyevin “Biz birlikdə güclüyük!” şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək insanlarda pandemiyaya qarşı mübarizə əzmi və böyük ruh yüksəkliyi yaratdı. Eyni zamanda, Mehriban xanımın “evdə qal” çağırışını böyükdən kiçiyə hamı rəğbətlə qarşıladı və heç kim zərurət olmadan evdən çölə çıxmadı. Çünki sağlam düşüncəli hər kəs yaxşı dərk edir ki, istər cənab Prezident İlham Əliyevin, istərsə də Mehriban xanımın hər bir çağırışı həmişə milli maraqların təmin edilməsinə, dövlətin qüdrətlənməsinə, xalqın rifahına və ölkədə firavan həyatın davamlılığına hesablanır. Xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri ilə ürəkləri fəth etmiş Mehriban xanım Əliyevanın koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də, leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək çağırışı, onun hər zaman xüsusi qayğıya ehtiyacı olan insanların yanında olduğunun növbəti təzahürü idi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri Vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümü olmaqla bərabər, həmçinin hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq döyüş əzmini artırırdı ki, bu da haqq mübarizəsində qələbəmizə rəvac verdi.

Xüsusi vurğulanmalıdır ki, cənab Prezidentin ən sadiq məsləkdaşı Mehriban xanım Əliyevanın Vətən müharibəsi zamanı da yorulmaz fəaliyyəti diqqəti cəlb etmişdir. Birinci xanım ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün vətənpərvər çağırışları ilə hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etməyə müyəssər oldu. Cəbhədə döyüşən qəhrəman hərbçilərimizə, o cümlədən yaralılarımıza duaları və hərtərəfli dəstəyi ilə yardımçı olan, şəhidlərimizin, eləcə də həlak olan dinc insanlarımızın əzizlərinin ağrı-acısına şərik çıxaraq bir ana, bir bacı kimi doğma və qayğılı münasibəti ilə onları ovunduran Birinci vitse-prezident xalqımıza böyük təsəlli oldu.

Bu gün cənab Prezidentə ünvanlanan minnətdarlıq məktublarının ardı-arasının kəsilməməsi, Mehriban xanımın saysız-hesabsız xeyirxah təşəbbüslərinə görə insanların məmnunluq hissləri ilə dolu təşəkkürlərini ifadə edən müraciətlərinin səngiməməsi ölkədə həyata keçirilən uğurlu siyasətin qədirbilən xalq tərəfindən dəyərləndirilməsinin və dəstəklənməsinin təcəssümü, hər iki vətənpərvər və xalqını sevən insana olan sonsuz xalq məhəbbətinin təzahürüdür.

### Tarixi ədalətin bərpası və haqqın qələbəsi

Ölkəmizin uğurlarından bəhs edərkən ötən il xalqımızın müasir Azərbaycan tarixinin ən böyük uğurlarından birini əldə etdiyini sonsuz fərəh və qürur hissləri ilə xüsusi vurğulamaq zəruridir. Bu gün böyük iftixarla deyirik ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan hərbçilərimiz parlaq qələbəmizi təmin etmiş, nəticədə hərbi və siyasi-diplomatik


100 MİLYONLARLA DOLLAR HESABINA BAŞA GƏLMİŞ NƏHƏNG İSTEHKAMLAR, MİNALANMIŞ SAHƏLƏR VƏ MÜDAFİƏ SƏDLƏRİNİN QURULMASI TORPAQLARIMIZI ƏBƏDİ İŞĞAL ALTINDA SAXLAMAQ ÜÇÜN EDİLMİŞDİ.
İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
fb.com/PresidentIlhamAliyev

yolla 30 ilə yaxın müddətdə işğal altında olan də-də-baba torpaqlarımız azad edilərək, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Dövranın gərdişini dəyişən müdrik lider və yenilməz sərkərdə – İlham Heydər oğlu Əliyev dühasının Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan olmuşdur.

Həyata keçirilən uğurlu xarici siyasətin və görülən böyük işlərin nəticəsində bütün dünyaya məlum idi ki, Ermənistan uzun zaman ərzində Azərbaycanın 20 faiz ərazisini, beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarını – Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılmasını nəzərdə tutan müddəaları özündə əks etdirən 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olmasına baxmayaraq, həmin qətnamələr icra olunmur, bununla əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar isə heç bir tədbir görmürdü. Ermənistan da bu illər ərzində mövcud vəziyyətdən istifadə edərək qeyd olunan qətnamələri yerinə yetirmir, hər vəchlə münaqişəni mümkün qədər çox və daha uzun müddətə dondurmağa çalışır və status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışlarına məhəl qoymayaraq onları cavabsız qoyurdu.

Qazanılan diplomatik uğurlara baxmayaraq, gedən proseslər, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrin icra edilməməsi bu qənaətə gəlməyə əsas verirdi ki, beynəlxalq hüquq sözügedən məsələyə dair hissədə işləmir. Bütün bunları nəzərə alan müdrik rəhbərimiz cənab İlham Əliyev münaqişənin həlli ilə bağlı hər iki istiqamətdə işini etibarlı tutaraq, beynəlxalq dəstək və hüquqi baza yaratmaqla bərabər, həm də rəşadətli Silahlı Qüvvələr formalaşdırmışdır. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu strategiyasını zamanın tələbləri ilə uzlaşdırmaqla reallaşdıran möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu sahədə həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilmiş, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılmışdır. Bununla da, artıq Azərbaycan Silahlı Qüvvələri müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər dəfə mötəbər kürsülərdən deyirdi: "...Əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik...". Hər bir azərbaycanlı, o cümlədən Silahlı Qüvvələrimizin əsgəri, çavuşu, giziri, zabiti və generalı tarixi torpaqlarımızı düşmənlərdən azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və buna hər an hazır idi. Xalqımız tam əmin idi ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə işğal altında olan tarixi torpaqlarımız tezliklə düşmənlərdən təmizlənəcək və doğma yurdumuzun hər bir guşəsində Azərbaycan bayrağı dalğalanacaqdır.

Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbə göstərdi ki, Azərbaycan uzun müddət işğal altında olan torpaqlarını bu vaxta qədər istənilən an hərbi yolla düşmənlərdən azad edə bilərdi. Bununla belə, ölkəmiz bu məsələnin beynəlxalq hüquqla və sülh yolu ilə öz həllini tapmasının tərəfdarı olduğundan bu qədər səbrlə davranmış, lakin düşmənin ikrah doğuran hərəkətləri, o cümlədən məlum son təxribatları haqq savaşının başlanmasını labüd etmişdir.

27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin növbəti dəfə təxribat törədərək genişmiqyaslı şəkildə cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə vadar etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da ikinci Qarabağ müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs Vətən müharibəsinin qələbə ilə başa çatmasını qarşıya məqsəd qoydu. Dövlət başçısı cənab İlham Əliyevə olan sonsuz inam xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək mülki vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə isə böyük ruh yüksəkliyi yaratdı. Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən işğal altında olan ərazilərimizin bir-birinin ardınca qısa zamanda erməni qəsbkarlarından təmizlənməsi düşmənin zəbt etdiyi tarixi torpaqlarımızın tezliklə tam azad ediləcəyindən və ərazi bütövlüyümüzün bərpa olunacağından xəbər verirdi ki, bu da xalqda, o cümlədən orduda olan ruh yüksəkliyini daha da artırırdı. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi, o cümlədən 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi.

Ardınca 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın işğaldan azad edildi. Bununla da, haqq mübarizəsi hərbi-siyasi qələbəmizlə başa çatdı və ədalət bərpa olundu. Təbii ki, bütün bunlar müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz qətiyyətinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdətinin nəticəsində mümkün olmuşdur.

Qeyd etmək zəruridir ki, Ermənistanın növbəti təxribatlarının qarşısını almaq və düşməni sülhə sövq etmək məqsədi ilə gedən 44 günlük müharibədə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin şücaəti hərb tariximizin qəhrəmanlıq salnaməsini yaratmağa müvəffəq oldu. Təsadüfi deyil ki, NATO, eləcə də ABŞ, Böyük Britaniya, Almaniya, Ukrayna və digər ölkələrin hərbçiləri Azərbaycanın Vətən müharibəsi təcrübəsindən bəhrələnmək, bununla əlaqədar öz ordularında müəyyən dəyişikliklər aparmaq fikirlərində olduqlarını açıq etiraf edirlər. Möhtərəm Prezident cənab İlham Əliyev demişdir: "...heç bir xarici qüvvə Azərbaycanın qazandığı Qələbəyə kölgə sala bilməz...". Fürsətdən istifadə edib, uca Allahdan Vətən müharibəsində qəhrəmancasına həlak olan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfa diləyirəm.

**İntibah dövrünü yaşayan Azərbaycan**

Vətən müharibəsindən sonra Azərbaycanın qarşısında duran ən əsas vəzifələrdən biri də işğaldan azad olunmuş torpaqlarımızda düşmən vəhşiliyi nəticəsində dağıdılmış yaşayış məntəqələrimizin, təhsil ocaqlarımızın, erməni vandalizminə məruz qalmış mədəni və dini abidələrimizin bərpası, quruculuq işlərinin həyata keçirilməsidir. Bu məsələ siyasətində quruculuq, abadlıq prioritet istiqamət olan və Azərbaycanın hər bir guşəsini cənnətə çevirmiş cənab Prezidentin şəxsi nəzarətindədir. Hazırda işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işləri yüksək sürətlə uğurla davam etdirilir. Belə ki, elektrik enerjisi, su və təbii qaz təminatı kimi təxirəsalınmaz kommunal təchizatı, həmçinin yol nəqliyyat və digər sosial infrastruktur yenidən qurulur, eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rəhbəri olduğu və ulu öndərin xeyirxah ideyalarını layiqincə davam etdirən Heydər Əliyev Fondu tərəfindən dini abidələrimizin, o cümlədən məscidlərimizin bərpası üzrə layihələr icra olunur. Dövlət başçısının təşəbbüsü və tapşırıqları ilə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur ki, bu da pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə respublikamızın güc və qüdrətini sübut edən növbəti bariz nümunədir. Hər kəsə məlumdur ki, ölkə rəhbəri artıq bir neçə dəfə ailəsi ilə birlikdə işğaldan azad olunmuş ərazilərimizə səfər edərək, quruculuq və abadlıq işləri ilə şəxsən tanış olmuş, bu prosesə öz dəyərli tövsiyələrini vermiş və bir neçə nəhəng layihənin təməlini qoymuşdur. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tarixi torpaqlarımızda sevinc və qürur dolu davranışları, səmimi paylaşımları hər birimizdə sözlə ifadə oluna bilməyən iftixar hissləri yaratmaqla, xalqımız tərəfindən böyük maraq və fərəhlə qarşılanır. Bütün bunlar dövlət başçısının və birinci xanımın vətənə, yurda, torpağa və xalqa bağlılığının təcəssümüdür.

Möhtərəm Prezident cənab İlham Əliyev demişdir: "...Bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, işğal olunmuş və azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar. Bu torpaqlarda həyat canlanacaqdır...". Qeyd olunanlar bir daha vətənpərvər liderimizin doğma Azərbaycanın hər qarışına, eləcə də hər bir vətəndaşının rifah halının yüksəldilməsinə verdiyi önəmin və fəaliyyətinin əsas prinsipi olan "mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" ifadəsinin reallığının təzahürüdür.

Göründüyü kimi, "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" – deyən ulu öndər Heydər Əliyev təkcə öz həyatını dövlətinə və millətinə fəda etməklə kifayətlənməmiş, həm də Azərbaycan üçün atasıtək ömrünü Vətəninə və xalqına həsr edən cənab İlham Əliyev kimi nəhəng tarixi şəxsiyyət bəxş etmiş, əsl lider hazırlamışdır.

Bütün bunlar qəti əminliklə onu deməyə əsas verir ki, qədirbilən Azərbaycan xalqı Vətəni və milləti qarşısındakı bənzərsiz xidmətləri ilə "Dünyanın ən böyük azərbaycanlısı" adını qazanmış nəhəng tarixi şəxsiyyət Heydər Əliyevi hər zaman yüksək ehtiramla xatırlayacaq, onun əziz və unudulmaz xatirəsini daim xüsusi hörmətlə yad edəcəkdir.

**Xanlar VƏLIYEV,**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru ədliyyə general-leytenantı**

# Müasir Azərbaycan gəncliyi: qalib ölkənin məğrur siması



***"Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bu gün dünyada sayca tarixən ən çox – 1,8 milyard nəfər təşkil edən gənc əhali yaşamaqdadır ki, onların inkişafı və cəmiyyətlərə keyfiyyətli inteqrasiyası istiqamətində beynəlxalq ictimaiyyət və onun üzv dövlətləri tərəfindən ən üst səviyyədə iş aparılmaqdadır. Belə ki, iki dünya müharibəsinin yaşandığı ötən əsrdən miras qalan fəsadlardan dərs çıxarmış dünya birliyi bəşəriyyətin işıqlı gələcəyi üçün sağlam fikirli gənc nəslin formalaşmasına zərurət yarandığını artıq tam dərk etməkdədir.*

Məhz bu zərurətdən irəli gələrək, Azərbaycanın da üzvü olduğu Birləşmiş Millətlər Təşkilatının (BMT) 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərində gənclər siyasətinə xüsusi yer verilmiş, 2030-cu illədək məşğulluq, layiqli iş imkanları və sahibkarlıq fəaliyyəti üçün müvafiq bacarıqlara, o cümlədən texniki və peşə vərdişlərinə malik olan gənclərin sayınının əhəmiyyətli dərəcədə artırılması, onlar üçün tam və səmərəli məşğulluq imkanlarının yaradılması, bərabər dəyərli əməyə görə bərabər ölçüdə ödənişə nail olunması və digər bu kimi mühüm əhəmiyyətli hədəflər qarşıya qoyulmuşdur.

"Qlobal Məqsədlər" kimi də tanınan bu hədəflər əsas götürülməklə həmin beynəlxalq təsisat tərəfindən 2018-ci ildə ayrıca Gənclər Strategiyası qəbul edilmişdir ki, sözügedən sənəddə gənclərlə iş üç sütun - sülh və təhlükəsizlik, insan hüquqları və davamlı inkişaf formasında şaxələndirilmiş, bununla da gənclərin qlobal ictimai-siyasi proseslərdəki mühüm rolu bir daha önə çəkilmişdir.

Dinamik inkişafı və yürütdüyü praqmatik siyasətlə dövrümüzdə müasir dünya ölkələri zəncirinin önəmli halqasına çevrilən Azərbaycan Respublikasında da, beynəlxalq müstəvidə bu sahədə mövcud olan müsbət tendensiyaya uyğun olaraq sistemli islahatlar və proqram xarakterli tədbirlər reallaşdırılır, əməli işlər görülür.

Ümummilli Lider Heydər Əliyevin müdrik dəst-xəttindən bəhrələnən və dövrümüzdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir çağın tələblərinə uğurla transformasiya edilmiş bu strategiyanı bu gün böyük əminliklə gənclər siyasətinin Azərbaycan modeli adlandırmaq olar.

Bütün bu müsbət göstəricilərə baxmayaraq, ərazi bütövlüyümüzə mənfur düşmənimiz olan Ermənistan tərəfindən qəsd olunması hər bir azərbaycanlının, o cümlədən gənclərimizin də yaralı yeri olmaqla, onların güclü bir gənc nəsil kimi formalaşmasına mənfi təsir göstərirdi. Bununla belə, torpaqlarımızın işğalından doğan ağrı-acılar, xalqımızın çəkdiyi vətən həsrəti, minlərlə soydaşımızın öz doğma yurd-yuvalarından didərgin düşməsi Azərbaycan gəncliyinə vətənpərvərlik duyğularının hər zaman ön sırada olmasını aşılayırdı. Gəncliyimizin məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi tarixi ədalətin bərqərar olmasına böyük bir təkan oldu. Müzəffər Ali Baş Komandanın çağırışı ilə gənclərimiz vətənin müdafiəsi uğrunda canını belə fəda etməyə hazır olan qəhrəmanlara çevrildilər.

Ötən il 44 günlük Vətən müharibəsinin ən ağır yükü cəbhədə misilsiz igidliklər göstərən, ərazi bütövlüyümüz üçün şəhid olan, yaralanan, vətənimizin hər bir qarış torpağının düşmən tapdağından azad olunması üçün silahdaşları ilə birgə böyük fədakarlıqlar edən gənc əsgər və zabitlərimizin üzərinə düşdü. Gənc tibb işçilərimiz istər səhiyyə müəssisələrində, istərsə də müharibənin qaynar nöqtələrində qorxmadan yaralı hərbçilərimizin qayğısına qaldı, onları həyata qaytardı. Bu gün bu müqəddəs qələbəni bizə bəxş edən şəhid və qazilərimiz xalqımızın milli sərvəti olmaqla, gələcək nəsillərimiz üçün də örnəkdir.



Zəfərlə nəticələnən keşməkeşli müharibə günləri geridə qalıb. Hazırda Azərbaycanda bütün sahələrdə olduğu kimi, gənclərlə bağlı beynəlxalq təcrübəyə əsaslanan fəaliyyətlər də yeni dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilir. Gənclərin öz faydalı ideyalarını reallaşdıra bilmələrindən ötrü zəruri mühit formalaşdırılır. Xüsusilə regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər intensiv xarakter daşıyır. Ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılır. Gənclər mühüm dövlət vəzifələrinə irəli çəkilir. Dövlətin qayğısı sayəsində ölkəmizdəki gənclər təşkilatlarının hüquqları genişləndirilir, onların layihə və proqramlarına mütəmadi dəstək verilir.

Bu sahədə milli strateji yanaşmanı ictimai münasibətləri nizamlayan qanunvericilik bazasının vaxtında formalaşdırılması, mərhələli şəkildə qəbul edilmiş dövlət proqramlarının keyfiyyətli icrası, eyni zamanda gənc kəsimə xitab edən dəstək yönümlü əməli tədbirlərlə ümumi şəkildə xarakterizə etmək olar.

Halbuki, daha detallı şəkildə təhlil edildikdə, Azərbaycanda gənclərlə işin bir-birini tamamlayan bütün əsas aspektləri- istər hüquqi-instusional, istər sosial-iqtisadi, istərsə də elmi-mədəni sahələri əhatə etdiyini görmək mümkündür.

### Hüquqi-instusional çərçivə

Hüquqi-instusional çərçivədə görülmüş işlərə nəzər yetirdikdə gənclər siyasətini tənzimləyən normativ hüquqi baza və onun həyata keçirilməsi üçün cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanı - Gənclər və İdman Nazirliyinin yaradıldığını görmək olar.

Eləcə də, gənclər təşkilatları və ayrı-ayrı gənclərin ictimai əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təsis olunmasını digər bir əyani nümunə kimi qeyd etmək olar.

Digər tərəfdən, gənc ailələr, istedadlı gənclər, sosial müdafiəyə ehtiyacı olan cavanlar, habelə gənc alim, tədqiqatçı, tələbə və könüllülərin milli qanunvericilikdə əsas hədəf qrupları olaraq müəyyən edilməsi, onların cəmiyyətin həyatında fəal iştirakını təşviq edən hüquqi mexanizmlərin formalaşdırılması da bu istiqamətdə diqqətəlayiq faktorlar sırasındadır.

### Sosial-iqtisadi sfera

Digər bir vacib istiqamət olan sosial-iqtisadi sferada da dövlət öz dəstəyi ilə daim Azərbaycan gəncinin yanında olmuş, onun rifah halının yüksəldilməsi üçün zəruri resurs və imkanlarını səfərbər etmişdir. Xüsusilə son illər bu həssas təbəqənin sosial müdafiəsinin gücləndirilməsi və rifahının daha da yüksəldilməsi istiqamətində mütərəqqi addımlar atılmış, gənc ailələrin mənzilə olan tələbatının qarşılanması məqsədi ilə orta bazar qiymətindən aşağı qiymətə sosial mənzillər tikilərək onların istifadəsinə verilmiş, habelə güzəştli şərtlərlə sosial ipoteka almaq imkanı yaradılmışdır. Üstəlik, vətən müharibəsindən sonra qazi və şəhid ailələrinin mənzillərlə təmin olunması da icra edilməkdə olan tədbirlər kompleksinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu sahədə görülən işlərin növbəti parlaq nümunəsi kimi qeyd etmək olar ki, valideyn himayəsindən məhrum olan və uşaq evlərində böyüyən gənclər üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxtın müxtəlif rayonlarında yaşayış binaları inşa edilmiş, həmçinin bu kateqoriyadan olan gənclərin işlə təmin edilməsinə nail olunmuşdur.



Digər bir mühüm sahə kimi gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması onların maddi durumunun, rifah halının daha da yaxşılaşdırılmasına imkan vermiş, keçirilən forum və təlimlər, eləcə də reallaşdırılan proqramlar vasitəsi ilə gənclər arasında özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsinə tam dəstək ifadə olunmuşdur.

Onu da qeyd edək ki, tələbə və məzun adını yenicə qazanmış iş təcrübəsi olmayan şəxslərə də həssas yanaşma sərgilənmiş, onların dünyagörüşünün genişləndirilməsi, ixtisas biliklərinin artırılması, peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması məqsədilə könüllü əsaslarla fəaliyyətə cəlb edilmələrinə müxtəlif dövlət və qeyri-dövlət təsisatlarında xüsusi yer verilmişdir.

**Elmi-mədəni aspekt**

***"Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir."*** Bu müddəa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə əks olunmuşdur.

Bu mühüm strateji sənəddən də göründüyü kimi dünyada baş verən dinamik inkişaf prosesləri ölkəmizdə də hər bir sahədə olduğu kimi elmi-mədəni və təhsil sahəsində gənclərin daha fəal iştirakının təmin edilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini aktuallaşdırır. Dövlət başçısının Azərbaycan gəncliyi ilə bağlı yeni qərarları, müəyyən etdiyi vəzifələr də məhz bu mərama xidmət göstərir, ölkəmizin, cəmiyyətimizin inkişafı üçün gəncliyin enerjisindən, yenilikçi potensialından məqsədyönlü şəkildə istifadə zərurətini önə çəkir.



Gənclərin keyfiyyətli təhsilinə göstərilən dövlət qayğısının nəticəsidir ki, müstəqillik dövründə ölkəmizdə bütün müasir tələblərə cavab verən, qabaqcıl elmi yanaşma metodlarını tətbiq edən Azərbaycan Diplomatik Akademiyası, Bakı Ali Neft Məktəbi və digər bu kimi dünya səviyyəsində tanınmış ali təhsil ocaqları fəaliyyətə başlamışdır. Sevindirici haldır ki, artıq bu müəssisələrin məzunları ölkəmizdə və dünya miqyasında ixtisaslı kadrlar hesab olmaqla çalışdıqları sahələrə töhfələr verməkdədirlər.

Xarici təcrübə və yanaşmaların da əhəmiyyəti dövlət səviyyəsində daim diqqət mərkəzində saxlanılmaqla, qəbul edilmiş proqram xarakterli sənədlər əsasında yüzlərlə gəncimizin inkişaf etmiş ölkələrin təhsil ocaqlarında prioritet sahələr üzrə dövlət hesabına təhsil alması sistemli şəkildə icra edilmiş, onların vətənə geri qayıtdıqdan sonra yiyələndikləri ixtisasa müvafiq işlə təmin edilmələrinə müvəffəq olunmuşdur. Eyni zamanda xaricdəki təhsilini başa vurduqdan sonra həmin ölkədə karyera qurmuş gənclərimiz də az deyildir

ki, onlar da yaşadıqları cəmiyyətlərə uğurla inteqrasiya olunmuş, istər diaspora, istərsə də əmək fəaliyyətində ölkəmizi daim uca tutmuş, onun adına faydalı işlər görmüşlər.



Öz növbəsində dövlətimiz tərəfindən də, cəmiyyətin həyatında müsbət mənada fərqlənən gənclərin nailiyyətinə hər zaman fərdi yanaşılmış, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, habelə innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən istedadlı gənclərə Dövlət Başçısının 2 iyul 2013-cü il tarixli Fərmanı ilə Gənclər üçün Prezident Mükafatı təsis edilməklə, onlarla istedadlı və fəal gənc bu mükafata layiq görülmüşdür.

**Prokurorluq orqanlarında gənclər siyasəti**

Azərbaycan Respublikasında yürüdülən gənclər siyasəti hər bir dövlət təsisatında olduğu kimi milli prokurorluq orqanlarında da prioritet məsələlər sırasındadır. Yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilən dövlət gənclər siyasəti çərçivəsində həyata keçirilir, prokurorluq orqanlarına qulluğa qəbul müsabiqə yolu ilə aparılır, kadr korpusu şəffaf prosedurlar əsasında formalaşdırılır. Prokurorluğa qulluğa qəbulun müsabiqə yolu ilə aparılması işə qəbulun ən sivil və demokratik yolu olmaqla, prokurorluğun kadr tərkibinin hərtərəfli savada və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Ulu öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq 2002-ci ildən hazırkı vaxtadək yüzlərlə namizəd şəffaf prosedurlar əsasında prokurorluq orqanlarına qulluğa qəbul edilmiş və bununla da müsabiqə yolu ilə işə qəbul edilmiş gənc prokurorluq işçilərinin sayı əhəmiyyətli dərəcədə artaraq, 78,5 % təşkil etmişdir.




"Prokurorluğa işə qəbul olunmaq üçün

namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq, 15 aprel 2020-ci il tarixdə prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün Baş Prokurorluq tərəfindən 80 vakant ştat vahidi üzrə növbəti – 22-ci müsabiqə elan edilmişdir.

Müsabiqədə iştirak etmək üçün müraciət etmiş 412 namizədin 238 nəfəri Bakı Dövlət Universitetinin, 55 nəfəri Naxçıvan Dövlət Universitetinin, 17 nəfəri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 26 nəfəri Milli Aviasiya Akademiyasının, 1 nəfəri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, 6 nəfəri Azərbaycan Respublikası Daxili Nazirliyinin Polis Akademiyasının, 69 nəfəri isə xarici ölkələrin, o cümlədən Türkiyə, Rusiya və Ukrayna ali təhsil müəssisələrinin məzunu olmuşdur. Baş Prokurorluq tərəfindən Dövlət İmtahan Mərkəzi ilə birgə 05 fevral 2021-ci il tarixdə kompüterlər vasitəsilə elektron qaydada müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir.






Müraciəti qeydə alınmış 412 namizəddən 370 nəfəri test imtahanında iştirak etmiş, onlardan 70 və daha artıq bal toplamış 163 namizəd müsabiqənin növbəti mərhələsi olan yazılı imtahanda iştirak etmək hüququ qazanmışdır.

17 mart 2021-ci il tarixdə Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında, ölkədə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə müəyyən edilmiş xüsusi karantin rejiminə dair qaydaların tələblərinə uyğun olaraq müsabiqənin yazılı imtahan mərhələsi keçirilmiş və imtahanda 160 namizəd iştirak etmişdir.




Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"na müvafiq olaraq yazılı imtahan işləri "ikiqat yoxlama" üsulu ilə Baş Prokurorluğun Müsabiqə Komissiyası və dəvət olunmuş mütəxəssis tərəfindən yoxlanılmış, nəticədə 102 namizəd (89 oğlan, 13 qız) müvəffəqiyyət qazanmış və Baş Prokurorluğun rəsmi internet səhifəsində bu barədə məlumat yerləşdirilmişdir.

Müsabiqənin sonuncu mərhələsinə buraxılmış 102 namizədin dünyagörüşünü, məntiqi düşünmə qabiliyyətini, prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərini müəyyən etmək üçün 2021-ci il aprelin 7-dən 14-dək Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən müsahibə keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyasının 14 aprel 2021-ci il tarixli iclasında yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları və hazırda prokurorluq orqanlarında mövcud vakant ştat vahidləri nəzərə alınaraq, elan olunmuş 80 ştat vahidindən artıq, yəni 100 gənc hüquqşünasın müsabiqədən keçirilməsi barədə qərar qəbul edilmişdir.

Müsabiqənin nəticələrinə görə «İşin Təşkili Qaydaları» ilə müəyyənləşdirilmiş keçid balını toplamış 100 namizəd 19 aprel 2021-ci il tarixdən Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilmiş və icbari təlimi müvəffəqiyyətlə başa vurduqdan sonra peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə almışlar.

Bununla yanaşı, gənc prokurorluq işçilərinə göstərilən etimadın növbəti təzahürü kimi "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanuna dəyişiklik edilərək ilk dəfə prokurorluğa qulluğa qəbul edilən şəxslər üçün stajorluq və sınaq müddətləri yarıbayarı azaldılmışdır.

Bu gün tam əminliklə qeyd etmək olar ki, hər bir sahədə olduğu kimi, prokurorluq orqanlarında da gənclər bu qurumun əsas hərəkətverici qüvvəsi olmaqla onun səmərəli fəaliyyətinə ardıcıl töhfələr verməkdədirlər.



Qeyd edilənlərdən də göründüyü kimi, müasir dövrdə gənclərsiz Azərbaycanın ictimai-siyasi həyatını təsəvvür etmək mümkün deyil. Gənclik bu gün ölkəmizdə aparılan sistemli islahatların mərkəzində durur. Azərbaycan Respublikasının Prezidenti gənclərə etimad göstərir, müəyyən etdiyi ümdə vəzifələrin reallaşdırılmasında onlara böyük ümid bəsləyir. Bu ümidi doğrultmaq, vətənpərvərlik əzmini, azərbaycançılıq ruhunu qorumaq Azərbaycan gəncliyinin ümdə vəzifəsidir.

Təqdirəlayiq haldır ki, milli gəncliyimiz öz xalqının və dövlətinin ona göstərdiyi inamı doğruldaraq, özünü hər sahədə - istər təhsil, istər elmi-mədəni, istərsə də əmək fəaliyyəti sahəsində tam doğrultmuş və ən əsası qanı və canı bahasına əldə etdiyi zəfərlə qalib ölkənin məğrur simasına çevrilmişdir.

**Heydər MƏMMƏDOV**
**Azərbaycan Respublikası Baş prokurorunun**
**müavini III dərəcəli dövlət ədliyyə müşaviri**



**İLK NÖVBƏDƏ, MÖVCUD İNFRASTRUKTURA YAXIN KƏNDLƏR BƏRPA EDİLƏCƏK. BU HƏM VAXT, HƏM SƏMƏRƏLİLİK BAXIMINDAN DAHA MƏQSƏDƏUYĞUNDUR.**

Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı göstərişlər verilib.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Qarabağ zəfərinin əldə olunmasında Heydər Əliyev siyasətinin rolu




Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi əhəmiyyətə malik xidmətləri misilsizdir.

Dahi şəxsiyyətin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır.

1969-cu ildə ölkə rəhbərliyinə gətirildikdən dərhal sonra Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri Dağlıq Qarabağda milli ruhun oyadılması olmuşdur. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərərək bu məsələyə çox həssaslıqla yanaşmışdır.

Xüsusilə, Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin inkişafına çox böyük qayğı göstərilməklə Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında qəbul edilmiş bir neçə xüsusi qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi.

Eyni zamanda, Ümummilli lider Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu da səbəbsiz deyildi. Çünki erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər. Onların bu niyyətlərinin qarşısını almaqda, Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. “Ağdam-Xankəndi” dəmir yolu çəkildi. 1979-cu il yanvarın 12-də həmin yol ümummilli liderin iştirakı ilə istifadəyə verildi. Həmin dəmiryol xətti ilə muxtar vilayətin respublikanın digər rayonları ilə daha sıx iqtisadi əlaqəsi yaradıldı. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi sahəsində strateji addımı və böyük tarixi xidməti idi.

1980-1981-ci illərdə görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə abidə, məqbərə tikildi. Şuşaya səfəri zamanı Heydər Əliyev Poeziya evini açdı, Vaqif poeziya günlərində iştirak etdi, Üzeyir bəy Hacıbəyovun və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış oldu və onların qorunmasına dair tövsiyələrini verdi. 1982-ci il avqustun 2-də Şuşada şairə Xurşudbanu Natəvana abidə qoyuldu. Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi illərdə Şuşa şəhərinin və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan digər məntəqələrinin



siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndində Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, yerli əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaratmışdı.

Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər. 1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alınmışdı. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Ermənistan SSR rəhbərliyi erməni millətçilərinin təhriki ilə yenidən Azərbaycan SSR-nin DQMV-ni ərazisinin Ermənistan SSR-yə birləşdirilməsi ilə bağlı SSRİ mərkəzi hökumətinə müraciət etmişdi. 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olunmuş və bununla bağlı təklif irəli sürülmüşdü. Məsələdən xəbər tutan Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar atmışdır. Bu məqsədlə Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlanmış, sonra bu sənəd Azərbaycan KP MK Bürosunda müzakirə edərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilmiş və həmin qərar keçmiş SSRİ rəhbəri L.İ.Brejnevə təqdim olunmuşdur. Heydər Əliyevin atdığı qəti addımlar nəticəsində ermənilərin bu niyyəti baş tutmamışdır. Ümumiyyətlə, Heydər Əliyevin qətiyyətli mövqeyi hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat etmiş və öz çirkin niyyətlərini həyata keçirmək üçün ciddi bir maneə olmuşdur.

Artıq həmin dövrdə milli ideologiyaya söykənən Ümummilli Liderimizin böyük uzaqgörənliklə həyata keçirdiyi inkişaf strategiyasında hərbi quruculuq məsələlərinin həllinə başlanmış, sovet dönəminin sərt rejiminə dəmir iradəsi, qeyri-adi müdrikliyi ilə qalib gələn Ulu Öndər Kremlin milli hərbi kadrlara inamsızlıq siyasətinin əksinə olaraq, azərbaycanlıların hərbi peşələrə kütləvi şəkildə yiyələnməsi, zabit kimi yetişməsi üçün tarixi addımlarını ataraq Azərbaycanda analoqu olmayan xüsusiləşdirilmiş hərbi təmayüllü orta internat məktəbin (indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey) yaradılması barədə qərar vermişdir. Məhz bu məktəb 1991-ci ildə ağır və çətin bir şəraitdə Qarabağ müharibəsinin başladığı dönəmlərdə müstəqilliyini bərpa edən Azərbaycanın ordu quruculuğunda baza rolunu oynamışdır.

Onu da qeyd etmək lazımdır ki, Ulu Öndər respublikaya rəhbərliyinin ilk illərində SSRİ-nin Azərbaycanda yerləşən hərbi təhsil müəssisələrində olur və orada azərbaycanlıların çox az sayda təhsil aldığını görürdü. Bildiyimiz kimi, o zaman respubli-











kada Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi və Xəzər Ali Hərbi Dənizçilik Məktəbi fəaliyyət göstərirdi. Respublika rəhbəri bu məktəblərin buraxılış mərasimlərində iştirak edir, diplom və zabitlərin rütbələrini məzunlara şəxsən təqdim edirdi.

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində antiazərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı. Qeyd etmək lazımdır ki, bu proses M.S.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. Həmin dövrdə Ermənistanda  Azərbaycan əleyhinə geniş təbliğat-təşviqat işləri aparılırdı. Qondarma erməni tarixçiləri tərəfindən Qarabağın tarixi saxtalaşdırılaraq “erməni torpaqları” olması barədə dərsliklər və məqalələr, qədim Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi barədə Moskvaya ardı-arası kəsilməyən məktublar, müraciətlər yazılırdı.

1987-ci ilin oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin I müavini Heydər Əliyev Sov.İKP MK plenumunda vəzifəsindən istefa verdikdən cəmi bir neçə gün sonra və anti-Azərbaycan ssenarilərinin işə düşməsi ilə Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə “İnterkontinental” hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Oktyabr ayında Yerevanda Puşkin adına parkda “Qarabağ” komitəsinin ilk mitinqi keçirildi ki, bu da ermənilərin ərazi iddialarının həyata keçirilməsi yolunda atılan ilk addım oldu. Bunun ardınca noyabrın 18-də  A.Aqanbekyanın Parisdə verdiyi müsahibə “L’Humanite” qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

Təsadüfi deyil ki, Ümummilli lider keçmiş Sov. İKP MK-nın 1989-cu ilin aprel ayının 25-də keçirilmiş Plenumunda MK-nın tərkibindən çıxarıldıqdan sonra ermənilər və onların havadarları, xüsusilə, əl-qol açmış, məlum Dağlıq Qarabağ hadisələri intensiv surətdə dərinləşərək torpaqlarımızın işğalına yol açmışdır.

Ümumiyyətlə, Heydər Əliyev hələ Respublikaya rəhbərliyinin sovetlər dönəmində və sonradan SSRİ rəhbərliyində – Sov. İKP MK Siyasi Bürosunun üzvü, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə erməni şovinistlərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana

birləşdirilməsi haqqında cəhdləri qətiyyətlə dəf edilmişdir.

Sirr deyil ki, 1990-cı ildə SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə ittifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmiş, idarəetmə potensialı aşağı olan respublikalarda, o cümlədən Azərbaycanda çox mürəkkəb siyasi-hüquqi vəziyyət yaranmışdır.

Belə bir dönəmdə daim xalqının yanında olmaqla onun qayğılarını hər şeydən üstün tutan Heydər Əliyev Moskvadan blokada şəraitində yaşayan Naxçıvana qayıdaraq, Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməklə burada yaşayan soydaşlarımızı erməni təcavüzündən və digər təhlükələrdən, çirkin siyasi oyunlardan xilas etmiş, iqtisadi çətinliklərdən qurtara bilmişdir.

Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı Heydər Əliyevin təşəbbüsü ilə bu regional dövlət qurumunun adından “sovet sosialist” sözləri çıxarılmış, Ali Sovetin adı dəyişdirilərək Ali Məclis adlandırılmışdır. Eyni zamanda, həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında qərar çıxarılmışdır. SSRİ-nin dağılmasından 11 ay əvvəl baş vermiş bu hadisələr Sovet İttifaqının çökməsinə təkan vermiş, ölkəmizdə milli azadlıq hərəkatının genişləndirilməsində mühüm rol oynamışdır.

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi islahatlarının həyata keçirilməsi, regionda milli ordu hissələrinin təşkili, Türkiyə ilə sərhəddə Araz çayı üzərində “Ümid körpüsü”nün salınması, Yeni Azərbaycan Partiyasının yaradılması, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis olunması və sair mühüm tədbirlər nəinki muxtar respublikada, ümumən Azərbaycan miqyasında yeni siyasi-iqtisadi və mədəni mühitin formalaşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisələrə çevrilmişdir.

Bütün bunlarla yanaşı, blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atılmış, xüsusilə də Türkiyə ilə qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırılmışdır.

1992-ci ilin may ayında Bakıda siyasi qüvvələr arasında hakimiyyət davası qızışdığından və onların Qarabağı yaddan çıxarmalarından istifadə edən ermənilər ölkəmizə qarşı hücumlarını genişləndirməklə Şuşa və Laçın rayonlarını ələ keçirmiş, həmçinin yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı hərbi təcavüzləri də gücləndirmişdilər. Yalnız Ulu Öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onların məkrli planlarının qarşısı alınmaqla muxtar respublikanın sərhədlərinin toxunulmazlığı təmin edilmişdir.

Acı bir həqiqət olaraq qeyd etməliyəm ki, 1991-ci ildə Sovetlər İttifaqının dağılması nəticəsində onun tərkibində olan bütün respublikalarla yanaşı Azərbaycan Respublikasının da müstəqilliyini bərpa etməsinə baxmayaraq, hakimiyyətə yiyələnmiş AXCP-Musavat cütlüyünün səriştəsiz və yarıtmaz fəaliyyəti ölkənin topraqlarının işğalı və son nəticədə müstəqilliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qoymuşdur.

Məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq 1993-cü ilin iyununda Azərbaycan parlamentinin sədri seçilən Heydər Əliyevin qətiyyəti və müdrikliyi nəticəsində qısa müddət ərzində cəbhədə uğurlar əldə edilmiş, Ali Baş Komandan Heydər Əliyevin xalqa tarixi müraciəti, ordumuzda yaranmış böyük ruh yüksəkliyi və möhkəm nizam-intizam, döyüşən bütün qüvvələrin vahid komandanlığa tabe edilməsi nəticəsində qısa müddət ərzində çoxsaylı yaşayış məntəqəsi, minlərlə hektar torpaq sahəsi düşmən caynağından azad edilmişdir.

Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Ulu Öndər özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibəni dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması

və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni siyasi kursun ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Ulu Öndər Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

1996-cı ildə ATƏT-in Lissabon sammitində ölkəmizin ərazi bütövlüyünün beynəlxalq ictimaiyyət tərəfindən bir daha yekdilliklə tanınması və Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağdakı ərazilərimizin işğaldan azad edilməsi haqqındakı qətnamələrin yerinə yetirilməsinin dəstəklənməsi Ulu Öndər Heydər Əliyevin apardığı müdrik siyasətin uğurlu nəticəsi idi. Görkəmli dövlət xadimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinin formatını müəyyən etmiş, beynəlxalq miqyasda həmin formatın obyektivliyi haqqında ictimai rəy formalaşdırsa da müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarını yaradaraq silahlı qüvvələrimizin peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir texnika ilə təchiz edilməsini prioritet istiqamət hesab etmişdir.

Bütün həyatını xalqına, onun xoşbəxt gələcəyinin qurulmasına həsr edən Ümummilli Liderimiz Azərbaycanın müasir qüdrətli ordusunun yaradılması üçün böyük işlər gördü, ordu quruculuğuna, ölkənin hərbi kadr potensialının gücləndirilməsinə daim diqqət yetirdi.

Ulu Öndərin dahiyanə idarəçiliyi, güclü strateji bacarığı sayəsində Silahlı Qüvvələrimiz dünya standartlarına uyğun olaraq vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. Ordunun maddi təminatı və təchizatı xeyli gücləndirildi. Ümummilli Liderin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbi də müstəqillik dövründə yenidən quruldu. Təkcə Azərbaycanın deyil, xarici ölkələrin hərbi məktəblərində də Silahlı Qüvvələrimiz üçün yüzlərlə təcrübəli mütəxəssis hazırlandı. 1999-cu il fevralın 20-də Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması hərb tariximizdə əlamətdar hadisə oldu.

Ulu Öndər Heydər Əliyevin ömür yoluna nəzər salsaq, aydın olar ki, bu ömür yalnız bir məqsədə xidmət etmişdir: O da müstəqil və qüdrətli Azərbaycandır. Ona görə də ümummilli liderimizin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olmuşdur.

Böyük öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük strateq Heydər Əliyevin uzaqgörən dühasının sübuta ehtiyacı olmadığını təsdiq edərək həyata keçirdiyi məqsədönlü fəaliyyəti nəticəsində 30 ilədək işğal altında olan torpaqlarımız 44 gün ərzində müzəffər Ordumuz tərəfindən düşmən tapdağından azad edildi. Bununla həm ərazi bütövlüyümüz təmin edildi, həm də "Hər bir azərbaycanlı bilməlidir və  hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik", – deyən ümummilli liderimizin arzuları reallaşdı.

Şuşanın azad edilməsi xəbərini Bakıdakı Şəhidlər xiyabanından xalqa çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, Böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!"

Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Bu qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı.

**Elşən Abbasov**
**Təşkilat və icraya nəzarət idarəsinin rəisi**
**III dərəcəli dövlət ədliyyə müşaviri**


İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxış edib.
SOSİAL-İQTİSADİ İNKİŞAFLA BAĞLI NÖVBƏTİ ON İL ÜÇÜN QƏBUL EDİLMİŞ MİLLİ PRİORİTETLƏRƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ DA DAXİLDİR.
Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

# Ağır və ya xüsusilə ağır cinayətlərin gizlədilməsi və ya xəbər verilməməsinə dair cinayət işləri üzrə istintaq təcrübəsində mövcud problemlər

Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətməyə görə cinayət məsuliyyəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə müəyyən edilmişdir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinə əsasən cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar bir icraatda birləşdirilə bilməz.

İstintaq təcrübəsində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin tələbinə əsasən ağır və ya xüsusilə ağır cinayətlərə dair işlər məhkəmələrə göndərilməzdən əvvəl həmin cinayət barədə xəbər verməyən və ya həmin cinayətləri gizlədən şəxslər barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə cinayət təqibi ayrı icraata ayrılır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə ayrılmış cinayət işləri məhkəməyə göndərilən ağır və ya xüsusilə ağır cinayət üzrə məhkəmənin hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.1-ci maddəsinə istinad edilməklə, yəni təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmamasına görə ibtidai istintaqda dayandırılır. Lakin, əməli törətmiş şəxs müəyyən olduğu və ya cinayət işi konkret şəxsin barəsində ayrıldığı hallarda iş üzrə icraatın Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllənin 53.1.1-ci maddəsinə istinad edilməklə dayandırılması qanuni hesab edilə bilməz.

Qeyd olunan işlərin ayrılaraq ibtidai istintaqda dayandırılması təcrübəsi cinayətlərin xəbər verilməməsinə dair cinayət işləri üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmalı olan şəxslərın əksər hallarda cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçməsi əsası ilə məsuliyyətdən kənarda qalması ilə nəticələnir və ya nəticələnə bilər. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307.1-ci maddəsi ilə müəyyən edilən ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə böyük ictimai təhlükə törətməyən cinayətdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75.1.1-ci maddəsinə əsasən böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.3-cü maddəsinə əsasən cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə) cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir.

Təcrübədə ağır və ya xüsusilə ağır cinayətin törədildiyi gündən həmin əməli törətmiş şəxsin barəsində olan hökm qanuni qüvvəyə minənədək bəzən uzun müddət (əksər hallarda 1 ildən artıq) keçir. Belə ki, bu müddətə ibtidai istintaq, birinci instansiya məhkəməsində hazırlıq iclası və məhkəmə baxışı, apelyasiya instansiyası məhkəməsində ilkin iclas və məhkəmə baxışı mərhələləri aiddir.

Nəzərə alsaq ki, ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməməyə görə dayandırılmış cinayət işinin təzələnməsi, ibtidai

istintaqının tamamlanaraq məhkəməyə göndərilməsi, birinci instansiya məhkəməsində hazırlıq iclası və məhkəmə baxışı, apelyasiya instansiyası məhkəməsində ilkin iclas və məhkəmə baxışı mərhələləri də vaxtın keçməsinə səbəb olduğundan həmin işlər üzrə təqsirləndirilən şəxslər əksər hallarda cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə cinayət məsuliyyətindən kənarda qala bilərlər.

Təhlil ilə müəyyən edilmişdir ki, 2020-ci il və 2021-ci ilin yanvar-may ayları ərzində Bakı şəhərinin rayon prokurorluqlarında yalnız Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307.1-ci maddəsi ilə istintaqı aparılaraq məhkəməyə göndərilmiş iş olmamış, 12 iş üzrə icraata xitam verilmişdir ki, onlardan da 4 işə cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi əsası ilə xitam verilmişdir.

Bakı şəhərinin rayon prokurorluqlarında 2018-2020-ci illərdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə ayrılmış, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçsə də həmin cinayətin ayrıldığı ağır və ya xüsusilə ağır cinayətlər üzrə məhkəmənin hökmü qanuni qüvvəyə minmədiyindən icraatı dayandırılmış qalan cinayət işləri vardır.

Bəzən dayandırılmış işlər diqqətdə saxlanılmadığından ağır və ya xüsusilə ağır cinayətin törədilməsi ilə bağlı cinayət işləri iş üzrə məhkəmənin hökmü qanuni qüvvəyə mindikdən sonra həmin cinayətlərin gizlədilməsi və ya xəbər verilməməsinə dair ayrılaraq dayandırılmış cinayət işləri təzələnməyərək uzun müddət dayandırılmış qalır.

Belə ki, ağır və ya xüsusilə ağır cinayətin törədilməsi ilə bağlı cinayət işləri iş üzrə məhkəmənin hökmü qanuni qüvvəyə minsə də, həmin cinayətlərin gizlədilməsi və ya xəbər verilməməsinə dair ayrılaraq Bakı şəhərinin rayon prokurorluqlarında dayandırılmış qalması müəyyən edilən 22 cinayət işi üzrə icraatın dayandırılması barədə qərarlar 2021-ci ilin yanvar-may ayları ərzində Bakı şəhər prokurorluğunda ləğv edilmişdir. Həmin işlərin əksəriyyəti üzrə cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçdiyindən icraata xitam verilmiş və ya xitam verilməlidir.

Qeyd olunmalıdır ki, bir sıra xarici ölkələrdə cinayət barəsində xəbər verməməyə görə daha sərt cəzalar müəyyən edilmiş və cinayətin törədilməsi ilə onun xəbər verilməməsinə dair ittihamların bir icraatda məhkəməyə göndərilməsi mümkündür.

Göstərilənlər və cinayət barəsində xəbər verməmə cinayətinin ictimai təhlükəliliyi nəzərə alınaraq həmin cinayətin az-ağır, bununla da cinayət məsuliyyətinə cəlb etmə müddətinin yeddi il olması müəyyən edilməklə həmin cinayəti törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi əsası ilə cinayət məsuliyyətindən kənarda qala bilmələrinin qarşısını almaq olar.

Ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə cinayətini törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi əsası ilə cinayət məsuliyyətindən kənarda qalmalarının qarşısının alınması üçün aşağıdakı məsələlərin müzakirə edilməsi məqsədəmüvafiqdir:

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307.1-ci maddəsinin sanksiyasında azadlıqdan məhrumetmə cəzasının yuxarı həddinin üç il müəyyən olunması barədə dəyişiklik edilməklə həmin cinayətin az ağır cinayət olmasını müəyyən etmək;

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinə dəyişiklik edilməklə cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamların bir icraatda məhkəməyə göndərilməsinin mümkünlüyünü müəyyən etmək.

**Mürvət Həsənov**
**Bakı şəhər prokurorunun müavini**
**baş ədliyyə müşaviri**

# Müsadirə və cinayət yolu ilə əldə edilmiş əmlakın bərpasına dair təcrübə



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) cinayət yolu ilə əldə edilmiş əmlakın müsadirəsini və bununla bağlı beynəlxalq əməkdaşlıq məsələlərini tənzimləyən 4-cü və 38-ci Tövsiyələrinə müvafiq olaraq, müsadirə üçün effektiv sistem özündə izləmə və istintaqı, beynəlxalq əməkdaşlığı, qətimkan tədbirlərini (dondurma və əmlak üzərinə həbs qoyma) və cinayət mühakimə icraatından kənar müsadirə tədbirlərini əhatə edir. Bu sənədin məqsədləri üçün aktivlərin geri verilməsi dedikdə, qeyri-qanuni gəlirlərin qaytarılması, repatriasiyası və ya bu varidatın xarici ölkədə yerləşdiyi halda bölüşdürülməsi başa düşülür. Korrupsiya gəlirlərinin (yəni talanmış aktivlər) qanuni sahiblərinə geri verilməsi Korrupsiya əleyhinə Birləşmiş Millətlər Təşkilatının 2003-cü il Konvensiyasının (Merida Konvensiyası, fəsil 5) əsas prinsipidir. FATF standartları, ölkələrdən bu konvensiyanı imzalamağı, ratifikasiya etməyi və bütünlüklə və effektiv implementasiya etməyi tələb edir.

Qətimkan tədbirləri və müsadirə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı effektiv mübarizənin vacib elementlərindəndir. Müsadirə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə yenidən leqal dövriyyəyə daxil olması və ya qeyri-leqal vəsaitlərin cinayətkar fəaliyyətə yönəldilməsinin qarşısını alır. Bu da özü-özlüyündə, mütəşəkkil cinayətkar birliklərin yaradılması və fəaliyyətinin qarşısını alır və cinayətkarlığın səviyyəsini aşağı salır. Bu həmçinin cinayət nəticəsində zərər çəkmiş şəxslərin əmlak hüquqlarının bərpası üçün ən effektiv vasitədir.

FATF-ın 4-cü Tövsiyəsinin əsas meyarı müsadirə ediləcək əmlakı yerindəcə müəyyən etmək, izləmək və qiymətləndirməkdir. Eləcə də, 38-ci Tövsiyəyə görə dövlətlər xarici dövlətlərin sorğusu əsasında müsadirə ediləcək əmlakın müəyyən edilməsi üçün təcili tədbir görülməsi səlahiyyətinə malik olmalıdırlar.

Aşağıda qeyd edilmiş təcrübələr dövlətlərə hüquqi çərçivələrin müəyyən edilməsinə və aktivlərin izlənməsi və maliyyə istintaqının səmərəli şəkildə həyata keçirilməsinə kömək edir:

a) Ölkələr qarşılıqlı hüquqi yardım üçün təqdim edilmiş sorğudan əvvəl qeyriformal qaydada məlumat mübadiləsinin aparılmasını təmin edirlər. Bu təcrübə, sorğu rəsmi səviyyədə verilmədən öncə səy və imkanları səfərbər etməyə kömək edir.

b) Qarşılıqlı hüquqi yardımı həyata keçirmək üçün səlahiyyətli orqanlar ikitərəfli və regional əməkdaşlıq üçün xarici həmkarlarını da cəlb etməli və Eqmont Qrupu və İNTERPOL, Evropol və Evrojust kimi müvafiq beynəlxalq qurumlardan istifadə etməlidirlər.

c) Qeyri-formal məlumat mübadiləsi spontan qaydada lakin müvafiq prosedurlar daxilində həyata keçirilə bilər. Bu halda təhlükəsizlik və nəzarət tədbirlərinin tətbiqi təmin edilməlidir. Aktivlərin izlənməsi və maliyyə istintaqı ilə bağlı informasiyanın spontan mübadilə təcrübəsi qarşılıqlı hüquqi yardım mədəniyyətinin inkişaf etməsinə kömək edəcəkdir.

d) Dövlətlər aktivlərin bölgüsünə dair ikitərəfli və ya çoxtərəfli müqavilələr bağlaya bilərlər. Aktivlərin bölgüsünə dair müqavilələr əməkdaşlığın həyata keçirilməsinə mane olmamalıdır. Belə müqavilələrin mövcudluğu aktivlərin izlənilməsi üzrə sorğuların həyata keçirilməsini sürətləndirmək üçün resurslardan effektiv istifadəni təmin etmiş olur.

38-ci Tövsiyəyə görə dövlətlər xarici dövlətlərin sorğularına cavab olaraq çevik tədbirlər görməli, habelə aktivlərin bərpası da daxil olmaqla dondurma, əmlak üzərinə həbs qoyma və müsadirə tipli cinayət-hüquqi tədbirləri təmin etmək səlahiyyətə malik olmalıdırlar. Bundan əlavə ölkələr müsadirə edilmiş əmlakın hamısının və ya bir hissəsini hüquq mühafizə, sağlamlıq, təhsil və ya digər müvafiq məqsədlər üçün istifadə olunmasını nəzərdə tutan fondun yaradılmasını gözdən keçirməlidirlər.

Eyni tövsiyəyə görə ölkələr üçüncü dövlətin sorğusu əsasında dövlətlər tərəfindən predikativ cinayətlərdən və ya pulların leqallaşdırılmasından əldə edilmiş gəlirlərin, leqallaşdırılmış əmlakın, bu cinayətlərin törədilməsində istifadə edilmiş və istifadəsi nəzərdə tutulmuş alət və vasitələrin, habelə mövcud olmayan əmlakın dəyərinə uyğun digər əmlakın dondurulması və üzərinə həbs qoyulmasına dair çevik tədbirlər görməlidir.

Bu sahədə xüsusilə İsveçrə təcrübəsinin paylaşılması məqsədəmüvafiqdir. İsveçrədə xarici dövlətlərin korrupsiya yolu ilə əldə edilmiş aktivlərin qaytarılmasında çox vaxt mülki tərəf kimi iştirakına icazə verilir. Əmlakla əlaqəli məhkəməyəqədər aparılan istintaq və ya məhkəmə istintaqı qarşılıqlı hüquqi yardım tələbi alındıqdan sonra bu cür istintaq və ya icraat istintaq məhkəməsi tərəfindən başlana bilər. Xarici dövlət mülki tərəf kimi iştirak edərkən sənədlərlə tanış olmaq, bir sıra prosessual hərəkətlərdə iştirak etmək, şahidləri dinləmək, sübutları istintaq hakiminə təqdim etmək və aktivlərin qaytarılmasında iştirak etmək kimi hüquqlara malikdir. Bu prosedur tez-tez mülki və cinayət məhkəmələrinin səmərəli və təsirli həyata keçirilməsini təmin edir.

Əmlak üzərində həbs qoyulması ilə bağlı Qazax rayon prokurorluğunun tətbiq etdiyi təcrübənin öyrənilməsi də məqsədəmüvafiqdir, adlar şərti olaraq qeyd edilmişdir.

Belə ki, Qazax rayon polis şöbəsinin İstintaq bölməsində Azərbaycan Respublikası CM-nin 177.2.3-cü maddəsi ilə olan cinayət işi üzrə əmlak üzərinə həbs qoyulması üçün Qazax rayon məhkəməsinə təqdimat verilməsi məqsədilə vəsatət vermişdir.

Cinayət işinin başlanılmasına səbəb və əsas Əliyev Emil Vüsal oğlunun Qazax rayonu Daş Salahlı kəndində yerləşən Kərimov Elçin Şövqi oğluna məxsus ərzaq dükandan 3142 manat dəyərində olan əmlakı gizli yolla talayıb oğurlaması faktı ilə bağlı Qazax rayon polis şöbəsində toplanmış materiallar olmuşdur.

Bu əmələ görə Əliyev Emil Vüsal oğlu təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona Azərbaycan Respublikasının CM-nin 177.2.3-cü maddəsi ilə nəzərdə tutulan ittiham elan edilmişdir.

Zərərçəkmiş şəxs Kərimov Elçin Şövqi oğluna vurulmuş 3142 manat dəyərində maddi ziyanın ödənilməsini və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədilə Əliyev Emil Vüsal oğlunun nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında Cəlilabad şəhəri, H. Hadi küçəsi ev 22 ünvanında yaşayan Nəsibov Amil Elmir oğlunun adına qeydiyyatda olmaqla aldığı "BMW 318" markalı minik avtomobilinin üzərinə həbs qoyulması üçün təqdimatla Qazax rayon məhkəməsinə müraciət edilmişdir.

Bununla belə, Qazax rayon məhkəməsi qərarında Nəsibov Amil Elmir oğlunun 11 yanvar 2019-cu il tarixdə "BMW 318" markalı minik avtomobilinə dair bir illik müddətə Əliyev Emil Vüsal oğluna verdiyi etibarnamənin müddətinin 11 yanvar 2020-ci il tarixdə bitməsinə, habelə həmin avtomobilin Emil Əliyevin qanuni sahibliyində olmamasına əsaslanaraq, əsassız və qanunsuz Qazax rayon polis şöbəsinin İstintaq bölməsində Azərbaycan Respublikası CM-nin 177.2.3-cü maddəsi ilə istintaq edilən cinayət işi üzrə "BMW 318" markalı minik avtomobilinin üzərinə həbs qoyulmasına dair təqdimatı təmin etməmişdir.

Həmin qərar qanunsuz və əsassız olduğuna görə rayon prokurorluğu tərəfindən protest verilmişdir.

Belə ki, cinayət işinin materiallarında olan 27 fevral 2021-ci il tarixli təqsirləndirilən şəxsin dindirilməsi protokolundan görünür ki, Əliyev Emil Vüsal oğlu ifadəsində 11 yanvar 2019-cu il tarixdə "BMW 318" markalı minik avtomobili Cəlilabad şəhəri, H. Hadi küçəsi ev 22 ünvanında yaşayan Nəsibov Amil Elmir oğlundan nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında aldığını və pulunu tam olaraq ödədiyini, həmin vaxtdan etibarən də avtomobili onun sərəncamında və istifadəsində olduğunu və özünün idarə etdiyini göstərmişdir.

Həmçinin, avtomobilin mülkiyyətçisi də, ifadəsində göstərmişdir ki, "BMW 318" markalı minik avtomobili o, nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında satmış, həmin avtomobil onun sahibliyində və istifadəsində deyildir və onun həmin avtomobilə dair hər hansı bir hüququ yoxdur.

Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

Konstitusiyanın 29-cu maddəsinin I hissəsinə əsasən hər kəsin mülkiyyət hüququ vardır.

Konstitusiyanın 29-cu maddəsinin II hissəsinə əsasən mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

Konstitusiyanın 29-cu maddəsinin III hissəsinə hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Azərbaycan Respublikası CPM-nin 248.1-ci maddəsinə əsasən əmlak üzərinə həbs:

248.1.1. mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədi ilə tətbiq edilir;

248.1.2. əmlakın siyahıya alınmasından və mülkiyyətçiyə və ya sahibə həmin əmlak üzərində sərəncam verməyi, zəruri hallarda isə ondan istifadəni qadağan etməkdən ibarətdir;

248.1.3. bank əmanətlərinə tətbiq edildikdən sonra onlar üzrə əməliyyatların aparılmasına xitam verir.

Azərbaycan Respublikası CPM-nin 248.2-ci maddəsinə əsasən, həbs əmlakın nədən ibarət və kimdə olmasından asılı olmayaraq, təqsirləndirilən şəxsin, habelə üzərlərinə əmlak məsuliyyəti qoyula bilən şəxslərin əmlakı üzərinə qoyulur.

Göründüyü kimi, CPM-nin 248.1.2-ci maddəsində, məhz mülkiyyətçiyə və ya sahibə onlara məxsus əmlak üzərində sərəncam verməyi, zəruri hallarda isə ondan istifadəni qadağan edir.

Azərbaycan Respublikasının CPM-nin 179.3-cü maddəsinə əsasən mülki iddia üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152.1-ci maddəsinə əsasən mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

Mülki Məcəllənin 152.2-ci maddəsinə əsasən sahiblik hüququ - əmlaka (əşyaya) faktiki sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Mülki Məcəllənin 152.3-cü maddəsinə əsasən istifadə hüququ - əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər.

Mülki Məcəllənin 152.4-cü maddəsinə əsasən sərəncam hüququ - əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Mülki Məcəllənin 152.5-ci maddəsinə əsasən mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.

Göründüyü kimi əşyaya istəyərək, yəni iradi olaraq fiziki təsir edə bilmək imkanını ələ keçirən şəxs əmlakın sahibi sayılır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 363.3-cü maddəsinə əsasən nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz.

Mülki Məcəllənin 389.1-cü maddəsinə əsasən mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

Mülki Məcəllənin 567-ci maddəsinə əsasən alğı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı isə əşyanı qəbul edib əvəzində müəyyənləşdirilmiş pul məbləğini (qiyməti) ödəməyi öhdəsinə götürür.

İşin faktiki hallarından görünür ki, Əliyev Emil Vüsal oğlu nəqliyyat vasitəsinin alqı-satqısına dair mülki qanunvericiliyin şərtlərinə uyğun müqavilə bağlayaraq 11 yanvar 2019-cu il tarixdə "BMW 318" markalı minik avtomobili Cəlilabad şəhər sakini Nəsibov Amil Elmir oğlundan məhz nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında dəyərini tam olaraq ödəyib almış və həmin vaxtdan etibarən avtomobil onun mülkiyyətində, sərəncamında və faktiki sahibliyində olmuşdur.

Etibarnamədən də görünür ki, Amil Nəsibov avtomobilə dair Emil Əliyevə etibarnaməni bir müddətinə əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanı olan məhz sərəncam vermək hüququ ilə vermişdir. Bu isə o deməkdir ki, Amil Nəsibov faktiki olaraq öz iradə ifadəsini ortaya qoyub sərəncam vermək hüququnu nəzərdə tutan etibarnamə əsasında avtomobilin satılmasına dair razılıq əldə edərək və dəyərini alaraq avtomobili Emil Əliyevin faktiki sahibliyinə və istifadəsinə vermişdir.

Bundan başqa, Qazax rayon məhkəməsi Nəsibov Amil Elmir oğlunun 11 yanvar 2019-cu il tarixdə bir illik müddətə qeyd edilən avtomobilə dair Əliyev Emil Vüsal oğluna verdiyi etibarnamənin müddətinin 11 yanvar 2020-ci il tarixdə bitməsinə və bu səbəbə görə də, həmin avtomobilin Emil Əliyevin qanuni sahibliyində olmamasınına əsaslansa da, işin faktiki hallarından görünür ki, Amil Nəsibov bir il müddətində verdiyi nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamənin müddətinin 11 yanvar 2020-ci il tarixdə bitməsinə baxmayaraq bu günədək Emil Əliyevə qarşı avtomobilə dair mülkiyyət hüququ ilə bağlı hər hansı bir tələb irəli sürməmişdir. Bu hal işin mübahisəsiz halıdır və bir daha sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamənin müddətinin bitməsinə baxmayaraq,

"BMW 318" markalı minik avtomobilin həqiqətən də, Emil Əliyevin sahibliyində olmasını təsdiq edir.

Göründüyü kimi tərəflər arasında mövcud olan həqiqi hüquqi münasibətlər alqı-satqı münasibətidir. Sadəcə olaraq tərəflər həmin münasibəti etibarnamə altında pərdələmişlər. Çünki, avtomobilin qeydiyyat şəhadətnaməsi əsasında birinci mülkiyyətçisi Amil Nəsibov avtomobili nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında Emil Əliyevə satmış və avtomobilin sonraki müqəddəratı onun maraq dairəsinə daxil deyildir. Bu səbəbdən də, bir müddətinə verilmiş etibarnamənin müddətinin keçib-keçməməsinin əhəmiyyəti yoxdur və verilmiş etibarnamə yalan əqd mahiyyətində olduğu üçün əhəmiyyətsizdir.

Həmçinin, Amil Nəsibovla Emil Əliyev aralarında olan alqı-satqı həqiqi hüquqi münasibətlərini etibarnamə ilə pərdələsələr də, Amil Nəsibov etibarnamənin verilməsindən iki il, qüvvədə olma müddətinin keçməsindən isə bir ildən artıq vaxt keçməsinə baxmayaraq Emil Əliyevə qarşı hər hansı bir tələb irəli sürməmişdir. Bu isə bir daha, etibarnamə verərkən alqı-satqı predmeti olan avtomobil dəyərinin Amil Nəsibova tam olaraq ödənilməsini təsdiq edir və sonuncunun satdığı avtomobilin sonraki müqəddəratında maraqlı deyildir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 5.3-cü maddəsinə əsasən mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 340.2-ci maddəsinə əsasən yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir.

Mülki Məcəlləsini 354.1-ci maddəsinə əsasən əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun icrasına başlanıldığı gündən bir il ərzində irəli sürülə bilər.

Mülki Məcəllənin 560.1-ci maddəsinə əsasən mülki hüquqlar hüquqa uyğun həyata keçirilməlidir.

Mülki Məcəllənin 560.2-ci maddəsinə əsasən hüquqdan sui-istifadəyə yol verilmir, bu əsas üzərində həyata keçirilən razılaşmalar və hərəkətlər isə etibarsızdır.

Mülki Məcəllənin 560.3.4-cü maddəsinə əsasən digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi hüquqdan sui-istifadə sayılır.

Beləliklə də, sadalanandan göründüyü kimi, Nəsibov Amil Elmir oğlu ilə Əliyev Emil Vüsal oğlu arasında "BMW 318" markalı minik avtomobilinə dair mövcud olan həqiqi hüquqi münasibətlər alqı-satqı münasibətidir, alqı-satqı müqaviləsinin məcburi formasına əməl edilməməsi alqı-satqı müqaviləsinin icra hərəkətlərinin nəticələrini aradan qaldırmamış, avtomobilin keçmiş mülkiyyətçisi isə özü öz iradəsinin istəyi ilə avtomobili Emil Əliyevə satmış, həmçinin əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia müddətinin verilməsi üçün bir illik müddət Amil Nəsibov tərəfindən ötürülmüş, Emil Əliyevə qarşı etibarnamənin etibarsızlığına dair tələb irəli sürülməmiş və buna görə də, avtomobilin faktiki mülkiyyətçisi artıq adına qeydiyyat şəhadətnaməsi olan deyil, məhz adına etibarnamə olan şəxs, yəni Emil Əliyevdir və sonuncu avtomobilə faktiki sahiblik edir.

Qazax rayon məhkəməsinin etibarnamənin müddətinin keçməsinə əsaslanaraq vəsatəti təmin etməməsi isə mövcud qanunvericiliyin tələbinə tamamilə ziddir və etibarnamə alqı-satqı üçün verildiyinə görə tərəflər arasında mövcud olan münasibətlərin həqiqi vəziyyətinə uyğun deyildir. Çünki, "BMW 318" markalı minik avtomobili 11 yanvar 2019-cu il tarixdən Emil Əliyevin faktiki sahibliyində və istifadəsindədir.

Ona görə də, Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 06 may 2021-ci il tarixli qərarı ilə rayon prokurorluğu tərəfindən verilmiş protest təmin edilərək Qazax rayon məhkəməsinin 22 aprel 2021-ci il tarixli qərarı ləğv edilmiş və cinayət işi üzrə təqsirləndirilən şəxs Əliyev Emil Vüsal oğlunun nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə əsasında Cəlilabad şəhəri, H. Hadi küçəsi ev 22 ünvanında yaşayan Nəsibov Amil Elmir oğlundan aldığı "BMW 318" markalı minik avtomobilinin üzərinə həbs qoyulmuşdur.

Qazax rayon prokurorluğunun bu təcrübəsindən gələcəkdə digər rayon prokurorluqları da öz fəaliyyətində istifadə etməli, daha səmərəli nəticələrə nail olmalıdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi "Hüquq Yayın Evi" Bakı, 2021.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümovun redaktəsi ilə. Bakı, 2016.
3. İstintaq taktikası/K.Q. Sarıcalinskaya və başqaları. Bakı, 1991.
4. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası. 27 fevral 2004-cü il
5. "İmpact study on civil forfeiture". Avropa Şurası. Belqrad, 2013.



**Rauf Gözəlov**
**Qazax rayon prokuroru**
**ədliyyə müşaviri**



## BİZ YENİDƏNQURMANIN İLKİN MƏRHƏLƏSİNDƏYİK. GƏLƏCƏK ÜÇÜN NƏHƏNG POTENSİAL VAR.

Dostlarımızın yenidənqurma işlərində iştirakını və bu imkanlardan faydalanmasını arzulayırıq. Biz yaxşılığı unutmuruq. Qarşılığında yaxşılıq etməyə çalışırıq.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işləri üzrə istintaq təcrübəsinin beynəlxalq hüquqi normalara uyğunluğu

Azərbaycan Respublikası dünyada müxtəlif dövlətlərdən ibarət beynəlxalq təşkilatların üzvü olmaqla insan hüquq və azadlıqlarının təminatçısı olan bir çox konvensiyalara qoşulmuşdur. Respublikamızın belə bir təşkilatların üzvü olması onu həmin təşkilat tərəfindən qəbul olunan beynəlxalq standartların, qərarların və həyata keçirilən proqramların tələblərinə riayət etməyə və beynəlxalq hüququn normalarına uyğun milli qanunvericilik sistemini formalaşdırmasına yönəldir. Digər dövlətlər kimi Azərbaycan Respublikası da dövlətin qanunlarının beynəlxalq hüquqa uyğunluğunu təmin etmək məqsədilə bir çox sahələrdə islahatlar aparmışdır. Həmin islahatların keçirilməsini zəruri edən sahələrdən biri də yetkinlik yaşına çatmayanların hüquqlarıdır.

Uşaqların yəni yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə bağlı bir neçə beynəlxalq sənəd vardır ki, onlara İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə, "Mülki və Siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, "Qadınlara münasibətdə bütün növ ayrı-seçkiliyin aradan qaldırılması haqqında" Konvensiya, BMT-nin "Uşaq Hüquqları Haqqında Konvensiya"sı ("UHK" və ya "Konvensiya"), BMT-nin "Yuvenal Ədliyyənin İdarə Olunması üzrə Standart Minimum Qaydaları" ("Pekin Qaydaları", BMT-nin 40/33 saylı Qətnaməsi), BMT-nin "Azadlıqdan Məhrum Edilmiş Uşaqların Müdafiəsi haqqında Qaydaları" dır. Uşaq Hüquqları Haqqında Konvensiya xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası 1992-ci ildə bu qabaqcıl sənədə qeyd-şərtsiz tərəfdaş olmuşdur və həmin sənədin müddəaları Azərbaycan dövləti üçün məcburi hüquqi xarakterə malikdir. Sözügedən sənədə əsasən Azərbaycan Respublikasından tələb olunur ki, onun milli qanunvericilik rejiminin qeyd olunan sənəddə təsbit olunmuş hüquq və vəzifələrə uyğun olmasını və ədliyyəyə ədalətli, səmərəli və çevik çıxışa təminat verən düzgün və səmərəli qanunvericilik və inzibati prosedurların qəbul olunması, habelə digər müvafiq tədbirlərin görülməsini təmin etsin.

Mövzunun əsasını təşkil edən yetkinlik yaşına çatmayanlar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 84-cü maddəsinə əsasən cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər hesab olunur.

"Uşaq" anlayışına gəldikdə isə, bu termin milli qanunvericilikdə tətbiq olunan "yetkinlik yaşına çatmayanlar" termini ilə eyniyyət təşkil edir.

Uşaq Hüquqları Haqqında Konvensiya xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası 1992-ci ildə bu qabaqcıl sənədə qeyd-şərtsiz Tərəf Dövlət olmuşdur və həmin sənədin müddəaları Azərbaycan dövləti üçün məcburi hüquqi xarakterə malikdir. Sözügedən sənədə əsasən Azərbaycan Respublikasından tələb olunur ki, onun milli qanunvericilik rejiminin qeyd olunan sənəddə təsbit olunmuş hüquq və vəzifələrə uyğun olmasını və ədliyyəyə ədalətli, səmərəli və çevik çıxışa təminat verən düzgün və səmərəli qanunvericilik və inzibati prosedurların qəbul olunması, habelə digər müvafiq tədbirlərin görülməsini təmin etsin.

Cinayət və inzibati hüquq sahəsi üzrə uşaqların hüquqları əsasən BMT-nin Uşaq Hüquqları Konvensiyasında (bundan sonra "Konvensiya" və ya "UHK") öz əksini tapmışdır. Həmin Konvensiyanın 37 və 40-cı maddələri xüsusi olaraq cinayət prosesinə şübhəli şəxs, təqsirləndirilən şəxs, zərərçəkmiş və şahid qismində cəlb edilmiş yetkinlik yaşına çatmayanların təmin edilməli olduğu və üzv dövlətlərin üzərinə öhdəlik kimi qoyulmuş ən əsas hüquq və prinsipləri müəyyən edir. Konvensiyanın 39-cu maddəsi əlavə olaraq hər hansı formada təhqirə, etinasızlığa, istismara və zorakılığa məruz qalan uşaqlara yardım edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir.

Qeyd olunan Konvensiyanın 2-ci maddəsində tələb kimi müəyyən edilmişdir ki, "İştirakçı dövlətlər uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidələrindən, milli, etnik və ya sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğum şəraitindən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən, onların yurisdiksiyası daxilində hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onları təmin edirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən, hər kəs qanun və məhkəmə qarşısında bərabərdir. Bundan əlavə, "Uşaq Hüquqları haqqında" Qanunun 6-cı maddəsinə əsasən bütün uşaqlar bərabər hüquqlara malikdirlər və uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər.

"Uşaq Hüquqları haqqında" Qanuna əsasən tələb olunur ki, yaşı 18-dən az olan hər hansı şəxsin tutulması və ya həbs olunması yalnız qanuni olaraq və

istisna hallarda həyata keçirilməli və uşağın valideynləri bu barədə dərhal məlumatlandırılmalıdır. Valideynlərin təxirəsalınmadan məlumatlandırılması ilə bağlı vəzifə həmçinin Cinayət Prosessual Məcəllədə öz əksini tapmışdır.

Cinayət Prosessual Məcəllə təsbit edir ki, cinayət törətməkdə ittiham olunan yetkinlik yaşına çatmayan şəxslərin tutulması "müstəsna hallarda ... və mümkün qədər ən qısa müddətdə tətbiq edilməlidir" və yetkinlik yaşına çatmayan şəxsin ittiham edildiyi cinayət ağır və xüsusilə ağır cinayət olmadıqda tətbiq edilə bilməz. Ağır cinayətlər dedikdə sanksiyasında yeddi il və ondan daha çox azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətlər nəzərdə tutulur. Valideynlərin və ya qanuni nümayəndələrin nəzarəti altına verməklə azad edilmə isə yalnız yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslər barəsində tətbiq edilən alternativ tədbir növüdür.

Milli qanunvericilikdə bəzi müddəaların olması cəzanın təyin edilməsi mərhələsində müvafiq beynəlxalq standartlarda açıqlanmış sözügedən prinsipin müəyyən dərəcədə əks olunduğunu göstərir. Belə ki, Cinayət Məcəlləsinin 59.2.-ci maddəsinə əsasən cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi yüngülləşdirici hal hesab olunur ki, nəticə etibarı ilə sonda həmin şəxsə təyin edilən cəzanın daha az müddətdə olmasına birbaşa təsir göstərir. Bundan əlavə, CM-nin 85.4-cü maddəsində qeyd olunur ki, yetkinlik yaşına çatmayan şəxslərə azadlıqdan məhrumetmə cəzası 10 ildən artıq olmamaq şərti ilə təyin edilir. Bu da öz növbəsində yetkinlik yaşına çatmış şəxslərə maksimum 15 ilədək təyin edilən eyni cəzanın müddətinə nisbətdə əhəmiyyətli dərəcədə az müddətdir, Cinayət törətməkdə ittiham olunan uşaq "ağlabatan" müddət ərzində məhkəmə qarşısına çıxarılmalı və hər hansı gecikmələrə yol verilməməlidir.

AR CPM-in 434.2-ci maddəsində göstərilmişdir ki, "Yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir".

Cinayət Prosessual Məcəllənin 433.2-ci maddəsinə əsasən "yetkinlik yaşına çatmayan şəxs tutulduqda hakim onun azad edilib-edilməməsi məsələsinə dərhal baxmalıdır".

Cinayət Prosessual Məcəllədə nəzərdə tutulmuşdur ki, " Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaq imkan daxilində müvafiq ibtidai istintaq orqanlarının xüsusi bölmələri və ya yetkinlik yaşına çatmayan şəxslərlə müvafiq iş təcrübəsinə malik olan şəxslər tərəfindən aparılmalıdır". İstintaq işi yekunlaşdırdıqdan sonra iş məhkəməyə göndərilir və orada yekun qərar çıxarılır. Qeyd olunan prosedur cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxs cinayət məsuliyyətinə cəlb etmə yaşına çatdıqda həyata keçirirlir. Əgər şəxsin yaşı cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddindən (14 yaşdan) azdırsa bu zaman onun barəsində iş cinayət təqibini həyata keçirən təhqiqat və ya istintaq orqanı müvafiq materialları topladıqdan sonra şəxslərin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsi məqsədilə cinayət prosesini həyata keçirən orqan tərəfindən 3 gün müddətində yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilir. Komissiya isə müvafiq materiallarla tanış olduqdan sonra materialları müvafiq yer üzrə birinci instansiya məhkəməsinə göndərir. İnzibati xəta törətmiş yetkinlik yaşına çatmayan şəxslər barəsində müvafiq materiallar da qərarın qəbul olunması üçün Komissiyaya göndərilir.

Xüsusilə qeyd edilməlidir ki, cinayət məsuliyyətinə cəlb olunmaq üçün yaş həddi üzrə yetkinlik yaşına çatmayanlar cinayət qanunvericiliyinə əsasən qanunvericiliyə əsasən iki qrupa bölünür; a) cinayət törətdiyi zaman 14 yaşı tamam olmuş lakin 16 yaşına çatmamış şəxslər; b) cinayət törətdiyi zaman yaşı 16-dan çox olan lakin, 18 yaşına çatmamış şəxslər.

Yuxarıda nəzərdə tutulmuş yaşa görə bölgü əsas beynəlxalq sənədlərə və Avropa standartlarına uyğundur. Milli qanunvericilik eyni zamanda BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasında nəzərdə tutulmuş olan (Maddə 40, bənd 3, yarımbənd (a) standarta uyğundur ki, bu standarta əsasən İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş uşaqlar barəsində elə minimum yaş həddi müəyyən etməlidirlər ki, bu həddən aşağı yaşda uşaqlar cinayət qanunvericiliyini pozmağa qadir sayılmırlar.

Belə ki, 16 yaş cinayət məsuliyyətinə cəlb olunmağa imkan verən yaş həddidir. 18 yaş isə şəxsin artıq böyük hesab olunması üçün əsas verən yaş həddidir. 16 və ya 17 yaşı tamam olmuş şəxslər Cinayət Məcəlləsində nəzərdə tutulmuş istənilən cinayət əməlinin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Yaşı 14 və ya 15 olan şəxslər isə yalnız Cinayət Məcəlləsinin 20.2-ci maddəsində nəzərdə tutulmuş olan və qəsdən adam öldürmə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurma, adam oğurlama, zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, oğurluq, soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etmə və ya zədələmə, terrorçuluq, adamları girov götürmə, ağırlaşdırıcı hallarda xuliqanlıq, odlu silahı, döyüş sursatı, partlayıcı maddələri və qurğuları talamaq və ya hədə-qorxu ilə tələb etmək, narkotik vasitələri və ya psixotrop maddələri talamaq və ya hədə-qorxu ilə tələb etmək kimi cinayət əməlləri daxil olan ictimai təhlükəli əməlləri törətdikdə cianayət məsuliyyətinə cəlb oluna bilərlər.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının

müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə yaşı 14-dən az olan cinayət törətmiş şəxslərə habelə Cinayət Məcəlləsinin 20.2-ci maddəsində sadalanan ağır cinayətlərdən başqa cinayət törətmiş uşaqlara şamil edilir. Bu Əsasnamədə nəzərdə tutulmuş olan bəzi müddəalar "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanunda da öz əksini tapmışdır. Qanunun 5(21 )-ci maddəsinə əsasən Komissiyaya səlahiyyət verilir ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddindən aşağı olan "cinayət törətmiş yetkinlik yaşına çatmayanlar haqqında müvafiq dövlət orqanlarından (məsələn: polis) təqdim edilmiş materiallara baxsın". Komissiyaların həmçinin, qanuna riayət ruhunun təbliği və yeni cinayətlərin qarşısının alınması məqsədi ilə "tərbiyəvi xarakterli tədbirlər" tətbiq etmək imkanı da vardır. Xəbərdarlıq, valideynlərin nəzarəti altına vermə kimi qeyd olunan belə tədbirlərin bəziləri azadlıqdan məhrumetmə xarakterinə malik olmayan tədbirlərdir.

Cinayət Prosessual Məcəllənin 432.3-cü maddəsində qeyd edilmişdir ki, "İbtidai istintaq zamanı yetkinlik yaşına çatmayan şəxslə müstəntiq arasında əlaqələr cinayət işinin hallarının lazımi qaydada nəzərə alınması, yetkinlik yaşına çatmayan şəxsə hörmətlə yanaşılması, yetkinlik yaşına çatmayan şəxsin rifahına kömək edilməsi və ona ziyan vurulmasına yol verilməməsi şərtilə həyata keçirilir", Məcəllədə uşaqla ləyaqət və mənlik hisslərinin inkişafına kömək edən, onda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirən və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini özündə əks etdirən bir huquq normasıdır.

Cinayət Prosessual Məcəlləndə qeyd olunan müddəa Uşaq Hüquqları Haqqında Konvensiyasının tələblərinə tam uyğundur. Belə ki konvensiyanın 40.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, "İştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli saydan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hisslərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alır".

İrəli sürülən ittihamlar barədə yetkinlik yaşına çatmayanın məlumatlandırılması hüququ :

Uşaq Hüquqları Haqqında Konvensiyasının Konvensiyanın 40.2(2)-ci maddəsində yetkinlik yaşına çatmayanın iki növ hüququnun təmin olunması nəzərdə tutulmuşdur. Onlardan birinci qrup "şəxsə qarşı irəli sürülən ittihamlar barədə ona dərhal və bilavasitə və ya valideynləri, qanuni nümayəndələri vasitəsilə məlumat verilməsi" hüququdur. Bu hüquq Cinayət Prosessual Məcəllənin 432.4.1-ci maddəsində təsbit olunmuşdur.

Cinayət Prosessual Məcəllənin 224.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şəxsin şəxsiyyətini müəyyən etdikdən sonra müstəntiq ona təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarı elan edir və elan edilən ittihamın mahiyyətini izah etməlidir. Bundan sonra, şəxsə ittihamın elan edilməsi təqsirləndirilən şəxsin və müstəntiqin imzaları ilə qərarda təsdiq edilməlidir. Habelə, 224.3.-cü maddəyə əsasən ittihamı elan etdikdən sonra müstəntiq təqsirləndirilən şəxsə onun bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah etməlidir. Məcəllə təqsirləndirilən şəxslə hörmətlə davranılması, ittiham barədə məlumatlandırılmaq, susmaq və istintaqın məxfiliyi hüququnu təmin edir.

Müstəntiq yetkinlik yaşına çatmayan şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarla onu tanış edərkən yalnız qərarda həmin şəxsə imza atdırmaqla kifayətlənməməli, eləcədə CPM-in 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələri barədə ona bildiriş təqdim etməklə həmin hüquqların və vəzifələrin mahiyyətini yetkinlik yaşına çatmayan həmin şəxslərə tam və ətraflı izah etməlidir. Təbiidir ki, belə halların qarşısının alınması üçün yetkinlik yaşına çatmayan şəxsə ittiham elan edilərkən onun müdafiəçisinin iştirakını qanunvericilik məcburi hesab etsə də, istintaq orqanının əməkdaşı bununla kifayətlənməməli yetkinlik yaşına çatmayan şəxsə ittihamın mahiyyətini, onun müvafiq hüquq və vəzifələrinin mahiyyətini tam izah etməlidir. Başqa sözlə desək bu prosedurlar formal olaraq keçirilməməlidir. Nəticədə, yetkinlik yaşına çatmayan şəxs öz müdafiəsini tam effektiv təşkil edə bilməlidir.

**Prosessual hüquqlar :**

Cinayət Prosessual Məcəllədə təsbit olunur ki, həmin Məcəllədə nəzərdə tutulmuşlardan başqa və insan hüquqlarına uyğun olmayan və xüsusilə də "ədalətli mühakimə olunma hüququna" zidd olan prosessual qaydalar tətbiq edilmir. Məcəllə həmçinin qanunçuluq, təqsirsizlik prezumpsiyası prinsipləri, zəruri olduqda pulsuz hüquqi yardım da daxil olmaqla ixtisaslı hüquqi yardım almaq hüququ, irəli sürülən ittiham barədə məlumat almaq hüququ, özünü və qohumlarını ifşa etməkdə sərbəstlik və sirrlərin qorunması hüququ kimi təməl cinayət prosessual prinsipləri müəyyən edir.

Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı tətbiq edilən xüsusi müddəalar Cinayət Prosessual Məcəllənin

müvafiq X bölməsinin L fəslində öz əksini tapır. Belə müddəalardan birində qeyd edilir ki, yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraat "hər hansı bir gecikdirməyə yol verilmədən". 16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir. Bundan əlavə, yetkinlik yaşına çatmayan şəxs barəsində məhkəmə baxışı da daxil olmaqla, bütün cinayət prosesi dövründə iş üzrə onun müdafiəçisinin iştirakı məcburidir. Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işinin məhkəmə baxışında yetkinlik yaşına çatmayan şəxsin valideynləri və ya digər qanuni nümayəndələri iştirak etmək hüququna malikdirlər lakin, yetkinlik yaşına çatmayan şəxsin mənafeyi naminə məhkəmə özünün əsaslandırılmış qərarı ilə həmin şəxslərin məhkəmə baxışında iştirakını tələb edə və ya "yetkinlik yaşına çatmayan şəxsin mənafeləri üçün zəruri olduğunu güman etməyə əsaslar olduqda", valideynlərin və ya digər qanuni nümayəndələrin iştirakından imtina edə bilər (Cinayət Prosessual Məcəllənin 435.3-cü maddəsi).

Cinayət Prosessual Qanunvericiliyinə uyğun olaraq valideynlər onların uşaqları həbs olunduğu halda dərhal məlumatlandırılmalı və uşaq dindirilən zaman onların valideynləri, qanuni nümayəndələri və ya digər müvafiq böyüklər dindirmədə iştiraklar etməlidirlər. Valideynin iştirakı olmadan uşağın deyilənləri həm məzmun baxımından həm də dil baxımından anlamasını təmin etmək çətindir. Dindirmədə iştirak edən böyük uşağa öz fikrini aydın şəkildə ifadə etməkdə köməklik göstərə bilər.

**Hüquqi yardım və köməklik :**

UHK-nin 37-ci maddəsi qeyd edir ki, hər bir uşaq həbs edildikdən sonra ləngidilmədən hüquqi və digər müvafiq yardım almaq hüququna malik olmalıdır. Bundan başqa, Pekin Qaydalarının 15.1 -ci maddəsində yetkinlik yaşına çatmayan şəxsin müdafiəçi ilə təmin olunması üçün  müraciət etmək hüququ təsbit edilmişdir. Uşaqlar həbs olunmaları anından etibarən, ona qarşı ittihamın irəli sürüldüyü ilkin dinləmələr zamanı və öz müdafiəsinə hazırlaşarkən və həyata keçirərkən hüquqi cəhətdən təmsil olunmalıdırlar.

Cinayət Prosessual Məcəllə cinayət təqibini həyata keçirən üzərinə öhdəlik qoyur ki, onlar dindirilməyə və ya hər hansı digər istintaq hərəkətinə başlamazdan öncə şübhəli və təqsirləndirilən şəxsə onun müdafiəçi və ya qohumu ilə əlaqə yaratmaq hüququna mailk olduğu barədə məlumat versin.

Yetkinlik yaşına çatmayanın cinayət prosesi dövründə müdafiəçisinin iştirakı məcburi xarakter daşıyır və yetkinlik yaşına çatmayan belə müdafiəçidən imtina etmə hüququna malik deyildir (Cinayət Prosessual Məcəllənin 92.3.5, 432.2-ci maddəsi). Qanunvericilik eyni zmanada cinayət törətdiyi zaman cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxslərin barəsində müvafiq birinci istansiyası məhkəməsində işlərə baxılarkən müdafiəçinin iştirakını məcburi hesab edir. Əgər yetkinlik yaşına çatmayan şəxslərin müdafiəçiyə ödəniş etməyə maddi imkanı yoxdursa ona dövlət tərəfindən pulsuz müdafiəçi təyin edilir (Cinayət Prosessual Məcəllənin 19.4.4.-cü maddəsi). Analoji müddəalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində də öz əksini tapmışdır (İXM-nin 376.1, 376.2 və 177.4-cü maddələri).

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 431 maddəsinə əsasən Yetkinlik yaşına çatmayan barəsində cinayət işinin imkan daxilində ayrıca icraata ayrılmasının nəzərdə tutulması məhz qanunun qeyd olunan şəxslərə diqqətin vacib olduğunu istintaq orqanını məsuliyyətli olmağa və bu istiqamətdə işlərə həssaslıqla yanaşmağa məcbur edir.

**İstifadə olunmuş qanun , ədəbiyyat və sənədlərin siyahısı**


**Azərbaycan Respublikasının qanunvericiliyi**

1) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.
2) Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi.
3) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi.
4) Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədəAzərbaycan Respublikasının Qanunu.
5) Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə .
6) "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu .

**Beynəlxalq müqavilələr və standartlar**

1) BMT-nin 1989-cu il Uşaq Hüquqları Haqqında Konvensiyası
2) BMT-nin Yuvenal Ədliyyənin İdarə Olunması üzrə Standart Minimum Qaydaları "Pekin Qaydaları" .
3) BMT-nin Azadlıqdan Məhrum Edilmiş Uşaqların Müdafiəsi haqqında Qaydaları.
4) 1953-cü il "İnsan Hüquqları və Əsas Azadlıqları üzrə Avropa Konvensiyası" .
5) BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu .



**Emil Qədimov**
**Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinin böyük prokuroru ədliyyə müşaviri**



**HAZIRDA BİZ ASİYANI AVROPA İLƏ BİRLƏŞDİRƏN ŞƏRQ-QƏRB DƏHLİZİNİN TƏRKİB HİSSƏSİ OLACAQ “ZƏNGƏZUR NƏQLİYYAT DƏHLİZİ” ÜZƏRİNDƏ ÇALIŞIRIQ.**

Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirik.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

UOT: 34:323.28

# Azərbaycan tarixində 44 günlük İkinci Qarabağ müharibəsi

**Xülasə**

**Xəyalə Kələşova**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin böyük elmi işçisi (Azərbaycan)**
E-mail: xayala_kalashova@yahoo.com

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib.2020-ci il Azərbaycan tarixində 44 günlük İkinci Qarabağ müharibəsi və 3 gün davam edən Tovuz döyüşləri ilə daha çox yadda qaldı. Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası əsasən 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı.

Sülh danışıqları prosesi 2018-ci ildə Ermənistanda rəngli inqilab nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyənatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı. Beynəlxalq hüququn norma və prinsipləri, BMT TŞ-nin məlum qətnamələri və Helsinki Yekun Aktının prinsipləri əsasında münaqişənin mərhələli şəkildə həllinin siyasi-hüquqi əsasları formalaşıb və beynəlxalq birlik tərəfindən qəbul edilib.

**Açar sözlər:** *beynəlxalq hüquq, dövlət, qanunvericilik, konvensiya, insan hüquqları, münaqişə, ərazi bütövlüyü*

**Abstact**

**Xayala Khalashova**
**Senior Researcher on the Department " The Legal Provision of State Security" of the İnstitute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences**

**THE 44-DAY SECOND KARABAKH WAR İN THE HİSTORY OF AZERBAİJAN**

The Armenian-Azerbaijani Nagorno-Karabakh conflict has entered the history of the twentieth century as one of the most tragic conflicts, the consequences of which have seriously affected the fate of millions of Azerbaijanis. The year 2020 was more memorable in the history of Azerbaijan with the 44-day second Karabakh War and the 3-day Tovuz Wars. After the Bishkek protocol signed in 1994, the Republic of Azerbaijan, which lost 20 per cent of its territory as a result of the first Karabakh War, conducted long-term diplomatic negotiations within the framework of various international organizations to implement the decisions of the Republic of Armenia and the UN Security Council on unconditional withdrawal of the occupying forces from. The process of peace talks was seriously shaken by the populist statements of Nikol Pashinyan, who came to power as a result of the color revolution in Armenia in 2018, such as "Karabakh is Armenia and is a point" and provocative actions such as consecutive illegal visits to the occupied territories of Azerbaijan. Based on the norms and principles of international law, known UN Security Council resolutions and the principles of the Helsinki Final Act, the political and legal basis for a step-by-step settlement of the conflict has been formed and adopted by the international community.

**Key words:** *international law, state, legislation, convention, human rights, conflict, territorial integrity*

**Аннотация**

**Хаяла Калашова**
**Старший научный сотрудник отдела "Правовое обеспечение государственной безопасности" Института Права и Прав человека Национальной Академии Наук Азербайджана**

Армяно-азербайджанский нагорно-Карабахский конфликт вошел в историю XX столетия как один из самых трагических конфликтов, последствия которого серьезно повлияли на судьбы миллионов азербайджанцев. 2020 год запомнился в истории Азербайджана 44-дневной второй Карабахской войной и 3-дневными боями за Товуз. Азербайджанская Республика, потерявшая в результате Первой Карабахской войны 20 процентов своих земель, в основном после подписанного в 1994 году Бишкекского протокола, вела долгосрочные дипломатические переговоры с Республикой Армения в рамках различных международных структур для выполнения решений Совета Безопасности ООН, предусматривающих безоговорочный вывод оккупационных сил с азербайджанских земель.

Процесс мирных переговоров был серьезно потрясен популистскими заявлениями Никола Пашиняна, пришедшего к власти в Армении в результате цветной революции в 2018 году, "Карабах-это Армения и точка", а также его провокационными действиями, такими как последовательные незаконные визиты на оккупированные территории Азербайджана. На основе норм и принципов международного права, известных резолюций Совета Безопасности ООН и принципов Хельсинкского Заключительного акта сформирована и принята международным сообществом политическая и правовая основа для поэтапного урегулирования конфликта.

**Ключевые слова:** *международное право, государство, законодательство, конвенция, права человека, конфликт, территориальная целостность*

## Giriş

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib. Proseslərin gedişini hərtərəfli təhlil etməyi bacaran, məsələlərin həlli üçün dövlətin iradəsinin, prinsipial mövqeyinin vacibliyini başa düşən, uzaqgörən şəxsiyyət, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu dövrdə məcburi istefada idi. Onun siyasətdən uzaqlaşdırılması münaqişənin ermənilərin istəyinə uyğun olaraq daha da dərinləşməsinə bilavasitə təsir göstərib. 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının Bakıya yeridilməsi və Qanlı Yanvar faciəsinin törədilməsindən sonra Kreml və şəxsən prezident Mixail Qorbaçov tam nüfuzdan düşdü. Bakıdan sonra sovet qoşunları Neftçala və Lənkəranda mülki şəxsləri qətlə yetirdi. Ümumilikdə, Yanvar hadisələri zamanı ölkə üzrə 150 nəfər öldürüldü.

1991-ci il sentyabrın 2-də DQMV və Azərbaycan SSR-in Şaumyan (kənd) rayonu hüdudlarında qondarma "Dağlıq Qarabağ Respublikası" ("DQR") elan edilib, dekabrın 10-da isə "referendum" keçirilib. Ermənistan, SSRİ-nin dağılması perspektivini nəzərə alaraq, guya özünü münaqişə tərəfi kimi qələmə verməmək üçün strategiyasını dəyişib belə bir plan cızmışdı. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, Dağlıq Qarabağda yaşayan azərbaycanlı mülki əhalinin bir hissəsini fiziki cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan azərbaycanlı əhaliyə qarşı Xocalıda soyqırımı aktı törədib. Nəticədə xeyli hissəsi - 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 nəfər dinc sakin qətlə yetirilib. Xocalı soyqırımı 10-dan çox ölkə tərəfindən rəsmən tanınıb. Ermənistanın hərbi təcavüzü, eyni zamanda, Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, hərcmərclik, iqtisadi böhran, dövlət institutlarının iflic olması ölkəni məhv olmaq təhlükəsi ilə üzbəüz qoyub.

## Əsas hissə

1993-cü il iyunun 15-də Heydər Əliyev yenidən hakimiyyətə qayıdanda ölkədə mürəkkəb şərait hökm sürürdü. O, belə bir nəticəyə gəldi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində kompleks yanaşma, mühüm daxili və xarici siyasət amillərinin nəzərə alınması tələb olunur. 1994-cü il mayın 12-də atəşkəsə dair razılıq əldə olundu. Bu vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb[3, s.5].

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb.

Dövlətlərarası xarakterinə görə beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyinə çevrilən münaqişə beynəlxalq təşkilatlar çərçivəsində ciddi müzakirələrə səbəb olub, problemlə bağlı bir sıra mühüm sənədlər qəbul olunub. Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə - 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib. Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi çərçivəsini müəyyən edib. Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub.

Azərbaycan ərazilərini işğal etmək məqsədilə həyata keçirilən hərbi əməliyyatlar hüquqi müstəvidə təcavüz kimi dəyərləndirilir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusuna qarşı döyüşməsi, Azərbaycan ərazilərinin işğalında birbaşa iştirakı və həmin ərazilərdə yerləşdirilməsi, qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradılması və s. kimi

faktlar Ermənistanın münaqişədə tərəf kimi çıxış etdiyini sübut edir.

1995-ci ildə MDB-nin üzvü olan dövlətlərin başçıları Müstəqil Dövlətlər Birliyində sülhün və sabitliyin qorunub saxlanması barədə Memorandum imzalayarkən Ermənistan həmin sənədin 7-ci və 8-ci bəndlərini qəbul etməkdən boyun qaçırıb. Həmin bəndlərdə deyilirdi ki, "Üzv dövlətlər öz ərazilərində separatizmin, millətçiliyin, şovinizmin və faşizmin hər hansı təzahürlərinin qarşısını almaq üçün tədbirlər görəcəklər", onlar, həmçinin "başqa üzv dövlətlərin ərazisində separatçı hərəkatları və separatçı rejimləri dəstəkləməməyi, onlara iqtisadi, maliyyə, hərbi və başqa kömək göstərməməyi öhdələrinə götürürlər". Bütün bu və digər çoxsaylı faktlar bir daha sübut edir ki, Azərbaycana qarşı hərbi təcavüz aktı törədilib və onun mövcudluğunu inkar etmək mümkün deyil.

BMT Baş Assambleyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2006-cı il sentyabrın 7-də qəbul etdiyi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində işğal edilmiş ərazilərdə ermənilər tərəfindən törədilən yanğınlar pislənilib. Baş Assambleyanın 2008-ci il martın 14-də qəbul etdiyi eyniadlı növbəti qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayır [4].

Münaqişə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də dəfələrlə müzakirə edilib. Təşkilat beynəlxalq hüququn prinsip və normalarını rəhbər tutaraq, Azərbaycanın hərbi təcavüzə məruz qaldığını elan edib. Hələ 1993-cü ildə təşkilatın xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci iclasında qəbul edilən qətnamə Azərbaycana qarşı erməni təcavüzünü qınayır, erməni qoşunlarının işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılmasını tələb edir, Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə və münaqişənin dövlətlərin ərazi bütövlüyünə, sərhədləri toxunulmazlığına əsaslanan sülh yolu ilə, ədalətli həllinə çağırır.

Növbəti qətnamələrdə təşkilat BMT Təhlükəsizlik Şurasını münaqişənin siyasi həlli prosesində fəal iştirak etməyə, qəbul olunmuş dörd qətnamənin icrasını tam təmin etməyə və Azərbaycan Respublikasına qarşı təcavüz aktının mövcudluğunu tanımağa çağırır. 2016-cı ildə İƏT-in İstanbulda keçirilən sammitində İƏT çərçivəsində "Ermənistan Respublikasının Azərbaycana təcavüzünə dair Təmas Qrupu" yaradılıb. Təmas Qrupunun tərkibinə 7 ölkə daxildir: Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Mərakeş, Cibuti, Qambiya.

Avropa İttifaqı 1993-cü ildən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına, tərəflərin ərazi bütövlüyünə, beynəlxalq sərhədlərinə hörmət göstərilməsinə və heç bir beynəlxalq legitimliyi olmayan, güc yolu ilə yaradılmış vəziyyətdən imtina edilməsinə çağırıb. Təşkilatın öz tərəfdaşları ilə münasibətləri qeyd edilən prinsiplər üzərində qurması bir daha onu göstərir ki, fundamental hüquqi prinsiplərə riayət edilmədən beynəlxalq münasibətlərin tənzimlənməsi mümkün deyil.

Avropa Şurasının fəaliyyətinin əsasən siyasi və hüquqi islahatlar sahəsini əhatə etməsinə baxmayaraq, vaxtaşırı Avropada, o cümlədən Cənubi Qafqazda cərəyan edən münaqişələrlə bağlı mövqeyini ifadə edib. İlk olaraq, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin ağırlığını nəzərə alaraq, Avropa Şurasının Parlament Assambleyası (AŞPA) müxtəlif hesabatlar hazırlayıb, onların heç bir şərt olmadan qayıdışının təmin olunmasına çağırıb və üzv dövlətlərin bu humanitar faciəyə həssas yanaşmalarına çalışıb. AŞPA münaqişənin ATƏT-in vasitəçiliyi ilə Helsinki Yekun Aktı və Paris Xartiyasının prinsipləri əsasında siyasi həllinin tərəfdarı olub. Qurumun 1997-ci il aprelin 22-də qəbul etdiyi "Cənubi Qafqazda münaqişələr haqqında" 1119 nömrəli qətnaməsi münaqişənin həllinin aşağıdakı əsaslarını təyin edir: sərhədlərin toxunulmazlığı, tərəflər arasında danışıqlar yolu ilə razılaşdırılan Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusunun verilməsi, qaçqın və məcburi köçkünlərin qayıtmaq hüququ, bütün xalqların təhlükəsizlik təminatı, o cümlədən sülhün qorunmasını təmin edən çoxmilli qüvvələrin yerləşdirilməsi. AŞPA münaqişələrin həllini etnik qruplara öz xüsusiyyətlərini ifadə etməyə şərait yaradan muxtariyyət statusunun verilməsində görür. AŞPA 2005-ci il yanvarın 25-də qəbul etdiyi 1416 nömrəli "ATƏT-in Minsk qrupu tərəfindən tənzimlənən Dağlıq Qarabağ münaqişəsi haqqında" qətnamədə Azərbaycan ərazilərinin işğal faktını təsdiqləyib, bu ərazilərdəki etnik təmizləmələrdən narahatlığını ifadə edib, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə riayət edilməsinə və qoşunların işğal edilmiş ərazilərdən geri çəkilməsinə çağırış edib. Təşkilat, həmçinin məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququnu təsdiqləyib, üzv dövlətin ərazisinin digər üzv dövlət tərəfindən işğal edilməsinin yolverilməz-

liyini vurğulayıb. Bundan başqa, Azərbaycanın 6 rayonunun 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmiş Sərsəng su anbarının işğal nəticəsində qəzalı vəziyyətə düşməsi, sakinlərin suvarma suyundan məhrum olması barədə AŞPA-nın Sosial Məsələlər, Səhiyyə və Davamlı İnkişaf Komitəsi məruzə hazırlayıb. Məruzə əsasında 2016-cı il yanvar ayının 26-da qəbul edilən "Azərbaycanın sərhədyanı bölgələrinin sakinləri qəsdən sudan məhrum edilib" adlı qətnamə erməni qoşunlarının sözügedən bölgədən geri çəkilməsini tələb edir, qəsdən süni ekoloji böhranın yaradılmasını "ekoloji təcavüz" kimi qiymətləndirir və eyni zamanda Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsini bir daha təsdiqləyir [2, s.84].

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) çərçivəsində qəbul olunmuş sənədlər beynəlxalq hüququn prinsip və normaları, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında danışıqlar prosesinin normativ hüquqi bazası və mexanizmini təşkil edir. 1992-ci il yanvarın 30-31-də Praqada keçirilən ATƏM Nazirlər Şurasının iclasında Azərbaycan və Ermənistanın bu təşkilata üzvlüyündən sonra ATƏM münaqişə ilə yaxından maraqlanmağa başlayıb. Fevral ayında Ermənistan və Azərbaycana məruzəçilər missiyasının göndərilməsindən sonra təşkilatın Ali Məmurlar Komitəsi qərar qəbul edərək tərəfləri sülhə, o cümlədən atəşkəsin elan edilməsinə və qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymağa çağırıb. 1992-ci il martın 24-də Ali Məmurlar Komitəsinin təşəbbüsü ilə ATƏM-in Nazirlər Şurasının Helsinkidə keçirilən əlavə görüşündə ATƏM-in münaqişənin həlli prosesində əsas rol oynamalı olduğu bildirilib, Minskdə danışıqlar üçün daimi çərçivə kimi çıxış edəcək xüsusi konfransın çağırılması qərara alınıb. Təşkilatın 1994-cü ildə Budapeştdə keçirilmiş zirvə toplantısında münaqişənin həlli prosesinə təkan vermək üçün əlaqələndirilmiş fəaliyyət çərçivəsində səylərin gücləndirilməsi və sülhün qorunması üçün çoxmillətli qüvvələrin münaqişə bölgəsinə göndərilməsi haqqında razılığa gəlinib, həmçinin ATƏM-in fəaliyyətdə olan sədrinə Minsk konfransının həmsədrlərini təyin etmək tapşırılıb.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon sammitində Ermənistanın mane olmaq cəhdlərinə baxmayaraq, münaqişənin həlli prinsipləri müzakirəyə çıxarılıb və bu prinsiplər ATƏT-in fəaliyyətdə olan sədrinin yekun sənədə əlavə edilən bəyanatında öz əksini tapıb. ATƏT-in bütün iştirakçı dövlətlərinin qoşulduğu həmin prinsiplər aşağıdakılardır:

1. Azərbaycan Respublikası və Ermənistan Respublikasının ərazi bütövlüyü;

2. Dağlıq Qarabağın öz müqəddəratını təyinetmə sazişi ilə müəyyən olunmuş Azərbaycan daxilində ən yüksək özünüidarəetməni ehtiva edən hüquqi statusu;

3. Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinə, o cümlədən nizamlamanın müddəalarını bütün tərəflərin yerinə yetirəcəyi ilə bağlı qarşılıqlı öhdəliklərə dair zəmanət.

Lissabon sammitində sözügedən prinsiplərin təsbit edilməsi, 1997-ci ilin əvvəllərində Minsk qrupunda yeni həmsədrlik institutun yaradılması və Rusiya, ABŞ və Fransanın həmsədrlər təyin edilməsi danışıqlar prosesinə impuls verib. Həmsədrlər münaqişənin həlli ilə bağlı yazılı təkliflərlə çıxış ediblər. 1997-ci ilin yayında hərtərəfli saziş layihəsi tərəflərə təqdim edilib. Azərbaycanın konstruktiv mövqeyinə baxmayaraq, Ermənistan təklifi rədd edib. 1997-ci ilin payızında həmsədrlərin bölgəyə səfəri zamanı tərəflərə "mərhələli həll" planı təqdim olunub. Bu plana əsasən ilk olaraq texniki məqamlar - Ermənistan qoşunlarının işğal edilmiş rayonlardan geri çəkilməsi, məcburi köçkünlərin öz torpaqlarına qayıtması, kommunikasiya vasitələrinin bərpası, ATƏT-in sülhyaratma missiyasının bölgəyə yerləşdirilməsi həll edilməli, sonra isə Dağlıq Qarabağın statusu məsələsinə baxılmalı idi. Lakin Ermənistan yenidən danışıqlar prosesində konstruktiv irəliləyişdən imtina edib. 1998-ci ilin noyabrında həmsədrlərin "ümumi dövlət" konsepsiyasına əsaslanan yeni təklifi isə Dağlıq Qarabağa Azərbaycanın daxilində dövlət və ərazi vahidi statusu verməklə dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipi ilə ziddiyyət təşkil edirdi. Azərbaycan bu təklifi qəbul etməyib [11].

Bundan sonrakı illərdə keçirilmiş görüş və danışıqlarda da Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərindən, habelə mövcud qərarlardan boyun qaçırması nəticə etibarilə danışıqların gedişində irəliləyişin əldə olunmasına imkan verməyib. 2007-ci ilin noyabr ayında Minsk qrupu münaqişənin sülh yolu ilə həlli prinsiplərini hazırlayıb. Madrid adlanan proses çərçivəsində təklifləri ehtiva edən Madrid sənədinin birinci versiyası tərəflərə təqdim olunub. 2009-cu ilin sonunda isə Madrid sənədinin yenilənmiş layihəsi hazırlanıb və tərəflərə təqdim edilib. Lakin Ermənistanın destruktiv mövqeyi səbəbindən gözlənilən irəliləyiş əldə olunmayıb. Hər iki sənəd münaqişənin mərhələli şəkildə həll edilməsini nəzərdə tutaraq nizamlanmanın əsas elementləri kimi aşağıdakıları ehtiva edir: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması, münaqişəyə məruz qalmış ərazilərin, o cümlədən kommunikasiya xətlərinin bərpası, Azərbaycanın Dağlıq Qarabağ regionuna qayıtmış azərbaycanlı

icması və orada yaşayan erməni icması üçün müvəqqəti statusun verilməsi.

Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan prezidenti Serj Sarkisyan arasında 2008-ci il noyabrın 2-də Moskvada keçirilən görüşün sonunda Rusiya, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən Moskva Bəyannaməsi imzalanıb. Bəyannamədə münaqişənin siyasi vasitələrlə beynəlxalq hüququn normaları və prinsipləri əsasında və bu çərçivədə qəbul edilmiş sənədlərə və qərarlara əsasən həll edilməsi və bunun da öz növbəsində regionda hərtərəfli əməkdaşlığa şərait yaradacağı göstərilirdi. Bəyannamənin bu hissəsi münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktının müddəaları əsasında nizamlanmasını nəzərdə tutur. Bu da bir daha münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin labüdlüyünü təsdiq edir. Sonrakı görüşlərdə dövlət başçıları münaqişənin sülh yolu ilə həll edilməsi üçün danışıqların davam etdirilməsi haqqında razılığa gəlib və problemin humanitar aspektlərinə xüsusi diqqət ayırıblar. Lakin danışıqlar prosesində intensivliyin artdığını və prosesin öz maraqlarına uyğun cərəyan etmədiyini görən Ermənistan hərbi təxribatlar yolu ilə danışıqları pozmağa çalışıb. Belə ki, Fransanın təşəbbüsü ilə 2014-cü il oktyabrın 27-də prezidentlərin Paris görüşündən sonra danışıqlar masasında olan konkret məsələləri müzakirə etmək əvəzinə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində 40.000 nəfərdən artıq şəxsi heyətin iştirakı ilə genişmiqyaslı hərbi təlim keçirib. Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində hücum xarakterli uçuşlar etməsi Ermənistan helikopterlərindən birinin vurulması ilə nəticələnib. Bu hadisədən sonra danışıqlar prosesinin intensivliyi aşağı düşüb və iki ölkə prezidentləri arasında görüş 2015-ci il dekabrın 19-da İsveçrənin Bern şəhərində bərpa edilib [9].

Avropa İnsan Hüquqları Məhkəməsi 2015-ci il iyunun 16-da “Çıraqov və başqaları Ermənistana qarşı” işi ilə bağlı qəbul etdiyi qərarında Ermənistanın Dağlıq Qarabağı və ətraf rayonları işğal altında saxladığını təsdiq edib. 2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan yenə hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutub. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla 6 nəfər həlak olub, 33 nəfər isə ağır yaralanıb. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verib, əks-həmlə nəticəsində strateji əhəmiyyətli mövqeləri işğaldan azad edib. Aprel hadisələri bir tərəfdən Azərbaycan Ordusunun gücünü göstərdisə, digər tərəfdən də status-kvonun saxlanmasının və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun münaqişə zonasında gərginliyin əsas səbəbi olduğunu və münaqişənin siyasi həllinə başlıca maneə kimi qaldığını beynəlxalq ictimaiyyətə növbəti dəfə nümayiş etdirdi [8].

2016-cı il ərzində Ermənistan və Azərbaycan prezidentləri arasında Vyana və Sankt-Peterburq görüşlərində substantiv müzakirələr aparılıb, lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən bu görüşlərdə də münaqişənin həllində irəliləyiş əldə olunmayıb.

Ermənistan siyasi və hərbi təxribatlarını 2017-ci ildə də davam etdirib. İlk olaraq fevralın 20-də Azərbaycanın işğal altında olan ərazilərində qeyri-qanuni “referendum” keçirilib. Lakin bu, beynəlxalq ictimaiyyət tərəfindən rədd edilib və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə bir daha dəstək ifadə olunub. İyun və iyul aylarında Azərbaycanın ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin həlli istiqamətində səylərini artırdığı, beynəlxalq ictimaiyyətin substantiv danışıqlara ciddi çağırışları fonunda Ermənistan qoşunların təmas xətti boyunca vəziyyəti gərginləşdirməyə çalışıb. Ermənistan hərbi hissələri növbəti dəfə təcavüzkar əməllərini davam etdirərək ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutub. Nəticədə iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində mülki şəxslər - 1966-cı il təvəllüdlü Sahibə Allahverdiyeva və onun nəvəsi 2016-cı il təvəllüdlü Zəhra Quliyeva qətlə yetirildi, 1965-ci il təvəllüdlü Səlminaz Quliyeva isə ağır yaralanıb. Ermənistanın mülki insanları və obyektləri qəsdən hədəfə alması beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə qınanıb. Beynəlxalq ictimaiyyət bir daha ardıcıl şəkildə əmin olub ki, Ermənistan münaqişənin siyasi həllində maraqlı deyil.

2017-ci il noyabrın 24-də Brüsseldə keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşündə qəbul edilən birgə bəyannamədə Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyib.NATO Zirvə görüşlərinin yekun sənədlərində, o cümlədən 2012-ci il Çikaqo, 2014-cü il Kardiff, 2016-cı il Varşava, 2018-ci il Brüssel bəyannamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi dəstəklənib [6].

2020-ci il sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq,xalqımız torpaqlarımızın işğaldan qur-

tarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi,məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı.Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Noyabrın 9-dək 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik və yenilməz sərkərdəliyi ilə müzəffər Azərbaycan Ordusu 30 ildir erməni işğalı altında olan Cəbrayıl, Füzuli,Zəngilan, Qubadlı şəhərlərini, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Vətən müharibəsi dövründə ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına 11 dəfə müraciət etdi. Dövlət başçısı hər kəsin səbirsizliklə gözlədiyi və həyəcanla dinlədiyi müraciətlərində Ordumuzun zəfərləri, işğalçı erməni qüvvələrinin darmadağın edilərək torpaqlarımızın bir-birinin ardınca azad olunması, döyüş meydanında acı məğlubiyyətə düçar olan Ermənistanın ölkəmizə qarşı işğalçılığı və müharibə cinayətləri ilə bağlı dəqiq, hərtərəfli məlumatlar verdi. 10 noyabr 2020-ci il tarixində münaqişə tərəfləri və Rusiya Federasiyası arasında tərəfli bəyanatın imzalanması ilə tərəflər arasında olan hərbi əməliyyatlar Azərbaycan Ordusunun parlaq qələbəsi ilə bitmişdir.

İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri xüsusi qəddarlıqla məhv edilmişdir. Ələ keçirdikləri ərazilərdə 12 muzey, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilmiş və yandırılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuşdur. İşğal olunmuş ərazilərdə qalan 152 ibadət yeri, məbəd, o cümlədən 62 məscid erməni təcavüzünün qurbanına çevrilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki memarlıq abidələrinin bir qisminin erməniləşdirilməsi, digər qisminin vandalizmə uğradılması ciddi təşviş doğurur. Ermənistanın bu hüquqazidd əməlləri nəticəsində işğal altındakı Azərbaycan ərazilərində qalan islam dini abidələri, bağ, park və memarlıq ansamblları ermənilər tərəfindən dağıdılaraq artıq çoxdan tarixə çevrilmişdir. Ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan məhz İslam dini abidələri, yəni məscidlər, türbələr, ziyarətgahlar və digər inanc yerləri olub. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 məscidin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Müharibə dövründə mədəni mülkiyyətin mühafizəsi məsələləri, əsas etibarilə, xüsusi beynəlxalq sazişlə “Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında” 1954 - cü il Haaqa Konvensiyası ilə nizama salınır və 60-dan çox ölkə bu Konvensiyanın iştirakçısıdır. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçıları tərəfindən tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması həmin konvensiyaya, eləcə də “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasına və “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESKO-nun 1972-ci il Konvensiyasına ziddir. Vandalizm aktları birmənalı şəkildə beynəlxalq qanunlar və konvensiyalarda yolverilməz hesab edilir. 1954-cü ildə Haaqada qəbul edilmiş “Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya” müharibə dövründə mədəni mülkiyyətin qorunmasına həsr olunmuş ilk beynəlxalq müqavilədir [10].

Qeyd etmək lazımdır ki, Ermənistanın vandalizm əməlləri 1954 - cü ildə qəbul olunmuş Silahlı münaqişələr zamanı mədəni və təbii irsin qorunması haqqında Haaqa Konvensiyasını və 1999-cu ildə bu konvensiyaya əlavə edilmiş İkinci Protokolun kobud şəkildə pozulmasıdır. Bu protokolun 9-cu maddəsində işğalçı tərəfin üzərinə işğal olunmuş ərazilərdə mədəni sərvət və antik əşyalarla ticarətin, onların qaçaqmalçılığının qarşısını almaq, mədəni, tarixi, habelə elmi abidələrin və xüsusiyyətlərinin sistematik olaraq və ya qəsdən dəyişdirilməsini qadağan etmək öhdəliyi qoyulur. Haaqa Konvensiyasına konvensiyanın tətbiq edilməsi qaydalarını müəyyən edən icraedici reqlament və işğal edilmiş ərazilərdən mədəni dəyərlərin çıxarılmasını qadağan edən protokol qəbul edilmişdir. Konvensiyaya üzv dövlətlər “mədəni mülkiyyətə qarşı yönəlmiş vandalizm aktlarını qadağan etmək, qarşısını almaq və zərurət yaranarsa, mədəni mülkiyyətə qarşı yönəlmiş oğurluq, qarət və qanunsuz mənimsənilmənin istənilən

formasına son qoymaq" barəsində razılığa gəliblər[5].

Eyni zamanda, "Mədəni dəyərlərin qeyri-qanuni yolla gətirilməsinin, aparılmasının və mülkiyyət hüququnun verilməsinin qadağan edilməsi və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyası və "Oğurlanmış və qeyri-qanuni yolla ölkədən çıxarılmış mədəni dəyərlər haqqında" 1995-ci il Konvensiyasıda təsbit edilən müddəalara əsasən silahlı münaqişələr zamanı mədəni sərvətlərə və mədəni irsə qarşı qanunsuz əməllər beynəlxalq cinayət qanunvericiliyinə əsasən hərbi cinayət hesab olunur. Ermənistan beynəlxalq təsisatların üzvü olaraq Azərbaycanın dini və mədəni irsinə qarşı işğal olunmuş ərazilərdə törədilmiş vandalizm aktlarına görə məsuliyyət daşıyır. Qeyd etmək istərdim ki, ermənilər mədəni abidələrimizə qarşı törətdikləri "terror"la yanaşı Azərbaycan ərazilərində ekoloji terrorlar da törətmişlər [7].

6 oktyabrda isə Ermənistan Xəzər neftini Avropaya çatdıran Bakı-Tbilisi-Ceyhan boru xəttini hədəf almışdır. 09 oktyabr 2020-ci il tarixdə Moskva şəhərində humanitar atəşkəs barədə saziş imzalanmasına baxmayaraq Ermənistan tərəfindən 10 və 17 oktyabr gecəsi Azərbaycanın Gəncə və Mingəçevir şəhərləri raketlərdən atəşə tutulmuş, Gəncə şəhərində yaşayış binalarının raketlə vurulması nəticəsində 22 dinc sakin həlak olmuş, bir neçəsi uşaqlar olmaqla, 93 dinc sakin yaralanmış, 2 uşaq itkin düşmüş, yaşayış binaları dağılmışdır. 500 000-ə yaxın əhalisi ilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərində məhz mülki əhalinin sıx yaşadığı məntəqələr raket hücumlarına məruz qalmışdır. Ermənistanın Gəncə şəhərində mülki əhalinin sıx yaşadığı binaları raket atəşinə tutmaqda məqsədi əhali arasında kütləvi tələfat törətmək və təşviş hissi yaratmaq, bununla da güc yolu ilə Azərbaycana aid ərazilərdən yeni mövqeylər əldə etməkdir. Bu isə insanlıq əleyhinə yönəlmiş və müharibə cinayətlərinə əsaslandığından çoxsaylı insan tələfatına səbəb olur. Bu günə qədər 270-dək mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara gətirilib, 60 mülki şəxs öldürülüb, 327-dək mülki obyekt, 1704 ev, 90 çoxmənzilli yaşayış binaları Ermənistan silahlı qüvvələri tərəfindən həyata keçirilən terror aktları nəticəsində dağıdılıb [1, s.64].

Belə ki, Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları 10 noyabr tarixli 3 tərəfli bəyanata əsasən, ermənilər Azərbaycan Respublikasının Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytarmağı öhdəlik kimi öz üzərilərinə götürmüşlər. Ağdamda qanunsuz məskunlaşan ermənilər bəyanata uyğun olaraq oranı tərk edərkən mağaza və evləri yandırırdılar. Bununlada öz barbarlıqlarını bir daha sübut etmişlər. Həmçinin, Azərbaycan noyabrın 15-də nəzarətə almalı olduğu Kəlbəcər rayonundan ermənilərin çıxması müddətini 10 gün artırdığı halda, ermənilər burada da evləri və meşələri yandıraraq ekoloji terror törətmişlər. Bu da öz növbəsində BMT-nin bir sıra konvensiyalarına ziddir.

## Nəticə

Beynəlxalq hüququn hər bir subyektinin üzərinə götürdüyü öhdəliklər ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə riayət edilməsindən başlayır. Hazırda dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır və dəstəkləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq bəyan edib ki, "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni, Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaq".

Xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu.Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

### İstifadə olunmuş ədəbiyyat


1. Cəlilbəyli İ. Beynəlxalq hüquq, idarəçilik və iqtisadiyyat. Bakı, 2010, 193 s.
2. Hüseynov L.Beynəlxalq hüqüq. Bakı, 2012, 368 s.
3. Məcidli S. Beynəlxalq hüquq və Azərbaycan Respublikasının media qanunvericiliyi. Bakı,2015, 392 s
4. http://anl.az/el_en/book/2016/I-42864.pdf
5. https://www.hrw.org/reports/AZER%20Conflict%20in%20N-K%20Dec94_0.pdf
6. https://www.nytimes.com/1992/03/03/world/massacre-by-armenians-being-reported.html?fbclid=IwAR0vvAkK4AyhAJZF320CrSWA7U_liqubWHk4jf9l055rAR_nMnX7-kJ9ElI
7. http://unscr.com/en/resolutions/874
8. https://en.trend.az/azerbaijan/karabakh/3268498.html
9. https://www.dailymail.co.uk/news/article-8849997/Ganja-missile-strike-kills-12-injures-40-Armenia-Azerbaijan-fight-escalates.html
10. https://www.eupoliticalreport.eu/pkks-involvement-in-the-armenia-azerbaijan-conflict-would-jeopardise-european-security/
11. https://www.aa.com.tr/en/asia-pacific/armenia-launches-rocket-attack-on-ordubad-nakhchivan-/2008475

## Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən təltif edilmiş şəhid ailələri və müharibə iştirakçılarının bir qisminə orden və medallar təqdim etmə mərasimində Ucar rayon prokuroru iştirak etmişdir




26 iyun Silahlı Qüvvələr günü münasibəti ilə Ucar rayonunda tədbir keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən təltif edilmiş şəhidlərin ailə üzvlərinə və müharibə iştirakçılarının bir qisminə Ucar rayon prokurorunun iştirakı ilə orden və medallar təqdim edilmişdir.

Belə ki, tədbir səhər Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül qoyma mərasimi ilə başlamışdır.

Bundan sonra tədbir iştirakçıları Şəhidlər Xiyabanında torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş Ucar rayon sakinlərinin əbədi xatirəsini anaraq abidələri önünə gül dəstələri qoymuşlar.

Tədbir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ucar rayon şöbəsində davam etdirilmişdir. Şəhidlik zirvəsinə ucalmış 18 şəhidin ailə üzvlərinə və 12 müharibə iştirakçısına ümumilikdə 18 “Vətən uğrunda”, 1 “İgidliyə görə”, 2 “Döyüşdə fərqlənməyə görə”, 5 “Hərbi xidmətlərə görə”, 7 “Cəsur döyüşçü” medalları təqdim edilmişdir. Ucar rayon prokuroru Elşən Abdullayev tədbirdə iştirak edərək Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla 44 günlük müharibədə xalqımızın “Dəmir Yumruq” kimi birləşdiyini, 30 illik həsrətə son qoyulduğunu, hazırda həmin torpaqlarda böyük quruculuq-abadlıq işlərinin aparıldığını, Şuşa Bəyannaməsinin Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədə-






niyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq Türkiyə Dövlətinin həm 44 günlük müharibədə, həm də hazırda Azərbaycan Dövlətinin yanında olduğunu qeyd etmiş, müharibədə şəhid olmuş Ucar rayon sakinlərinin ailələrinə baş sağlığı vermiş, iştirakçılara can sağlığı və gələcək həyatlarında uğurlar arzu edərək çıxışdan sonra bir neçə şəhid ailələrinin təltiflərini valideyn və övladlarına müharibə iştirakçılarının isə özlərinə təqdim etmişdir.

# Qanunsuz olaraq mənzilə daxil olmaqla digər cinayətlərin törədilməsi zamanı əməlin tövsifi problemləri



Təcrübədə tez-tez rast gəlinən və təqsirləndirilən şəxsin əməlinə hüquqi qiymət verilərkən fikir ayrılıqlarına səbəb olan hallardan biri də qanunsuz olaraq mənzilə daxil olmaqla digər cinayətlərin törədilməsi halında əməlin tövsifi problemidir. Bu problem özünü həm ibtidai araşdırma mərhələsində, həm də məhkəmə icraatında göstərir. Xüsusən də, mənzilə qanunsuz daxil olmaqla törədilən qəsdən adam öldürmə, zorlama və s. cinayətlərdə təqsirləndirlən şəxsin əməli bəzi hallarda cinayətlərin məcmusu ilə tövsif edilsə də, əksər hallarda mənzilə qanunsuz daxil olma digər cinayəti törətmənin üsulu kimi qiymətləndirilərək və şəxsin bilavasitə qəsdinin digər cinayəti törətmək olduğu əsas gətirilərək əməl mənzil toxunulmazlığını pozma ilə birlikdə tövsif edilmir.

Qeyd olunanlara Saatlı rayon polis şöbəsində istintaqı aparılan cinayət işini misal olaraq göstərmək olar. Belə ki, Saatlı şəhəri, M.P.Vaqif küçəsində yerləşən Neft Kəşfiyyat yataqxanasında yaşayan Qasımov Əlizadə Vaqif oğlu 09.04.2020-ci ildə Saatlı RPŞ-nə ərizə ilə müraciət edərək həmin gün gecə saat 04:30 radələrində qonşuları Bağırov Tofiq Mehdi oğlu və Həziyev Razim Ramiz oğlu tərəfindən döyülərək xəsarət aldığını bildirmiş və həmin müraciət əsasında 10.04.2020-ci il tarixdə Saatlı RPŞ-nin təhqiqat bölməsində cinayət təqibi üzrə məhkəməyədək sadələşdirilmiş icraat açılmışdır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat aparılmasının nəticələrinə dair 29.04.2020-ci il tarixdə Həziyev Razim Ramiz oğlunun Azərbaycan Respublikası CM-nin 127.1-ci maddəsində, Bağırov Tofiq Mehdi oğlunun isə Azərbaycan Respublikası CM-nin 128-ci maddəsində nəzərdə tutulan cinayət əməllərini törətmələrinə dair yekun protokol tərtib edilərək təsdiq edilib Saatlı rayon Məhkəməsinə göndərilmişdir. Saatlı rayon Məhkəməsi 18.05.2020-ci il tarixli qərarı ilə Tofiq Bağırovun və Razim Həziyevin əməllərində Azərbaycan Respublikası CM-nin 157.1-ci maddəsinin tərkib əlamətləri olduğunu əsas göstərərək məhkəməyədək sadələşdirilmiş icraat materialının baxılmasına xitam vermiş və material ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Saatlı rayon prokuroruna qaytarılmışdır. 20 may 2020-ci il tarixli qərarla Həziyev Razim Ramiz oğlu barəsində Azərbaycan Respublikası CM-nin 127.1-ci maddəsi ilə, Bağırov Tofiq Mehdi oğlu barəsində isə Azərbaycan Respublikası CM-nin 128-ci maddəsi ilə 200706018 nömrəli cinayət işi başlanılmış və ibtidai istintaqın aparılması üçün aidiyyəti üzrə Saatlı rayon polis şöbəsinin istintaq bölməsinə göndərilmişdir.

11 iyul 2020-ci il tarixli qərarlarla Bağırov Tofiq Mehdi oğlu Azərbaycan Respublikası CM-nin 128-ci maddəsi, Həziyev Razim Ramiz oğlu isə Azərbaycan Respublikası CM-nin 127.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrdə nəzərdə tutulan ittiham elan olunmuş, iş üzrə 15 iyul 2020-ci il

tarixdə tərtib edilmiş ittiham aktı 18 iyul 2020-ci il tarixdə təsdiq olunaraq cinayət işi baxılması üçün Saatlı rayon Məhkəməsinə göndərilmişdir. Saatlı rayon Məhkəməsi dövlət ittihamçısının verdiyi vəsatəti təmin edərək 27 oktyabr 2020-ci il tarixdə Həziyev Razim Ramiz oğlunun Azərbaycan Respublikası CM-nin 127.1 maddəsi, Bağırov Tofiq Mehdi oğlunun isə Azərbaycan Respublikası CM-nin 128-ci maddəsi ilə nəzərdə tutulan cinayət əməlini törətməkdə təqsirləndirilmələrinə dair cinayət işinin baxılmasına xitam vermiş və onların əməllərində daha ağır cinayətin əlamətləri müəyyən edildiyindən təqsirləndirilən şəxslərə Azərbaycan Respublikası CM-nin 157.2-ci maddəsi ilə ittiham irəli sürülməsi məsələsinə baxılması üçün cinayət işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Saatlı rayon prokuroruna qaytarılmışdır.

İstintaqla müəyyən edilmişdir ki, Həziyev Razim Ramiz oğlu Saatlı şəhərində 09 aprel 2020-ci il tarixdə səhər saat 04 radələrində qardaşı Bağırov Tofiq Mehdi oğlu ilə M.P.Vaqif küçəsində yerləşən keçmiş neft yatağı kəşfiyyatçılarının yataqxanasında onunla qonşuluqda yaşayan Qasımov Əlizadə Vaqif oğlunun otağının qarşısına gedərək, arvadı barəsində xoşagəlməz sözlər danışdığına görə aralarında baş vermiş mübahisə zamanı sonuncunun əlindəki plastik borunu alıb onun sol qoluna, qıçına və baldırına vuraraq, sağlamlığın uzun müddətə pozulmasına səbəb olmuş qəsdən sağlamlığına az ağır zərər vurmuş, Bağırov Tofiq Mehdi oğlu isə orada Razim Həziyevlə Əlizadə Qasımov arasında baş vermiş mübahisə zamanı onları ayırarkən Əlizadə Qasımovun onun bacısının ünvanına söyüşlər söydüyü üçün ağız nahiyəsinə bir dəfə yumruqla vuraraq, ona sağlamlığın qısa müddətə pozulmasına səbəb olan qəsdən sağlamlığına yüngül zərər vurmuşdur.

Əlavə istintaqın nəticəsində qəbul olunmuş qərarla cinayət işinin Azərbaycan Respublikası CM-nin 157.2-ci maddəsi ilə olan hissəsi üzrə icraatına öz təsdiqini tapmadığından xitam verilmiş, Saatlı rayon Məhkəməsinin 18.05.2020-ci il tarixli qərarına münasibətdə təqsirləndirilən şəxslər R.R.Həziyev və T.M.Bağırovun əməllərində Azərbaycan Respublikası CM-nin 157.1-ci maddəsinin tərkib əlamətləri olması qənaətinə gəlindikdə isə onların barələrində Azərbaycan Respublikası CM-nin 157.1-ci maddəsi ilə cinayət işinin başlanması ilə bağlı zərərçəkmiş şəxs Qasımov Əlizadə Vaqif oğlu şikayətçi olmadığından, habelə cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü üçün qanunla müəyyən edilmiş əsaslar olmadığından Azərbaycan Respublikası CPM-in 39.1.8-ci maddəsinə əsasən cinayət işinin başlanması rədd edilmiş, təqsirləndirilən şəxslər R.R.Həziyev və T.M.Bağırova qarşı başqa ittiham irəli sürülmədiyindən 21 dekabr 2020-ci il tarixli qərara əsasən cinayət işi baxılması üçün Saatlı rayon Məhkəməsinə göndərilmişdir. Cinayət işi üzrə Saatlı rayon Məhkəməsinin 12.02.2021-ci il tarixi, 1(055)-01/21 saylı ittiham hökmü çıxarılmışdır.

Göründüyü kimi fikir ayrılıqlarının mövcudluğu yekun qərarın qəbulunda ləngimələrə, son nəticədə cinayət təqibinin tezliyinin təmin edilməsi prinsipinin pozulmasına səbəb olmuşdur.

Qeyd olunan problemin həlli ilə əlaqədar hesab edirik ki, ilk öncə tövsif və cinayətlərin məcmusu anlayışına aydınlıq gətirilməlidir.

Cinayətin tövsifi törədilən konkret cinayət əməlinin cəhətləri ilə cinayət-hüquq normasının dispozisiyasında nəzərdə tutulan tərkib əlamətləri arasında uyğunluğu müəyyən etməklə, müvafiq prosessual sənəddə öz əksini tapan və cinayət-hüquqi nəticələrə səbəb olan əmələ verilən cinayət hüquqi qiymətdir.

Qüvvədə olan Cinayət Məcəlləsində cinayətlərin məcmusu (CM-in 17-ci maddəsi) anlayışını müəyyən edən norma nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 17.1-ci maddəsində cinayətlərin məcmusuna aşağıdakı məzmunda anlayış verilir: «Bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır.».

Cinayətlərin məcmusu şəxsin iki və ya daha artıq cinayət törətmə faktına əsaslanır. Bu da özünün sosial-hüquqi nəticələrinə görə konkret cinayətlə müqayisədə daha yüksək təhlükəliliyi

ilə xarakterizə olunur. Qanunvericilik bu cəhəti nəzərə alaraq cinayətlərin məcmusuna görə cəza təyin etmənin xüsusi qaydalarını da müəyyən etmişdir (CM-in 66-cı maddəsi).

Hüquq ədəbiyyatında cinayətlərin "real" və "ideal" məcmusu fərqləndirilir. Cinayət Məcəlləsinin 17.1-ci maddəsində, adı çəkilməsə də, faktiki cinayətlərin real məcmusunun anlayışı verilmişdir. Cinayət Məcəlləsinin 17.2-ci maddəsinin göstərişi belə nəticə çıxarmağa əsas verir, çünki 17.2-ci maddədə cinayətlərin ideal məcmusunun anlayışı təsbit edilmişdir. Orada qeyd edilmişdir ki, «Bir hərəkətlə (hərəkətsizliklə) bu Məcəllənin iki və daha çox maddəsi ilə nəzərdə tutulmuş iki və daha çox cinayətin törədilməsi cinayətlərin ideal məcmusunu yaradır.».

Göründüyü kimi, cinayətlərin real məcmusu zamana görə bir-birindən təcrid olunmuş iki və daha artıq əməlin edilməsi ilə yaranır. Məsələn, şəxsin başqasının şəxsi mülkiyyətində olan əmlakı oğurlaması və xuliqanlıq etməsi. Bunlar müxtəlif vaxtda və müxtəlif hərəkətlərlə törədilən müxtəlif cinayətlərdir.

Yuxarıda qeyd edildiyi kimi, cinayətlərin ideal məcmusu eyni vaxtda edilən bir hərəkətlə iki və ya daha artıq cinayətin törədilməsidir: məsələn, şəxsi öldürmək məqsədilə gecə vaxtı onun evini yandırmaq. Burada həm qəsdən adam öldürmə (CM-in 120-ci maddəsi), həm də şəxsi mülkiyyətdə olan əmlakı qəsdən məhv etmə (CM-in 186-cı maddəsi) cinayətlərinin tərkibləri yaranır.

CM-in 17.3-cü maddəsinə görə, şəxs bu Məcəllənin müvafiq maddələrinə uyğun olaraq cinayətlərin məcmusunu yaradan hər cinayətə görə cinayət məsuliyyətinə cəlb edilir.

Göründüyü kimi, cinayət çoxluğunun növü kimi, cinayətlərin məcmusunun mövcud olması aşağıdakı cəhətləri nəzərdə tutur:

– məcmuya daxil olan cinayətlərin hər biri müstəqil tövsif edilir;

– bu əməllər törədilmə faktından irəli gələn hüquqi nəticələrini itirmir. Belə ki, məcmuya daxil olan cinayətlərə görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməməsi, habelə bu cinayətlərin heç birinə görə şəxsin mühakimə edilməməsi tələb olunur.

Mənzil toxunulmazlığını pozmaqla digər cinayətin törədilməsi, yəni digər cinayətin törədilməsinin üsulu kimi çıxış etməsi zamanı tövsiflə bağlı hansı hüquqi mövqenin rəhbər tutulmasına dair müddəalara qanunvericilik aktlarında, o cümlədən Azərbaycan Respublikası Ali Məhkəməsi və Konstitusiya Məhkəmələrinin Plenum qərarlarında rast gəlinmir. Yalnız, Ali Məhkəmənin "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 03 mart 2005-ci il tarixli qərarında belə bir mövqe öz əksini tapmışdır ki, şəxs «daxil olmaq» əlaməti ilə özgə əmlakının talanması əməlində təqsirli bilinmişsə, onun hərəkətlərini əlavə olaraq CM-nin 157-ci maddəsi ilə də tövsif etməyə ehtiyac yoxdur. Belə ki, bu cür qanunsuz hərəkət oğurluq, soyğunçuluq və ya quldurluq cinayətlərinin tövsifedici əlamətləridir.

Bənzər müddəa A.V.Brilliantovun müəllifi olduğu Rusiya Federasiyasının Cinayət Məcəlləsinin Kommentariyasında da təsbit edilmişdir.

Buradan belə bir nəticə çıxarmaq olar ki, mənzil toxunulmazlığını pozma digər cinayətin törədilməsinin üsulu kimi çıxış etdikdə və tövsifedici əlamət kimi nəzərdə tutulmadıqda şəxs zəruri əsaslar olduqda cinayətlərin məcmusu qaydasında cinayət məsuliyyətinə cəlb edilməlidir. Bununla bağlı Y.İ.Skuratov və V.M.Lebedevin müəllifləri olduğu Rusiya Federasiyasının Cinayət Məcəlləsinin Kommentariyasında göstərilmişdir ki, mənzil toxunulmazlığını pozma digər cinayətin törədilməsinin üsulu kimi çıxış etdikdə (məsələn, zorlama, qəsdən adam öldürmə) və tövsifedici əlamət kimi nəzərdə tutulmadıqda şəxs cinayətlərin məcmusu qaydasında cinayət məsuliyyətinə cəlb edilir.

Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, mənzil toxunulmazlığını pozma digər cinayətin törədilməsinin üsulu kimi çıxış etdikdə və tövsifedici əlamət kimi nəzərdə tutulmadıqda şəxs zəruri əsaslar olduqda həm mənzil toxunulmazlığını pozma, həm də digər müvafiq cinayətlərə görə cinayətlərin məcmusu qaydasında cinayət məsuliyyətinə cəlb edilməlidir.

**Sabir Musayev**
**Baş Prokurorluğunun Prokurorluqda İstintaqa nəzarət idarəsinin böyük prokuror-metodisti**
**II dərəcəli hüquqşünas**


ŞƏHİDLƏRİMİZİN QƏHRƏMANLIĞI NƏTİCƏSİNDƏ BU GÜN BİZİM BAYRAĞIMIZ AZAD EDİLMİŞ TORPAQLARDA UCALIR,
xalqımız, dövlətimiz müzəffər dövlət, müzəffər xalq kimi yaşayır və bundan sonra əbədi yaşayacaq.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Prokurorluğun veteranı Ələmdar Məmmədovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi

**Məmmədov Ələmdar Məmməd oğlu 20 aprel 1949-cu ildə İmişli şəhərində anadan olmuşdur. Əmək fəaliyyətinə 1968-ci ildə Elmi-tədqiqat, geologiya institutunda texnik kimi başlamış, 1971-ci ilədək müxtəlif işlərdə işləmişdir. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş və həmin ildən prokurorluq orqanlarına işə qəbul olunaraq 1985-ci ilədək müxtəlif rayon prokurorluqlarında stajor, rayon prokurorunun köməkçisi və prokuror müavini kimi vəzifələrdə işləmişdir. Daha sonra xidməti fəaliyyətini 1985-1992-ci illərdə Cəlilabad rayon prokuroru, 1992-1997-ci illərdə Zaqatala rayon prokuroru, 1997-2000-ci illərdə Goranboy rayon prokuroru kimi davam etmişdir. Növbəti 5 il ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru, 2005-2009-cu illərdə isə Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat-analitik idarəsinin prokuroru və Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin böyük prokuroru vəzifələrində fəaliyyət göstərmişdir. 2009-cu ildə prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmişdir. Ələmdar Məmmədov barəsində prokurorluq orqanlarında göstərdiyi peşəkarlıq nəzərə alınaraq müxtəlif illərdə təşəkkür, pul mükafatı, mükafatlandırma qaydasında növbəti xüsusi rütbə, "Prokurorluğun fəxri işçisi" döş nişanı və Fəxri fərman kimi həvəsləndirmə tədbirləri tətbiq edilmişdir.**



**Sual:** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından dərin təşəkkürümüzü bildiririk. Ələmdar müəllim, prokurorluq orqanlarında xidmət etdiyiniz dövrdə prokuror köməkçisi vəzifəsindən böyük rayonların prokuroru vəzifəsinədək yüksəlmisiniz. Xidmətinizin mürəkkəbliyi ilə əlaqədar yəgin ki bir çox yuxusuz gecələriniz, məzuniyyətsiz və istirahətsiz xidmət illəriniz olmuşdur.

**Cavab:** Əvvəla müsahibəyə təşəbbüs edildiyi üçün jurnalın redaksiya heyətinə təşəkkürümü bildirirəm. Doğma prokurorluğumuzun dövri mətbu nəşri olan "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının yenilənməsi, maraq doğuran rubrikaların artması biz oxucuları sevindirir.

Qəribə səslənsə də, mən heç vaxt hüquqşünas olmaq arzusunda olmamışam. Belə ki, 1971-ci ilin mart ayında Kommunist (indiki İstiqlaliyyət) küçəsində Elmlər Akademiyasının qarşısında Vidadi adlı tanışıma rast gəldim. Söhbət əsasında məlum oldu ki, o, öz ərizəsi ilə təhsil aldığı Azərbaycan Texniki Universitetindən xaric olunub, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsinə daxil olub və I kurs tələbəsidir.



kültəsi ləğv olunduğundan müraciət etmiş abituriyentlərin sənədləri hüquq fakültəsinə göndərilib. Mən də şərqşünaslıq fakültəsinə sənəd verdiyim halda, nəticədə təhsili hüquq fakültəsində uğurla davam etdirdim.

Daha sonra təhsil müddətində təhsilə yanaşmam, yüksək nailiyyətlərimin nəticəsi olaraq 1976-cı ildə isə institutu bitirən zaman təyinat əsasında prokurorluq qurumlarında işləməyə başladım. Qeyd etməliyəm ki, həmin buraxılış zamanı bütün tələbələr içərisindən yalnız 9 nəfərinə prokurorluq qurumlarına təyinat verilmişdir ki, onlardan biri də mən idim.

Həqiqətən həmin dövrlərdə, yəni 70-ci illərin əvvəllərində Respublikamızın yeni rəhbərliyi tələbə qəbulunda mütərəqqi qayda-qanun yarada bilmişdi. Vidadi ilə görüşdən sonra məndə də şərqşünas olmaq həvəsi yaranmışdı. Odur ki, beş il tələbəsi olduğum təhsil müəssisəsindən çıxmaq və sənədlərimi ADU-nun şərqşünaslıq fakültəsinə vermək qərarına gəldim. Lakin imtahan vərəqəsini almağa gələrkən bir elanla rastlaşdım. Həmin elanda bildirilirdi ki, şərqşünaslıq fa-

**Sual:** Xidmət dövrünüzün mühüm hissəsi Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə sovet Azərbaycanının ən çiçəklənən dövrünə təsadüf etmişdir. Həmin illərdə Respublikamızda yüzlərlə iri sənaye müəssisəsi, sosial, səhiyyə, mədəni, təhsil, nəqliyyat, kənd təsərrüfatlı təyinatlı obyekt istifadəyə





verilmiş, ölkəmiz ittifaq respublikaları arasında sosial-iqtisadi inkişaf yarışmasında ilk yerlərdən birini tutmuşdur. Sizcə sosialist formasiyasına aid iqtisadiyyatın və ümumilikdə cəmiyyətin inkişafında nümunəvi sovet prokurorunun rolu nədə idi?

**Cavab:** İlk növbədə qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövr ölkəmizin iqtisadi, sosial, mədəni həyatında ən məhsuldar illər olmuşdur. Respublikamız keçmiş ittifaq respublikaları arasında iqtisadi potensialına, xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafı templərinə görə ilk yerlərdən birini tutmuş və iqtisadiyyatımız 50-60-cı illərdəki aqrar və xammal tədarükçüsü statusundan, güclü emaledici, ağır sənaye, kənd təsərrüfatına sahib olan iqtisadiyyata çevrilmişdir.

Güclü iqtisadiyyat və iqtisadi münasibətlərin daha da inkişaf etməsi müəssisələr arasında ticarət, təchizat və təsərrüfat münasibətlərində qanunun aliliyinin təmin olunmasına hər zaman öz töhfəsini verən prokurorluq orqanlarının fəaliyyətin təkmilləşdirilməsinə zərurət yaratmışdır.

Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi ötən əsrin 70-80-cı illəri Azərbaycan Prokurorluğunun mühüm dövlət təsisatı kimi daha da möhkəmlənməsi, prokuror nəzarəti institutunun həmin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi, kadr korpusunun gənc və savadlı hüquqşünaslar hesabına gücləndirilməsi ilə nəticələnmişdir.

Qeyd edim ki, ümumilikdə sovet dövründə prokurorluq siyasətdən kənar görsənsə də faktiki olaraq cəmiyyətin bir üzvü kimi böyük səlahiyyətlərə malik qurum olaraq ictimai həyatda kifayət qədər rola malik idi və ölkədə baş verən bütün ictimai hadisələrə nüfuz edirdi.

Prokuror nəzarətinin predmetinin artırılması prokuror səlahiyyətinin ən yüksək zirvəsi kimi SSRİ Xalq Deputatları qurultayının 26 dekabr 1990-cı il tarixdə qəbul etdiyi "Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar SSRİ Konstitusiyasına (Əsas Qanununa) dəyişiklik və əlavələr haqqında" SSRİ Qanunun qəbulu ilə başa çatdı. Bu qanunla prokurora yerli Xalq Deputatları Sovetlərinin, siyasi partiyaların və kütləvi hərəkatların fəaliyyətinə nəzarəti də həyata keçirmək səlahiyyəti verilirdi.

**Sual:** Onillikləri əhatə edən xidmətiniz dövründə bir çox Baş prokurorun rəhbərliyi altında fəaliyyət göstərmisiniz, lakin avtobioqrafik xarakterli məqalələrinizdə əsasən mərhum Abbas Zamanovun fəaliyyətinə diqqət edirsiniz. Prinsipial, qanunun aliliyini rəhbər tutan bir prokurorluq əməkdaşı kimi Sizin formalaşmağınıza Abbas Zamanovun təsirini necə ifadə edə bilərsiniz?

**Cavab:** Mərhum Abbas Zamanovla ilk görüşüm 1976-cı ildə baş vermişdir. Belə ki, prokurorluğa təyinat aldıqdan sonra həmin ilin iyul ayında yeni respublika prokuroru təyin edilmiş Abbas Zamanov bizi qəbul etmiş və hər birimizlə fərdi qaydada söhbət zamanı tövsiyələrini vermişdir.

İlk görüşdə onun sadəliyi, əməkdaşlarla ünsiyyəti və verdiyi əhəmiyyətli tövsiyələri daha sonradan mənim nümunəvi prokurorluq əməkdaşı kimi yetişməyimdə böyük rol oynamışdır. Daha sonralar isə onunla ünsiyyətim zamanı onun qanunun aliliyində göstərdiyi prinsipiallıq və daim prokurorluğun nüfuzunun artırılması sahəsində göstərdiyi yanaşması mənim üçün peşəkarlıq nümunəsi olaraq hər zaman mühüm məktəb olmuşdur.

Bir cümlə ilə ifadə etsəm, Abbas Zamanov o zamankı prokurorluğa mədəni rəftar, müraciət forması və davranış qaydalarını təkmilləşdirən, hər bir əməkdaşın peşəkar yetişməsi və ölkəmizə



layiqincə xidmət etməsi üçün əlindən gələni edən bir şəxs kimi yaddaşıma əbədi həkk olunmuşdur.

**Sual:** Bizə məlumdur ki, rayon prokurorunun köməkçisi işlədiyiniz müddətdə Sizə nəinki xidmət etdiyiniz rayonun, həmin dövrdə Respublika Prokurorluğu rəhbərliyinin xüsusi tapşırıqları əsasında hətta qonşu, eləcə də həmin bölgəyə aid digər rayonların sakinlərinin mürəkkəb, çoxsaylı şikayətlərinə baxılması və həlli tapşırılırdı. Bu tip müstəsna xarakterli tapşırıqlar Sizcə hansı zərurətdən irəli gəlirdi?

**Cavab:** Zənnimcə mənə mürəkkəb, çoxsaylı şikayətlərə baxılması və həllinin tapşırılmasının əsas səbəbi o zamankı respublika prokuroru Abbas Zamanovun mənim peşəkarlığıma və qanunun aliliyini hər zaman üstün tutmağıma inancından irəli gəlirdi. Bununla bağlı bəzi xatirələrimi paylaşmaq istərdim.

Belə ki, 1978-ci ildə Respublika Prokurorluğu tərəfindən təşkil edilmiş gənc mütəxəssislərin seminar müşavirəsində mən prokuror köməkçisi olaraq həmin dövrdə qüvvədə olan qanunvericiliyə dair öz irad və təkliflərimi bildirdim. Çıxışım Abbas Zamanovun diqqətini cəlb etmiş və məhz bu tədbirdən sonra Lənkəran-Masallı bölgəsində davam edən, həlli müşgülə düşmüş bir çox şikayətlərin, o cümlədən Astara rayonunda bir qrup vətəndaşın il yarım sürünən şikayətlərinin yoxlanması mənə tapşırılmışdır.

Daha sonra 1981-ci ilin avqust ayında Cəlilabad rayonunda ətraf rayon prokurorlarının iştirakı ilə Abbas Zamanovun rəhbərliyi ilə keçirilmiş əməliyyat müşavirəsini xatırlatmaq istərdim.

Belə ki, Masallı rayon prokuroru əvəzi olaraq həmin müşavirədə o zaman yeni yaradılmış “xəbərdarlıq” institutu ilə bağlı fikirlərimi, yəni hesabatlarda “xəbərdarlıq” qrafasının olmaması ilə əlaqədar bu sahədə fəaliyyətin zəif olacağı barədə tezislərimi bildirdim. Bu fikirlərim Abbas Zamanovun xoşuna gəlməsə də, o, səbirli, təmkinli və yüksək mədəniyyət sahib rəhbər kimi sözlərimə ehtiyatla irad bildirdi. Lakin bu hadisəyə baxmayaraq, mənim hüquqi məsələlərə yanaşmamın, habelə prinsipiallığımın nəticəsi olaraq bir həftə keçməmiş mən Respublika prokurorunun əmri ilə ehtiyat prokurorlar siyahısına daxil edildim, bir müddətdən sonra isə Abbas Zamanovun əmri ilə Lənkəran rayon prokurorunun müavini vəzifəsinə təyin olundum.

1983-cü ilin noyabr ayında Yardımlı rayon prokurorunun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar kompleks yoxlama komissiyasının tərkibinə üzv kimi daxil edilməyim də Abbas Zamanovun mənə göstərdiyi böyük etimadın nəticəsi idi. Belə ki, bundan öncə rayon prokurorunun müavini yoxlama komissiyasının üzvü təyin olunmamışdır.

**Sual:** Zəngin təcrübəyə sahib prokurorluğun veteranı olmaqla ilə yanaşı, Siz çox istedadlı publisist-yazarsınız. Bu sahəyə marağınız nə vaxtdan və hansı şəraitdə yaranmışdır?

**Cavab:** Hələ keçən əsrin 90-cı illərində yaxınlarım tərəfindən mənə dəfələrlə gələcəkdə kitab yazmaq üçün danışdığım hadisələri qeyd edib saxlamaq tövsiyə olunsa da mənim heç vaxt publisistika ilə məşğul olmaq niyyətim olmamışdır. Lakin 2017-ci ildə bir jurnalist tanışıma xidməti fəaliyyətim barədə verdiyim müsahibənin yazı üslubu məni qane etmədi. Odur ki, daha sonrakı yazıları özüm yazamağa başladım. Növbəti illərdə Respublika prokuroru işləmiş Abbas Zamanov, görkəmli hüquqşünas İdris Əsgərov, Sosialist Əməyi Qəhrəmanı İbrahim Qurbanov haqqında yazılarım çap olundu.

Qeyd etmək istəyirəm ki, prokurorluq orqanlarında keçən bir qərinə fəaliyyətim dövründə xalqımızın tarixində baş vermiş hadisələrin şahidi və iştirakçısı olmuşam. Belə ki, cəmiyyətdə baş verən ən kəskin və ziddiyyətli hadisələrin bir çoxu hüquq-mühafizə orqanlarında, o cümlədən, prokurorluqda həll edilmiş, qanunların icrasına nəzarəti həyata keçirməli olan prokuror bəzən vəzifəsinə və səlahiyyətinə aid olmayan hadisələrə də müdaxilə etməli olmuşdur. Odur ki, baş vermiş hadisələri doğru-düzgün nəql edilən yazılarımın çoxlu oxucu kütləsi toplaması məni sevindirdiyi kimi, həm də düşündürür. Sevindirir ona görə ki, hər bir yazının dəyəri oxucusu ilə ölçülür. Düşündürür ona görə ki, bəhs etdiyim hadisələr hələ də öz aktuallığını itirməyib, deməli, cəmiyyət neqativ hallardan hələ də təmizlənməyib.

**Sual:** Ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son bir ildə prokurorluq orqanlarında müasir dövrün tələblərindən irəli gələn tam və hərtərəfli islahatlar aparılmışdır. Qanunun aliliyini daim rəhbər tutan, çox faydalı və zəngin təcrübəsi olan prokurorluğun veteranı bu islahatların prokurorluq təsisatına və ümumilikdə cəmiyyətimiz təsirini necə izah edə bilərsiniz?

**Cavab:** Sevindirici haldır ki, Baş prokuror cənab Kamran Əliyev fəaliyyətinin ilk aylarından prokurorluğun mənafeyinin gücləndirilməsi üçün bir çox məsələlərin həllinə çalışmış, rayon prokurorlarının ibtidai araşdırma üzərində səlahiyyətlərini qaytarmış, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri addımlar atmış, kağız üzərində qalmış Elmi-məsləhət şurasının fəaliyyətini bərpa etmişdir.

Bundan əlavə, peşəkarların vəzifədə irəli çəkilməsi, rəhbər heyətin gənc, istedadlı kadrlarla komplektləşdirilməsi ilə müşayiət edilən ciddi kadr islahatının aparılması, bürokratik əngəllər törədən bəzi əmrlərin ləğv edilməsi, kollegiallığı sözdə deyil işdə həyata keçirmək üçün prokurorluğun mühüm fəaliyyət istiqamətlərinə aid, xüsusilə də intizam komissiyasının yaradılması ayrıca qeyd olunmalıdır.

Onun cəmi bir illik fəaliyyəti zamanı prokurorluq qurumlarının nüfuzu kifayət qədər artmışdır ki, bu isə çox təqdirəlayiqdir. Çünki zəif prokurorluq dövlətçilik və xalq üçün fəsadları gec bilinən ən böyük təhlükədir.

**Sual:** Ənənəvi sualımızı vermək istərdik. Xidməti fəaliyyətinizlə bağlı ən yüksək nailiyyət nəyi hesab edirsiniz?

**Cavab:** Xidməti fəaliyyətim ilə bağlı yüksək nailiyyət əldə olunması ilə nəticələn bəzi hadisələri nəql etmək istəyirəm. Belə ki, Cəlilabad rayonunda prokuror vəzifəsində işləyərkən rayona yoxlama üçün SSRİ DİN-in əməkdaşları ezam olunmuşlar. 4 nəfər SSRİ Daxili İşlər Nazirliyi, 20 nəfər respublikanın müxtəlif rayonlarından Sosialist Əmlakının Oğurlanmasına Qarşı Mübarizə İdarəsi əməkdaşı və 20 mütəxəssislə 8 mağazada eyni vaxtda aparılan 3 günlük yoxlama nəticəsində cəmi bir mağazada qiymətdə aldatma faktı aşkar etmişdir. Halbuki, hadisədən bir həftə əvvəl prokurorluq tərəfindən 4 mağaza yoxlanılaraq 4 cinayət işi başlanmışdır.

Odur ki, komissiyanın nəzərinə yoxlama aparılan mağazalarda çatışmazlıq faktlarının ört-basdır edildiyini çatdırdım. Bu peşəkarlıq onların heyrətinə səbəb olmuşdur.

Daha sonra 6 sovxozda heyvandarlıq və quşçuluq fermalarında aparılan yoxlamalar heç bir nəticə vermədi. 2 şərab zavodunda da yoxlama aparmaq istəsələr də prokurorluqda CM-nin 88-1 maddəsi ilə cinayət işi istintaq edildiyindən yoxlama baş tutmadı. Komissiyanın məqsədli olaraq rayonda təsərrüfatları iflic vəziyyətinə salmaq niyyətini və Moskvanın həqiqətən Cəlilabad üçün ağır günlər hazırladığını bildiyimizdən müxtəlif qanuni yollarla onun fəaliyyətinin dayandırılmasına nail olduq.

Sonradan məlum olmuşdur ki, Moskvanın göstərişi ilə müxtəlif komissiyalara çoxsaylı əməkdaşlar, mütəxəssislər cəlb edilməklə Cəlilabad rayonunda yoxlama təşkil etməkdə məqsəd heç də göründüyü kimi olmamışdır. Nəticədə isə yüzlərlə insan məhkum olacaq, minlərlə insan əziyyət çəkəcəkdi. Bunun nəticəsi olaraq yoxlamadan sonrakı növbəti kollegiyada o zamanki Baş prokuror İlyas İsmayılov mənim fəaliyyətimdən razılığını bildirdi. Hesab edirəm həmin çətin dövrdə göstərdiyimiz prinsipiallıq, qərəzsizlik və peşəkarlıq xeyli soydaşımızın əsassız cinayət məsuliyyətinə cəlb edilməsinin qarşısını almışdır. Hesab edirəm bu nəticə mənim xidməti fəaliyyətimdə ən yüksək nailiyyətdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 199-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 117.6-1-ci maddəyə «qohumu» sözündən sonra «(bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)» sözləri, «övladlığa verilməsinə» sözlərindən sonra «onlar uçota alındıqları gündən» sözləri əlavə edilsin.

**2.** 118-ci maddə üzrə:

**2.1.** 118.3.2-ci maddədə «şəxslərin» sözü «şəxsin (şəxslərin)» sözləri ilə əvəz edilsin;

**2.2.** 118.3.3-cü maddəyə «şəxsə» sözündən sonra «(şəxslərə)» sözü əlavə edilsin;

**2.3.** 118.15-ci maddədə «yaxın qohumlar» sözləri «qohumları» sözü ilə, «118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir» sözləri «118.3.2-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir» sözləri ilə əvəz edilsin;

**2.4.** 118.24-cü maddədə «yaxın qohumlar» sözləri «qohumları» sözü ilə əvəz edilsin.

**3.** 119-cu maddə üzrə:

**3.1.** 119.4-cü maddədə «Yaxın qohumlar» sözləri «Qohumları» sözü ilə əvəz edilsin və həmin maddəyə «tərəfindən» sözündən əvvəl «, eləcə də ögey ata (ögey ana)» sözləri əlavə edilsin;

**3.2.** 119.11-ci maddədə «119.9.2-ci» sözləri «119.10.2-ci» sözləri ilə əvəz edilsin.

**4.** 120.1.8-ci maddədə «yaxın qohumlar» sözləri «qohumları» sözü ilə əvəz edilsin.

**5.** 120.4-cü maddədə «yaxın qohumları olan» sözləri «qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən» sözləri ilə əvəz edilsin.

**6.** 121.1-ci və 121-2-ci maddələrdə «yaxın qohumlar» sözləri «qohumları» sözü ilə əvəz edilsin.

**7.** 124-cü maddə üzrə:

**7.1.** 124-cü maddənin adı aşağıdakı redaksiyada verilsin:

**«Maddə 124. Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə razılıq»;**

**7.2.** 124.2-ci maddədə «yazılı razılığı lazımdır» sözləri «həmin uşaqlarla bağlı fikri öyrənilir» sözləri ilə əvəz edilsin;

**7.3.** 124.3-cü maddədə «fikri öyrənilir» sözləri «rəyi alınır» sözləri ilə əvəz edilsin;

**7.4.** 124.4-cü maddəyə «razılığı olmadan» sözlərindən sonra «və ya fikri nəzərə alınmadan» sözləri əlavə edilsin.

**8.** 134-cü maddə üzrə:

**8.1.** 134.10-cu maddədə «da» sözü «bu Məcəllənin 125.3-cü maddəsi ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla» sözləri ilə əvəz edilsin;

**8.2.** 134.11-ci maddə ləğv edilsin.

**9.** 142.1-ci maddədə «uşağı» sözü «uşağın» sözü ilə, «vermə müqaviləsi» sözləri «verilməsinə dair müqavilə» sözləri ilə əvəz edilsin.

**10.** 145.3-cü maddənin birinci cümləsində «rəyi» sözü «fikri» sözü ilə əvəz edilsin.

**11.** 155.3-cü maddəyə birinci halda «vətəndaşı» sözündən sonra «, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxs» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 mart 2021-ci il
№ 280-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10,

maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 347-ci maddə üzrə:

**1.1.** 347.1.1-ci maddəyə «şəxs» sözündən sonra «(Azərbaycan Respublikasının vətəndaşı, habelə qohum (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) olan əcnəbi və vətəndaşlığı olmayan şəxs)» sözləri əlavə edilsin;

**1.2.** 347.3-cü maddəyə «vətəndaşları» sözündən sonra «, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər» sözləri əlavə edilsin.

**2.** 348-ci maddə üzrə:

**2.1.** 348.2.5-ci maddədən «ögey valideynlərinin,» sözləri çıxarılsın və həmin maddəyə «valideynlərin» sözündən sonra «, qəyyumun (himayəçinin)» sözləri əlavə edilsin;

**2.2.** 348.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**«348.2.6.** valideyn himayəsindən məhrum olmuş uşağın övladlığa götürülməsinə dair həmin uşağın yerləşdiyi müəssisənin rəhbərinin rəyi və ya uşağın tərbiyə olunduğu himayədar ailənin yazılı ifadə olunmuş fikri;».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 mart 2021-ci il
№ 281-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» 2016-cı il 15 fevral tarixli 795 nömrəli və «ASAN ödəniş» sistemi haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» 2015-ci il 11 fevral tarixli 463 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4.1-ci bəndə «275.2,» rəqəmlərindən sonra «350.2,» rəqəmləri əlavə edilsin;

**1.2.** 4.9-cu bəndə «97.4,» rəqəmlərindən sonra «97.4-1,» rəqəmləri əlavə edilsin;

**1.3.** aşağıdakı məzmunda 4.53-1-ci bənd əlavə edilsin:

**«4.53-1.** həmin Məcəllənin 350.2-ci maddəsində «orqan (qurum)» dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (svetoforlar və yol nişanlarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;».

**2.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il

11 fevral tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125; 2017, № 2, maddə 175, № 7, maddə 1349, № 11, maddə 2016; 2018, № 8, maddə 1689; 2019, № 4, maddə 660) ilə təsdiq edilmiş «ASAN ödəniş» sistemi haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 7.1.5-1-ci yarımbənddə «57-ci maddəsində» sözləri «57.1—57.5-ci maddələrində» sözləri ilə əvəz edilsin;

**2.2.** 7.5-ci bəndin ikinci cümləsində «çatdırıldığı vaxt barədə məlumat» sözləri «çatdırıldığı vaxt barədə və nəqliyyat vasitəsinin istifadəçisinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 125.2.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında iş üzrə qərarla və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatlar» sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45–47, 122.1 və 125-ci maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları»na uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamənin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.2.** «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 aprel 2021-ci il
№ 1312

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında

İnformasiya texnologiyalarının davamlı təkamülü, informasiyanın və informasiya sistemlərinin qloballaşması dövlətin və cəmiyyətin tərəqqisinə xidmət edən mühüm vasitəyə çevrilmişdir. Azərbaycan Respublikasında da informasiya texnologiyaları əsasında dövlət əhəmiyyətli məsələlərin həlli üçün müvafiq informasiya infrastrukturu yaradılmaqdadır. Həmin infrastrukturun qlobal informasiya şəbəkələrinə, o cümlədən internet şəbəkəsinə daxil edilməsi infrastruktur obyektlərinin kiberhücumların hədəfinə çevrilməsinə səbəb olur.

Dövlətin, cəmiyyətin və vətəndaşların maraqları baxımından vacib hesab edilən məsələlərin həlli məqsədilə yaradılan kritik informasiya infrastrukturuna daxil olan sistem və şəbəkələrin sıradan çıxarılması və ya funksionallığının pozulması ciddi ziyan vurulması ilə nəticələnir ki, bu da kritik informasiya infrastrukturunun kibertəhlükəsizliyinə prioritet məsələ kimi baxılmasını zəruri edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, kritik informasiya infrastrukturunun (mühafizə olunan şəxslərin və qorunan obyektlərin informasiya infrastrukturu istisna olmaqla) təhlükəsizliyinin təmin edilməsi, o cümlədən kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli orqanın funksiyalarını Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, dövlət orqanlarına, dövlətə məxsus olan hüquqi şəxslərə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərə münasibətdə həmin funksiyaları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsinin hüquqi tənzimlənməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təklifləri əsasında üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 aprel 2021-ci il
№ 1315

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

Müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratmışdır. Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar.

İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə Azərbaycan Respublikasının qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. Ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülmüşdür. İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, «Hökumət buludu» (G-Cloud), «Böyükhəcmli məlumatlar» (Big Data), «Ağıllı şəhər» (Smart City) və «Ağıllı kənd» (Smart Village) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır.

Hazırda genişzolaqlı internet şəbəkəsi ölkənin bütün ərazisində tətbiq olunur, o cümlədən özəl sektorun fəaliyyəti üçün səmərəli hesab edilməyən ucqar məntəqələrdə rəqəmsal infrastruktur qurulur, dövlət şirkətləri vasitəsilə müasir xidmətlər təqdim edilir, cəmiyyətdə müvafiq sahədə vərdişlər formalaşdırılır. Dövlət «Böyükhəcmli məlumatların» (Big Data) ölkə üzrə əsas təminatçısı olmaqla yanaşı, mövcud infrastrukturun və məlumatların qorunması üzrə kibertəhlükəsizlik çağırışlarını prioritetləşdirir. Bu sahədə işləyən xidmət operatorları rəqəmsal transformasiya və kibertəhlükəsizlik üçün kritik infrastruktur və məlumat təminatçısı rolunu yerinə yetirirlər.

Təhlillər göstərir ki, hazırkı mərhələdə rəqəmsal xidmət sahələrinin profil üzrə idarə edilməsinin mühüm strateji əhəmiyyəti vardır. Sahəvi rabitə operatorları zəruri infrastruktur və məlumat təminatçısı funksiyasını yerinə yetirərək, rəqəmsal cəmiyyətin, o cümlədən innovasiya nəhənglərinin fəaliyyət göstərdiyi texnologiya bölgələrinin təşəkkülünə mühüm töhfə verir.

Rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti üzrə idarəetmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, kommersiya fəaliyyəti ilə yanaşı, dövlət və ictimai əhəmiyyət daşıyan funksiyaların effektiv həyata keçirilməsi tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, əlaqələndirilməsi və həyata keçirilməsi Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikasında rəqəmsal transformasiya konsepsiyasının layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

**3.1.** tabeliyindəki «Aztelekom» MMC-nin, «Bakı Telefon Rabitəsi» MMC-nin, «Azerbaijan International Telecom» (AzInTelecom)» MMC-nin və «Azərpoçt» MMC-nin fəaliyyətinin ölkənin rəqəmsal transformasiya siyasətinə uyğun olaraq təşkilinə, informasiya-telekommunikasiya şəbəkəsindən dayanıqlı və təhlükəsiz istifadənin təmin edilməsinə, habelə mütərəqqi korporativ idarəetmə prinsiplərinin tətbiqinə və dövlət-özəl sektor tərəfdaşlığının inkişafına dair təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 aprel 2021-ci il
№ 1325

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə hərbi prokurorluq orqanlarının fəaliyyətinin daha səmərəli təşkilini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Aşağıdakı hərbi prokurorluqlar yaradılsın:

**1.1.** Qubadlı Hərbi Prokurorluğu;

**1.2.** Kəlbəcər Hərbi Prokurorluğu;

**1.3.** Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğu.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Qubadlı Hərbi Prokurorluğu, Kəlbəcər Hərbi Prokurorluğu və Ağdam Hərbi Prokurorluğunun yaradılması ilə əlaqədar həmin qurumların müvafiq olaraq Qubadlı, Kəlbəcər və Ağdam şəhərlərində bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədilə tədbirlər görsün;

**2.2.** bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulmuş hərbi prokurorluqların yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddinin artırılmasına dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.3.** Füzuli Hərbi Prokurorluğunun Füzuli şəhərində fəaliyyətinin təşkili üçün onun bina, avadanlıq, rabitə və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi məqsədilə tədbirlər görsün;

**2.4.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 aprel 2021-ci il
№ 2560

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

# Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh olunmasına dair

**7 aprel 2021-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Sumqayıt Şəhər Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Sumqayıt Şəhər Məhkəməsinin hakimi P.Hacıyevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri K.Paşayevanın, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının hakimi R.Abdulovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi O.İsayevin mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Şəhər Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, məhkəmənin icraatında olan cinayət işinin materiallarına görə, T.Mustafayev (həkim neyrocərrah) və R.Hacıyeva (həkim terapevt) 14 fevral 2020-ci il tarixində Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasında növbədə olarkən, saat 19:25-də qəbul şöbəsinə multipli qıcolma ilə müşayiət olunan epileptik statusla daxil olmuş xəstəyə qanunvericiliyə və xüsusi qaydalara müvafiq olaraq kömək etməyə borclu olduqları halda, üzrlü səbəblər olmadan onun vəziyyətini düzgün qiymətləndirməmiş, zərurətlə bağlı diaqnozun təyin edilməsi üçün müvafiq müayinə planı verməmiş və qüsurlu tibbi xidmət göstərmələri nəticəsində xəstənin kəskin işemik xəstəliyindən baş vermiş miokard infarktından ölümünə səbəb olmuşlar.

Hər iki tibb işçisi Cinayət Məcəlləsinin 142.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Cinayət Məcəlləsinin 142.3-cü maddəsinə əsasən, qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Müraciətedən hesab edir ki, Cinayət Məcəlləsinin 142-ci maddəsinin dispozisiyası cinayətin subyektiv cəhətinin müəyyən edilməsində qeyri-müəyyənliyə səbəb olur. Belə ki, şəxsin törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə psixi

münasibəti olmaqla, əqli və iradəvi elementlərin müxtəlif birləşmələrindən asılı olaraq təqsirin qəsd və ehtiyatsızlıq kimi iki forması fərqləndirilir.

Müraciətedənin qənaətinə görə, Cinayət Məcəlləsinin 142-ci maddəsinin mətnindən belə bir nəticəyə gəlmək olar ki, qeyd olunan cinayət tərkibinin subyektiv cəhəti təqsirin qarışıq formasını nəzərdə tutmaqla, tibb işçisinin xəstəyə kömək göstərməməsindən ibarət hərəkətsizliyinə psixi münasibəti birbaşa qəsddə, baş vermiş nəticəyə, yəni şəxsin ölümünə psixi münasibəti isə ehtiyatsızlıqda ifadə olunur. Bu baxımdan cinayətin subyektiv cəhətinin müəyyən edilməsi həmin əmələ görə azadlıqdan məhrum etmə cəzasının təyini ilə əlaqədar cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsində xüsusi əhəmiyyət kəsb edir.

Belə ki, Cinayət Məcəlləsinin 56.1-ci maddəsində azadlıqdan məhrum etmə cəzasının çəkilməsi ilə bağlı cəzaçəkmə müəssisələrinin növünün müəyyən edilməsi üçün məhkəmənin mülahizələrinin hədləri məhdudlaşdırılaraq təqsirin forması (cinayətin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi), əvvəllər azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi, törədilmiş cinayətin kateqoriyası və təyin edilmiş cəzanın müddəti kimi meyarlar təsbit edilmişdir.

Qeyd olunanlara əsasən müraciətedən Cinayət Məcəlləsinin 142.3-cü maddəsində nəzərdə tutulan əmələ görə azadlıqdan məhrum etmə cəzası təyin edilərkən cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsi baxımından həmin maddənin şərh edilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 41-ci maddəsinə uyğun olaraq, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

“İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu tanıyırlar. Bu Paktda iştirak edən dövlətlərin bu hüququ tam həyata keçirmək üçün görməli olduğu tədbirlər sırasına xəstəlik təqdirində hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunması üçün şəraitin yaradılması məqsədilə atılan addımlar daxildir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Calvelli və Ciglio İtaliyaya qarşı iş üzrə 2002-ci il 17 yanvar tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın əsas müddəalarından və demokratik cəmiyyətlərin əsas dəyərlərindən biri olan 2-ci maddəsinin birinci cümləsi (Hər kəsin yaşamaq hüququ qanunla qorunur) dövlətlərin üzərinə nəinki insan həyatını “qəsdən almamaq” öhdəliyini qoyur, eyni zamanda həyatın qorunması üçün lazımi tədbirlərin görülməsini nəzərdə tutur. Bu prinsiplər səhiyyə sahəsində də tətbiq edilir. Beləliklə, göstərilən pozitiv öhdəliklər dövlətlərdən, dövlət və ya qeyri-dövlət tibb müəssisələri tərəfindən pasientlərin həyatının qorunması üçün lazımi tədbirlərin görülməsinə dair müvafiq qaydaların qəbul edilməsini tələb edir. Habelə bu öhdəliklər, tibb işçilərinin nəzarəti altında olan şəxslərin ölümünün səbəblərini müəyyən və təqsirli şəxsləri məsuliyyətə cəlb edə biləcək müstəqil və səmərəli ədalət mühakiməsinin həyata keçirilməsini tələb edir.

Konstitusiya və beynəlxalq hüquqi aktlarda təsbit olunmuş bu prinsiplər daha geniş “Əhalinin sağlamlığının qorunması” haqqında Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır.

Həmin Qanunun 1-ci maddəsinə əsasən, əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti, tibbi-sosial yardımın hamı üçün mümkünlüyü əhalinin sağlamlığının qorunmasının əsas prinsiplərindəndir.

Qanunun 59-cu maddəsinə uyğun olaraq, tibb və əczaçılıq işçiləri öz peşə vəzifələrini lazımi səviyyədə yerinə yetirmədikdə, sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması hallarında qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

Əhalinin sağlamlığının qorunması sahəsində xüsusi ictimai münasibətlər qeyd edilən Qanun və digər normativ hüquqi aktlarla tənzimlənir və müvafiq qaydaların pozulması nəticəsindən asılı olaraq mülki, inzibati və cinayət məsuliyyətinə səbəb olur.

Bu sahədə müvafiq məsuliyyətə səbəb olan əməllərdən biri də, tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsinin qanunvericiliklə müəyyən edilmiş nəticələrə səbəb olmasıdır. Belə ki, Cinayət Məcəlləsinin 142-ci maddəsi ilə qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi nəticəsində onun sağlamlığına az ağır, ağır zərər vurmağa, həmçinin ölümünə səbəb olmağa görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələnin həlli üçün, ilk növbədə, Cinayət Məcəlləsinin 142-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin ictimai təhlükəliliyi və onun tərkib əlamətləri nəzərdən keçirilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə,

habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 17 mart tarixli Qərar).

Cinayət Məcəlləsinin 142-ci maddəsində göstərilən əməlin ictimai təhlükəliliyi tibb işçisinin öz vəzifəsini icra etməməsi nəticəsində tibbi yardıma ehtiyacı olan şəxsin həyatı və sağlamlığı üçün təhlükə yaranmasından ibarətdir.

Həmin maddənin obyektini insan sağlamlığının və həyatının təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir. Bu cinayətin obyektiv cəhəti tibb işçisinin qanunvericiliyə və ya xüsusi qaydalara uyğun olaraq xəstəyə kömək göstərmək vəzifəsinin mövcudluğunu; zərərçəkmiş şəxsin tibbi yardıma ehtiyacının olmasını; tibb işçisinin üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərməməsini; zərərçəkmiş şəxsin sağlamlığına zərər vurulması və ya onun ölümünü; tibb işçisinin hərəkətsizliyi ilə zərərçəkmişin sağlamlığına zərər vurulması və ya onun ölümü arasında səbəbli əlaqənin mövcudluğunu ehtiva edir.

Qeyd edilməlidir ki, bu əmələ görə cinayət məsuliyyətinin yaranması üçün tibb işçisinin xəstəyə kömək göstərmək imkanı olmalıdır. Cinayət hüquq nəzəriyyəsində belə imkanı məhdudlaşdıran müxtəlif səbəblər göstərilmişdir. Məsələn, subyektiv və obyektiv xarakterli hallar (həkimin dar ixtisasa sahib olması, həkimin özünün səhhətində problemlərin yaranması və s.); vəzifələrin rəqabəti (bir neçə xəstənin eyni zamanda köməyə ehtiyacının olması); müxtəlif mənşəli kütləvi aksiyalar (mitinq, küçə yürüşü və s.); təbii və texnogen hadisələr (zəlzələ, tufan və s.).

Bu cinayətin subyekti tibbi yardım göstərməyə borclu olan tibb işçisidir. Məhz bu məqam, yəni cinayətin xüsusi subyektinin olması, bu subyektin xüsusi bilik, bacarıq və təcrübəyə sahib olması və bundan irəli gələrək öz hərəkətsizliyinin nəticələrini qabaqcadan təxmin edə bilməsi hüquq tətbiqetmədə bu cinayətin subyektiv cəhətinin müəyyən edilməsində suallar yaradır.

Göstərilən məsələyə aydınlıq gətirilməsi məqsədi ilə Konstitusiya Məhkəməsinin Plenumu cinayətin subyektiv cəhətinin əsas əlaməti olan təqsir anlayışını təhlil etməyi zəruri hesab edir.

Təqsir dedikdə, şəxsin törətdiyi ictimai təhlükəli əmələ və onun nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibəti nəzərdə tutulur. Təqsirsizlik prezumpsiyası və təqsirə görə məsuliyyət prinsipləri ilə təqsir cinayət tərkibinin mütləq elementi kimi təsbit edilir və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin əsasını təşkil edir. Belə ki, Cinayət Məcəlləsinin 7-ci maddəsinə uyğun olaraq, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Təqsir şüur və iradə kimi psixoloji elementlərin məcmusudur və bu elementlər müvafiq olaraq ictimai təhlükəli davranışın əqli və iradəvi tərəflərini təşkil edir. Əqli meyar ondan ibarətdir ki, təqsirli şəxs əməlin ictimai təhlükəliliyini və belə əməlin törədəcəyi ictimai təhlükəli nəticələri dərk edir. İradi element cinayətin subyektinin şüurunda baş verən iradəvi proseslərlə səciyyələnir: şəxs ictimai təhlükəli nəticələrin baş verməsini arzu edir və ya şüurlu surətdə onlara yol verir, yaxud yüngül fikirliliklə ictimai təhlükəli nəticələrin qarşısının alınmasına ümid edir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, cinayət qanunvericiliyində təqsirin forması bilavasitə Məcəllənin Xüsusi hissəsindəki normanın dispozisiyasında nəzərdə tutula və ya normanın mətninin şərh edilməsi yolu ilə müəyyən edilə bilər.

Təqsirin formasının müəyyən edilməsi - yalnız qəsdən törədilmiş əməllərin cinayət məsuliyyətinə səbəb olduğu hallarda müvafiq məsuliyətin yaranıb-yaranmaması (Cinayət Məcəlləsinin 128-ci maddəsi), obyektiv cəhətdən oxşar cinayətlərin fərqləndirilməsi (əməlin Cinayət Məcəlləsinin 186 və ya 187-ci maddəsi ilə tövsif edilməsi), cinayətlərin təsnifatının müəyyən edilməsi (Cinayət Məcəlləsinin 15-ci maddəsinə müvafiq olaraq yalnız qəsdən törədilmiş cinayətlər xüsusilə ağır cinayətlər hesab olunur), cəzaçəkmə müəssisəsinin növünün təyin edilməsi (Cinayət Məcəlləsinin 56.1-ci maddəsi) kimi məsələlərin həlli üçün zəruridir.

Cinayət qanunvericiliyi təqsirin iki - qəsd və ehtiyatsızlıq formalarını fərqləndirir. Belə ki, Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən, əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır. Ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır.

Birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) qəsdən törədilmiş cinayət sayılır. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə

yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur. Cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına özünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur (Cinayət Məcəlləsinin 25 və 26-cı maddələri).

Qeyd edilməlidir ki, subyektiv cəhətin müstəqil əlamətləri kimi motiv və məqsəd yalnız qəsdən törədilən cinayətlər zamanı, yəni qanunla qorunan ictimai dəyər, maraq və ya sərvətlərə zərər vurmaq meyli və niyyətinin olduğu hallarda mövcud olur. Təqsirin ehtiyatsızlıq formasında isə şəxsin niyyəti təhlükəli nəticələrin baş verməsinə yönəlmir. Ehtiyatsızlığın hər iki növündə cinayətin motiv və məqsədi deyil, müvafiq nəticələrin baş verməsinə səbəb olmuş davranışın motiv və məqsədləri mövcud ola bilər. Burada davranışın motivi və məqsədi ilə baş vermiş ictimai təhlükəli nəticə arasında daxili əlaqə olmur.

Cinayət hüquq nəzəriyyəsində təqsirin qarışıq (ikili) forması da mövcuddur. Qarışıq təqsir ilə törədilən cinayət zamanı şəxsin ictimai təhlükəli əmələ münasibəti qəsd, bu əməlin ictimai təhlükəli nəticələrinə münasibəti isə ehtiyatsızlıq formasında ifadə olunur.

İkili təqsir forması ilə törədilən cinayətlər obyektiv cəhətin quruluşundan asılı olaraq iki qrupa bölünür: iki nəticəyə səbəb olan maddi tərkibli cinayətlər; ehtiyatsızlıqdan daha ağır nəticələrə səbəb olmuş formal tərkibli cinayətlər.

Cinayət Məcəlləsinin Ümumi hissəsində qarışıq (ikili) təqsir müstəqil təqsir forması kimi müəyyən olunmasa da, Məcəllənin Xüsusi hissəsi ilə nəzərdə tutulan bəzi cinayət tərkibləri onların qarışıq təqsir forması ilə törədilməsini söyləməyə əsas verir.

Məsələn, Cinayət Məcəlləsinin 126.3-cü maddəsi iki nəticəyə səbəb olan maddi tərkibli qarışıq təqsir formasında törədilən cinayətdir. Bu cinayəti törədən şəxs qəsdən sağlamlığa ağır zərər vurmaqla (126.1), ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olur (126.3). Beləliklə, bir hərəkətlə iki nəticə - qəsdən sağlamlığa ağır zərər vurulur və ehtiyatsızlıqdan ölüm baş verir. Bu nəticələrdən hər biri müstəqil cinayət tərkibini yaradır.

Qarışıq təqsir forması ilə törədilən ehtiyatsızlıqdan daha ağır nəticələrə səbəb olan formal tərkibli cinayətlərə misal olaraq Cinayət Məcəlləsinin 146-cı maddəsini göstərmək olar. Həmin Məcəllənin 146.1-ci maddəsinə əsasən, psixi cəhətdən sağlam olan şəxsi bilə-bilə psixiatriya xəstəxanasına yerləşdirmə əməli formal tərkibli cinayət olmaqla hər hansı nəticələrin baş verib-verməməsindən asılı olmayaraq məsuliyyətə səbəb olur. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda fərqli ictimai təhlükəli nəticələr baş verir (Cinayət Məcəlləsinin 146.3-cü maddəsi). Beləliklə, bir hərəkət nəticəsində iki ictimai təhlükəli əməl törədilir: psixiatriya xəstəxanasına yerləşdirmə - qəsdən, zərərçəkmiş şəxsin ölümü və ya digər ağır nəticələr isə ehtiyatsızlıqdan baş verir.

Qarışıq təqsir forması vasitəsilə qanunverici qəsdən cinayət törətmiş şəxsin bir hərəkətinin (hərəkətsizliyinin) ehtiyatsızlıqdan daha ağır nəticələrə səbəb olmasına görə onun cinayət məsuliyyətini ağırlaşdırır.

Qarışıq təqsir forması ilə törədilən cinayətlər özünəməxsus quruluşa malikdir. Qanunverici bir tərkibdə biri qəsdən, o biri isə ehtiyatsızlıqdan törədilən iki tərkibi birləşdirir. Belə qarışıq təqsir formalı tərkibə malik cinayətlər bütövlükdə qəsdən törədilən cinayət hesab olunur. Belə ki, ehtiyatsızlıqdan baş verən ictimai təhlükəli nəticələr məhz qəsdən törədilən ictimai təhlükəli əməlin nəticəsində baş verir.

Bununla belə, qarışıq təqsir forması ilə törədilən cinayəti yaradan iki əməldən hər biri ayrılıqda da cinayət xarakterini itirmir. O da qeyd edilməlidir ki, qarışıq təqsir forması ilə törədilən cinayətin tərkib hissəsi olan əməllərdən hər biri öz obyektinə malikdir. Odur ki, qarışıq təqsir forması ilə törədilən cinayətlər çoxobyektli cinayətlərdir.

Beləliklə, bir hərəkətlə bir ictimai təhlükəli nəticəyə səbəb olan maddi tərkibli cinayət qarışıq təqsir forması ilə törədilə bilməz. Bu zaman cinayət ya qəsdən, ya da ehtiyatsızlıqdan törədilmiş olur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 142.3-cü maddəsi ilə nəzərdə tutulmuş əməl birobyektli maddi tərkibli cinayət olmaqla, bir ictimai təhlükəli nəticəyə səbəb olduğundan bir təqsir forması ilə törədilən cinayətdir. Belə ki, maddi tərkibli cinayətin obyektiv cəhətini süni olaraq bölərək şəxsin əvvəlcə hərəkətə (hərəkətsizliyə), sonra isə nəticəyə psixi münasibətinin müəyyən edilməsi ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər. Burada nəzərə alınmalıdır ki, öz-özlüyündə tibb işçisinin xəstəyə kömək göstərməməsi cinayət məsuliyyətinə səbəb olmur. Cinayət məsuliyyətinin yaranması tibb işçisinin hərəkətsizlikdə ifadə olunan əməlinin xəstənin sağlamlığına az ağır, ağır zərər vurulması və ya xəstənin ölümü kimi nəticəyə səbəb olması ilə şərtləndirilir.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 24.2-ci maddəsinə görə, ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır.

Cinayət Məcəlləsinin 142-ci maddəsinin, o cümlədən 142.3-cü maddəsinin dispozisiyasında isə tibb işçisinin xəstəyə kömək göstərməməsi nəticəsində baş vermiş zərərçəkmişin ölümünə psixi münasibətinin ehtiyatsızlıqla ifadə olunmasına dair hər hansı müddəa nəzərdə tutulmamışdır.

Bununla belə, Cinayət Məcəlləsinin şərh edilən 142-ci maddəsinin məzmunu, həmin maddənin sanksiyası və bütövlükdə Məcəllədə nəzərdə tutulmuş xüsusi qaydaların pozulması ilə törədilən maddi tərkibli cinayətlərin əlaqəli təhlili belə nəticəyə gəlməyə əsas verir ki, qeyd olunan cinayət əməli subyektiv cəhətdən təqsirin ehtiyatsızlıq formasında törədilmiş olur. Bu zaman həmin maddənin dispozisiyasında "ehtiyatsızlıqdan" sözünün işlədilməməsi bu cinayətin hüquqi təbiətini dəyişən hal kimi qiymətləndirilə bilməz.

Tibb işçisi üzrlü səbəblər olmadan tibbi yardımın göstərilməsindən imtina etməklə və ya yayınmaqla xəstənin sağlamlığına zərər vurmasını ehtimal edir, lakin əsassız olaraq özünə güvənərək bunun qarşısını ala biləcəyini düşünür və ya öz hərəkətsizliyinin nəticələrini qabaqcadan ehtimal etmir, halbuki lazımi diqqət göstərildiyi təqdirdə belə nəticələri qabaqcadan görə bilərdi.

Belə ki, bu əməl qəsdən törədildiyi halda, yəni tibb işçisi köməyə ehtiyacı olan şəxsə münasibətdə ağır nəticələrin baş verməsini arzu edirsə və ya şüurlu surətdə buna yol verirsə və bu məqsədlə müvafiq tibbi yardımı göstərmirsə, yaranan nəticələrdən asılı olaraq bu əməl Cinayət Məcəlləsinin 127, 126 və ya 120-ci maddələrində nəzərdə tutulan cinayət məsuliyyətini yaratmış olar.

Bu baxımdan, həkim nəzarəti altında olan şəxsin sağlamlığına zərər vurulduqda və ya öldükdə təqsirkarın niyyətinin nəyə yönəlməsi, əməlin motiv və məqsədi, o cümlədən təqsirkarın və zərərçəkmiş şəxsin qarşılıqlı münasibətləri, təqsirkarın hadisədən sonrakı hərəkətləri və s. araşdırılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, tibb işçisi xidməti vəzifələrinin yerinə yetirməsi ilə əlaqədar Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) və 131.2-ci (ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma) maddələrində nəzərdə tutulmuş cinayətlərin də subyekti ola bilər. Cinayət Məcəlləsinin 142-ci maddəsində göstərilən əməldən fərqli olaraq, bu zaman tibb işçisinin əməli hərəkətdə ifadə olunur. Tibb işçisi qanunvericilik və ya xüsusi qaydalar ilə üzərinə qoyulan vəzifələri yerinə yetirir, lakin müəyyən subyektiv faktorlara görə (dərman dozasının aşılması, gigiyena qaydalarının pozulması, konsilium məsləhətlərinə əməl etməmə və s.) onun hərəkətləri ictimai təhlükəli nəticəyə səbəb olur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, tibb işçisinin xəstənin sağlamlığına zərər vurması və ya ölümü ilə nəticələnən əməli tövsif olunarkən, bu əməlin hərəkət və ya hərəkətsizliklə törədilməsinə xüsusi diqqət yetirilməlidir.

Qeyd edilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu qəbildən olan cinayət işləri üzrə şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmalı, təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyinin nədə ifadə olunması məhkəmə aktlarında göstərilməli və xüsusi qayda pozuntuları ilə baş vermiş nəticə arasında səbəbli əlaqənin mövcudluğu müəyyən edilməlidir.

Beləliklə, Cinayət Məcəlləsinin 142-ci maddəsində nəzərdə tutulmuş əməl subyektiv cəhətdən təqsirin ehtiyatsızlıq formasında törədildiyindən, bu maddə ilə təqsirli bilinən şəxslər üçün cəzaçəkmə müəssisəsinin növü həmin Məcəllənin 56-cı maddəsinə müvafiq olaraq müəyyən edilir.

Göstərilənlərə əsasən, eləcə də Cinayət Məcəlləsinin təqsirə görə məsuliyyət və ədalət prinsiplərini rəhbər tutaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

– Cinayət Məcəlləsinin 142-ci maddəsinin mənasına görə zərərçəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, habelə ölümünə səbəb olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi təqsirin ehtiyatsızlıq formasında törədilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin mənasına görə zərərçəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, habelə ölümünə səbəb olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi təqsirin ehtiyatsızlıq formasında törədilir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair**

**23 aprel 2021-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatının Elmi-analitik sektorunun müdiri M.Məmmədovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin Hərbi qanunvericilik sektorunun müdiri E.Əsgərovun, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının hakimi Ə.Novruzovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Cinayətin subyekti olan yetkinlik yaşına çatmayanlara təyin edilə bilən cəza növlərindən biri ictimai işlərdir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsinin tələbinə görə, ictimai işlər səksən saatdan üç yüz iyirmi saatadək müddətə təyin olunur və yetkinlik yaşına çatmayan məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarda yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – Cəzaların İcrası Məcəlləsi) 35.1-ci maddəsinə görə, məhkumlar ictimai işləri yerinə yetirdikləri yerin müəssisədaxili intizam qaydalarına riayət etməli, əməyə vicdanla yanaşmalı, onlar üçün müəyyən olunmuş yerlərdə və hökmdə müəyyən olunmuş müddətdə işləməli, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli və yaşayış yerini dəyişdikdə bu barədə icra məmuruna məlumat verməlidirlər.

Sorğu onunla əsaslandırılmışdır ki, Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə müvafiq olaraq, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsində isə on beş yaşınadək şəxslərin təhsilindən və əsas işindən asudə vaxtlarında bacardıqları işlərin icrasına cəlb edilməsi nəzərdə tutulmuşdur.

Sorğuverənin qənaətinə görə, ictimai işlər cəzasının

işləməsi qadağan olunan 15 yaşınadək şəxslərə münasibətdə tətbiqi onların azadlıq hüququnun məhdudlaşdırılmasına, sağlamlığının qorunması hüququnun, eləcə də bu kateqoriya şəxslərin əmək fəaliyyətinə cəlb edilməsinin qadağan olunması ilə bağlı Konstitusiya normalarının pozulmasına səbəb ola bilər. Halbuki, Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrində göstərilir ki, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Sorğuda həmçinin qeyd olunur ki, Cinayət Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət nəfinə tutulur.

İslah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər (Cəzaların İcrası Məcəlləsinin 40 və 41.1-ci maddələri).

Sorğuverən hesab edir ki, 14 yaşından 15 yaşınadək olan yetkinlik yaşına çatmayanların işləməsi və onlara ictimai işlər və əsas iş yeri üzrə çəkilən islah işləri növündə cəzaların tətbiqini nəzərdə tutan Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri hüquqa və haqq-ədalət meyarlarına cavab verməməklə Konstitusiyanın 17-ci maddəsinin V hissəsi, eləcə də digər qeyd olunan normaların tələbləri ilə ziddiyyət təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrində göstərilmişdir ki, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Uşaq hüquqları haqqında" Qanun) 1-ci maddəsinə uyğun olaraq, uşaqların hüquq və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir. Konstitusiyaya uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir ("Uşaq hüquqları haqqında" Qanunun 4 və 5-ci maddələri).

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi (bundan sonra – Əmək Məcəlləsi) işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzimləyir. Həmin Məcəllənin 46-cı maddəsinin 4-cü hissəsinə görə, əmək müqaviləsi on beş yaşına çatmış fiziki şəxslərlə bağlanıla bilər. 15 yaşına çatmamış şəxslərlə bağlanılan əmək müqaviləsi etibarsız sayılır və belə müqaviləni bağlayan işəgötürən bu Məcəllənin 312-ci maddəsinə uyğun olaraq inzibati məsuliyyətə cəlb edilir. On beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır. Həmçinin Əmək Məcəlləsinin 249-cu maddəsində göstərilmişdir ki, yaşı 15-dən az olan şəxslərin işə qəbul edilməsinə yol verilmir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğusunda qaldırılan məsələlər vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əhəmiyyət kəsb edərək insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmişdir. Belə ki, qeyd olunan məsələlərə aydınlıq gətirilməsi, həmçinin cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərin cəmiyyətə yenidən inteqrasiyasına, "risk altında" olan uşaqlara dair alternativ cəza növlərinin tətbiqinin təkmilləşdirilməsinə xidmət etmiş olar.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələnin düzgün həll edilməsi üçün cinayət qanunvericiliyinə müvafiq olaraq cəza institutunun mahiyyəti və məqsədinin açıqlanmasını, eləcə də yetkinlik yaşına çatmayanlar barəsində cinayət məsuliyyətinin və cəzanın xüsusiyyətlərinin nəzərdən keçirilməsini zəruri hesab edir.

Cinayətkarlığa qarşı tətbiq edilən cinayət hüquqi təsir vasitələrinin səmərəli olması onların hüquq pozuntusu törətmiş şəxsin fərdi xüsusiyyətlərinə, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinə, xarakterinə mütənasib olması, habelə məsuliyyətin və cəzanın fərdiləşdirilməsi ilə sıx bağlıdır. Cəza cinayətin hüquqi nəticəsi olmaqla fərdin təqsirli olaraq törətdiyi ictimai təhlükəli əmələ görə dövlət tərəfindən kəskin mənfi münasibətin göstəricisi kimi çıxış edir.

Cinayət Məcəlləsinin 41-ci maddəsinə əsasən, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində Cinayət Məcəlləsi ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Göstərilən normalardan aydın olur ki, cəza törədilmiş cinayətin hüquqi nəticəsi olmaqla cinayət qanunu ilə nəzərdə tutulan hallarda və hədlərdə təqsirkara qarşı yönəldilir və onun həmin cəzanın icrası ilə əlaqədar məhrumiyyətlərə məruz qalması cəzanın məqsədlərinə nail olunmasına xidmət edir (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan

Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsinin şərh edilməsinə dair" 2012-ci il 12 yanvar tarixli Qərarı).

Cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması üçün qanunla müəyyən olunmuş yaş həddinə çatma və anlaqlılıq zəruri şərt hesab olunur.

Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, oğurluğa, soyğunçuluğa, quldurluğa və s. əməllərə görə cinayət məsuliyyətinə cəlb edilir. İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman bu Məcəllədə nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlər və həmin tədbirlərin tətbiqi qaydası müvafiq qanunla müəyyən edilir (Cinayət Məcəlləsinin 20-ci maddəsi).

Göründüyü kimi, Cinayət Məcəlləsində, bir qayda olaraq, şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması üçün cinayət törədərkən on altı yaşına çatması tələb olunur. Bir sıra hallarda isə qanunverici törədilən cinayətin xarakterini, qəsdən törədilməsini, belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətinə malik olmanı və digər halları nəzərə alaraq ayrı-ayrı cinayətlərə görə cinayət məsuliyyətinə cəlb etmək üçün zəruri yaş həddini on dörd yaş hesab edir.

Cinayət Məcəlləsinin 84-cü maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Qanunverici 14 yaşından 18 yaşına qədər olan şəxsləri yetkinlik yaşına çatmayanlar qrupuna aid edərkən onların kifayət qədər əqli yetişkənliyə çatmadıqlarını və həyat təcrübələrinin az olmasını nəzərə almışdır. Bu səbəbdən də cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların törətdiyi cinayətə görə məsuliyyətin həlli və cəza təyini zamanı onların həyat və tərbiyə şəraitinin, psixi inkişaf səviyyəsinin, onun şəxsiyyətinin digər xüsusiyyətlərinin və kənar şəxslərin ona təsirinin nəzərə alınmasını məcburi sayır.

Qanunverici cinayətin subyekti qismində çıxış edən yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının aparılmasının xüsusi qaydalarını, habelə bu kateqoriya şəxslərə münasibətdə tətbiq oluna biləcək məhdud sayda cəza növləri nəzərdə tutmaqla onların bu sahədə hüquq və azadlıqlarının təmin edilməsinə xüsusi diqqətlə yanaşmışdır. Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, uşaqların müdafiəsi siyasəti Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir. Uşaqların hüquq və azadlıqlarının qorunması, uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, onların qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir.

Bu baxımdan Cinayət və Cinayət-Prosessual Məcəllələrində, eləcə də "Uşaq hüquqları haqqında" Qanunda cinayət icraatı qaydalarının uşaqlara tətbiqinin ayrıca xüsusiyyətləri nəzərdə tutulmuşdur. Adıçəkilən Qanunun 42-ci maddəsinə görə, uşaqlar barəsində məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının xüsusiyyətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir. Uşaqların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır. Uşaqlar barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız onlara az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. Uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir.

Cinayət Məcəlləsinin 85-ci maddəsi yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilən cəza növlərini məhdudlaşdıraraq cəmi 5 cəza növü (cərimə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və müəyyən müddətə azadlıqdan məhrum etmə) müəyyən etmiş və hər bir cəza üçün qısaldılmış müddət və ya azaldılmış məbləğlər nəzərdə tutmuşdur.

Qeyd olunmalıdır ki, yetkinlik yaşına çatmayanlara təyin edilə biləcək cəza növləri müəyyən edilərkən onların əqli və iradəvi xüsusiyyətlərinin, cinayətin törədilməsi hallarının, eləcə də cəmiyyətdə olan faydalı roluna uyğun olaraq yenidən inteqrasiyasına yardım etmiş olmasının nəzərə alınması tələbi beynəlxalq hüquq normalarından da irəli gəlir.

Belə ki, bu kateqoriya şəxslərin törətdiyi cinayətə görə tətbiq edilən cəza növləri və tərbiyəvi xarakterli məcburi tədbirlər Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 29 noyabr 1985-ci il tarixli "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydaları" (Pekin Qaydaları) və "Uşaq hüquqları haqqında" 20 noyabr 1989-cu il tarixli Konvensiyası ilə müəyyən edilir. Göstərilən beynəlxalq aktlarda məhz yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının xüsusiyyətlərini müəyyən edən, onların hüquq və azadlıqlarına təminat verən bir sıra əsas prinsiplər və qaydalar əks etdirilmişdir.

"Uşaq hüquqları haqqında" Konvensiyanın 40-cı maddəsinə müvafiq olaraq, iştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hislərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alır.

Beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşmış yeni yanaşmaya görə yetkinlik yaşına çatmayan şəxs cinayəti işləmiş kimi deyil, cinayəti törədəcək şəraitə düşürülmüş şəxs kimi qiymətləndirilir. Bu yanaşma uşağı bir cinayətkar olaraq görmür və cinayətə yönəldildiyini qəbul etməklə, onu da cinayətin müəyyən mənada qurbanı kimi

qəbul edir. Lakin bu vəziyyət cinayət törətmiş uşağın cəzasız qalacağı mənasına gəlməməli, tətbiq ediləcək sanksiya uşağın vəziyyətinə və törətdiyi əmələ uyğun və mütənasib olmalıdır.

Sorğuda qaldırılan məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, yetkinlik yaşına çatmayanlara təyin edilən digər cəza növləri kimi ictimai işlər cəzası da tətbiq edilərkən bu cəzanın onların psixoloji vəziyyətinə, cəmiyyətdəki inkişafına, yenidən tərbiyə edilməsinə təsiri və həmin şəxslərin ləyaqət və mənlik hislərini zədələməməsi kimi amillər diqqətlə nəzərdən keçirilməli və bu sahədə mövcud qanunvericilik aktlarının tələblərinə əməl edilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nın 4-cü bəndində barəsində ictimai işlər tətbiq edilən yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin və belə işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsinin xüsusiyyətləri göstərilmişdir. Bu bəndə görə, barəsində ictimai işlər tətbiq edilən yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin keçiriləcəyi yerlər müəyyənləşdirilən zaman onların təhsilindən və ya əsas işindən sonra asudə vaxtlarında yerinə yetirə biləcəyi işlər əsas götürülməli, onların yaş dövrünə uyğun psixoloji cəhətləri nəzərə alınmalıdır. Yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyənləşdirilərkən onların təhsili və ya əsas işi, cinsi mənsubiyyəti, yaş dövrünə uyğun fiziki sağlamlığı və psixoloji cəhətləri, həyatı qavrama baxışları nəzərə alınır. İctimai işlərin növləri və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyən edilən zaman kənardan hamının sərbəst şəkildə görə bilmədiyi, həmçinin belə işlərin icrasının digər şəxslər tərəfindən foto və video çəkilişlərinin aparılması mümkün olmadığı işlərə və iş yerlərinə üstünlük verilməlidir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 24 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İctimai işlər növündə cəzanın və inzibati tənbehin icrası Qaydaları"na əsasən, ictimai işlərin icrası şəxsin yaşadığı ərazinin yerli icra hakimiyyəti orqanının müəyyən etdiyi ictimai yerlərdə həyata keçirilir. İctimai işlər növündə cəzanın və inzibati tənbehin məqsədlərinə barəsində ictimai işlər tətbiq edilmiş şəxsin ictimai faydalı əməkdə iştirakı vasitəsilə nail olunur. İctimai işləri şəxsin yaşadığı yerin icra məmuru icra edir.

Beləliklə, barəsində ictimai işlər tətbiq edilən şəxslərin cəlb ediləcəyi işlərin növünün və icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi, həmin şəxslərin ictimai işlərə göndərilməsi, belə işlərin təşkili və nəzarət tədbirləri qüvvədə olan cinayət, cəzaların icrası qanunvericiliyi normalarına və müvafiq "Qaydalara" uyğun olaraq həyata keçirilir. Yetkinlik yaşına çatmayan şəxslərin qanunvericilik normalarına və beynəlxalq hüquqi aktlara zidd olaraq məcburi əmək fəaliyyətinin icrasına yönəldilməsi onların psixoloji və mənəvi inkişafına, o cümlədən cəmiyyətdə formalaşmasına mənfi təsir göstərə bilər.

Qanunverici 14 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxsin ictimai işlərə cəlb edilməsini mümkün hesab etməklə onlara münasibətdə digər cəza növlərinə alternativ olaraq ictimai işləri daha yüngül cəza növü kimi nəzərdə tutmuşdur. Xüsusilə vurğulanmalıdır ki, ictimai işlər növündə cəza öz təbiətinə görə islah işləri növündə cəzadan fərqli olaraq əmək hüquq münasibətlərinin əlamətlərini tam şəkildə daşımayaraq cəzaların icrası münasibətlərinin dairəsinə daxildir.

Əmək hüquq münasibəti isə əmək müqaviləsi əsasında yaranan və əmək hüquq normaları ilə tənzimlənən ictimai münasibətdir. Onun bir tərəfi – işçi müəssisədaxili intizam qaydalarına tabe olmaqla əmək müqaviləsi üzrə şərtləndirilmiş əmək funksiyasını şəxsən yerinə yetirməyi öhdəsinə götürür, digər tərəfi – işəgötürən isə işçiyə iş təqdim etməyə, sağlam və təhlükəsiz əmək şəraitini təmin etməyə və onun əməyini ödəməyə borcludur.

Əmək Məcəlləsinin 3-cü maddəsinə görə, işçi – işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsdir. Əmək müqaviləsi (kontraktı) işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Əmək müqavilələri sərbəst bağlanır. Əmək münasibətləri yaratmayan və ya yaratmaq istəməyən heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz (Əmək Məcəlləsinin 42-ci maddəsi).

Beləliklə, əmək münasibətləri muzdla, ödənişlə, işçinin mövcud əmək kollektivinə daxil edilməsi zərurəti (mövcud olduğu halda), eləcə də işin şəxsi icrası zərurəti ilə xarakterizə olunan sosial münasibətlərdir. Məhz bu münasibətlər əmək hüququ predmetinin əsasını təşkil edir.

Məhkumların ictimai işlərə cəlb edilməsi halında isə əmək münasibətlərinin vacib əlamətləri mövcud olmur. Belə ki, cəza-icra münasibətləri əsasında məhkumlar tərəfindən müəyyən işin yerinə yetirilməsi zamanı yaranan əmək münasibətlərinin əmək qanunvericiliyinin predmetinə aid edilməsinə imkan verməyən zəruri ünsürü qarşılıqlı razılaşmanın – əmək müqaviləsinin mövcud olmamasıdır.

Cəza-icra münasibətləri əsasında yaranan əmək münasibətlərindən fərqli olaraq, əmək müqaviləsi üzrə yaranmış əmək münasibətləri könüllü əməyi ehtiva edir və bu müqavilə əsasında işçinin Əmək Məcəlləsinin 9-cu maddəsində qeyd olunan sərbəst surətdə ixtisasına, sənətinə, peşəsinə uyğun əmək fəaliyyəti növü və iş yeri seçərək əmək müqaviləsi bağlamaq, əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək, qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əmək haqqı almaq və bir çox digər əsas hüquqları mövcuddur.

Konstitusiya Məhkəməsinin Plenumu cəza-icra münasibətlərinin subyektiv tərkibini, vaxt intervalını, əhatə etdiyi dövr və münasibətlərin xarakterini əsas götürərək vurğulayır ki, məhkəmə tərəfindən ittiham hökmü çıxarıldıqda dövlət və məhkum arasında yaranan əmək münasibətləri cəza-icra münasibətlərinə aid olduğundan, Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə yetkinlik yaşına çatmayanlara ictimai işlər cəzasının tətbiq edilməsini nəzərdə tutan qanunvericilik normaları arasında ziddiyyət yaranmır. Belə ki, 15 yaşına çatmamış uşaqların işə götürülməsinin qa-

dağan olunmasını nəzərdə tutan normalar əmək hüququ baxımından bütün əlamətləri mövcud olan əmək münasibətlərini ehtiva edir.

Sorğuda qaldırılan digər məsələ yetkinlik yaşına çatmayanlara təyin edilən cəza növlərindən biri olan islah işləri cəzasının 15 yaşınadək şəxslərə tətbiq edilməsinin qanunvericiliyə zidd olması ilə bağlıdır. Cinayət Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət nəfinə tutulur.

Cəzaların İcrası Məcəlləsinin 40 və 41-ci maddələrinə müvafiq olaraq, islah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər.

Qeyd olunmalıdır ki, Cinayət və Cəzaların İcrası Məcəllələrinin islah işləri ilə əlaqədar normaları əmək qanunvericiliyinə göndəriş edərək, bu cəza növünün tətbiqi üçün məhkumun iş yerinin olmasını zəruri hesab edir.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 8-ci hissəsinə əsasən, iş yeri – işçinin haqqı ödənilməklə vəzifəsi (peşəsi) üzrə əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdiyi yerdir.

Bu baxımdan qüvvədə olan qanunvericiliyə uyğun olaraq, 15 yaşınadək şəxslərin əmək münasibətlərinə girməsinə yol verilmədiyindən, islah işləri növündə cəza yalnız 15 yaşı tamam olan və ya daha çox yaşı olan yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilə bilər.

Eyni zamanda Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işlərinə baxılarkən qanunvericiliyin tələblərinə uyğun olaraq onları cinayət məsuliyyətinə cəlb etmədən və ya cəzadan azad etməklə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edərək islah olunmalarının mümkünlüyü məsələsi hər bir halda araşdırılmalıdır. Belə ki, Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq, yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. Həmçinin böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etməyə görə məhkum edilmiş yetkinlik yaşına çatmayan müvafiq tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə cəzadan azad oluna bilər (Cinayət Məcəlləsinin 89.1-ci maddəsi).

Qeyd olunan alternativ tədbirlərin tətbiq edilməsində məqsəd cinayət əməli törətmiş yetkinlik yaşına çatmayan şəxsdə şəxsi məsuliyyət hissini inkişaf etdirərək onu cəmiyyətə qaytarmaq və cəmiyyətdə faydalı rol oynamaqla uşağın düzgün inkişafına kömək etməkdir. Cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların islah olunması, daha ağır cəzaların tətbiqinin qarşısının alınması, onlar tərəfindən törədilən cinayətlərin residiv müəyyən edilərkən nəzərə alınmaması, yetkinlik yaşına çatmamanın cəzanı yüngülləşdirən hal olması kimi qaydalara əsaslanır. Yetkinlik yaşına çatmayan şəxsə təyin edilən cəzanın əsas məqsədi onun cəzalandırılması deyil, günahını dərk etməsi və gələcəkdə hüquqazidd əməllər törətməsinin qarşısının alınması, uşağın olduğu mühitdən çıxarılaraq qorunması, cinayət törətmənin həyat tərzinə çevrilməsinin qarşısının alınması, yəni uşağın sağlamlaşdırılmasıdır. Bu cür cəzalandırma hüquq və qanuni maraqlarının maksimum müdafiəsi və cəmiyyətə yenidən qazandırmaq məqsədi ilə onların fərdi profilaktik tərbiyəsinə yönəlmişdir. Belə vəziyyətdə dövlət, inancları tam formalaşmamış yetkinlik yaşına çatmayanların inkişafı və əməllərini vaxtında dərk etməsi, düzgün seçim etməsi və gələcəkdə düşünülməmiş hərəkət etməməsi üçün müvafiq tədbirlərdən istifadə edir.

Bu yanaşma Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamından da irəli gəlir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu 15 yaşınadək şəxslərin əmək fəaliyyətinə cəlb olunmasının qadağan edilməsi ilə bağlı sorğuda qaldırılan məsələyə münasibətdə göstərilənləri nəzərə alaraq aşağıdakı nəticələrə gəlir:

– Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir;

– məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin edilməsi məsələsini həll edərkən, ilk növbədə, onların Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir.

**2.** Məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin edilməsi məsələsini həll edərkən, ilk növbədə, onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:** **Fərhad ABDULLAYEV**